بسم الله الرحمن الرحيم

"Ey inanıb güvənənlər! Özünüzün, valideynlərinizin
və ya qohumlarınızın əleyhinə olsa belə, Allah üçün
haqqa şahidlik edərək həmişə ədaləti təsis etməyə çalışın!"

*"Nisa" surəsi, 4/135.*

**Elşad MİRİ**

# İSLAMDA YOXDUR

İslamda sehr, cadu varmı?
İslamda ölüyə Quran oxumaq varmı?
İslamda müvəqqəti evlilik, siğə varmı?
İslamda imtiyazlı qrup, seyyidlik varmı?
İslamda peyğəmbərlərin günahsızlığı varmı?
İslamda azyaşlıların ailə həyatı qurması varmı?
İslamda cənnətdə kişilərə veriləcək hurilər varmı?

Redaktor: Zülfiyyə Əmrahlı
İxtisas redaktoru: Şəlalə Arifqızı
Bədii və texniki tərtibat: Yəhya Miri
Korrektorlar: Muhəmməd Şükürlü
Əfsanə Namazova

**Elşad MİRİ**

**İslamda Yoxdur...**

**www.din.az www.fetva.az**

Texnologiyanın inkişaf etdiyi dövrümüzdə insanlar tarixin heç bir dövründə rastlaşmadıqları informasiya bolluğu və bataqlığı ilə qarşılaşırlar. Bilgi qarışıqlığında qərq olmamaq və bu burulğandan qurtulmaq üçün yollar və cavablar axtarırlar. Dinlə əlaqəli mövzularda narahat edən suallara cavab tapa bilməmələri müsəlmanların dinlərindən şübhələnmələrinə gətirib çıxarır. Müsəlman ölkəsində anadan olmaqla müsəlman olunduğunu güman edənlər tərəddüdə qapılır, yenə tədqiq etmədən və mahiyyətlərini bilmədən özlərini ateizm, aqnostisizm, deizm kimi cərəyanların ağuşunda tapırlar. Əlinizdə tutduğunuz "İslamda yoxdur" adlı kitabın ərsəyə gəlməsində məqsəd şübhə kimi ortaya atılan bəzi məsələlərə aydınlıq gətirməkdir. Yaranan qarışıqlığın aradan qalxmasına çalışmaqdır. "İslamda yoxdur"un bu cildində bəhs olunan yeddi şübhəli mövzunun İslamda olmadığı göstərilir...

© Elşad MİRİ, 2018

# İÇİNDƏKİLƏR

**ÖN SÖZ** ........................................................................11
........................................................................13

**BİRİNCİ HİSSƏ**

**İSLAMDA ÖLÜYƏ QURAN OXUMAQ YOXDUR!** ................15
Peyğəmbər ölülərinə Quran oxuyubmu? ...........................17
Dirilər ölülərlə eyni deyildir ..........................................18
Quranın savabı ölüyə çatırmı? ........................................20
Sağlar ölülər üçün nələr edə bilər?..................................21

**İKİNCİ HİSSƏ**

**İSLAMDA PEYĞƏMBƏRLƏRİN GÜNAHSIZLIĞI YOXDUR** ........................................27
Tanrılaşdırılan peyğəmbər..............................................27
Alçaldılan Peyğəmbər anlayışı........................................30
Sadist peyğəmbər? ........................................................30
Anasına kobud davranan İsa?..........................................31
Bütlərə sitayiş edən peyğəmbər?.....................................32
Qızları ilə yatan Peyğəmbər? .........................................32
Arvadını Firona verən peyğəmbər?.................................33
Allahı danlayan peyğəmbər? ..........................................34
Büt düzəldib bütə ibadət etdirən peyğəmbər?...................34
Quranın bizə tanıtdığı peyğəmbərlər...............................35
Peyğəmbərlərin səhvləri ................................................36
Adəm peyğəmbərin səhvi...............................................38
Nuh peyğəmbərin səhvi .................................................38

Musa peyğəmbərin səhvi ........................................................40
Süleyman peyğəmbərin səhvi..................................................41
Yunus peyğəmbərin səhvi .......................................................41
Sonuncu Peyğəmbərin yanlışı ..................................................42
Peyğəmbərin danışığının vəhy olması…..................................46
Peyğəmbərin namazı qaçırması................................................47

## ÜÇÜNCÜ HİSSƏ

**İSLAMDA AZYAŞLILARIN AİLƏ HƏYATI QURMASI YOXDUR** .......................................55
İslamda ailə həyatı ..................................................................56
İslam hüququnda azyaşlıların ərə verilməsi .............................56
"Hələ heyz görməmiş qızlar" kimlərdir?.................................57
"Ərsiz qadınlar" dedikdə nəzərdə tutulan qız uşaqlarıdır? ...............................................58
Yetkinlik yaşı nə vaxtdır? .......................................................59
Uşaq yaşdakılar mehrlərini necə istifadə edə bilərlər? .......................................................59
Malla nikah arasında oxşarlıq qurula bilərmi? .........................60
Həddi-büluğla yetkinliyin fərqi...............................................61
"Dəlil" gətirilən hədislər.........................................................63
Aişə Peyğəmbərlə neçə yaşında ailə həyatı qurub? .................................................................63
Peyğəmbərin ilk evliliyi..........................................................64
Aişənin anadan olduğu il ........................................................66
Aişə Peyğəmbərə ərə getməmişdən əvvəl nişanlı olub.............................................................67
Bacısı Aişədən 10 yaş böyük olub...........................................68
Allah Rəsulu qızı Fatiməni neçə yaşında ərə verib?.............................................................68
Müsəlman olanların siyahısında…...........................................70
İqlim amili bəhanədir...............................................................70
Aişə Peyğəmbərlə 9 il birlikdə yaşayıb ...................................71
Müharibədə iştirak etməyən oğlanlar... ....................................72

Nəvəsi yaşda uşaqla
evlənməsinə etiraz etməyənlər ........................................ 72
Azyaşlıların daşıya bilməyəcəyi yüklər........................................ 73
Ailə həyatı qurmağın məqsədi nədir?........................................ 73
Təhsil haqqı əlindən alınan uşaqlar........................................ 74

## DÖRDÜNCÜ HİSSƏ

**İSLAMDA SEYYİDLİK YOXDUR!** ........................................ 79
"Seyyid" sözünün mənası ........................................ 79
Muhəmməd peyğəmbərin seyyidliyi ........................................ 79
Seyyid olan səhabələr ........................................ 80
Cənnətdəki seyyidlər ........................................ 80
Peyğəmbərin nəvələri seyyiddirmi? ........................................ 81
Quranda seyyidlik........................................ 82
Peyğəmbərlərin ailələri
başqalarından üstündürmü?........................................ 83
İbrahim peyğəmbərin nəsli........................................ 84
İbrahim peyğəmbərin atası........................................ 84
Adəm peyğəmbərin cinayətkar oğlu........................................ 84
Nuh peyğəmbərin oğlu........................................ 85
Lut peyğəmbərin xanımı ........................................ 85
Zəkəriyyə peyğəmbərin qohumları........................................ 86
Yusuf peyğəmbərin qardaşları........................................ 86
Muhəmməd peyğəmbərin yaxınları ........................................ 86
Seyyidlərə nəzir vermək olarmı?........................................ 88
Ağır seyyidlər, yoxsa? ........................................ 89
Seyyidlərin şəcərəsi ........................................ 89
Soy qızdan, yoxsa oğlandan davam edir?........................................ 90
Bəs eyni vəziyyət
Muhəmməd peyğəmbər üçün necədir? ........................................ 91
Azərbaycanda işlədilən "mir" sözünün mənası ........................................ 92
Hakimiyyətlərin seyyidlərə münasibəti........................................ 93
Nəticə olaraq ........................................ 94

## BEŞİNCİ HİSSƏ

**TƏSƏVVÜR ETDİYİMİZ HURİLƏR İSLAMDA YOXDUR** ............ 97

“Huri” sözünün mənası ............ 97
Avropa dillərində “huri” sözü ............ 98
Müxtəlif dinlərdə huri ............ 98
İslama istinad edilən huri təsəvvürü ............ 99
“Huri”lərlə əlaqələndirilən ayələr ............ 100
Muhəmməd peyğəmbərin cənnətdəki xanımları? ............ 102
Əslində İslamda “huri” kimlərdir? ............ 102
İsa peyğəmbərin “huriləri” ............ 103
Yenidən yaradılan “qadınlar”? ............ 104
Din hər iki cinsə gəlib, sadəcə kişilərə deyil... ............ 107
Cənnətdəki hurilər kimlərdir? ............ 108
Cənnətdə evlilik varmı? ............ 109
Cənnətdə hazırlanan mükafat ............ 111
Cənnət yalnız kişilər üçün deyil! ............ 112
Qadınlara veriləcək “ğılman” kimdir? ............ 113
Vildan kimdir? ............ 114
Nəticə... ............ 115

## ALTINCI HİSSƏ

**İSLAMDA SEHR YOXDUR** ............ 119

“Sehr” sözünün mənası ............ 120
Sehr nədir? ............ 120
Din sehrdirmi? ............ 123
Dinlə sehrin fərqləri ............ 125
Müxtəlif dinlərdə sehr ............ 125
Qədim Misirdə ............ 126
Qədim İranda ............ 126
Qədim Çində ............ 127
Qədim Yaponiyada ............ 127
Qədim Hindistanda ............ 127

Qədim Yunanıstanda ........ 127
Qədim Romada ........ 128
Müxtəlif türk qövmlərində ........ 128
Yəhudilikdə ........ 128
Xristianlıqda ........ 130
Sehrlə əlaqəli ayələr ........ 131
Peyğəmbərlərin sehrbazlıqda ittiham edilməsi ........ 132
Musa peyğəmbərin sehrbazlarla mübarizəsi ........ 134
Peyğəmbərlər niyə möcüzə göstərirlər? ........ 138
Vaxtın və məkanın təyin edilməsi ........ 138
Musa peyğəmbərin qorxması ........ 139
Sehrbazların inanması ........ 140
Sehr öyrədən mələklər: Harut və Marut? ........ 141
Ayənin nazil olma səbəbi ........ 142
Süleyman peyğəmbər kimdir?
Kral, yoxsa peyğəmbər? ........ 143
Ayədəki şeytanlar kimlərdir? ........ 144
Harut və Marut kimdir? ........ 144
İki mələk, yoxsa iki məlik? ........ 149
Ayənin düzgün tərcüməsi ........ 153
"Fələq" surəsində düyünlərə
üfürən qadınlar, yoxsa? ........ 155
Muhəmməd peyğəmbərə sehr edilibmi? ........ 157
Cadugərlərin cəzalandırılması ........ 164
Sehrin, cadunun elmi izahı varmı? ........ 166
Nəticə olaraq... ........ 168

## YEDDİNCİ HİSSƏ

**İSLAMDA SİĞƏ YOXDUR!** ........ 173
"Siğə" sözünün mənası ........ 173
Siğə nədir? ........ 174
İslamdan əvvəl ərəblərdə nikah ........ 174
Siğənin halal olduğunu iddia edənlər ........ 176
Muhəmməd peyğəmbərin siğəsi olubmu? ........ 179

Siğə qadağan edilibmi? ..... 182
Siğəni kim qadağan edib? ..... 183
Peyğəmbərin haram qoymaq səlahiyyəti olubmu? ..... 188
“Nisa” surəsinin 24-cü ayəsinin tərcüməsi ..... 189
Siğənin şərtləri və müddəti ..... 196
Siğənin evlilikdən fərqi ..... 197
Siğə rəvayətlərindəki ziddiyyətlər ..... 200
Evliliklə əlaqəli ayələr ..... 201
Nəticə ..... 206

**İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT** ..... 209

# ÖN SÖZ

Allahın insanlara ilk əmri “Oxu!” ilə başlayır. Uca Allah ***“Yaradan Rəbbinin adı ilə oxu!”*** **(“Ələq” surəsi, 96/1)**, - deyə əmr edir. Yaradanın adı ilə nəyi, həm də necə oxuyacağıq? Yaradanın göndərdiyi kitabımı? Onun bizə rəhbər olaraq göndərdiyi Quranımı? Hamımız bilirik ki, Quran ilk əmrlə bütünlüklə gəlməyib, gəlməyə başlayıb. Elə isə nəyi oxumalıyıq? Cavab çox sadədir. Allahın digər kitabı olan kainat kitabını.

Bir şeyi oxumaq onu araşdırmaqdır. Araşdırıb həyata keçirməkdir. Həyata keçirib müvəffəq olmaqdır. Bəs bu gün müsəlmanlar başqalarından nə ilə fərqlənirlər? Kəmiyyətləri ilə önə keçirlər, yoxsa keyfiyyətləri ilə? Cavab birinci olduğu üçün təəssüfvericidir. Hazırda Allahın kainat kitabını həyat kitabıyla sintez halına gətirə bilməyən müsəlmanların nailiyyətlərindən danışa bilmirik. Bu gün əfsuslar olsun ki, oxumağı və yazmağı bacaranların azlığı müsəlmanların payına düşür. Allahın ilk əmrini yerinə yetirməyən müsəlmanlar Allahın həm kainat kitabından, həm də həyat kitabı olan Qurandan xəbərsiz olaraq yaşamağa davam edirlər.

Bunun nəticəsi olaraq, müəyyən mövzularda verilə bilməyən cavablar müsəlmanların müsəlmançılıqlarından şübhələnmələrinə gətirib çıxarır. Çünki dinini araşdıraraq qəbul etmədən, sadəcə, müsəlman ölkəsində anadan olduqları üçün özlərini müsəlman hesab edirlər. Tərəddüdə qapılan bu tip

müsəlmanlar yenə tədqiq etmədən və mahiyyətlərini bilmədən özlərini ateizm, aqnostisizm, deizm kimi cərəyanların nümayəndəsi saymağa başlayırlar.

Əlinizdə tutduğunuz "İslamda yoxdur" adlı kitabın ərsəyə gəlməsində məqsəd şübhə kimi ortaya atılan bəzi məsələlərə aydınlıq gətirməkdir. Yaranan qarışıqlığın aradan qalxmasına çalışmaqdır. Digər mövzulara da burada qeyd olunan prizmadan yanaşmaqdır. "İslamda yoxdur"un bu cildində bəhs olunan yeddi şübhəli mövzunun İslamda olmadığını göstərməkdir.

Bunlardan biri guya İslamda azyaşlıların evləndirilməsinin və ya ərə verilməsinin olduğuna, Muhəmməd peyğəmbərin Aişə ilə 9 yaşında evləndiyi iddiasına verilən cavabdır. Bundan başqa, İslamda cadunun olmadığı; dini don geyindirilən siğənin İslamdakı nikahla ziddiyyət təşkil etməsi; imtiyazlı sinif kimi təqdim olunan seyyidliyin İslamın prinsiplərinə uyğunsuzluğu; səhvsiz insan olmadığına görə peyğəmbərlərin də günahsızlığının yanlışlığı; Quranın ölülər üçün oxunmasının heç bir əhəmiyyət kəsb etməməsi və hurilərin cənnətdə kişilərə veriləcək eyş-işrət oyuncağı olmamasından bəhs olunur.

Məqsədimiz çaşqınlıq yaradan bu kimi mövhumat və xurafat zülmətlərinə aydınlıq gətirməkdir. Bununla Allahın həyatımıza yol göstərmək üçün göndərdiyi kitabını düşünərək oxumağa, anlayaraq həyatımıza tətbiq etməyə həvəsləndirməkdir.

Səhvsiz insan olmadığına görə səhvsiz olmayan insanın yazdığının da səhvsiz olmayacağına inananlardanam. Buna görə də, siz dəyərli insanlardan, bacı və qardaşlarımdan bu sətirləri oxuyarkən səhv olaraq gördüklərini bildirmələrini xahiş edirəm.

**Elşad MİRİ**

# BİRİNCİ HİSSƏ

# İSLAMDA ÖLÜYƏ QURAN OXUMAQ YOXDUR!

Bugünkü müsəlmançılığımız, daha doğrusu Quranla olan münasibətimiz bir neçə formada özünü göstərir. Quranı müqəddəsləşdirib, yəni toxunulmaz olduğuna inanıb ona əl vurmamağa çalışırıq. Bu məqsədlə gözəl parçalara büküb və ya xüsusi bər-bəzəkli qablara qoyub evin əlçatmaz yerində, yaxud da bahalı qabların olduğu servantlarda saxlayırıq. İstifadə etdiyimiz nəqliyyat vasitəsini qəzadan qoruması üçün miniatür şəkildə işlənmiş Quranı maşının salonundan asır, bəy və gəlini xoşbəxt ailə qurmaları üçün toy günü Quranın altından keçirir, onu ofislərdə digər kitabların qarşısına qoyaraq necə "təmiz" insan olduğumuzu nümayiş etdiririk. Dindarlar da həmin kitabı oxumaq üçün xüsusi ritual həyata keçirirmiş kimi dəstəmaz alaraq Quranın sadəcə onların toxuna biləcəkləri bir kitab olduğuna inandırırlar. Odur ki, Quranı oxumadan başqalarına oxutdururuq. Bunu da əsasən iki formada həyata keçiririk. Birincisi, dünyasını dəyişənlərimiz üçün qurduğumuz məclislərdə mollara oxutdurmaqla, ikincisi isə vəfat etmiş yaxınlarımızı yuxuda görərkən din xadimlərinə pul verib Quran oxutdurub, savabını ruhlarına göndərməklə.

Hər ikisində də oxuduruq. Özümüz oxumuruq. Halbuki Uca Allah Quranda həm Peyğəmbərinə: **"Quran oxumaqla əmr olundum" ("Nəml" surəsi, 27/91-92)** deməyini, digər

ayələrdə də biz müsəlmanlara Quran oxumağımızı əmr edir.[1] Həm də ölülərimiz üçün deyil, özümüz üçün. Çünki Quran ölülər üçün deyil, dirilər üçündür. Bunu özümüzdənmi deyirik, xeyr! Bunu bizə xəbər verən də yenə həmin Kitabı göndərən Uca Allahdır. Uca Allah "Yasin" surəsində Quranın **"diri olanları xəbərdar etmək üçün"** göndərildiyini xüsusi olaraq xəbər verir ***("Yasin" surəsi, 36/70).*** Çünki diri bir insanın ölü üçün edə biləcəyi heç bir fayda yoxdur. Edilməli olanlar sağ ikən edilməli idi, öləndən sonra edilənlər sağların özlərini təskin etmək iddiasıdır.

Bir insanın başqasının əvəzinə müsəlman ola bilmədiyi, başqasının yerinə iman gətirməsinin mümkün olmadığı kimi, başqasının əvəzinə ibadət də edə bilməz. Heç kim başqasının əməli və ibadəti ilə cənnətə gedə bilməz. Hər kəs öz əməlləri ilə ya cənnətlə mükafatlandırılacaq, ya da cəhənnəmlə cəzalandırılacaqdır. Uca Allah Quranda belə buyurur: **"Onlar ömürlərini yekunlaşdırmış bir tayfadır. Onların qazandığı onlara, sizin qazandığınız da sizədir. Onların etdikləri sizdən soruşulmayacaqdır"** ***("Bəqərə" surəsi, 2/134, 141).***

Uca Allah Quranın müxtəlif ayələrində bizə bunları bildirir: **"Hər kəs qazandığı şey qarşısında girovdur"** ***("Tur" surəsi, 52/21; "Muddəsir" surəsi, 74/38),*** **"Hər kəs öz xeyrinə olanları da, öz zərərinə olanları da özü qazanır"** ***("Bəqərə" surəsi, 2/286),*** **"Kim bir zərrə qədər xeyir iş tutubsa, onu da görəcəkdir. Kim zərrə qədər şər iş tutubsa, onu da görəcəkdir"** ***("Zilzal" surəsi, 99/7-8).*** Bundan başqa, Quranda insanın bu dünyada nə qazanıbsa, onun əvəzinin tam olaraq veriləcəyi və heç kimə haqsızlıq edilməyəcəyi[2] kimi məsələlər tez-tez vurğulanır.

Quranın ilk sətirindən sonuncu ayəsinə qədər dəfələrlə oxusanız da yaşayanların - yaxın adamların, qohumların, dostların

---

1 "Muzzəmmil" surəsi, 73/4; "Ənkəbut" 29/45.
2 Bax.: "Bəqərə" surəsi, 2/281; "Ali-İmran" surəsi, 3/25, 161.

ölülər üçün edə biləcəkləri yaxşılıqlardan, ehsanlardan bəhs edildiyinə rast gələ bilməzsiniz. Xüsusilə də ölülər üçün Quran oxumaq, oxutmaq, xətm edib savabını bağışlamaqla bağlı heç bir ayə tapa bilməzsiniz. Sadəcə vəsiyyətləri varsa, onların yerinə yetirilməsi ***("Nisa" surəsi, 4/11)*** və onlar üçün xeyir-dua edərək bağışlanmalarını istəmələri tövsiyə edilib.[3]

## Peyğəmbər ölülərinə Quran oxuyubmu?

Bəs sağlığında qızları, oğlanları, həyat yoldaşları, qohumları, səhabələri vəfat edən bir Peyğəmbər onlar üçün Quran oxuyubmu? Xətm edibmi? Ona gələn vəhyin savabını ölülərinin ruhuna bağışlayıbmı?

Bu mövzu ilə əlaqəli olaraq Peyğəmbərin həyatına müraciət etdikdə fərqli bir icraatı görə bilmərik. Bununla əlaqəli olaraq Muhəmməd peyğəmbərin *"Cənazə namazında, dəfnində iştirak edilsin, borclu olaraq həyatdan köçübsə, varisləri tərəfindən borcu qaytarılsın, xeyirli dualar edilsin, Allahdan onu bağışlaması istənilsin"* kimi tövsiyələrə rast gəlirik. Bu tövsiyələr də Rəsulullahın Allahın Kitabından öyrəndikləri olduğunu ayələrə baxdıqda görə bilirik.

Bundan başqa, Allahın Elçisi ölənin övladlarının yerinə yetirə biləcəyi yaxşılıq olaraq da atalarının dostlarına baş çəkilməsini məsləhət görüb.[4]

Burada maraqlı bir məqamı da qeyd edək ki, Peyğəmbərin tez-tez Baqi qəbirstanlığına gedib, oradakıları ziyarət edib ölülərə dua etməsiylə bağlı müxtəlif rəvayətlər var.[5] Ancaq Quran oxuduğu və ya səhabələrinə ölülər üçün Quran oxumalarını və savabını bağışlamaları ilə bağlı tövsiyə etdiyinə dair "səhih" (doğru) heç bir hədis mövcud deyil.

---

3 "İbrahim" surəsi, 14/41; "Həşr" surəsi, 59/10.
4 Əbu Davud, "Sunən", III/469-561; İbn Macə, "Sunən", I/461-524; Nəvəvi, "Riyazus-salihin", II/277-310.
5 Bax.: İbn Macə, "Cənaiz", 1546, 1547.

"Sunən" adlanan hədis külliyyatlarında Allah Rəsulunun ölü üçün "Fatihə" surəsini oxuduğu və səhabələrinə də oxumasını məsləhət gördüyü ilə bağlı rəvayətlər ya "zəif"dir, ya da "məvzu" (yəni "uydurulmuş") hədislərdir. Beyhaqi də bu fikri təsdiq edir.[6]

Səhabələrin özlərinin də Peyğəmbərin vəfatından sonra qəbri üstündə Qurandan bir surə oxuduqlarına, savabını bağışladıqlarına dair heç bir məlumat yoxdur. Səhabələr heç öz doğmalarının qəbri üstündə də Quran oxumayıb və savabını bağışlamayıblar. Çünki onlar da bilirdilər ki, Quran ölülər üçün yox, dirilər üçün göndərilib. Quranın xitab etdiyi insanlar isə eşidən, görən və dərk edən insanlardır. Quran ölülərə səslənmir. Çünki buna nə zaman, nə də məkan imkan verir. Ölülərə eşitdirmək imkan xaricində olduğu kimi, buna əmək sərf etmək də əbəsdir.

Uca Allah Quranda belə buyurur: **"Doğrudan da sən haqqa çağırışı ölülərə eşitdirə bilmədiyin kimi üz döndərib getməkdə olan karlara da eşitdirə bilməzsən"** ***("Nəml" surəsi, 27/80; "Rum" surəsi, 30/51),*** **"Sən qəbirdəkilərə eşitdirə bilməzsən"** ***("Fatır" surəsi, 35/22).***

Peyğəmbərə "Quranı ölülərə eşitdirməlisən" deyə vəzifə verilmədiyi kimi ölülər də təbii ki, Peyğəmbəri eşidə bilməzdilər. Çünki onlar həmin qabiliyyətlərindən məhrum ediliblər. Allahın Elçisi də gələn hansısa ayənin ölülər üçün olduğunu deməyib. Allah da Elçisinə buyurub ki, **"Sən qəbirdəkilərə eşitdirə bilməzsən. Sən ancaq bir öyüd-nəsihətçisən"** ***("Fatır" surəsi, 35/19-23).*** Quranın heç bir ayəsində də "Ey ölülər" deyə bir müraciət forması yoxdur.

## Dirilər ölülərlə eyni deyildir

Dünyasını dəyişənlər daha nə yaxşılıq, nə də pislik edə bilərlər. Onlardan heç nə gözlənilmədiyi kimi vəsiyyətləri-

6 İbn Macə, "Cənaiz", 1595, 96, I, 480.

nin yerinə yetirilməsi və xeyir dua etməkdən başqa heç bir yaxşılıq edilə bilməz. Allahın bizi sorğu-sual edəcəyi yeganə kitab olan Quranı oxuyub ***(“Zuxruf” surəsi, 43/44)*** əməl etməyənlər, həyatlarını mənasız və boş keçirib müvəqqəti olaraq verilən ömrü lazımı səviyyədə qiymətləndirə bilməyənlər öldükdən sonra Allahın Quranda bildirdiyi həqiqətlərlə qarşılaşacaqlar. Uca Allah Quranda buyurur: **“Ey iman gətirənlər, qoy mal-dövlətiniz və övladlarınız sizi Allahı zikr etməkdən uzaqlaşdırmasın! Kim bunu edərsə, deməк onlar ziyana düşənlərdir. Sizlərdən birinə ölüm gələn zaman: “Rəbbim, kaş mənə qısa bir müddət möhlət verəydin ki, sədəqə verib əməlisalehlərdən olum!”- deməzdən əvvəl sizə verdiyim ruzilərdən xərcləyin. Allah əcəli çatmış kəsə heç vaxt möhlət verməz. Allah nələr etdiyinizdən xəbərdardır!”** ***(“Munafiqun” surəsi, 63/9-11).***

Quranın bu ayələrindən də aydın olur ki, ölü üçün hər şey bitib. İstəmələrinə baxmayaraq, heç vaxt dünyaya geri göndərilməyəcəklər. Dünyada ikən etdikləri günahları öləndən sonra sildirə və Allahın razı qalacağı xeyir iş də edə bilməyəcəklər. Uca Allah: **“Karlara sənmi eşitdirəcəksən”**, yaxud **“Kor və azmışlara sənmi düz yol göstərəcəksən?”, - buyurub** ***(“Zuxruf” surəsi, 43/40).***

Quranı məqsədinə uyğun və bildirilən tərzdə oxuyub, eşitməyən, dərk etməyən və yaşamayanlar, Onun əmr və qadağaları qarşısında ölüdən fərqli olmadıqlarını bilməlidirlər. Çünki yalnız ölülər və karlar deyiləni eşitməzlər. Buna görə də, nə həqiqi mənada ölənlərə, nə də sağ olduqları halda mənəvi ölü sayılanlara Quranı eşitdirmək və başa salmaq mümkündür. Quranı başa düşməyə imkanları olduğu halda qəsdən anlamadan oxuyanlarla başa düşmək istəməyənlər arasında nəticə etibarilə heç bir fərq yoxdur. Hər ikisi də ölülər cərgəsində qəbul edilir. Allah Quranda belə buyurur: **“Kor və görən eyni deyildir, zülmətlər və işıq da, kölgə və isti də.**

**Dirilər də ölülərlə eyni deyildir. Allah istədiyi kəslərə eşitdirir. Sən isə qəbirdəkilərə eşitdirə bilməzsən. Sən ancaq bir öyüd-nəsihətçisən”** ***(“Fatir” surəsi, 35/19-23).*** Peyğəmbər eşitdirə bilmədiyi halda kimlər ölülərə eşitdirə bilər?

## Quranın savabı ölüyə çatırmı?

Ölülər üçün Quran oxumaq və savabını bağışlamaq adəti səhabənin yaşadığı əsrdən uzaqlaşdıqdan sonra başlanıb və günümüzə qədər gəlib çıxıb.

Oxunan Quranın savabının qəti olaraq ünvanına getməsi mümkün deyil. Çünki heç kim Allahı savab paylayan hesab edə bilməz. *“Ey Allahım, mən Quran oxuyum, buna görə savab qazanım, sonra da həmin savabı filankəslərin ruhuna göndər”* anlayışı Allahın endirdiyi kitaba uyğun bir yanaşma deyil. Unudulmamalıdır ki, insan öldükdən sonra onun imtahan müddəti də başa çatır.

Bəziləri isə Peyğəmbərə istinad edilən bu sözü əsas alırlar: “Adəmoğlu öldüyü zaman onun əməl dəftəri bağlanır, nə savab, nə də günah yazılır. Ancaq ölən üç qrup insanın əməl dəftərləri bağlanmır. Bunlar: **1.**Sədəqeyi-cariyə sahibləri, **2.** Öləndən sonra istifadə edilən elm və əsər qoyan alimlər, **3.** Arxasınca xeyir-dua edən, xeyirli övlad yetişdirən valideynlər”.[7] Bu hədisin doğru olduğu qəbul olunsa, burada yenə heç bir qəribə məsələ yoxdur. Çünki insan bu əməlləri öldükdən sonra deyil, sağ olarkən edib. Uca Allah da insana ancaq etdiyi əməlinin qarşılığı olduğunu buyurur: **“Kim bir zərrə qədər xeyir iş tutubsa, onu da görəcəkdir. Kim zərrə qədər şər iş tutubsa, onu da görəcəkdir”** ***(“Zilzal” surəsi, 99/7-8).***

Uca Allahın Quranda buyurduqlarına baxmayaraq, əfsuslar olsun ki, müsəlmanlar hələ də dünyasını dəyişmiş yaxın-

---

7 Muslim, “Vəsiyyət” 14; bundan başqa bax.: Əbu Davud, “Vasaya” 14; Tirmizi, “Əhkam” 36; Nəsai, “Vasaya” 8.

larına savab üçün adət halını almış üç, yeddi, adna, qırx, əlli iki və il məclisləri verməyi, Ramazan ayında xətm oxutmağı, bayramları "qara bayram" adlandıraraq ölülər üçün Quran oxutmağı dini vacib əməl kimi qəbul edirlər. Quran oxuyan "alimlər"in "nəzir"lə könlünü almaq isə "ən böyük adətdir". Çünki o sənin ölülərinin ruhuna Quranı pulsuz oxuyası deyil ha! Quran oxuduğuna görə onun könlü xoşhal edilməlidir ki, ondan gələn savab ölüyə gedib çıxsın (!).

Bəzi Quran oxuyanlar da oxuduğu Quranın əvəzində aldığı "nəzir"in doğru olduğunu sübut etmək üçün "Dinimizdə hədiyyə almaq da, vermək də halaldır" və ya "Mən pulu oxuduğum Qurana görə yox, itirilən vaxtıma və əziyyətimə görə alıram", - deyərək ölü üçün Quran oxumaqla mənfəət əldə etməkdə özlərinə bəraət qazandırmağa çalışırlar. Doğrudanmı, həqiqət onların dediyi kimidir, yəni mütləq onlara hədiyyə verilməlidir? Yaxud Quran oxuyan və ya xətm edən həmin şəxs onun oxuduğunun əvəzinin verilməyəcəyini bilsə, yenə də həmin adam üçün Quran oxuyarmı? Bu suallara müsbət cavab vermək, "bəli, oxuyardı" demək heç də səmimi cavab olmayacaq. Hətta "Yasin" surəsinin özündə **"Sizdən heç mənfəət gözləməyənlərin ardınca gedin"** ***("Yasin" surəsi, 36/21)*** buyurulduğu halda, bu surəni və ümumiyyətlə Quranı ölülər üçün pul qarşılığında oxuyurlar. Bunu birmənalı şəkildə qəbul etməliyik ki, dünyasını dəyişmiş yaxınlarımız üçün Quran oxumaq və ya oxutmaq, Quranı xətm etmək, üç, yeddi, adna, qırx, əlli iki və il mərasimləri təşkil etmək kimi adətlərin hamısı Allah Rəsulunun dövründə olmayan, lakin sonradan dini ayin kimi ortaya atılmış mövhumatlardır.

## Sağlar ölülər üçün nələr edə bilər?

Yaşayanların ölülər üçün edəcəkləri Quranda açıq-aşkar bildirilib. Məsələn, Uca Allahın "Həşr" surəsindəki bu ayəsini nümunə göstərə bilərik: **"Rəbbimiz, bizi və bizdən əv-**

**vəl iman gətirmiş qardaşlarımızı bağışla! Ürəklərimizdə iman gətirənlərə bir kin-küdurət qoyma! Rəbbimiz, Sən ki şəfqətlisən, rəhmlisən”** ***(“Həşr” surəsi, 59/10).***

Uca Allah Quranda İbrahim peyğəmbərin bu cür dua etdiyini xəbər verir: **“Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!”** ***(“İbrahim” surəsi, 14/41).***

Burada bir sual ortaya çıxır. Övladın valideynləri üçün dua etməsi nə deməkdir? Bunun savab bağışlamaqla əlaqəsi yoxdurmu? Konkret cavab verək ki, xeyr, yoxdur! Çünki burada söhbət övladın duasından gedir, əməlinin savabının göndərilməsindən deyil. Bundan başqa, “İsra” surəsində valideynlərimizə bu cür dua etməyimiz tələb olunur: **“Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!”** ***(“İsra” surəsin, 17/24).*** Buradan da aydın olur ki, övlad valideyninə etdiyi əməlin savabını göndərmək üçün deyil, valideynlərinin bağışlanması üçün dua edər. Keçid balı 200 olan adi universitetlərə qəbul imtahanında 700 bal toplayan bir gənc 100 bal toplayan qohumuna bir balını belə verə bilmədiyi kimi, heç kim də başqasının yerinə ibadət edə və savab bölüşdürə bilməz. Bu mövzuya aydınlıq gətirməsi üçün bir ayəni də qeyd edək. Uca Allah belə buyurur: **“Sizlərdən birinə ölüm gəlib: “Ey Rəbbim! Mənə bir az möhlət ver ki, sədəqə verib əməlisalehlərdən olum!”– deməmişdən əvvəl sizə verdiyim ruzidən xərcləyin”** ***(“Munafiqun” surəsi, 63/10).*** Buradan da aydın olduğu kimi, Uca Allah *“ölməmişdən əvvəl”* Onun yolunda xərcləməyimizi istəyir. Öləndən sonra bunun faydası olmayacaq.

Peyğəmbərin ölülər üçün məzarlıqda və ya başqa bir yerdə Quran oxuduğuna dair heç bir sözü mövcud deyil. Çoxlarına məlum olduğu kimi, Allah Rəsulunun sağlığında qızları, oğlanları, xanımları və yaxın qohumları vəfat edib. Peyğəmbər onlar üçün Quran oxuyubmu? Kim bununla bağlı bircə

dənə hədis gətirə bilər, buyursun. Allah Rəsulunun anasının qəbrini ziyarəti əsnasında da belə hadisə baş verməyib. Səhabələrdən heç biri nə Peyğəmbərin vəfatı əsnasında, nə də onun qəbri üstündə Quran oxuyub. Ölülər üçün Quran oxumaq olsaydı və bunun da savabının ölüyə getməsi bildirilsəydi, səhabələr canlarından daha çox sevdikləri Peyğəmbərin vəfatından sonra onun üçün bol-bol Quran oxuyub, xətmlər etməzdilərmi?

Uca Allah Quranda səmimi olaraq yerinə yetirilən heç bir ibadətin əvəzsiz qalmayacağını,[8] hər kəsin qazandığının tam olaraq qarşılığının veriləcəyini, heç kimin heç vaxt haqsızlığa düçar edilməyəcəyini vəd edib.[9] Bunun üçün bəndənin ibadəti səmimi-qəlbdən və anlayaraq etməsi əsasdır. Məqsədli ibadətlər Allah üçün edilən ibadətlərlə eyni ola bilməz. Mənfəətlə yerinə yetirilən ibadətlər ibadət deyil, riyakarlıqdır. Riya isə İslamda haramdır.

Allahın razılığını qazanmaq üçün olan ibadətə nə olursa olsun, ikinci məqsəd əlavə etmək ibadətdə Allaha şərik qoşmaq mənasına gəlir ki, bu da “şirk”dir *(“şirk” Allaha şərik qoşmaq deməkdir və İslamda ən böyük günah sayılır)*. İbadət məfhumunun məqsədinə və daha doğrusu, ruhuna zidd olduğu üçün bunun savab sayılması mümkün deyil, heç sayıla da bilməz. Çünki, Allah tanrıçılıq məsələsində olduğu kimi, ibadətdə də Özünə şərik qəbul edilməsini qəti olaraq qadağan edib: **“De: “...Kim öz Rəbbi ilə görüşmək arzusundadırsa, qoy o, düzgün işlər görsün və öz Rəbbinə ibadətdə heç kimi Ona şərik qoşmasın”** ***(“Kəhf” surəsi, 18/110).***

Quran oxumaq Allahla bərabər olmaq, Onun Kəlamıyla danışmaq, düşünmək və ayələrini dərk etməkdir. Allah üçün edilən heç bir əməl əvəzsiz qala bilməz. Quran yuxa-

---

8 “Bəqərə” surəsi, 2/112; “Ali-İmran” surəsi, 3/57; “Nisa” surəsi, 4/114, 146.
9 “Ali-İmran” surəsi, 3/25, 161.

rıda saydığımız ülvi məqsədlər olmadan oxumaq xatirinə tez-tez, necə gəldi zümzümə etmək, xətm etmək və savabını pullu-pulsuz başqalarına göndərmək məqsədilə oxunarsa, ibadətdə səmimiyyəti yox edəcəyi və riya mənasına gələcəyi üçün ondan savab gözləmək əbəsdir. Quranın pulla və ya pulsuz ölülər üçün oxunması da, oxudulması da doğru deyil. Pulla oxunan Quran oxuyana bir savab gətirmirsə, oxudana və ya ölənə necə gətirə bilər? Pulla (din xadimlərinin ifadəsiylə "nəzir"lə) Quran oxutduran bu həqiqətləri bilsə, "nəzirin azı-çoxu olmaz" deyib, əlində tutduğuna çəp-çəp baxana "nəzir" verərmi? Buna görə də papağımızı qarşımıza qoyub fikirləşməliyik. Həqiqətənmi, verdiyimiz "nəzir"lərin əvəzində oxutdurduğumuz Quran ölülərimizə gedib çatır? Bu cür anlayış insanların Qurandan uzaq qalmalarına, xüsusi din xadimi peşəsinin formalaşmasına gətirib çıxarır, Quranı isə biznes kitabı halına salır. Bilməliyik ki, oxutduğumuz Quranı və ya əldə olunduğu iddia olunan savabı ölülərə çatdıracaq nə bir mexanizm var, nə də onların ruhunun şad olduğuna dair Quranda Allahın vəd etdiyi bir söz...

Elə isə haqq-hesaba çəkiləcəyimiz yeganə Kitab olan Quranı düzgün oxumalı, Allahın göndərdiyi bu mesajları düzgün anlamalı və həyatımıza doğru tətbiq etməliyik. Unutmamalıyıq ki, Allah bizim səs titrəyişlərindən ibarət olan oxumağımızı deyil, dirilər üçün həyat təlimatı olaraq göndərdiyi Kitabda yazılanlara əməl etməyimizi istəyir. Bilməliyik ki, ölülərə Quran oxumaq və oxutmaq Quranı oxumamaqdan qaynaqlanan bir xurafatdır.

***Enməmişdir hələ Quran, bunu haqqıyla bilin -***
***Nə məzarlıqda oxunmaq, nə də fal baxmaq üçün.***

**Məhmət Akif ƏRSOY**

# İKİNCİ HİSSƏ

# İSLAMDA PEYĞƏMBƏRLƏRİN GÜNAHSIZLIĞI YOXDUR

Allah insanı **iradəli yaradıb. Düzü-səhvi seçmək hüququ verib. İnsan da bu hüququndan hərtərəfli istifadə edir. Ona görə deyə bilərik ki, səhvsiz insan yoxdur. Uca Allah insanlara öz aralarından elçilər göndərib. Bu elçilər də insanlardır. İnsan olduqlarına görə peyğəmbərlərin də səhv edə bilmək imkanları olub. Bəs peyğəmbərlərin səhvlərini gündəmə gətirməkdə məqsədimiz nədir**? **Məqsədimiz peyğəmbərləri insan olaraq qəbul edərək özümüzdən uzaqlaşdırmaq deyil, əksinə yaxınlaşdırmaqdır.** Biz peyğəmbərləri fövqəlbəşər insan kimi təqdim etməklə həyatımızdan çıxarırıq. Peyğəmbərlərin nümunə üçün göndərildiyi gerçəyini nümunə ola bilməyəcək bir səviyyəyə çatdıraraq onları özümüzdən kənarlaşdırırıq. Hətta bəziləri peyğəmbərləri özlərindən uzaqlaşdırmaqla kifayətlənməyərək, onları fövqəlbəşər elan edərək tanrılaşdırırlar.

## Tanrılaşdırılan peyğəmbər

Bu tanrılaşdırılan peyğəmbərlərdən bizə məlum olanı və Quranda bəhs ediləni Məryəm oğlu İsadır. İsa peyğəmbəri sağlığında qəbul edənlərin sayı onlarla idi. Dünyada ikən çox az sayda insan onun gətirdiklərinə iman gətirmişdi, inanmışdı. İman gətirənlər Məryəmin oğlu İsanı peyğəmbər, Allahın Elçisi kimi qəbul edirdilər. Onun dünyadan köçməsindən az bir müddət sonra ona inananların sayı yüz minlərə, günümüz-

də isə milyonlara çatdı, milyardı ötdü. İsa peyğəmbərin dünyasını dəyişməsindən sonra onu Allahın Elçisi kimi deyil, Allahın oğlu kimi, təslis inancının ünsürü olaraq qəbul edərək tanrılaşdırdılar. Hətta bu tanrılaşdırılma elə bir həddə çatdı ki, hər şeyin həm onun vasitəsilə, həm də ona görə yaradıldığı iddia edildi və əqidə olaraq qəbul edildi. Sizə bu haqda konkret bir misal verək.

Keçmiş Roma Papası XVI Benediktin (Joseph Ratzinger) rəhbərliyində qurulan bir heyət tərəfindən hazırlanan və Papa II İohann Pavelin razılığı ilə çap olunan "Katolik Kilsəsi Din və əxlaq prinsipləri" adlı kitaba görə: "İsa olmasaydı, kainat yaradılmazdı. Göylərdə və yerdə görünən və görünməyən şeylər, taxtlar, hakimiyyətlər, rəhbərliklər və hökmdarlıqlar... Hər şey onun vasitəsilə və onun üçün yaradılmışdır".[10]

Bu fikirlər heç də həmin kitabın yazarlarının özlərindən uydurduqları cümlələr deyil. Hazırda əllərində mövcud olan İncildən sitatlar gətirərək bu fikri sadəcə təkrar ediblər. Çünki İncil hər şeyin İsa üçün yaradıldığını bildirir. Pavelin Koloslulara Məktubunda bu nüans belə qeyd edilir: "Görünməyən Allahın surəti və bütün xilqətin fövqündə duran, ilk doğulan Oğul Odur. Çünki göylərdə və yerdə olan, görünən və görünməyən hər şey Onun vasitəsilə yarandı: istər taxtlar, istər hökmdarlıqlar, istər rəyasətlər, istərsə də hakimiyyətlər, **hər şey Onun vasitəsilə və Onun üçün yaradılmışdır.** O Özü hər şeydən əzəlidir və hər şey Onda qaimdir" ***(İncil, "Pavelin Koloslulara Məktubu", I/15-17).***

"Ona görə ki, yerdə və göydə, hər nə qədər "tanrı" deyilənlər varsa da (həqiqətən də bir çox "tanrılar" və "rəbblər" vardır), bizim tək bir Ata Allahımız vardır. Hər şey Ondandır və biz Onun üçün mövcuduq. Və bir Rəbbimiz İsa Məsih vardır ki, **hər şey Onun vasitəsi ilədir və biz Onun vasitəsilə**

10 Katolik Kilisesi Din Ve Ahlak İlkeleri,Tərc., Dominik Pamir, İstanbul, 2000, s: 95, par. 331.

**mövcuduq**" ***("Pavelin Korinflilərə məktubu", VIII/5-6).***

Bu cümlələrdən də aydın olur ki, İncil yaradılan hər şeyin İsanın vasitəsilə və Onun üçün, Onun üzü suyu hörmətinə yaradıldığını ifadə edir. Bu gün belə bir anlayışa sahib olan xristianlar özlərini haqlı hesab edirlər. Çünki belə bir iddia, cümlə onların Tanrının Kitabı olaraq qəbul etdikləri İncildə mövcuddur. Bəs biz müsəlmanlar?

Biz də Muhəmməd peyğəmbərə eyni şeyi şamil etmirikmi? Allahın sonuncu elçisi olan Muhəmməd peyğəmbərə belə bir söz istinad edilir: *"Ləuləkə ləulək, ləmə xalaqtul əflək",* yəni "Sən olmasaydın, fələkləri, yəni kainatı yaratmazdım".[11] Kainatın, yaradılan hər şeyin sonuncu Peyğəmbərimizin üzü suyu hörmətinə yaradıldığını iddia etməklə, bu cür uydurma sözlərlə, hədislərlə insanları aldatmağın mənası nədir? Xristianların İsa peyğəmbəri tanrılaşdırdıqları kimi biz də eyni səhvi təkrarlamırıqmı? Halbuki Muhəmməd peyğəmbər bununla bağlı müsəlmanlara xəbərdarlıq edib: "Xristianların Məryəmin oğlu İsanı ucaltdıqları kimi siz də ***məni ucaltmayın. Mən ancaq və ancaq bir qulam. Elə isə "Siz mənə Allahın qulu və elçisi" deyin".***[12]

Hətta Rəsulullah ona *"Ey ən xeyirlimiz, ey ən xeyirlimizin oğlu"* deyə çağıran bir adamın bu sözündən sonra belə deyib: ***"Ey insanlar, sözlərinizə fikir verin ki, şeytan sizi təsir dairəsinə salmasın. Mən Abdullahın oğlu Muhəmmədəm. Allahın qulu və elçisiyəm. Allaha and olsun ki, məni ucaltmağınız xoşuma gəlmir".***[13]

Rəsulullah peyğəmbərlərin "yarışdırılmasına" da etiraz edib. Hətta Mədinədə olarkən bir müsəlmanla yəhudinin ən üstün insanın Musa, yoxsa Muhəmməd olması ilə bağlı mü-

---

11 Acluni, Əbul Fida İsmail b. Muhəmməd b. Abdilhadi əl-Cərrahi əl-Acluni (v. 1749), Kəşful Xafa, Qahirə, 1964, II, 164; Hakim en-Nisaburi, əl-Mustədrək aləs Səhiheyn, Dar Kutubul Alemiyye, Beyrut trs., II, 615.
12 Buxari, "Peyğəmbərlər", 3484.
13 Əhməd b. Hənbəl, Musnəd, III, 153 İstanbul: Çağrı Yayınları, 1992.

bahisə etdikləri barədə ona edilən şikayətə Peyğəmbərimizin bu cür etiraz etdiyi bildirilir: “Məni Musadan üstün tutmayın. İnsanlar qiyamət günü huşlarını itirəcəklər. Mən də onlarla birlikdə huşumu itirəcəm. Ayılanda Musanın Ərşdən möhkəm tutduğunun şahidi olacam. Bilmirəm, o da huşunu itirib hamıdan əvvəl ayılıb, yoxsa Allah onu bununla üstün edib?”.[14] Muhəmməd peyğəmbər eyni təvazökarlığı İbrahim peyğəmbərə qarşı da edib. Peyğəmbərimiz Quranın “Bəqərə” surəsi, 2/260-cı ayəsində bəhs olunan yaradılış məsələsindəki tərəddüdlə bağlı insanlarda yanlış təəssürat yaranmaması üçün belə buyurub: “Mən tərəddüd etməyə İbrahimdən daha çox haqq sahibiyəm”.[15] Elçilik vəzifəsi ilə məşğul olduğu yeri tərk edən Yunus peyğəmbərlə bağlı da səhv fikrin formalaşmaması və ya özü ilə müqayisə edilməməsi üçün: “***Heç kimə “Mən Yunus bin Mettadan daha xeyirliyəm” demək yaraşmaz”*** xəbərədarlığını edib.[16]

Bu məsələyə “Peyğəmbərlərin səhvi” bölümündə “Muhəmməd peyğəmbərin yanlışları” sərlövhəsi altında bir daha toxunacağımız üçün sözü burada yekunlaşdırıb peyğəmbərlərin alçaldılması haqqında qısa məlumatı diqqətinizə çatdırırıq.

## Alçaldılan Peyğəmbər anlayışı

Hər nə qədər xristianlıqda İsa peyğəmbərin tanrı səviyyəsinə yüksəldilməsinə baxmayaraq, bugünkü İncillərdə İsanı aşağılayan məqamlar da mövcuddur.

## Sadist peyğəmbər?

Əlimizdə mövcud olan Mattanın və Lukanın İncillərində İsa peyğəmbər sadist kimi tanıdılır. İsaya istinad edilən

14 Buxari və Muslim. Abdulbaqi, Muhəmməd Fuad, “əl-Lulu vəl Mərcan”, Livan, Beyrut 1986.
15 Buxari, Ənbiya (Peyğəmbərlər), 46.
16 Buxari, Ənbiya (Peyğəmbərlər), 38.

sözlərdə görün nələr deyilir: **"Sanmayın ki, yer üzünə sülh gətirməyə gəlmişəm; Mən sülh deyil, qılınc gətirməyə gəldim..."** ***(İncil, "Mattanın İncili", 10/34).***

**"Mən dünyaya atəş yağdırmağa gəldim və necə istərdim ki, o, artıq alışıb yanaydı! Elə düşünürsünüz ki, Mən dünyaya sülh gətirməyə gəlmişəm? Yox, deyirəm sizə, əksinə, ayrılıq gətirməyə gəlmişəm!"** ***(İncil, "Lukanın İncili", 12/49-53).***

**"Üzərlərində mənim şahlıq etməyimi istəməyən düşmənlərimi isə buraya gətirin və mənim gözümün qabağında öldürün!" (İncil,** ***"Lukanın İncili", 19/27).***

İncillərdəki bu sitatlardan İsanın əlində qılınc və atəş, Yer kürəsindəki əmin-amanlığın və sülhün yox olması üçün çalışan biri olduğu anlaşılmırmı? Daha sonra İsaya gözlərinin qarşısında onun krallığını qəbul etməyən düşmənlərinin öldürülməsindən ləzzət alan cani bir sadist görüntüsü verilmirmi?

## Anasına kobud davranan İsa?

Bundan başqa, "Yəhyanın İncili"ndə İsanın anasına qarşı kobud davranması da qeyd edilir: **"Üçüncü gün Qalileyanın Kana kəndində toy var idi; İsanın anası da orada idi. İsa ilə şagirdləri də toya çağırılmışdılar. Şərab əksiləndə İsanın anası Ona dedi: "Şərabları yoxdur". İsa ona dedi: "Qadın, məndən sənə nə? Saatım hələ gəlməyib". Anası nökərlərə dedi: "Sizə nə desə onu edin""** ***(İncil, "Yəhyanın İncili", 2/1-5).*** İsanın bir toy mərasimində sərxoşlar aləmində anasına bu şəkildə hirslənməsi hörmətsizlik deyilmi? Anasına elə hirslənir ki, anası qorxusundan xidmətçilərə: "Nə desə onu edin. Bir dediyini iki etməyin...",- deyir.

Peyğəmbərlərin alçaldılması ilə bağlı məqamlara Tövratda da rast gəlirik. Hətta adıçəkilən kitabda peyğəmbərlərin qızları ilə yatmasından belə bəhs edilir.

## Bütlərə sitayiş edən peyğəmbər?

Tövratda Süleyman peyğəmbərin bütlərə sitayiş etməkdən çəkinməyən bir adam olduğu qeyd edilir. Guya Süleyman ömrünün iqtidarının ən əzəmətli dövrü olan axır vaxtlarında bütpərəst xanımlarını və cariyələrini razı salmaq üçün onların bütlərinə də hörmət etmiş və onlara ibadət etmişdi. Tövratın "Padşahlar" fəslində belə deyilir: **"Onlar Süleymanın qocalıq çağında onun ürəyini başqa tanrılara tərəf azdırdılar və onun ürəyi, atası Davuddan fərqli olaraq, Allahı Rəbbə sadiq deyildi. Süleyman Sidonluların ilahəsi Aştoretə və Ammonluların iyrənc bütü Milkoma xidmət etdi. Süleyman Rəbbin gözündə pis olan işlər etdi və atası Davuddan fərqli olaraq Rəbbə tamamilə xidmət etmədi. Onda Süleyman Yerusəlimin şərqindəki dağda Moavın iyrənc bütü Kemoş üçün və Ammon övladlarının iyrənc bütü Molek üçün səcdəgah düzəltdi. O öz tanrılarına buxur yandıran və qurbanlar gətirən bütün yadelli arvadları üçün belə etdi. Rəbb Süleymana qəzəbləndi, çünki onun ürəyi İsrailin Allahı Rəbdən dönmüşdü. Rəbb ona iki dəfə görünərək "başqa tanrılara xidmət etmə" deyə bu barədə əmr etdi, o isə Rəbbin əmrinə əməl etmədi"** ***(Tövrat, "1 Padşahlar", 11/4-10).***

## Qızları ilə yatan Peyğəmbər?

Peyğəmbərlərin alçaldılması ilə bağlı məqamlar təkcə Süleyman peyğəmbərlə məhdudlaşmır. Ondan əvvəlki Lut, İbrahim, Musa, Harun kimi peyğəmbərlər də bu iyrəncliklərə qurban verilmiş elçilərdir. Məsələnin daha yaxşı başa düşülməsi üçün Tövratdakı həmin məqamları qeyd etmək istəyərdik. Belə ki, Lut peyğəmbər haqqındakı alçaldıcı məqam Tövratın "Yaradılış" kitabında belə qeyd edilir: **"Lut iki qızı ilə birgə Soardan çıxıb dağda yaşadı, çünki So-**

**arda yaşamaqdan qorxurdu. O, iki qızı ilə bir mağarada qaldı. Onun böyük qızı kiçiyinə dedi: "Atamız qocalıb və bu dünyada insan adətinə görə yanımıza girməyə bir kişi yoxdur. Gəl atamıza şərab içirək və onunla yataq ki, öz atamızdan nəslimiz olsun". Onlar o gecə atalarına şərab içirdilər. Böyük qız içəri girib atası ilə yatdı, atası isə onun nə vaxt yatıb-durduğunu bilmədi. O biri gün böyük qız kiçiyinə dedi: "Mən dünən gecə atamla yatdım. Gəl bu gecə də ona şərab içirək və sən də onunla yat ki, öz atamızdan nəslimiz olsun". O gecə yenə atalarına şərab içirdilər. Kiçik qız qalxıb onunla yatdı, atası isə onun nə vaxt yatıb-durduğunu bilmədi. Lutun iki qızı beləcə atalarından hamilə oldu. Böyük qız bir oğul doğdu və onun adını Moav qoydu. O indiki moavlıların əcdadıdır. Kiçik qız da bir oğul doğdu və onun adını Ben-Ammi qoydu. O, indiki ammonluların əcdadıdır"** ***(Tövrat, "Yaradılış" 19/30-36).***

## Arvadını Firona verən peyğəmbər?

Buna oxşar bir vəziyyət İbrahim peyğəmbər və arvadı Saraya da şamil edilib. İbrahim peyğəmbərin Firona Saranın onun bacısı olduğunu deməsinə görə Fironun Saranı özünə arvad etdiyi bildirilir. Nəticədə bunu bilən Fironun İbrahimi və arvadını qovduğu xəbər verilir: **"İbram Misirə gəlib çatanda misirlilər onun arvadının çox gözəl olduğunu gördülər. Fironun əyanları da qadını gördülər və onu Firona tərifədilər. Qadın Fironun sarayına aparıldı. Onun xatirinə Firon İbramla da yaxşı rəftar etdi: İbram qoyun-keçi, mal-qara, erkək və dişi eşşəklər, qullar, qaravaşlar və dəvələr sahibi oldu. Ancaq Rəbb İbramın arvadı Saradan ötrü Fironun və onun ev adamlarının başına böyük fəlakətlər gətirdi. Firon İbramı çağırıb dedi: "Bu nə işdir, mənim başıma gətirdin? Bu qadının sənin arvadın olduğunu niyə mənə bildirmədin? Nə üçün "bu mənim bacım-**

**dır" dedin ki, mən də onu özümə arvad olmaq üçün aldım? İndi isə arvadını da götür get""** ***(Tövrat, "Yaradılış" kitabı, 12/14-9).***

## Allahı danlayan peyğəmbər?

Musa peyğəmbər haqqındakı bölümlərdə Musanın Allahı danlayan, onu tənbeh edən bir şəxs olduğu qeyd edilir: **"Musa xalqın, hər ailənin çadırının qarşısında ağlamaqlarını eşitdi və Rəbbin qəzəbi çox alovlandı. Musa da narazı idi. Ona görə Rəbbə dedi: "Sən nə üçün quluna əzab verdin? Sənin gözündə lütf tapmadığım üçün bu xalqın bütün yükünü mənim üzəriməmi qoyursan? Bütün bu xalqa mənmi hamilə olmuşam? Bunları mənmi doğmuşam? Məgər sən istəyirsən ki, südəmər uşağı gəzdirən dayə kimi atalarına and içib söz verdiyin torpağa onları qucağımda mən aparım? Bütün bu xalqa yedirtmək üçün əti mən haradan tapım? Çünki onlar mənim qarşımda ağlayaraq "bizə ət ver, yeyək" deyirlər". Bu xalqı təkbaşına mən daşıya bilmərəm, çünki bu mənim üçün çox ağırdır. Əgər mənimlə bu cür davranacaqsansa, gözündə lütf tapmadımsa, onda nə olar, məni öldür ki, belə əzabı görməyim""** ***(Tövrat, "Saylar", 11/10-16).***

## Büt düzəldib bütə ibadət etdirən peyğəmbər?

Peyğəmbərlərin alçaldılmasına başqa bir nümunə də Musanın qardaşı Harun peyğəmbərlə əlaqəlidir. Musa peyğəmbər Allahdan mesaj almaq üçün xalqının yanından ayrıldıqdan sonra peyğəmbər olan qardaşı Harunun qızıldan dana bütü düzəldib buna tapınmalarını camaata əmr etməsi barədə "Çıxış" kitabında belə qeyd edilir: **"Xalq Musanın dağdan enməkdə gecikdiyini görərək Harunun ətrafına toplaşıb ona dedi: "Qalx və bizim üçün tanrılar düzəlt ki, qabağımızca getsinlər. Çünki bizi Misirdən çıxaran adamın - bu Musanın başına nə iş gəldiyini bilmirik!" Harun onlara**

**cavab verdi: "Arvadlarınızın, oğullarınızın, qızlarınızın qulaqlarından qızıl sırğaları çıxarıb mənim yanıma gətirin". Bütün xalq qulaqlarında olan qızıl sırğaları çıxarıb Haruna gətirdi. Harun onların əllərindən qızılı götürdü, oyma aləti ilə surət verib dana şəklində bir tökmə büt düzəltdi. Xalq "Ey İsrail övladları, budur sizi Misirdən çıxaran tanrılarınız!", - dedi. Harun bunu gördükdə dananın qabağında bir qurbangah düzəltdi və elan etdi: "Sabah Rəbb naminə bayram olacaq". Ertəsi gün xalq tezdən qalxıb yandırma qurbanları ilə ünsiyyət qurbanları kəsdi. Xalq oturub yeyib-içdi, sonra isə oynaşdı" *(Tövrat, "Çıxış", 32/1-6).***

Hətta Tövratda Yoiş adlı kralın Zəkəriyyə peyğəmbəri daşladaraq öldürtməsindən, İsrail oğullarını tövhidə dəvət edən İşaya adlı peyğəmbərin başının mişarla kəsilməsindən bəhs olunur.

## Quranın bizə tanıtdığı peyğəmbərlər

Peyğəmbərləri tanrılaşdıranlar və ya elçiləri alçaldanlarla bağlı müəyyən məsələlərə qısa da olsa, aydınlıq gətirməyə çalışdıq. Bəs, elə isə, peyğəmbərlərə inamımız necə formalaşmalıdır? Ümumiyyətlə, Allah elçilərini bizə necə tanıdır?

Allah ilahi təlimat məktubları, mesajları olan kitablarını elçiləri vasitəsilə göndərib. Elçilər də bizə Allahın sözlərini olduğu kimi çatdırıblar. Onlar sadəcə çatdırmaq missiyasını yerinə yetirməyib, həm də gətirdiklərinə özləri də tabe olaraq canlı nümunə kimi qarşımıza çıxıblar. Biz də nümunə olan bütün peyğəmbərlərin hamısına inanmalıyıq. Çünki peyğəmbərlərə inanmaq imanın əsaslarındandır. Biz isə onlara olduğu kimi inanmalıyıq, onları ucaldaraq və ya alçaldaraq deyil. Əfsuslar olsun ki, biz insanlar peyğəmbərləri fövqəlbəşər insan olaraq təqdim etməklə və ya onları alçaltmaqla həyatımızdan çıxarırıq. Onların gətirdiklərini "məhv edirik". Peyğəmbərlərin nümunə üçün göndərildiyi gerçəyini nümunə ola bilməyəcək bir səviyyəyə çatdıraraq onları özümüzdən kənarlaşdırı-

rıq. Uca Allah peyğəmbərlərinə bizim kimi insan olduqlarını dəfələrlə özlərinə dedirtməsinə baxmayaraq, biz sanki ayəyə zidd olaraq onların bizim kimi bir insan olmadıqlarını iddia etməyə, hətta sübut etməyə çalışırıq.

## Peyğəmbərlərin səhvləri

Peyğəmbərlər Allahın sözünü insanlara çatdırmaq, çatdırdıqlarına ilk olaraq özləri tabe olmaq, tabe olaraq da nümunə olmaq üçün göndəriliblər. Həyat tərzləri ilə nümunə olaraq göndərilən peyğəmbərlər səhv etmək, səhvlərinə görə peşman olmaq, peşman olduqlarına görə tövbə etməklə də bizlərə nümunə olublar. Etdiyimiz səhvlərdən, xətalardan, günahlardan sonra bizə nə etməli olduğumuz barədə yol göstəriblər.

Bu məsələni daha yaxşı başa düşməyimiz üçün bütün peyğəmbərlərin insan olduqlarını anlamalıyıq. Onların insan deyil, mələk olmalarını tələb edənlərlə bağlı Allahın verdiyi cavabları qeyd etmişdik. Burada da mövzumuzla bağlı bir ayəni qeyd edək. Uca Allah insanın peyğəmbər olmasına etiraz edənlərin sözlərini bizə belə xatırladır: **"Bu necə elçidir ki, yemək yeyir, bazarları gəzib dolaşır. Nə üçün ona özü ilə birlikdə xəbərdarlıq edən bir mələk göndərilmədi?"** ***("Furqan" surəsi, 25/7).*** Bəli, Allahın insanların öz aralarından seçdiyi elçiləri də hamı kimi yeyib-içir, bazarlarda gəzir, ailə həyatı qurur, sevinir, qəzəblənir və s... Bunları edən insanlar da həyatlarının müxtəlif mərhələlərində səhvlər edə bilərlər. Heç kim səhvdən sığortalanmayıb. Buna peyğəmbərlər də daxildir. Unutmayaq ki, Allahdan başqa heç kim qüsursuz deyil. Allahın sonuncu Elçisi Muhəmməd peyğəmbərin belə dediyi qeyd olunur: *"Əgər siz günah etməsəydiniz, Allah sizi həlak edər və yerinizə günah edib, sonra tövbə edən bəndələr yaradardı".*[17]

Uca Allah Quranda peyğəmbərlərdən əhd aldığını bildirir:

---

17 Muslim, "Tövbə", 9.

“**Bir zaman Biz peyğəmbərlərdən əhd almışıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışıq**” ***(“Əhzab” surəsi, 33/7).***

Rəbbimiz peyğəmbərlərdən nə əhd alıb? Bu əhd böyük günah etməməkdir. Bəs ən böyük günah nədir? Ən böyük günah Allaha şərik qoşmaqdır. Uca Allah Peyğəmbərə aldığı vəhyin nə olduğu barədə başqa ayədə belə buyurur: “**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan**” ***(“Zumər” surəsi, 39/65).*** Allah məsum, günahsız olduğu iddia edilən peyğəmbərlərindən belə söz alardımı? Xüsusi qoruma altında olan peyğəmbərlər qorunmayan insanlara necə nümunə ola bilərdilər? Peyğəmbərlər qorunmuş olsaydılar, heç Quranda onların öldürülmələrindən bəhs edilərdimi? Uhudda Allahın sonuncu Elçisi yaralanardımı?

Allah Quranda göndərdiyi elçilərinin; Adəm peyğəmbərin üsyan etməsindən, Musa peyğəmbərin cinayət törətməsindən, Yunus peyğəmbərin elçilik vəzifəsini yerinə yetirdiyi yeri Allahdan icazəsiz tərk etməsindən, Davud peyğəmbərin, oğlu Süleymanın tövbəsindən, Muhəmməd peyğəmbərin yanlışından bəhs edir.

Peyğəmbərlərin səhv etmədiyini və ya səhv etməyəcəyini iddia etməyin özü səhvdir. Səhvsiz bəşər olmaz. Quranın heç bir yerində də peyğəmbərlərin günahsızlığından, məsum olmasından bəhs edilmir. Çünki onlar da insandır. Onlar hər məsələdə bizə nümunə olmalıdır. Özlərinin günahsız olduğunu nümayiş etdirmək istəyənlər isə əvvəlcə peyğəmbərləri, sonra da başqalarını günahsız göstərməyə çalışırlar. İndi Uca Allahın Quranda bəhs etdiyi peyğəmbərlərin səhvi mövzusuna başlayaq.

## Adəm peyğəmbərin səhvi

Uca Allah belə buyurur: **"İkisi də ondan yedilər və ayıb yerləri özlərinə göründü. Onlar üstlərinə Cənnət (ağaclarının) yarpaqlarından örtməyə başladılar. Beləliklə, Adəm Rəbbinə <u>asi olub səhv yol tutdu</u>"** ***("Taha" surəsi, 20/121).***

Allah Adəm peyğəmbərin Ona üsyan etdiyini, üsyan edib səhv yol tutduğunu bildirir. Bu bizim iddiamız və ya sözümüz deyil. Bunu Rəbbimiz buyurur. Burada əsas məsələ Adəm peyğəmbərin etdiyi üsyanından, səhvindən sonra peşman olub tövbə etməsi idi. Adəmi adam edən tövbəsi olduğu kimi, İblisi də şeytan edən təkəbbürlüyü oldu.

## Nuh peyğəmbərin səhvi

Nuh tufanı haqda məlumatlı olduğunuzu nəzərə alaraq konkret məsələ ilə bağlı məqamı qeyd etmək istəyirəm. Nuh peyğəmbər Allaha iman gətirənlərlə birlikdə gəmidə ikən gözü gəmiyə minməyənlərdə idi. Allaha üsyan edən, atasının çatdırdığı dini qəbul etməyən oğlunu axtarırdı. Nuh peyğəmbər vəzifəsinin ancaq haqqı çatdırmaq, həqiqəti elan etmək olduğunu bilirdi. Buna görə də atalıq hissi ilə oğlunun iman gətirməsini və beləliklə, gəmiyə minənlərdən olmasını istəyirdi. "Bəlkə iman gətirər" düşüncəsilə axır anda da övladını çağırdı. Allah bu hadisəni belə xəbər verir: **"(Gəmi) onları dağlar kimi dalğalar içərisində apardığı zaman Nuh kənarda duran oğlunu səsləyib dedi: "Oğlum! Bizimlə birlikdə min, kafirlərdən olma!""** ***("Hud" surəsi, 11/42).***

Lakin bütün təkidlərə baxmayaraq Nuh peyğəmbərin oğlu inadkarlığından əl çəkmədi. Öz gücünə arxalanaraq xilas olacağını güman etdi və atasına belə cavab verdi: **"Məni sudan qoruyacaq bir dağa sığınacağam!..."** ***("Hud" surəsi, 11/43).***

Nuh peyğəmbər oğlunun kafir olaraq ölməsini istəmirdi və yenə oğluna belə dedi: **"...Bu gün Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" Sonda dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu"** ***("Hud" surəsi, 11/43).***

Nuh peyğəmbər və onunla birlikdə Allaha iman gətirənlər tufandan xilas oldular. Qurtulandan sonra Nuh peyğəmbər əllərini açıb Allaha dua etdi: **"Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin ən hikmətlisisən!""** ***("Hud" surəsi, 11/45).***

Allah ona inananları və Nuhun ailəsini xilas edəcəyini vəd etmişdi. Nuh peyğəmbər də oğlunun ailəsindən olduğunu deyərək, onun xilas olacağına ümid edirdi. Amma Allahın verdiyi cavab insanların bir-birilərilə olan ailə əlaqələrinə də aydınlıq gətirirdi. **"Allah dedi: "Ey Nuh! O, sənin ailəndən deyildir. Doğrusu, bu, pis bir işdir. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, <u>Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm</u>""** ***("Hud" surəsi, 11/46).***

Fikir verin, Allah Nuh peyğəmbərin oğlunun iman gətirmədiyinə görə onun oğlu olmadığını bilirdi. Amma atalıq hissi Nuh peyğəmbəri bu cür dua etməyə vadar etmişdi. Əslində, dua etmək pis bir şey deyildi. Lakin Allah onu səhv olaraq bildiyi bir şeyi istədiyinə görə qınayırdı. Bu, Nuh peyğəmbərə bir xəbərdarlıq idi. Ona cahillərdən olmamağı tövsiyə edirdi. Peyğəmbər də olsa, Allaha "tapşırığın" keçmədiyini bilməli idi. Hətta peyğəmbər övladını belə Allaha "tapşırmaq" mümkün deyildi. Çünki hər kəs özünə cavabdehdir. Bu, "seyyid" kimi ortalıqda gəzənlərə də gözəl bir cavabdır. Çünki Allah peyğəmbərinin oğlu ilə bağlı bir xahişini həm qəbul etmir, həm də belə etməməsi üçün ona xəbərdarlıq edir. Təsəvvür edin, Allah Özünün Elçisi olaraq təyin etdiyi peyğəmbərinin həm duasını qəbul etmir, həm də bu istəyinə görə onu tənbeh edir.

Nuh peyğəmbər isə Allahın bu sözlərindən sonra dərhal

səhvini başa düşür və bağışlanmasını istəyir: **“Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram”*(“Hud” surəsi, 11/47).*** Nuh peyğəmbər də bu səhvinə görə peşman olur və Allahdan bağışlanmasını istəyir.

## Musa peyğəmbərin səhvi

Allah Musa peyğəmbər haqqında belə buyurur: **“(Musa) yetkinləşib kamillik dövrünə çatdıqda Biz ona hökmranlıq (peyğəmbərlik) və elm əta etdik. Biz xeyirxah işlər görənləri belə mükafatlandırırıq. O, şəhərə əhalisi xəbərsiz ikən daxil oldu və orada bir-biri ilə vuruşan iki kişi gördü. Biri onun tərəfdarlarından, o biri isə düşmənlərindən idi. Tərəfdarlarından olan kəs onu düşməninə qarşı köməyə çağırdı. Musa onu vurub öldürdü və: “Bu, şeytan əməlindəndir. Həqiqətən, o, haqdan azdıran açıq-aydın bir düşməndir!”– dedi” *(“Qəsəs” surəsi, 28/16).***

Ayədə Musa peyğəmbərin tərəfdarına kömək məqsədilə adam öldürməsindən bəhs edilir. Bəziləri qeyd edirlər ki, Musa bunu peyğəmbər olmamışdan əvvəl edib. Amma ayədən də aydın olur ki, ona peyğəmbərlik veriləndən sonra bu hadisə baş verib. Peyğəmbərlikdən əvvəl olsa da, bir insanı öldürməyə heç kim haqq qazandıra bilməz. Çünki Uca Allah “Maidə” surəsində belə buyurur: **“...Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür” *(“Maidə” surəsi, 5/32).***

Musa peyğəmbər də bu hadisədən peşman olur və tövbə edir: **“(Musa) dedi: “Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!” O da onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir” *(“Qəsəs” surəsi, 28/16).*** Bu hadisədən sonra kim deyə bilər ki, Musa peyğəmbərin səhvi olmayıb? Amma Musa peyğəmbər də etdiyi səhvi dərhal an-

lamışdı və Allahdan bağışlanmasını istəmişdi. Allah da onun tövbəsini qəbul etmişdi.

## Süleyman peyğəmbərin səhvi

Süleyman peyğəmbər Davudun oğludur. Atasının qurduğu hakimiyyət Süleyman peyğəmbərin dövründə çox geniş imkanlara malik olmuşdu. Peyğəmbərin özü də belə dua etmişdi: **"Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın"** ***("Sad" surəsi, 38/35).*** Belə bir səltənətə malik olan peyğəmbər at həvəskarı idi. Allah isə bununla bağlı ona xəbərdarlıq etmişdi.

Allah bu hadisə ilə bağlı Quranda buyurur: **"Biz Süleymanı sınağa çəkib taxtının üstünə bir cəsəd atdıq. Sonra o tövbə edib qayıtdı"** ***("Sad" surəsi, 38/34).*** Burada Süleyman peyğəmbərin etdiyi səhvdən döndüyü və tövbə etdiyi bildirilir.

## Yunus peyğəmbərin səhvi

Allah Yunus peyğəmbərin də səhvini Quranda açıqlayır. Onun vəzifəsini və elçilik etdiyi yeri, xalqını tərk edib getməsinin səhv olduğunu qeyd edir. Burada bir məqamı qeyd edək ki, bu hadisə sonuncu Peyğəmbərimiz Muhəmmədə nazil edilən ilk qissədir. Allah bununla sanki Elçisinə xəbərdarlıq edir ki, sən də Yunus kimi olma. Başına gələnlərə, başına gətirilənlərə dözməyib vəzifəni və təbliğ yerini tərk etmə...

Yunus peyğəmbərlə bağlı Allah belə buyurur: **"Zün-Nunu da (yada sal!) Bir zaman o qəzəbli (qövmündən) ayrılıb getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!""** ***("Ənbiya" surəsi, 21/87).***

Ayədə Yunus peyğəmbərin təyin olunduğu yerdən ayrıl-

masından bəhs edilir. Hətta onun səhv gümanını Allah qeyd edir. Lakin Yunus peyğəmbər etdiyi səhvi başa düşəndən sonra peşman olaraq *“Səndən başqa heç bir haqq ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!”,* - deyərək tövbə etmişdi…

Yenə Rəbbimiz Quranın başqa ayəsində də bu haqda belə buyurur: **“Yunus da, həqiqətən, elçilərdəndir. Bir zaman o, yüklü bir gəmiyə tərəf qaçdı. Başqaları ilə birlikdə püşk atdı və uduzanlardan oldu. O, qınanmağa layiq olduqda balıq onu uddu. Əgər o, Allahın ucalığını xatırlamasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı”** ***(“Saffat” surəsi, 37/139-144).***

Bəli, Rəbbimiz xüsusi olaraq vurğulayır ki, Allahın ucalığını, əzəmətini xatırlaması, məyusluğu onda peşmançılıq yaradır və bağışlanır. Əgər o bunu etməsəydi, balığın qarnı yenidən dirilişə qədər ona qəbir olacaqdı. Yunus peyğəmbərin bu etdiyi səhv deyildimi? Amma buradan da aydın olur ki, Yunus peyğəmbər səhvini dərk edir və buna görə Allahdan bağışlanmasını istəyir və əvf edilir.

## Sonuncu Peyğəmbərin yanlışı

Başqa peyğəmbərlərin səhvi ilə bağlı Allahın Quranda dediklərini qeyd etməyə çalışdıq. Bunu etməyimizin səbəbi peyğəmbərlərin də bizim kimi insan olduqlarını dərk edib, onları olduqları kimi qəbul etməli və bu cür də tanıyıb sevməli olduğumuzu bildirməkdir. Onların bizə nümunə olduqlarını başa düşməliyik. Çünki bilməliyik ki, səhvsiz, qüsursuz insan mümkün deyil. Bu cür insan başqalarına nümunə ola bilməz. Burada bir neçə peyğəmbərin səhvini qeyd etdik. Bəs peyğəmbərlərin sonuncusu olan Muhəmməd peyğəmbərin səhvi və ya səhvləri olubmu? Bu haqda Allah Quranda nə buyurur? İndi bu məsələyə aydınlıq gətirməyə çalışaq.

Uca Allah xalqların, tayfaların arasından hər kəsə nümunə olacaq insanları elçi olaraq seçib. Bu seçilənlərin sonuncusu

Abdullahın oğlu Muhəmməd idi. Uca Allah Quranı təbliğ etmək və həqiqəti çatdırmaq üçün onu seçmişdi. Bu seçilmiş insan haqqında öyrənə biləcəyimiz ən səhih, ən doğru mənbə isə Qurandır. Allah Quranda elçisi haqqında bu məlumatları verir: “O səni bir yetim olaraq tapıb sığınacaq yerin olmadımı? O səni yolunu azmış halda tapıb düz yola yönəltmədimi? Səni möhtac halda tapıb səni möhtac olmaqdan xilas etmədimi?” ***(“Duha” surəsi, 93/6-8).***

Bu cür ayələrin ortaq cəhəti Peyğəmbərin də insan olduğunu vurğulamaq və Allahın ona bəxş etdiyi nemətini xatırlatmasıdır. Peyğəmbərə etiraz edən Məkkə müşrikləri də onun ölümlü bir insan olmasını qəbul etmək istəmirdilər: “**Allah bir insanımı elçi göndərdi?**” ***(“İsra” surəsi, 17/94).*** Allah Peyğəmbərin hamı kimi bir bəşər olduğunu deməsini ayələrdə dəfələrlə ona əmr edir. Quranda 2 yerdə “*Mən də sizin kimi bir insanam*” deməsi əmr edilir.

Bəli, Allah bir insanı elçi göndərdi. Bu insan isə hamının yaxşı tanıdığı Abdullahın oğlu Muhəmməd idi. Hər kəsin etibar etdiyi Etibarlı Muhəmməd idi. Ona güvəndikləri üçün, dürüstlüyü ilə tanıdıqları üçün Muhəmmədul Əmin adlandırdıqları şəxs idi. Bəli, şəxs idi, yəni insan idi.

Mövzumuzla əlaqəli məsələni də Quran ayələrini sitat gətirməklə başlayaq. Uca Allah belə buyurur: **“Bil ki, Allahdan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə...”** ***(“Muhəmməd” surəsi, 47/19).***

Təsəvvür edin... Peyğəmbərin səhvi olduğu barədə yazanda aləmi bir-birinə qatan, əleyhimizdə demədikləri sözlər qalmayan müsəlmanlar bu ayələri Qurandan oxumurlarmı? Allahın burada “səhv” sözünü də deyil, “günah” sözünü işlətməsinə, görəsən, nə məna verirlər? Söz atmağın əvəzinə Quranı oxuyub öyrənmək daha gözəl çıxış yolu deyilmi?

Ayədə Peyğəmbərimizdən nə tələb olunur? Həm öz günahı, həm də mömin kişilərin və qadınların günahına görə

Allahdan bağışlanma istəməsi buyurulur. Bu ayəni necə məsumluqla əlaqələndirib Peyğəmbərimizin heç bir günahı olmadığını iddia etmək olar? Bu iddia Qurana zidd deyilmi?

Həmçinin, Allah Peyğəmbərinin keçmişdəki və ya yaşadığı dövrdə bu ayənin gəlişindən sonra edə biləcək günahları ilə bağlı belə buyurur: **"Həqiqətən, Biz sənə aydın bir qələbə verdik ki, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni düz yola yönəltsin"** ***("Fəth" surəsi, 48/1-2).***

Yenə başqa ayədə Allah Peyğəmbərinin günahının bağışlanmasını diləməsini istəyir. Uca Allah belə buyurur: **"Səbr et! Həqiqətən, Allahın vədi haqdır. Günahının bağışlanmasını dilə..."** ***("Ğafir" surəsi, 40/55).***

Peyğəmbərimizin hər gün Allahdan bağışlanma istədiyini və tövbə etdiyini yada salmaq məsələyə daha da aydınlıq gətirəcəkdir. Allahın Elçisi belə buyurub: *"Bəzən ürəyim pərdələnir və mən hər gün yüz dəfə Allahdan bağışlanmağımı və əvf edilməyimi dua edirəm".*[18]

Uca Allah yenə Quranda Elçisinə belə buyurur: **"Ey Peyğəmbər! Xanımlarını razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah Bağışlayandır, Rəhmlidir"** ***("Təhrim" surəsi, 66/1).*** Bu Peyğəmbərə xəbərdarlıq ayəsidir. Bu ayədə həm peyğəmbərin səhvi qeyd edilir, həm də ayənin axırında Allahın bağışlayan olduğu xüsusi vurğulanır. Yəni ortada səhv var. Bu səhv ailə daxilində olan bir məsələ də olsa, səhvdir. Yoxsa bu ailədaxili məsələni Allahın qeyd etməsinin hikməti nə ola bilərdi? Və buna görə də bu səhvə görə Allahdan bağışlanmağı istəmək tələb olunardımı? Unutmayaq ki, heç kim öz səhvlərini və ya həyat yoldaşı ilə ailədə baş verənləri ifşa etmək istəməz. Allah isə bu haqda məlumat verərək həm göndərdiyi kitabın elçisinin sözü olmadığını, həm də Özündən başqa heç kimin səhvsiz olmayacağını vurğulayır.

18 Muslim, "Zikr", 41.

Yenə Allah elçisini belə tənbeh edir: **"Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları isə tanımamış nə üçün onlara (cihaddan yayınmağa) izn verdin?"** ***("Tövbə" surəsi, 9/43).*** Allah niyə ayələrdə "Allah səni bağışlasın" deyə başlayır? Bağışlanma nə üçün olur? Təbii ki, səhvlərə və xətalara görə. Buradan da aydın olur ki, Muhəmməd peyğəmbərin icazə verməsi doğru deyildi və Allah da elçisinə bunun yanlış olduğunu bildirir.

Bir hadisəni qeyd edək. Peyğəmbər bir gün Məkkənin nüfuzlu müşrik şəxsləri ilə görüşür. Onlardan hansınınsa İslama gələcəyini ümid edir. Bununla Məkkədəki müsəlmanların əleyhinə olan vəziyyətin lehinə çevriləcəyini düşünür. Həmin əsnada İbn Ummu Məktum kimi adlandırılan, gözü görməyən Abdullah b. Şureyh nənəsinin yardımı ilə Allahın Elçisinə yaxınlaşaraq Quranın bəzi ayələrinin açıqlamasını xahiş edir. Danışığının kəsilməsindən narahat olan Rəsulullah qaş-qabağını sallayaraq üzünü söhbət etdiklərinə tərəf döndərir. Bu hadisədən sonra "Abəsə" surəsinin ayələri nazil olur: **"O qaşqabağını sallayıb üzünü (yana) çevirdi. Yanına bir korun gəlməsinə görə. Nə bilirdin, bəlkə o (günahlardan) təmizlənəcəkdi və yaxud nəsihət dinləyib faydalanacaqdı. (Nəsihətə) ehtiyacı olmayana gəlincə isə, sən ona diqqət yetirirsən. Onun təmizlənməməyinin sənə bir dəxli yoxdur. Səy göstərib sənin yanına gələn, (Allahdan) qorxan kimsəyə gəlincə, ona məhəl qoymursan! Xeyr! Şübhəsiz ki, bu, bir nəsihətdir. Kim istəsə, qoy onu xatırlayıb ibrət alsın"** ***("Abəsə" surəsi, 80/1-11).*** Allahın Elçisi hər dəfə İbn Ummu Məktumu görəndə "Ey Rəbbimin səndən ötəri məni danladığı şəxs, gəl!" deyərək çağırardı.

Rəsulullah səhv, günah etməklə bağlı belə buyurub: *"Əgər siz günah etməsəydiniz, Allah sizi həlak edər və yerinizə, günah edib, sonra tövbə edən bəndələr yaradardı".*[19]

---

19 Muslim, "Tövbə", 9.

## Peyğəmbərin danışığının vəhy olması...

Bəziləri iddia edirlər ki, Peyğəmbər heç vaxt özündən danışmayıb. Onun danışdıqlarının hamısı vəhy olub. Buna görə də peyğəmbərlər səhv edə bilməz... Yuxarıda dəfələrlə qeyd etdiyimiz ayələrdəki səhvlərlə bağlı Allahın dediklərinə bəs nə deyəcəyik?

Biz iddia edilən məsələyə aydınlıq gətirməyə çalışaq. Bəli, Uca Allah "Nəcm" surəsində belə buyurur: **"O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi"** ***("Nəcm" surəsi, 3-5).***

Bu ayəni əsas götürənlər iddia edirlər ki, Peyğəmbərimizin heç bir sözü özünə aid deyil, hamısı Allahdandır. Amma ayədə qeyd edilir ki, ona təlqin edilən vəhydir. Yəni onun öz istəyi ilə danışmadığı Allahın kəlamıdır, yəni vəhydir, Qurandır. Çünki biz bilirik ki, o da bir bəşər kimi öz istəyi ilə də danışmışdır. Ayələrdən də bunu öyrənirik. Hətta "Təhrim" surəsinin 1-ci ayəsi buna dəlil deyilmi? Ayəni bir daha xatırlayaq: **"Ey Peyğəmbər! Zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah Bağışlayandır, Rəhmlidir"** ***("Təhrim" surəsi, 66/1).*** Bu ayədən sonra necə Peyğəmbərimizin bütün danışdıqlarının vəhy olduğunu iddia edə bilərik? Əksinə, bu ayədən məlum olur ki, Peyğəmbər də hər insan kimi öz arzusu və istəyi ilə danışıb. Sadəcə, Allahın olmayan sözü heç vaxt Ona istinad etməyib. Hətta Uca Allah Ona hər hansısa bir söz istinad edə bilməyəcəyini "Haqqa" surəsində belə buyurur: **"**Əgər (Muhəmməd) bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik. İçərinizdən heç kəs buna mane ola bilməzdi..." ***("Haqqa" surəsi, 69/44-48).*** Ayədən aydın olur ki, Rəsulullah heç bir sözü, Allaha məxsus olmayan bir kəlamı Allaha aid edərək Onun vəhyi kimi təqdim etməyib. Allah da ayədə buna imkan verməyəcəyini xüsusilə vurğulayır, hətta

təhdid edir. Uca Allah "Yunus" surəsində Peyğəmbərinə belə deməyi əmr edir: **"De: "Mən onu öz istəyimlə dəyişdirə bilmərəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram"** ***("Yunus" surəsi, 10/15).***

Amma bəziləri isə, əfsuslar olsun ki, Muhəmməd peyğəmbərin elçilik vəzifəsindən əvvəlki dövrü də Peyğəmbərin sünnəsi olaraq qəbul etməyə çalışaraq bunları vəhy kimi təqdim etməyə çalışıblar. Məsələn, Sibai "Sünnə" adlı əsərində bunu belə qeyd edir: "Peyğəmbərimizə dair nə nəql edilibsə, nə rəvayət edilibsə, peyğəmbərlikdən əvvəl və ya peyğəmbərlikdən sonra olmasından asılı olmayaraq sünnə olaraq qəbul edilir". Halbuki Uca Allahın "Duha" surəsində Elçisinin elçilikdən əvvəlki vəziyyəti haqqında yazımızın əvvəlində qeyd etmişdik. Allah buyurur: "O səni bir yetim olaraq tapıb sığınacaq yerin olmadımı? O səni yolunu azmış halda tapıb düz yola yönəltmədimi? Səni möhtac halda tapıb səni möhtac olmaqdan xilas etmədimi?" ***("Duha" surəsi, 93/6-8).*** Yenə Rəbbimiz Peyğəmbərin Allahın Elçisi olmamışdan əvvəlki vəziyyəti ilə bağlı başqa ayədə belə buyurur: **"...Sən kitab nədir, iman nədir bilmirdin"** ***("Şura" surəsi, 42/52).*** Elə isə Peyğəmbərin elçilik vəzifəsindən əvvəlki davranışları necə sünnə olaraq qəbul edilə bilər?

## Peyğəmbərin namazı qaçırması

Rəsulullah bir dəfə səfərdən qayıdarkən çox yorğun halda olan səhabələrinə namaza oyandıracaq növbətçi təyin edəndən sonra istirahət edə biləcəklərini bildirmişdi. Hamı yuxuya gedəndən sonra növbətçi təyin edilən şəxs də yatıb qalmışdı. Allahın Elçisi və yanındakılar oyananda isə namazın vaxtı ötmüşdü. Bu hadisə təəssüflə qarşılansa da, Allahın Elçisi səhər namazını camaatla qıldırmışdı.[20] Bu cür hadisə

20 Buxari, "Namaz vaxtları", 35; Muslim, "Məscidlər", 310-313.

Xəndək döyüşündə də baş vermişdi. Həmin ərəfədə də əsr namazı (ikindi) qılınmamışdı.[21]

Mövzu ilə bağlı birtərəfli mənbədən istifadə etməyimizlə bağlı da fikirlər ortaya çıxacağını nəzərə alaraq bizə lağ edənlərə özlərinin mənbə əsərlərindən də müəyyən məqamları qeyd etmək istəyərdik. Burada həm Peyğəmbərin səhv edə biləcəyindən, həm də yatıb qaldığı üçün namazı vaxtında qıla bilməməsindən bəhs olunur:

**1.** İbn Məhran deyir ki, Əbu Abdullahdan (ə) bir kişinin günəş çıxana qədər sübh namazını (sübh, səhər) qılmağını unutması barədə soruşdum dedi: "Xatırladığı zaman qılsın. Həqiqətən Peyğəmbər (s) günəş çıxana qədər fəcr namazından yatıb qaldı. Sonra isə oyandığı zaman o namazı qıldı. Lakin həmin o yerdən uzaqlaşdı və sonra qıldı. Məclisi bu hədisin "etibarlı" olduğunu qeyd edib.[22]

**2.** Səid əl-Ərac deyir ki, Əbu Abdullahın (ə) belə dediyini eşitdim: *"Rəsulullah (s) sübh namazında yatıb qaldı. Uca Allah onu yatızdırdı, hətta gün çıxdı...".*[23] Məclisi bu hədisin də "səhih" olduğunu qeyd edib.[24]

**3.** Səid əl-Ərac deyir ki, Əbu Abdullahın belə dediyini eşitdim: "Uca Allah Rəsulunu (s) fəcr namazını qılmadan yatırdı. Gün çıxandan sonra Peyğəmbər durdu. Fəcr namazından qabaq olan iki rükəti qıldı və sonra da Fəcri qıldı. (Həmçinin Uca Allah onu) namazında çaşdırdı və o da (günorta, zöhr namazında) iki rükətdən sonra salam verdi...

Bu kitabın müəllifi, yəni Şeyx Saduq deyib: Ğulatlar (imamları tanrılaşdıraraq həddini aşanlar) və Mufavvidələr (dünyanın bütün işlərinin İmamlara həvalə edilməsini deyən-

21 Buxari, "Namaz vaxtları", 36, 38; "Məğazi", 29.
22 Məclisi, Muhəmməd Baqir (v. 1699), "Miratul Uqul fi şərhi axbari alir-Rəsul", Tehran, 1989, 15/65.
23 Kuleyni, Əbu Cəfər Muhəmməd (v. 941), "əl-Kafi" 3, 294, Beyrut 1992.
24 Məclisi, "Miratul-Uqul" 15/65.

lər), Allah onlara lənət etsin, Peyğəmbərin (s) səhv etməsini inkar edərək deyirlər...”.[25]

Bəli, mənbələrdən də oxuyuruq ki, həmin əsərlərdə də Qurana uyğun olaraq Allahın elçilərinin səhv edə biləcəkləri bildirilib. Lakin bəziləri bilmədən, məsələni araşdırmadan kortəbii olaraq bunun əksini qəbul edirlər. Halbuki ayələrdən, hədislərdən öyrənirik ki, peyğəmbərlər də insan olduqları üçün səhv edə bilərlər. Biz isə peyğəmbərlərin səhv edə bilməyəcəyi fikrini Allahın Elçisinə yaxın buraxmamaqla onları ucaltdığımızı zənn edirik. Halbuki onları Allah ucaldıb. Allah onları insanların arasından seçərək elçisi olaraq təyin edib. Bundan böyük şərəf, nemət ola bilərmi? Bizim onları ucaltmaq istəməyimizə ehtiyacları varmı? Lakin təəssüflər olsun ki, bizlər peyğəmbərlər haqqında qeyri-adi əhvalatlar uydurmuş, onlara məsumluq, günahsızlıq xüsusiyyətləri şamil etmişik. Bu məsələ ilə bağlı və konkret olaraq Allahın sonuncu Elçisi ilə bağlı misallar verək. Muhəmməd peyğəmbər haqqında **“Nuru Muhəmməd”** adlı elə ifadələr uydurublar ki, guya sonuncu peyğəmbərin nuru Adəmdən davam edərək Peyğəmbərin atasına, ondan da sahibinə gəlib çatıb. Sonuncu Peyğəmbərimizin atası haqqında belə dediyi iddia olunur. Səhih adlandırılan hədislərdən oxuyaq:

*Bir nəfər “Ey Allahın Elçisi, atam haradadır”, - deyə soruşdu. Allahın Elçisi cəhənnəmdə olduğunu bildirdi. Həmin şəxs dönüb gedərkən Rəsulullah ona belə dedi: “Mənim də, sənin də atan cəhənnəmdədir”.*[26] Anası ilə bağlı da belə buyurub: *“Anamın bağışlanmasını dua etməyimlə bağlı Rəbbimdən icazə istədim, izn vermədi. Qəbrini ziyarət etmək*

25 Şeyx Saduq, İbn Babeveyh əl-Qummi, (v. 991), Mən lə yahduruhul faqih, Beyrut 1411, 1/358-359.
26 Muslim, İman 347; Əbu Davud, Sunnə, 17; Əhməd b. Hanbəl, Musnəd, 119, 268.

*üçün icazə istədim, buna icazə verdi”.*[27]

Peyğəmbərin bu cür ifadə işlətməsi şübhəlidir. Çünki Peyğəmbərin qeybi - kimin cənnətlik və ya cəhənnəmlik olduğunu bilmədiyini Uca Allah bildirir. Allah elçisinə belə deməyini əmr edir: **“De: “Mən peyğəmbərlərin birincisi deyiləm. Mənə və sizə nə üz verəcəyini də bilmirəm. Mən sadəcə mənə vəhy olunana tabe oluram. Mən yalnız açıq-aşkar xəbərdar edənəm!”” *(“Əhqaf” surəsi, 46/9).***

Allahın sonuncu Elçisi Muhəmməd peyğəmbər haqqında uydurulan bəzi məqamları da qeyd edərək mövzumuzu yekunlaşdıraq. Muhəmməd peyğəmbər haqqında yazılan əsərlərdən sitatlar gətirək. *Rəsulullah güləşdə həmişə birinci idi,*[28] *o qaçışda hamıdan sürətli idi. Başqalarından fərqli olaraq gözləri gecələr də gündüzlər gördüyü kimi görürdü.*[29] *İnsanların arasında oturanda çiyinləri başqalarında yuxarı olardı.*[30] *Min adı var idi.*[31] *Kölgəsi yox idi.*[32] *Üstünə milçək qonmazdı (Xasais, 1/67). Cinsi güc olaraq dörd min kişinin gücünə sahib idi.*[33] *Danışanda qələbəliyin ən axırındakı insan da eşidərdi. Təri ətir kimi qoxardı.*[34] Bunu iddia edənlər yəqin ki, Rəsulullahın *“Mənə dünyada 3 şey sevdirildi”*[35] hədisindəki bu 3 sevdiriləndən birinin də ətir olduğunu unudurlar. Həmçinin “Təhrim” surəsinin gəlmə səbəbi olaraq nəql edilən içdiyi bal şərbətinə görə nəfəsindən “məğagir” iyi gəldiyini yaddan

---

27 Muslim, Cənaiz, 105, 106, 108; Tirmizi, Cənaiz, 60; Əbû Davud, Cənaiz, 77; Nəsai, Cənaiz, 101; Əhməd b. Hənbəl, Musnəd, II, 441; V, 356.
28 *Əbul Fadl əl-Yahsubi Qadı Iyad, “əş-Şifa bi Tarifi Huquql Mustafa”, Darul Fikr, Beyrut, 1409/1988, 1/69.*
29 *Əbdurrəhman Cəlaluddin Suyuti, “əl-Xasaisul-Kubra” (Kifayetut Talibul Lebib fi Xasaisil-Habib), Darul-Qələm, Beyrut, 1320, 1/61.*
30 Suyuti, “Xasais”, 1/68.
31 Suyuti, “Xasais”, 1/77.
32 Qadı Iyad, “əş-Şifa”, 1/68.
33 Qadı Iyad, “əş-Şifa”, 1/90.
34 Qadı Iyad, “əş-Şifa”, 63.
35 Əbu Davud, Suleyman b. Əşas əs-Sicistani, əs-Sunən, İstanbul, 1992.

çıxarırlar. Hətta Peyğəmbərin *"Təbii ehtiyac zamanı ifraz etdiklərinin möcüzə olması ilə bağlı bab"* sərlövhəli rəvayətlər nəql ediblər.[36]

Allahın sonuncu Elçisinə burada sadalamadığımız daha çox yanlışlar şamil edilib. Biz bu minvalla peyğəmbərləri özümüzə nümunə götürə bilməyəcək səviyyəyə yüksəldirik. Halbuki onların şanını Allah Özü ucaldıb. Bəzən həddi o qədər aşırıq ki, peyğəmbərlərdən sonra gələn insanları da şişirtməyə başlayırıq. Elə nağıllar, rəvayətlər uydururuq ki, "Məlikməmməd", "Cırtdan" nağılları bunun yanında toya getməli olur... Guya bu insanlar gündəlik namazları bəzən gedib Kəbədə qılıb gəlirlərmiş. Belələrindən heç kim soruşmur ki, heç Peyğəmbər Mədinədə olarkən Məkkəyə daxil ola bilmədiyi halda, namazları orada qılmasından, ümumiyyətlə, söhbət gedə bilməzdi. Peyğəmbərin daxil ola bilmədiyi yerə bu insanlar necə uçub gedib namazlarını qılıb gəliblər? Bu, onların Peyğəmbərdən üstün olduqlarını iddia etmək deyilmi? Hətta Allahın sonuncu Elçisi Allahın dininə dəvət üçün getdiyi Taifdən qayıdanda Məkkəyə girə bilməmiş, Mutim bin Adiyy adlı müşrikin himayəsi altında şəhərə daxil ola bilmişdi.

Əksini iddia edərək peyğəmbərləri ucaldanlara, belə düşüncədə olanlara bu suallar verilməlidir:

**1.** Allah elçisini bizə nümunə olaraq göstərir. Bu yazılanlardan, daha doğrusu, iddia edilənlərdən hansını nümunə olaraq qəbul edə bilərik? Bunların bizə nə faydası olacaq?

**2.** Allahın "aləmlərə rəhmət", "möhtəşəm əxlaqa sahib", "gözəl nümunə" olaraq tanıtdığı Elçisini bizim ucaltmağımıza ehtiyacı varmı? Bunlar olmasa, Peyğəmbərin nəyi əksiləcək? Onun bizim tərifimizə ehtiyacı varmı? Əksinə, bizim onu anlamağa ehtiyacımız var.

Odur ki, peyğəmbərlər haqqındakı təsəvvürlərimizi formalaşdırmaq üçün bunları Quran laboratoriyasında təhlil etmək

36 Suyuti, "Xasais", 1/70.

lazımdır. Çünki: **1.** Allahın Elçisini ən yaxşı öyrənəcəyimiz ilk mənbə onu elçisi olaraq təyin edənin sözü olan Qurandır. **2.** Quranı bizə Peyğəmbər öyrətdiyi kimi Peyğəmbəri də bizə Quran öyrədir və tanıdır. Quranı Peyğəmbərə müraciət etmədən anlamağa çalışmaq Quranı səhv öyrənməyə qapı araladığı kimi, Peyğəmbəri də Qurana müraciət etmədən dərk etməyə çalışmaq Elçini səhv anlamağa aparıb çıxarır...

Bu sadaladığımız məsələlərin ət və dırnaq, toxum və torpaq kimi bir-birindən ayrı təsəvvür edilməsi doğru deyil. Buna görə də peyğəmbərləri, peyğəmbərlik vəzifəsini və Allahın elçiləri haqqındakı ən doğru məlumatı öyrənə biləcəyimiz yeganə mənbə bu vəzifəyə onları təyin edən Allahın kəlamı olan Qurandır.

Biz Peyğəmbərin bəşəriliyini qəbul etmədiyimizə görə bəzi din adamlarına da hamıdan fərqli insan kimi baxmağa başlayırıq. Bunun nəticəsində də ayətullahları, hocaları, şeyxləri, ustadları ucaltmaq yarışması başlayır. Onların da səhvsiz, hətta müqəddəs olduğunu iddia etməyə başlayırlar. Bütün bunları düşünməyə dəyməzmi?

# ÜÇÜNCÜ HİSSƏ

# İSLAMDA AZYAŞLILARIN AİLƏ HƏYATI QURMASI YOXDUR

Daxilən razı olmasaq da, özümüzü inandırmağa məcbur edirik. Vicdanımız qəbul etmir, lakin başqa çarəmiz olmadığını düşünürük. Quranda olmadığını bilir, ancaq hədis kitablarında yazıldığı üçün susuruq. Özümüzə aid etməmək üçün əsrlərlə əvvələ aid olduğunu iddia edirik. Bəzən də iqlimlə əlaqələndirib, həmin iqlimdə yaşamadığımız üçün sevinirik. Mövzu haqda sual verənlərdən qaçaraq onları ittiham etməyi seçirik. İttiham olunanın həyatını nümunə götürdüyümüz halda bu davranışını həyatımıza yaxın buraxmırıq. Halbuki tənqid etməyi və edilməyi də bacarmalıyıq. Çünki Uca Allahın da Quranda peyğəmbərlərinə tənqidləri öz əksini tapıb.

Bu qaçdığımız, danışmaq istəmədiyimiz, özümüzə yaxın buraxmadığımız həyat sonuncu peyğəmbərin ailə həyatıdır. Daha doğrusu, Muhəmməd peyğəmbərin Aişə ilə evlənməsidir. Ən doğrusu isə Aişənin neçə yaşında ərə getməsidir. Və betəri isə azyaşlı qızlarla evlənmək məsələsidir.

Məqsədim Aişənin hansı yaşda Muhəmməd peyğəmbərlə ailə həyatı qurmasını xatırlatmaq və bu minvalla azyaşlı qızların ailə həyatı qurmasına diqqəti cəlb etməkdir.

Azyaşlı qızların ərə verilməsi ilə bağlı Aişə anamızın Peyğəmbərimizə ərə getmə yaşının əsas kimi qəbul edildiyi güman olunur və bu məsələyə Qurandan da “dəlillər” gətirilir. Bununla da Allahın sonuncu Elçisinin Aişə ilə “kiçik yaş-

da" evlənməsinə haqq qazandırılır. Bu müzakirələrə başlamazdan əvvəl qısa olaraq İslamın ailə həyatı qurmaqla bağlı tövsiyələrinə diqqət yetirmək lazımdır.

## İslamda ailə həyatı

İslam dini insanların ailə qurmalarını istəyir. Lakin bunun məsuliyyətli, ağır bir iş, möhkəm əhd-peyman olduğunu bildirir ***("Nisa***" surəsi, 4/21). Sadələşdirsək, ailə həyatı qurmaq üçün yüz ölçüb, bir biçmək tövsiyə edilir. Bu güclü iradə tələb edən məsuliyyətli işi uşaqlara yükləmək nə dərəcədə doğrudur?

Uca Allah Quranda insanlara belə dua etməyi öyrədir: **"Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma"!** ***("Bəqərə" surəsi, 286).*** Allah Quranda evliliyin ağır və məsuliyyətli müqavilə olduğunu bildirdiyi, başqa bir ayədə də bizə ağır yük yükləməməsi üçün ona dua etməyi öyrətdiyi halda uşaqlara belə bir yükün yüklənməsinə razı olarmı?

## İslam hüququnda azyaşlıların ərə verilməsi

Mövzu ilə bağlı fiqh (İslam hüququ) kitablarına müraciət edək. Azyaşlıların evləndirilməsi və ya ərə verilməsi ilə bağlı fiqh kitablarında qadağa yoxdur. Əksinə, icazə var. Və bu icazəyə də həm Qurandan, həm də Peyğəmbərin həyatından "dəlil"lər gətirilir. Fiqh kitablarında azyaşlıların vəliləri *(himayəsində olduğu kişi cinsinə mənsub olan insanlar)* tərəfindən ərə verilmələrinə və ya evləndirilmələrinə icazə verilməsi ilə bağlı fətvalar öz əksini tapıb.

Bəzi fiqh kitablarının "talaq", yəni boşanma ilə bağlı fəsillərində azyaşlıların iddətlərinin *(iddət boşanandan və ya dul qalandan sonra başqalarına ərə getmək üçün gözləmə müd-*

*dətidir)* 3 ay olduğu bildirilir.[37] Hətta "Talaq" surəsinin 4-cü ayəsində azyaşlıların iddətinin müəyyənləşdirildiyini iddia edirlər.[38] Quranın "Talaq" surəsinin 4, "Nur" surəsinin 32 və "Nisa" surəsinin 6-cı ayələri, Muhəmməd peyğəmbərin həyatından isə Aişənin peyğəmbərlə ailə həyatı qurma yaşı əsas gətirilir. Bu "dəlillər"lə də azyaşlıların ailə həyatı qurmasına "haqq" qazandırılır. Məsələyə aydınlıq gətirmək üçün qeyd edilən ayələrə və hədislərə nəzər yetirək.

## "Hələ heyz görməmiş qızlar" kimlərdir?

Azyaşlı qızların ərə verilməsi üçün əsas kimi qəbul edilən ayələrdən ilki "Talaq" surəsinin 4-cü ayəsidir: Ayədə Uca Allah belə buyurur: **"Heyzdən kəsilmiş (yaşlı) qadınlarınızın (iddəsi barəsində) şübhəniz varsa, onların, eləcə də <u>hələ heyz görməmiş qızların</u>** gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, (Allah) **onun işini asanlaşdırar"** ***("Talaq" surəsi, 65/4).***

Ayədəki *"ləm yəhidnə"*, yəni <u>*"hələ heyz görməmiş qızlar"*</u> dedikdə uşaq yaşda olan qızların nəzərdə tutulduğu iddia edilir. İddianın ən dəhşətli tərəfi isə həmin ifadədən sonra gələn cümlədir. Yəni *"hələ heyz görməmiş qızların gözləmə müddəti 3 aydır"*. Ayəni azyaşlıların boşanması ilə əlaqələndirmək isə daha da qorxuncdur. Bundan belə nəticə çıxarılır ki, bu ayə azyaşlı, uşaq yaşda ərə verilmiş qızların boşanandan sonra başqalarına ərə getmək üçün gözləmə müddəti olan "iddət"dən bəhs edir.

Qeyd etdiyimiz iddia ilə bağlı əsası olmayan məqamları göstərək. Ayədə *"hələ heyz görməmiş qızlar"* kimi tərcümə olunan ifadədə qız uşaqları nəzərdə tutula bilməz. Çünki qız

---

37 Şeybani, Əbu Abdillah Muhammməd bin əl-Həsən (v. 805), "əl-Asl" və ya "əl-Məbsut" I, 409-410, Beyrut, 1990.
38 Səraxsi (v. 1090), "əl-Məbsut", IV, 212-213, Qahirə, 1331

uşağı heyz görmədiyi üçün uşaqdır və uşaqlar üçün *"heyz görmədi"* ifadəsi işlədilməz. Ayədəki *"hələ heyz görməmiş qızlar"* ifadəsi ilə heyzi bir neçə ay gecikən qadınlar nəzərdə tutulur. Ayədə belə qadınlarla bağlı məsələyə aydınlıq gətirilir. Əks təqdirdə, heyzi aylarla gecikən qadının boşanandan sonra artıq keçmiş ərinin evində nə qədər qalacağı məlum olmayacaqdı. "Talaq" surəsindəki ayə isə bu məsələyə aydınlıq gətirərək həmin vaxtı üç ayla məhdudlaşdırır. Buna görə də ayədəki *"heyz görməyənlər"* ifadəsinin uşaq yaşlı qızlara şamil edilməsi düzgün deyil.[39]

Bu məsələyə aydınlıq gətirmək üçün "Əhzab" surəsinin 49-cu ayəsini də qeyd edə bilərik. Həmin ayədə Uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənib onlara toxunmadan əvvəl talaqlarını versəniz, artıq onlar üçün sizə gözləmə müddəti saymağa ehtiyac yoxdur"** ***("Əhzab" surəsi, 33/49).***

Qeyd etdiyimiz hər iki ayəni birlikdə nəzərdən keçirəndə, *"hələ heyz görməmiş qızlar"* ifadəsinin heyzi gecikən qadınlar üçün işlədildiyi, bu ayənin heç bir şəkildə azyaşlı qızların ərə verilməsi, boşanması ilə əlaqəsinin olmadığı gün kimi aydın olur.

## "Ərsiz qadınlar" dedikdə nəzərdə tutulan qız uşaqlarıdır?

Qız uşaqlarının ərə verilməsi üçün "dəlil" kimi qəbul edilən iddialardan biri də "Nur" surəsinin 32-ci ayəsidir. Uca Allah ayədə belə buyurur: **"Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lüftü ilə onları varlı edər. Allah (lütfü ilə) Genişdir, Biləndir!"** ***("Nur" surəsi, 24/32).***

Ayədə *"subay kişilər və ərsiz qadınlar"* kimi tərcümə olu-

---

39 İbn Şübrümə (v. 144/761), Osman əl-Betti (v. 143/760), Əbu Bəkr əl-Asam kimi alimlər də bu fikri qəbul etməyiblər.

nan *“əl-əyəmə”* sözünə istinadla yaş fərqi olmadan qız və oğlanların ailə həyatı qura bilmələri iddia edilib. Halbuki ərəb dili lüğətlərində *“əyəmə”* kəlməsinin təki olan *“əyyim”* sözü *“əri olmayan qadın və ya xanımı olmayan kişi”* mənasına gəlir.[40]

Ayədə **“Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər”** buyurulur. Yəni, kasıb olduğu qeyd edilən şəxslər həmin subaylardır və onların özlərinə kifayət edəcək miqdarda mallarının olmadığını göstərir.

## Yetkinlik yaşı nə vaxtdır?

Bu məsələyə daha ətraflı baxmaq üçün Qurandan bir ayəni qeyd edib birlikdə mövzunu aydınlaşdırmağa çalışaq. “Nisa” surəsinin 6-cı ayəsində Uca Allah belə buyurur: **“Yetimləri <u>yetkinlik yaşına (nikah yaşına)</u> çatana qədər imtahana çəkin. Əgər onların yetkinliyə çatdıqlarını görsəniz, mallarını özlərinə qaytarın...”** ***(“Nisa” surəsi, 6).*** Bu ayədən də aydın olur ki, ərəblərdə “yetkinlik yaşı, nikah yaşı” adlandırılan bir dövr var idi və nikah yaşından əvvəl uşaqlar ərə verilmirdi...

Qeyd etdiyimiz ayədən aydın olur ki, yetkinlik yaşı uşaqların sahib olduqları malları xərcələyə bildikləri dövrdür. Malı üzərində xərcləmək səlahiyyəti olmayanlar yetkin hesab edilmirlər. “Nisa” surəsinin 6-cı ayəsi ilə “Nur” surəsinin 32-ci ayəsi birlikdə düşünüləndə *“subay kişilər və ərsiz qadınlar”* kimi tərcümə olunan *“əl-əyəmə”* ifadəsindən uşaq yaşdakıların deyil, mallarını sərbəst idarə edə biləcək yetkinlik dövründəki gənclərin nəzərdə tutulduğu aydın olur.

## Uşaq yaşdakılar mehrlərini necə istifadə edə bilərlər?

Bundan başqa, “Nisa” surəsinin 4-cü ayəsində Uca Allah belə buyurur: **“Qadınlarınızın mehrlərini könül xoşluğuy-**

---

40 İbn Manzur, “Lisanul ərəb”, ə-y-m maddəsi, Beyrut 1990.

**la verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin!"** ***("Nisa" surəsi, 4).*** Mehr bəzilərinin iddia etdiyi kimi "süd pulu", "başlıq pulu" deyil. Ailə həyatı quran qadına verilən mülkiyyət hüququdur, yəni maldır. Mehr mal olduğu üçün qadının mehr üzərində səlahiyyəti yalnız yetkinlik dövründə mümkündür. Həmçinin, "Bəqərə" surəsinin 229-cu və "Nisa" surəsinin 19-cu ayələrində də evli qadınların öz malları üzərində xərcləmək və istifadə etmək səlahiyyətinin olması bildirilir.

Bundan başqa, ayədə uşaqlıq illərinin nikahla, yetkinlik çağına gəlməklə məhdudlaşdırıldığını oxuyuruq. Əgər uşaqların evləndirilməsinə və ya ərə verilməsinə icazə verilsəydi, təbii ki, məhdudiyyət mənasız olardı.

## Mal ilə nikah arasında oxşarlıq qurula bilərmi?

"Nisa" surəsinin 6-cı ayəsində valideynlərin *(və ya himayədarların)* azyaşlıların malları üzərində də eyni haqqa malik olmaları mənasını çıxaranlar olub. Hətta bunu da müqayisə edərək (qiyas) valideynlərin azyaşlıları ərə verə biləcəyinə qərar veriblər. Mal ilə nikah arasında oxşarlıq olduğunu iddia etmək həm sosial, həm də fiqh üsulu baxımından doğru deyil.

Bir məqamı unutmayaq ki, Quran ayələrini daha gözəl başa düşmək üçün siyaq-sibaq adlandırılan üsulu tətbiq etmək, yəni ayənin əvvəlini və sonrasını birlikdə mütaliə etmək lazımdır. "Nisa" surəsinin 2-ci ayəsindən 6-cı ayəsinə kimi olan ayələrə birlikdə nəzər yetirdikdə evliliyin həddi-buluğa çatmaqla deyil, yetkinliklə əlaqəli olduğu aydın olur. "Nisa" surəsinin 2-ci ayəsində Uca Allah belə buyurur: **"Yetimlərin mallarını özlərinə verin..."** ***("Nisa" surəsi, 2).***

Surənin 6-cı ayəsində isə nikah dövrünə kimi yetimlərin sınanması və nikah dövrünə daxil olduqlarında, yəni yetkin olduqlarında mallarının özlərinə verilməsi tələb edilir. Bu-

nunla, 2-ci ayədə malları özlərinə verilməli olan yetimlərin yetkinlik dövrünə çatan gənclər olduğu aydın olur.

Mövzu ilə əlaqəli olduğu üçün yetimin malına onlar yetkinlik dövrünə çatana kimi dəyilməməsi ilə bağlı iki ayəni də qeyd etməklə kifayətlənək. Uca Allah belə buyurur: **"Yetimin malına, xeyirxah məqsəd istisna olmaqla, yetkinlik dövrünə çatana qədər yaxın düşməyin"** ***("Ənam" surəsi, 6/152),*** **"Yaxşı niyyət istisna olmaqla, yetimin malına yetkinlik dövrünə çatana qədər yaxın düşməyin"** ***("İsra" surəsi, 17/34).***

## Həddi-büluğla yetkinliyin fərqi

"Nisa" surəsinin 6-cı ayəsində *"nikah yaşına, evlilik dövrünə",* yəni yetkinliyə çatana kimi eyni şeylər əmr edilir. "Ənam" surəsinin 152-ci və "İsra" surəsinin 34-cü ayələrində qeyd edilən *"əşuddəh"* kəlməsi ilə həddi-büluğ deyil, yetkinlik dövrü nəzərdə tutulur və həmin söz də bu mənaya gəlir.

Quranın "Yusuf" surəsində də Yusuf peyğəmbərlə əlaqəli olaraq işlədilən həmin söz *"yetkinlik dövrü"* mənasına gəlir. Azərbaycan dilindəki Quran tərcümələrində də "Yusuf" surəsində qeyd etdiyimiz mənada, yəni *"yetkinlik dövrü"* olaraq tərcümə edilib. Məsələn, Vasim Məmmədəliyevlə Ziya Bünyadovun tərcüməsində "Yusuf" surəsinin 22-ci ayəsinə belə məna verilib: **"(Yusif gəncliyinin)** ən yetkin dövrünə **(18, 21, 30 yaxud 33 yaşına) çatdıqda ona hikmət (peyğəmbərlik) və elm verdik. Biz yaxşı işlər görənləri belə mükafatlandırırıq!"**

Dilimizdəki digər bir tərcümədə belə qeyd edilib: "(Yusuf) yetkin çağına çatdıqda Biz ona mühakimə yürütmək (bacarığı) və elm verdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq".

Surənin sonrakı ayələrində qadının Yusufa məhz yetkin dövründə cinsi maraq hiss etməyə başladığı aydın olur. Deməli, bu, uşaqlıq deyil, gənclik mərhələsidir. Buna görə də ayələrin heç birində yetkinlik dövrü uşaq yaşı olaraq başa dü-

şülə bilməz və uşaqların ailə həyatından söhbət gedə bilməz.

Bununla bağlı Qurandan bir neçə ayəni də qeyd edərək mövzunun daha yaxşı başa düşülməsinə çalışaq. Yusuf peyğəmbərlə bağlı qeyd edilən yetkinlik məsələsini bu dəfə "Qəsəs" surəsində Musa peyğəmbərlə əlaqəli görürük. Uca Allah belə buyurur: **"Musa yetkinləşib kamilləşəndə (otuz-qırx yaşlarına çatanda) ona hikmət və elm verdik..."** ***("Qəsəs" surəsi, 28/14).***

"Əhqaf" surəsinin 15-ci ayəsində də eyni sözün yetkinlik mənasında işlədildiyini Azərbaycan dilindəki tərcümələrdə də görmək olar: **"...Nəhayət, o, yetkinlik çağına yetişib qırx yaşa çatdıqda deyər..." ("Əhqaf" surəsi, 46/15).**

Eyni söz "Mumin" surəsində də eyni mənada qeyd edilir: **"Sizi torpaqdan, sonra nütfədən, daha sonra da laxtalanmış qandan yaradan, sonra sizi, böyüyüb yetkinlik yaşına çatasınız, daha sonra da qocalasınız deyə uşaq olaraq (ana bətnindən) çıxardan Odur..." ("Mumin" surəsi, 40/67).**

Bəli, bütün bu ayələrdən həddi-büluğ yaşı ilə yetkinlik (rüşd) yaşının eyni olmadığı məlum olur. Yetkinlik yaşına çatmayan uşaqların isə ailə həyatından danışmaq, ümumiyyətlə, doğru deyil. Beləliklə, yuxarıdakı ayələrdə yetkinliyin əsas götürüldüyü aydın olur.

Bütün bunlardan aydın olur ki, ayələrdən "dəlil" gətirilərkən ayələrarası münasibətə və ayələrin bir-birini açıqlaması prinsipinə əməl edilməyib. Azyaşlıların ailə həyatı qurması ilə bağlı qəbul edilən anlayış ayələrin də düzgün anlaşılmasının qarşısında bir maneə olub. Əfsuslar olsun ki, qadın və mal arasında oxşarlıqlar qurularaq fiqhdəki qiyas şərtləri də pozulub. Gətirilən hər dəlillə bağlı ixtilafın olmasına baxmayaraq, bu məsələdə icmanın olduğu bildirilib. Azyaşlılara qarşı edilən çox böyük səhvlərdən biri savab iş kimi təqdim edilərək Peyğəmbərə böhtan atılıb.

## "Dəlil" gətirilən hədislər

İslam insanların yaradılışına uyğun olaraq göndərilən bir dindir. Quranı oxuduğumuz, Peyğəmbərin əxlaqına baxdığımız zaman bu uyğunluğu aydın şəkildə görə bilərik. Uyğunsuzluq kimi qələmə verilənlər isə sonradan din adına ortaya atılan mövhumat və xurafatlardır ki, bunların İslama heç bir aidiyyatı yoxdur. İslam Allahın endirdiyi, xurafat və mövhumat isə insanların din adı altında uydurduqları cəfəngiyyatdır.

Bunlardan biri də azyaşlıların ailə həyatı qurması məsələsidir. Azyaşlıların ailə həyatı qurmasına, daha çox qızların uşaq yaşda ərə verilməsinə hədislərdən əsas sübut kimi sonuncu peyğəmbərin Aişə ilə ailə həyatı qurması gətirilir.

Ümumiyyətlə, Allahın insanlara doğru yolu göstərmək üçün göndərdiyi peyğəmbərlərin həyatları həmişə inananlar üçün nümunə, inanmayanlar üçün isə xüsusi diqqət və tənqid mərkəzi olub. Peyğəmbərlər sözləri, davranışları və yaşayış tərzləri ilə cəmiyyətin nəzərini hər dövrdə üzərlərinə çəkən şəxsiyyətlərdir. Onların hər hərəkəti demək olar ki, müzakirə mövzusu olub. Həyatı ən çox mübahisələrə və müzakirələrə səbəb olan isə Muhəmməd peyğəmbərdir. Bu, həm onun yaşadığı dövrün başqa peyğəmbərlərin yaşadığı dövrə nisbətən bizə daha yaxın olması, həm də həyatının hər anının qeyd edilərək günümüzə qədər gəlib çatmasıdır. Allahın sonuncu elçisi Muhəmməd peyğəmbərin həyatının tənqid mövzusu olan məqamlarından biri onun Aişə ilə evlənməsidir. Daha doğrusu, Aişənin ərə getdiyi yaş dövrüdür.

## Aişə Peyğəmbərlə neçə yaşında ailə həyatı qurub?

Peyğəmbərin Aişə ilə ailə həyatı qurmasının qınanmasına əsas səbəb əlli üç yaşında doqquz yaşlı qızı özünə həyat yoldaşı seçməsidir. *"Bu yaşda bir uşaqla nişanlanmaq və ya*

*bir qızı almaq olarmı?"* kimi suallara həmişə: "Ərəbistan yarımadasındakı iqlim bizdən fərqli olduğu üçün qızlar tez yetkinlik dövrünə çatır və 9-10 yaşlarında ərə getməyə hazır olurlar"- deyə cavab verilib. Ancaq bunu deyənlərin daxilində təbii ki, həmişə bir narahatçılıq hissi olub. Əlbəttə, əlli üç yaşlı bir peyğəmbərlə doqquz yaşındakı qızın evliliyini təsəvvür etmək çox çətindir. Peyğəmbərin nəvəsi yaşındakı bir qızla evlənməsi insana çox təəccüblü gəlir. Hətta bu məsələni müsəlman olmayanlar müsəlman olanların əleyhinə istifadə edir, rişxənd eləyir, Allahın sonuncu Elçisini məsxərəyə qoyurlar. Buna qarşılıq olaraq müsəlmanlar nə edirlər? Ya susmaqla yola verir, ya da bunu yara kimi görüb qaşınmasını istəmirlər.

Bəs, həqiqət necədir? Həqiqətənmi Aişə uşaq yaşlarında ikən Allah Rəsulu ilə ailə həyatı qurub? Müsəlmanlar bu "həqiqətlə", mənbələrdəki yanlışlıqlarla üzləşməyə hazırdırlarmı? Yoxsa yenə boyunlarını büküb, müxtəlif bəhanələrlə bundan yayınmağa davam etməlidirlər?

Müsəlmanlar bu yaşdakı evliliyə etiraz etməyi bacarmalıdırlar. Bunun üçün mənbələrə tənqidi yanaşmağı öyrənməliyik. Bunu öyrənərək Aişənin ərə getdiyi yaşı müəyyənləşdirə bilərik. Amma bundan əvvəl Peyğəmbərin ilk evliliyinə, yəni Xədicə anamızla ailə həyatı qurmasına qısa olaraq toxunmaq lazımdır.

## Peyğəmbərin ilk evliliyi

Mənbələrdə Peyğəmbərimizin Aişə ilə nişanlanmasından bəhs edilir. Həmin məsələnin əsasını qeyd etmək istəyərdim. Rəsulullahın ilk xanımı Xədicə anamız olub. Xədicə ilə yaşadığı 25 illik evlilik dövründə ikinci bir qadınla ailə həyatı qurmayıb. Xədicə anamız hicrətdən (Peyğəmbərin Məkkədən Mədinəyə köçməsindən) 3 il əvvəl vəfat edib. Allahın sonuncu Elçisi 3 ilə yaxın dul olaraq yaşadı. Həm də qızları

ilə birlikdə. Xədicə anamızın vəfatından sonra onun sıxıntısı daha da artmışdı. Yetim qalan uşaqları, ev işləri və Məkkədəki təzyiq atmosferi yükünü daha da artırmışdı. Bütün bunları bilən Havlə binti Hakim adlı müsəlman bir qadınla Peyğəmbərin arasında belə bir dialoq gerçəkləşir:

- Ey Allahın Elçisi, evlənməyəcəksən?
- Kiminlə?
- İstəyirsən, bakirə bir qızla, ya da dul bir qadınla...
- Bakirələrdən kiminlə ailə həyatı qura bilərəm?
- Sənin ən çox istədiyin Əbu Bəkrin qızı Aişə ilə...
- Bəs dullardan?
- Səvda bint Zəma b. Kays ilə...

Bundan sonra Havlə Aişənin anası Rumanla məsləhətləşir, onun fikrini soruşur, daha sonra məsələni Əbu Bəkrə çatdırıb onunla məsləhət edirlər. Nəticədə Əbu Bəkr qızı Aişəni Peyğəmbərlə nişanlayır...[41]

Burada da maraqlı məqamlar var. Həmin məqamlara keçməmişdən əvvəl qeyd edək ki, Rəsulullahın Sevda adlı dul bir qadınla ailə həyatı qurduğu və həmin ərəfədə Aişə ilə də nişanlandığı bildirilir. Hətta Aişənin bu zaman 6 yaşı olduğu qeyd edilir. Mədinəyə köçəndən sonra isə 9 yaşında onunla zifafa girdiyi mənbələrdə öz əksini tapıb. Hansı mənbələrdə qeyd edildiyini göstərək: **Buxari**, “Nikah”, 38, 39; “Mənaqibul Ənsa”r, 44; **Muslim**, “Nikah”, 70; **Tirmizi**, “Nikah”, 18; Əbu Davud, “Nikah”, 32; **Nəsai**, “Nikah”, 29; İbn Macə, “Nikah”, 13; Əhməd b. Hənbəl, “Musnəd”, VI, 42, 118.

Yuxarıda qeyd etdiyimiz məsələyə aydınlıq gətirməyə çalışaq:

*Birincisi,* Xədicə anamız özündən sonra bir neçə qız uşağı qoyaraq dünyasını dəyişmişdi. Bu qızların arasına uşaq yaşda birinin gətirilməsi nə dərəcədə doğru olardı?

İkincisi, Havlə Peyğəmbərin çətinliyini görəndən sonra

---

41 ət-Təbəri, “Tarix”, Beyrut, 1967, III, 161-163.

ona evlənməyi təklif etmişdi ki, evlənəcəyi qadın ona dayaq olsun. 6 yaşlı Aişə ona necə dayaq ola bilərdi?

Üçüncüsü, Havlə iki təklif vermişdi. Bunlardan biri dul, digəri isə bakirə idi. Ümumiyyətlə, uşaq yaşdakı qızlar üçün bakirə sözü işlədilmir. Buradan da aydın olur ki, Peyğəmbərin ailə həyatı qurması üçün təklif edilən uşaq yox, yetişkin bakirə qız idi.

*Dördüncüsü,* Aişə əgər iddia edildiyi kimi 6 yaşında olsaydı, onunla evlənməsinin təklif edilməsi nə qədər məntiqli ola bilərdi? Bu cür təklifin mahiyyəti nə ola bilərdi?

## Aişənin anadan olduğu il

Aişə anamızın anadan olduğu illə bağlı müxtəlif versiyalar ortaya atılıb. Bunun səbəbi isə həmin dövrdə uşaqların anadan olduğu günə əhəmiyyət verilməməsi və doğum günlərinin günümüzdəki kimi qeyd olunmaması idi.

Aişənin 9 yaşında Peyğəmbərin həyat yoldaşı olduğunu bildirənlər onun peyğəmbərliyin gəlişinin dördüncü ilində, yəni 614-cü ildə anadan olduğunu söyləyirlər. Süleyman Nədvi və Akkad kimi alimlər isə Aişənin peyğəmbərlikdən əvvəl anadan olduğunu bildirirlər.[42]

Peyğəmbərliyin dördüncü ilində anadan olmasının doğru olmadığı Aişənin şəxsən özündən nəql edilən bir rəvayətdən də aydın olur: "Mən oyun oynayan bir qız uşağı ikən **"Xeyr, onların əsl əzab vaxtı qiyamət günüdür. Qiyamət gününün əzabı daha şiddətlidir"** ***("Qəmər" surəsi, 46)*** ayəsi Məkkədə Muhəmmədə nazil olmuşdu".[43]

"Qəmər" surəsinin Məkkədə "Tariq" surəsindən sonra nazil olduğu bildirilir. Surənin bütövlükdə Məkkədə Peyğəmbərə vəhy olunduğu məsələsində fərqli fikir yoxdur *(Abdulvahid*

42 Süleyman Nedvi, "İslam tarihi: Asrı saadet" (terc. Ömer Rıza Doğrul), İstanbul, V, 12-25; Akkad "əs-Sıddıqa bintus Sıddıq", Qahirə, 1963, səh. 39, 59-60.

43 Buxari, "Təfsirul-Quran", 1781; "Fəzailul Quran", 6.

*Mətin, "Əsbabı nüzul", "Qəmər" surəsinin nüzulu; Bedreddin Çetiner, "Əsbabı nüzul", "Qəmər" surəsi).* Bu surə Məkkə dövrünün ilk illərində *(peyğəmbərliyin 4-cü ilində)* nazil olub. Aişə bu surə və ayələrin nə vaxt gəldiyini xatırladığına görə onun həmin ildə dünyaya gəlməsi mümkün deyil. Ayənin nə vaxt Peyğəmbərə göndərildiyini yadında saxlaya və küçədə oynaya bilməsi üçün Aişənin ən azı 5-6 yaşlarında və ya daha böyük bir qız olması lazım idi. "Qəmər" surəsinin də Quranın gəlməyə başlamasının 4-cü ilində nazil olduğunu nəzərə alsaq, Aişənin Peyğəmbərlə ailə həyatı qurduğu ildə ən azı 16-17 yaşlarında və ya daha böyük olması ehtimalı var. Çünki Peyğəmbərlikdən 4 il əvvəl dünyaya gələn bir qızın *(605-ci il)* 623-cü ildə Peyğəmbərə ərə verilərkən 9 yaşda olması mümkün deyildi. Beləliklə, 9 yaş məsələsinin doğru olmadığı fikri aydınlaşmağa başlayır. Mövzunu davam etdiririk...

## Aişə Peyğəmbərə ərə getməmişdən əvvəl nişanlı olub

Aişə anamızın azyaşlı olmamasına aydınlıq gətirən daha bir hadisə var. Aişə Allah Rəsulu ilə ailə həyatı qurmamışdan, hətta nişanlanmamışdan əvvəl Mutimin oğlu Cubeyrlə nişanlı idi. Bəs, görəsən, Mutim Əbu Bəkrin müsəlman olduğunu hardan bilmişdi? Çünki İslamın ilk illərində təbliğat gizli şəkildə aparılırdı. Mutimin oğlunun nişanlısının atası Əbu Bəkrin müsəlman olduğunu bilməsi ancaq İslamın açıq-aşkar insanlara elan edilməsindən, müsəlmanların Kəbəyə yürüşündən və ya Səfa təpəsindəki yığıncaqdan sonra mümkün ola bilərdi. Mutimin bu əsnada müsəlman olduğunu öyrəndiyi Əbu Bəkrin qızını oğlu Cubeyrə almaqdan imtina etməsi daha məntiqli görünür. Çünki iddia edildiyi kimi, əgər Aişə peyğəmbərliyin dördüncü ilində, yəni 614-cü ildə anadan olsaydı, bu hadisə zamanı anasının ona hamilə olması lazım gələrdi ki, bu da deyilənlərlə üst-üstə düşmür.

Bu hadisə də Aişənin Peyğəmbərlə ailə həyatı qurmamış-

dan, daha doğrusu, nişanlanmamışdan əvvəl evlilik yaşına çatdığını və buna görə Cubeyrlə nişanlandığını göstərir.

## Bacısı Aişədən 10 yaş böyük olub

Bu məsələni təsdiq edən başqa bir məsələ Aişənin bacısı Əsmanın vəziyyətidir. Əsma binti Əbu Bəkr Abdullah bin Zubeyrin anasıdır. Əsmanın yüz yaşına qədər yaşadığı və hicri tarixilə 73-cü ildə (695-ci il) Məkkədə vəfat etdiyi bildirilir.

Əsma və Abdullah Əbu Bəkrin Kaylə binti Abduluzza adlı xanımından, Aişə və Əbdurrəhman isə Ummi Ruman adlı xanımından dünyaya gəliblər. Əsma hicrətdən (622) 27 il əvvəl – 595-ci ildə Məkkədə doğulub. On yaş Aişədən böyük olub.[44]

Əsmanın yüz yaşında və hicrətin 73-cü ilində dünyasını dəyişdiyini nəzərə alsaq, Məkkədən Mədinəyə hicrət əsnasında, yəni 622-ci ildə o, 27 yaşında olmalı idi *(Əsma hicrət ərəfəsində artıq Zubeyrə hamilə idi)*. Bu isə ondan 10 yaş kiçik olan Aişənin həmin vaxt 17 yaşında olduğu anlamına gəlir. Bu saydıqlarımızdan gəldiyimiz nəticəyə görə, Aişə peyğəmbərliyin 4-cü ilində deyil, peyğəmbərlikdən əvvəl 4-cü ildə, miladi təqvimlə 605 və ya 606-cı ildə dünyaya gəlib.

## Allah Rəsulu qızı Fatiməni neçə yaşında ərə verib?

Bundan başqa, Muhəmməd peyğəmbərin kiçik qızı Fatimənin peyğəmbərlikdən 5 il əvvəl – Qureyşin Kəbəni təmir etdiyi ildə (605) Məkkədə anadan olduğu haqqında fikirlər var.[45]

İbn Həcərə görə, Fatimə doğulanda Rəsulullahın 35 yaşı var idi. Fatimə Aişədən bir neçə yaş (3-5 yaş) böyük idi. Deməli, Aişə doğulanda Rəsulullah 40 yaşında idi. Rəsulul-

---

44 Əbdurrəhman b. Əbiz Zinad, İbn Kəsir və İbn Həcərə görə, Aişənin bacısı Əsma ondan 10 yaş böyük idi.

45 İbn Sad, “Tabaqat”, VIII, 19.

lahın Aişə ilə Mədinədə evləndiyini nəzərə alsaq, Aişənin ən az 13 yaşı olmalı idi, 9 deyil. Amma biz 13 yaş məsələsinin doğru olduğunu düşünmürük. Sadəcə, günümüzə gəlib çatan mənbələri araşdırmaq və məntiqi nəticə çıxarmaqla 9 yaş barədə məlumatların da doğru olmadığını qeyd edirik.

Xatırladaq ki, Peyğəmbərlə Aişənin toyu hicri tarixi ilə 2-ci ilin şəvval ayında (624-cü ilin aprel ayı) olub. Toyun hicri təqviminin 1-ci ilinin şəvval ayında olduğu da rəvayət edilir (623).[46] Fatimə ilə Əlinin toyu Peyğəmbərin Aişə ilə ailə həyatı qurmasından 4-5 ay sonra, 624-cü ildə olub.[47] Əlinin hicrətdən təxminən 22 il əvvəl, 600-cü ildə anadan olduğunu[48] nəzərə alsaq, bu evlilik əsnasında Əlinin 24, Fatimənin isə ən azı 15 və ya 18 yaşı vardı. Allah Rəsulu qızı Fatiməni Əliyə ərə verməmişdən əvvəl onunla evlənmək üçün Əbu Bəkr və Ömər də Peyğəmbərə elçi düşmüşdülər. Lakin Peyğəmbər münasib dillə hər ikisindən üzrxahlıq edərək qızını Əliylə evləndirmişdi.[49] Əgər həmin bölgədə qız uşaqları 6 yaşında nişanlanıb 9 yaşında ərə gedə biləcək halda olurdularsa, nəyə görə Muhəmməd peyğəmbər evində böyütdüyü Əli ilə Fatiməni evləndirmək üçün 15 və ya 18 yaşında qədər gözləmişdi? Allah Rəsulundan 2-3 yaş böyük olduğu bildirilən dostu Əbu Bəkr[50] və ya Ömər niyə Peyğəmbərdən qızı Fatiməni 9 yaşında deyil 15, yaxud 18 yaşında istəyiblər? Nəyə görə bu qədər gözləyiblər? Və ya Allahın Elçisi niyə qızını 6 yaşında nişanlamamışdı ki, heç kim də onu istəmək üçün müraciət etməsin? Əgər iddia edildiyi kimi, Əbu Bəkr qızı Aişəni 6 yaşında nişanlamış və 9 yaşında Peyğəmbərlə ailə

46 Mustafa Fayda, TDV İslam Ansiklopedisi, "Aişe" maddəsi, II, səh. 201-202.
47 M. Yaşar kandemir, TDV İslam Ansiklopedisi, "Fatıma" Maddəsi, XII, səh. 219-233.
48 Ethem Ruhi Fığlalı, TDV İslam Ansiklopedisi, "Ali" maddəsi, II, səh. 371.
49 İbn Sad, "Tabaqat", VIII, 19.
50 Mustafa Fayda, TDV İslam Ansiklopedisi, "Ebu Bekir" maddəsi, X, səh. 101-108.

həyatı qurmasına razı olmuşdusa, niyə Fatiməni iddia edildiyi kimi öz qızını ərə verdiyi yaşda Peyğəmbərdən istəməyib? Məsələyə bu aspektdən də nəzər yetirdikdə Aişənin 9 yaşında ailə həyatı qurması iddiası öz tutarlılığını itirir.

## Müsəlman olanların siyahısında...

Aişənin adının Həbəşistana hicrətdən əvvəl İslamı ilk qəbul edənlər sırasında çəkilməsi də maraqlı bir məqamı ortaya çıxarır. Əgər hicrət əsnasında 8 yaşı olduğu iddia edilirsə, Aişə anamız Həbəşistana hicrət əsnasında dünyaya gəlməməli idi. Halbuki Aişənin adı Həbəşistana hicrətdən əvvəl müsəlman olanların siyahısında qeyd edilir.

## İqlim amili bəhanədir

Bəziləri iddia edirlər ki, Ərəbistan kəskin kontinental və quru, çox isti yay iqliminə malik olduğuna görə burada doğulub böyüyən 9 yaşlı qızlar Azərbaycan kimi ölkələrdə yaşayan 18 yaşlı qız kimi olurlar. Bunu iddia edənlər Aişənin ərə verildiyi Peyğəmbər haqqında niyə eyni sözü demirlər? Niyə demirlər ki, eyni iqlimdə yaşayan 53 yaşlı kişilər də bizim 106 yaşlı kişilər kimi olmalıydı? Təbii ki, yaşayarlarsa... Bu məntiqlə yola çıxsaq, gərək ərəb qızları anadan doğulan kimi ana südü əmib orta məktəbə yollansınlar ki, 9 yaşda ərə gedə bilsinlər. Belə olduğu təqdirdə, gərək həmin ölkədə nə orta təhsilə, nə də universitetlərə ehtiyac olsun.

Əgər Aişənin 9 yaşında ərə verilməsi və yetişkin qız olması iqlimlə bağlı idisə, görəsən, Fatimə 9 yaşında ərə gedəcək fiziki quruluşa, zahiri görünüşə malik deyildimi? Əgər Ərəbistan yarımadasında qızlar tez həddi-büluğa çatıb ərə gedəcək və dünyaya uşaq gətirəcək fiziki özəlliyə malik idilərsə, nəyə görə Peyğəmbər döyüşdə iştirak etmək istəyən doqquz yaşındakı oğlana *"sən hələ kiçiksən"* deyərək evə qayıtmağı

məsləhət görür?[51]

İsti iqlimə malik olan yerlərdə qızların erkən yetişməsi, ərgənlik yaşına tez çatmaları ilə bağlı iddianın heç bir əsası yoxdur. Əgər bu iddianın əsası olsaydı, soyuq iqlimli coğrafiyada böyüyənlərin hamısının inkişafdan geri qaldıqlarını iddia etməliydik. Bu məsələ ilə bağlı heç bir tədqiqat aparılmadığını və müvafiq statistikanın olmadığını da qeyd etməliyik.

Bundan başqa, bu iddiada olanlar Aişənin digərlərindən fərqli olaraq daha tez yetişdiyini sübut etməlidirlər. Amma mənbələrdə Aişənin arıq olması ilə bağlı məlumatlar var. Hətta məşhur "İfq" hadisəsinin əsas səbəblərindən biri onun bədəncə cılız olmasıdır. Belə ki, Aişə o qədər yüngül olub ki, onu dəvənin üstündəki kəcavədə ikən götürüb yerə qoyanlar Mədinəyə qayıdanda eyni kəcavəni dəvənin üstünə qaldırarkən onun içində olub-olmadığını hiss etməyiblər.[52] Belə çıxır ki, Aişə ailə həyatı qurandan sonra arıqlayıb?

Mənbələrdə Aişə arıq olduğu üçün ərə getməmişdən əvvəl qidalanmasına diqqətlə yanaşıldığı və kökəlməsi üçün çoxlu xurma yedirildiyi də əksini tapıb.[53]

Unutmayaq ki, Aişə anamız Allah Rəsulu ilə 9 il birlikdə yaşayıb. O, dövrünün ən böyük alimləri hesab edilən şəxsləri də tənqid edərək səhvlərini düzəldib, müxtəlif mövzularda hökmlər çıxarıb, Quranın və hədislərin düzgün başa düşülməsi məsələsində insanlara yol göstərib. Bütün bu yetişkin və müdrik davranışları isə hələ uşaq yaşdakı birinə şamil etmək həm məntiqli deyil, həm də əsassızdır.

## Aişə Peyğəmbərlə 9 il birlikdə yaşayıb

Aişə anamız Peyğəmbərin vəfatına kimi onunla 9 il ailə həyatı yaşayıb. Peyğəmbərin vəfatı əsnasında onun 27 yaşı vardı. Allah Rəsulunun dünyasını dəyişməsindən sonra 48 il

51 Yunus Emre Özulu, Şamil İslam Ansiklopedisi, "Aişə" maddəsi.
52 İbn Hişam, "əs-Sirətun-Nəbəviyyə", Beyrut, III, 310.
53 İbn İshaq, "Sirə", 1981, səh. 239.

ömür sürüb və hicri təqviminin 58-ci ilinin ramazan ayının 17-də (14 iyul 678-ci il) vitr namazından sonra Mədinədə vəfat edib. Vəfat etdiyi tarixin hicri 56, 57, 59-cu illərin ramazan ayının 13-ü və ya 19-u olduğu da rəvayət edilib. Beləliklə, Aişə anamız dünyasını dəyişəndə 74 yaşı olub.

Aişənin ölüm yaşından Allah Rəsulu ilə birlikdə yaşadığı ili, Peyğəmbərdən sonra yaşadığı tarixi çıxsaq, onun Rəsulullahla neçə yaşında ailə həyatı qurduğu aydın olar: 74 – 9 = 65, 65 – 48 = 17. Deməli ki, Aişə anamız Peyğəmbərlə ailə həyatı quranda 9 yaşında uşaq deyil, ən azı 17 yaşlı gənc qız olub.

## Müharibədə iştirak etməyən oğlanlar...

Bədr və Uhud müsəlmanların ilk iki döyüşü idi. Hər ikisində də hücuma məruz qalanlar Rəsulullah və ətrafındakı insanlar olub. Bu döyüşlərin birincisi qələbə, ikincisi isə məğlubiyyətlə nəticələnmiş savaşlardır. İnsanların həlak olduğu bu döyüşlərə Peyğəmbər uşaq yaşdakı oğlanları aparmayıb. Hətta döyüşə qatılanların arasındakı səkkiz oğlan uşağını görüb geri qaytarıb. Halbuki tarixi mənbələrdən də bilirik ki, Rəsulullah hər iki döyüşə Aişə anamızı da aparıb. Necə ola bilər ki, Rəsulullah uşaq yaşlı oğlanların həmin döyüşlərdə iştirakına icazə vermədiyi halda, 9 yaşlı xanımını özü ilə savaşa aparıb? Azyaşlı oğlanlar *"Kömək edirdilər"* cavabına isə bu sualla qarşılıq verək: *"Azyaşlı oğlanlar da kömək edə bilməzdilərmi?"* Niyə azyaşlı həyat yoldaşını, bir qadını, bir xanımı döyüşə gətirir, amma gənc oğlanları geri qaytarır? Bu nə dərəcədə doğru ola bilər? Buna görə də, qadınlar döyüşdə iştirak edərək faydalı ola bilmələri üçün uşaq olmamalı idilər.

## Nəvəsi yaşda uşaqla evlənməsinə etiraz etməyənlər

Muhəmməd peyğəmbər əgər cəmiyyət qəbul etmədiyi bir hərəkəti etsəydi, ona tənə edər, məsxərəyə qoyar və bunu əllərində bayraq tutaraq insanların gözündən salmağa çalışar-

dılar. Rəsulullah həmin cəmiyyətin məqbul saymadığı bir işi etsəydi, şübhəsiz ki, bunu gündəmə gətirərək ona qarşı istifadə edənlər olardı və ictimai qınaq formalaşdırılardı.

Peyğəmbərə müxtəlif böhtanlar atıldığını Qurandan öyrənirik. Ona gətirdiyi tövhidə görə kahin, dəli, sehrbaz, məcnun, yalançı deyiblər... Hətta bibisi qızı Zeynəblə ailə həyatı qurmasını lağ obyektinə çevirənlər olub. Amma heç vaxt onun Aişə ilə ailə həyatı qurmasına – nəvəsi yaşdakı qız uşağı ilə evləndiyi iddiasına bircə kəlmə də söz atan olmayıb. Bircə nəfər də buna etiraz etməyib. Çünki Aişə uşaq yaşda deyil, ailə həyatı quracaq yaşda gənc bir qadın idi. Bu arqumentimizə etiraz da edilə bilər. İddia edilə bilər ki, həmin cəmiyyətdə hamı bu cür ailə həyatı qururdu və bu, onlara görə adi bir hadisə idi, sadə bir evlilik idi və s. Bu şəkildə etiraz edənlərdən bircə dənə olsa misal gətirmələrini xahiş edəcəyik...

## Azyaşlıların daşıya bilməyəcəyi yüklər

Azyaşlıların ailə həyatı qurmaları onları öhdəsindən gələ bilməyəcəkləri vəzifələrlə yükləməkdir. Çünki ailədəki iqtisadi, bioloji, fizioloji və psixoloji amilləri uşaqların aşması mümkün deyil. Həmçinin, bununla Allahın insanlara bəxş etdiyi sevmək və sevilmək kimi təbii haqlar da heçə sayılmış olur. Ailə həyatı deyərkən nəzədə tutulan budurmu? İslam belə bir evliliyə münasibəti nə dərəcədə təqdirəlayiq qəbul edə bilər?

## Ailə həyatı qurmağın məqsədi nədir?

*Azyaşlıların ailə həyatında bu məqsədlər həyata keçirmi?*

Ailə həyatı qurmaqda əsas məqsəd birlikdə yaşamaq, ünsiyyət qurub rahatlıq tapmaq və dünyaya övlad gətirməkdir. Uşaqların ərə verilməsində və evləndirilməsində bunların hansı baş verəcək? Bu, uşaqların təhsildən yayınması deyilmi? Ailədə bisavad, cahil nəsillərin yetişməsinə rəvac vermək

deyilmi? Bu, onları normal olmayan psixoloji problemlər məngənəsinə salmaq sayılmırmı? İslamın istədiyi insanların psixoloji sarsıntılara məruz qalmalarıdır, yoxsa dünya və axirətdə səadət tapmaları?

## Təhsil haqqı əlindən alınan uşaqlar

6 yaşında uşağın evlənməsinə icazə verənlər heç onların təhsilini düşünüblərmi? Yoxsa fikirləşiblər ki, 9 yaşında əl-ələ tutub dərsə gedəcəklər? Uca Allah Quranda bilənlərlə bilməyənlərin eyni olmadığını ***("Zumər" surəsi, 39/9)*** buyuraraq insanları bilməyə, öyrənməyə təşviq etdiyi halda biz bu haqqı uşaqlardan necə ala bilərik? Aişə ilə 6 yaşında nişanlandığı, 9 yaşında evləndiyi iddia edilən Allahın sonuncu Elçisi Muhəmməd peyğəmbər ***"Heç bir valideyn uşağına ədəb və tərbiyədən daha gözəl bir şey verməyib"*** deyib.[54] Hansısa hədisində deyibmi ki, ən yaxşı valideyn övladını 6 yaşında nişanlayıb 9 yaşında ərə verəndir? Əksinə, bunları söylədiyi iddia olunub: "Övladlarınız 7 yaşına çatanda namaz qılmağı öyrədin. 10 yaşında qılmasalar, müəyyən tədbirlər alın",[55] - deyən bir Peyğəmbərin 9 yaşında, nəvəsi yaşda qızı aldığını iddia etmək nə dərəcədə doğrudur? Bu cür tövsiyələr verən bir Peyğəmbər uşaqların əlindən uşaqlıqlarının alınmasına necə qıyardı? Öz uşaqlarına rəva görmədiyini başqalarının övladlarına necə rəva görərdi? Onların hələ namaz qılmağa öyrədilmə dövrü kimi ifadə etdiyi dövrdə ailə həyatı qurmalarına razılıq verməsi nə dərəcədə mümkün ola bilərdi?

Yuxarıdakı ayələr və Peyğəmbərin hədisləri sübut edir ki, səbəbindən asılı olmayaraq İslam azyaşlı uşaqların ailə həyatı qurmasını qəbul etmir.

Heç bir kimsə dinindən, dilindən, irqindən, millətindən asılı olmayaraq 53 yaşlı bir insanın özündən dəfələrlə kiçik – 9 yaşlı bir qızla ailə həyatı qurmasına razı ola bilməz. Heç

---

54 Tirmizi, "Birr", 33.
55 Əbu Davud, "Salah", 25; Tirmizi, "Məvaqit", 182.

kimin babası yaşdakı kişinin nəvəsi yaşda qızla ailə həyatı qurmasına normal baxması mümkün deyil. Qaldı ki, bu, müsəlmanların sevdiyi bir Peyğəmbər ola.

Günümüzdə 6 və ya 9 yaşlı qızını nəinki ərə verməyi fikirləşən, əksinə, daha yaxşı təhsil verməyi düşünən bir müsəlmana bu cür təklif edilsə, necə cavab verər? Razı olarmı ki, 9 yaşlı qızı 53 yaşlı bir müsəlmana ərə getsin? Yoxsa bunu qarşı tərəfin Peyğəmbər olması ilə əlaqələndirib işin içindən sıyrılmağa çalışar? Bəs məsələnin digər tərəfini düşünməyəcəkmi? Bunu qeyrətlə əlaqələndirən bir müsəlman özünü Əbu Bəkr kimi bir şəxsiyyətdən daha qeyrətli hesab edə biləcəkmi? Bu məsələnin VII əsrə aid bir məqam olaraq iddia edənlər İslamın universallığı və bütün dövrlərə aid olan bir din olması barədə şübhə yaratmırlarmı? İslamı VII əsrə həbs etmək onun ümumbəşəriliyinə kölgə salmaq deyilmi?

"Ən səhih" hədis kitablarında mövcud olan rəvayətlərə xələl gəlməməsi, həmin kitaba toz qondurmamaq, kitabın müəllifinə söz gəlməməsi üçün göstərdiyimiz səyi Peyğəmbərə qarşı göstərməli deyilikmi? Bütün bunlara görə Peyğəmbərə belə bir böhtanı, belə bir ləkəni necə layiq bilirlər? Mənbədəki bir rəvayətdən uzaqlaşmaq əvəzinə Peyğəmbərimizə ləkə atmaq nə qədər doğrudur? Peyğəmbər həmin kitab müəlliflərindən daha az hörmətə layiqdir?

Cinayət məcəllələrində yetkinlik yaşına çatmayanlara, uşaq yaşdakılara sataşmanı uşaqbazlıq (pedofiliya) olaraq görənlər, bunu Peyğəmbər kimi bir insana necə yaraşdıra bilərlər? Peyğəmbəri təhqir edənlərə qarşı etiraz edənlər özləri bu sözlərlə Allahın sonuncu Elçisini təhqir etmirlərmi?

Unutmayaq ki, Allahın sonuncu Elçisi Muhəmməd peyğəmbərin evlilikləri şəhvət evliliyi deyil, şəfqət evliliyi olub. Və Aişə ilə evliliyi 9 yaşlı uşaqla deyil, 18-23 yaş aralığında olan gənc bir qızla olub.

# DÖRDÜNCÜ HİSSƏ

# İSLAMDA SEYYİDLİK YOXDUR!

Bu bir həqiqətdir ki, cəmiyyətimizdə dindarlara və din xadimlərinə qarşı münasibət birmənalı deyil. Lakin dindar və ya din xadimi olub-olmamasından asılı olmayaraq xüsusi münasibət görən bir zümrə var. Bu zümrə dindəki buyruqları yerinə yetirib-yetirməməsinə baxmayaraq, əksəriyyət tərəfindən hörmət-ehtiram görən "seyyid" adlandırılan şəxslərdir. Bu insanlara xüsusi hörmət göstərilməsinin səbəbi onların Muhəmməd peyğəmbərin nəslindən gəldiyi düşüncəsi və inamıdır.

Bəs seyyidlər kimlərdir? Quranda bu haqda nə buyurulur? Həqiqətənmi peyğəmbər nəslindən gələnlər "seyyid" adlandırılır? Əvvəlki peyğəmbərlərin nəsli ilə əlaqəli bu cür yanaşma varmı? Peyğəmbər soyundan gələnlər başqalarından fərqlənirlərmi? Siyasi hakimiyyətlərin seyyidlərə münasibəti necə olub? İslamda, ümumiyyətlə, üstünlük anlayışı nədir? Bu yazıda qeyd olunan suallara cavab tapmağa çalışacağıq.

## "Seyyid" sözünün mənası

"Seyyid" sözünün lüğətdəki mənası "bəy, nüfuzlu şəxs, rəis, əfəndi" deməkdir. Ərəb dilində "seyyid" sözü "bəy" mənasında müraciət forması kimi istifadə edilir.

## Muhəmməd peyğəmbərin seyyidliyi

Hazırda dini termin kimi sonuncu peyğəmbərin nəslindən gələnlərin "seyyid" adlandırılmasına baxmayaraq, bəzi rə-

vayətlərdə Muhəmməd peyğəmbərin özü "seyyid" adlandırılıb. Məsələn, Allah Rəsulu "Seyyidus-Səqələyn" (dünya və axirətin əfəndisi), "Seyyidul-ənam" (yaradılanların böyüyü), "Seyyidul-ənbiya" (bütün peyğəmbərlərin rəhbəri) da adlandırılıb. Peyğəmbərə istinad edilən hədislərin birində belə buyurulur: **"Mən adəm oğlunun (bəşərin) seyyidiyəm"**,[56] **"Mən qiyamət günündə insanların seyyidiyəm"**.[57] Qısa olaraq qeyd edək ki, bu cür adlandırmalar Qurana uyğun ifadələr deyil və təvazökar Peyğəmbər anlayışına da ziddir.

## Seyyid olan səhabələr

Bəzi rəvayətlərdə isə "seyyid" kəlməsi lüğətdəki mənasına uyğun olaraq "qəbilə başçısı", "tayfanın nüfuzlu şəxsləri" kimi mənalarda da işlədilib. Bundan başqa, cümə günü də digər günlərdən fərqli olmamasına baxmayaraq, "günlərin seyyidi" adlandırılıb.[58]

Peyğəmbərin səhabələri "seyyid" kəlməsindən öz aralarında da istifadə ediblər. Məsələn, ikinci xəlifə Ömər b. Xəttab: **"Əbu Bəkr seyyidinizdir. Seyyidiniz Bilalı azad edib"** - deyib.[59]

## Cənnətdəki seyyidlər

Peyğəmbərin gələcəkdən xəbər verdiyi iddia edilən rəvayətlərdə də "seyyid" sözündən istifadə edilib. Həmin rəvayətlərdə qeyd olunur ki, Muhəmməd peyğəmbər minbərdə olduğu əsnada yanındakı Həsəni göstərərək belə buyurub: **"Bu oğlum seyyiddir. Ümid edirəm ki, Allah onun vasitəsilə iki müsəlman qrupun barışmasını təmin edəcək".**[60] Yenə Allah Rəsuluna istinad edilən bir rəvayətdə belə dediyi qeyd olunur: **"Həsən və Hüseyn cənnət əhlinin cavanları-**

---

56 Əbu Davud, "Sunnə", 13; İbn Macə, "Zuhd", 37.
57 Buxari, "Ənbiya", 3; Müslim, "İman", 367, 369.
58 İbn Macə, "İqamə", 79.
59 Buxari, "Fədailul-əshab", 23.
60 Buxari, "Sülh", 9; "Fədailul-əshab", 22; Tirmizi, "Mənaqib", 31.

**nın iki seyyididir”.**[61] Ənəs b. Malik isə Peyğəmbərin qızı Fatimə haqqında: **“Fatimə cənnətdəki qadınların seyyidəsidir”** - buyurduğunu bildirib.[62]

Bu paraqrafın əvvəlində “Peyğəmbərin gələcəkdən xəbər verdiyi iddia edilən” cümləsini əbəs yerə yazmadıq. Çünki Peyğəmbərin gələcəkdən xəbər verməsi, konkret kimin cənnətlik olduğunu bildirməsi mümkün deyil. Bu cür iddialı bir söz yazmağımızın səbəbi isə təbii ki, Quran ayələridir. Uca Allah peyğəmbərinə belə əmr edir: **“De: “Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı ancaq qorxudan və müjdələyənəm!”** ***(“Əraf” surəsi, 7/188).*** Uca Allah başqa bir ayədə sonuncu Elçisinə belə buyurur: **“De: “Mən peyğəmbərlərin birincisi deyiləm. Mənə və sizə nə üz verəcəyini də bilmirəm. Mən, sadəcə, mənə vəhy olunana tabe oluram. Mən yalnız açıq-aşkar xəbərdar edənəm!”** ***(“Əhqaf” surəsi, 46/9).***

Buradan da aydın olur ki, müraciət forması olan “seyyid” sözü bəzi başqa sözlər kimi içi boşaldılaraq lüğətdəki mənasından kənar mənalarla doldurulub. Təəssüflər olsun ki, hazırda “seyyid” deyiləndə birbaşa cənnətlik olan, peyğəmbər nəslindən gəldiyi üçün imtiyazlı (sanki tapşırılmış) şəxs gözümüzün önündə canlanır.

## Peyğəmbərin nəvələri seyyiddirmi?

Muhəmməd peyğəmbərin həyatından bəhs edən siyər kitablarında üç oğlunun olduğu xəbər verilir. Hər üçü uşaq ikən dünyalarını dəyişiblər. Rəsulullahın qızları da Peyğəmbərin sağlığında vəfat ediblər. Fatimə isə Peyğəmbərin vəfatından sonra dünyasını dəyişən yeganə qızıdır. Muhəmməd peyğəmbərin digər qızlarından olan nəvələri haqqında çox az məlu-

61 Tirmizi, “Mənasiq”, 31.
62 Buxari, “Fədailul-əshab” 29; “Mənaqib”, 25.

mat verilir. Mənbələrdə qeyd olunur ki, Peyğəmbərin Zeynəb adlı qızından Umamə adlı qız nəvəsi ilə Əli adlı oğlan nəvəsi, Ruqiyyə adlı qızından da Abdullah adlı oğlan nəvəsi olduğu bildirilir. Peyğəmbər sonuncu qızı Fatiməni əmisi Əbu Talibin oğlu Əli ilə evləndirib. Bu evlilikdən **Həsən, Hüseyn, Ümmü Gülsüm, Zeynəb** və **Muhsin** adlı uşaqlar dünyaya gəlib. Əksəriyyət bu evlilikdən dünyaya gələn uşaqların ancaq Həsən və Hüseyn olduğunu güman edir. Digər uşaqların nəinki adlarını, heç mövcudluqlarını bilmirlər. Bilinməyən başqa bir məsələ də seyyidlərin ancaq Hüseynin nəslindən gələnlərə şamil edilməsidir. Əlinin və Fatimənin gözlərinin ilk nuru Həsənin nəslindən gələnlər seyyid sayılmır. Onun övladları əsasən "şərif" adlandırılır. Hüseynin nəslindən gələnlərin "seyyid" adlandırılmasını imamın xanımı, sonuncu Sasani hökmdarı III Yəzdigərdin qızı Şəhribanu ilə əlaqələndirənlər də var.

Niyə peyğəmbər nəsli "seyyid" adlandırılır və ya adlandırılmalıdır? Kiminsə Peyğəmbərlə qohumluq əlaqəsinin olması onun başqalarından üstün olması deməkdirmi? Bu suallara cavab vermədən əvvəl "seyyid" sözünün Quranda hansı tərzdə istifadə olunub-olunmamasına baxaq.

## Quranda seyyidlik

Quranda "seyyid" sözü iki ayədə istifadə olunur. Bunlardan biri "Ali-İmran" surəsində, digəri isə "Yusuf" surəsindədir. İndi həmin ayələrin tərcümələrinə baxaraq bu sözün hansı mənada istifadə edilməsinə nəzər yetirək. Uca Allah Quranda belə buyurur:

**"O, mehrabda durub namaz qılarkən mələklər onu çağırdılar: "Allah səni Allah tərəfindən olan Kəlməni təsdiq edən, (qövmünün) <u>ağası</u>, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir""** ***("Ali-İmran" surəsi, 3/39).*** Buradan aydın olur ki, ayədəki "seyyid" sözü lüğətdəki mənada, yəni "ağa, rəhbər, bəy" mə-

nasında işlədilib. Və peyğəmbərin özü "seyyid" adlandırılır. İndi, gəlin, digər ayəyə müraciət edək. Uca Allah "Yusuf" surəsində "seyyid" sözünü bu cür işlədir:

**"Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında <u>qadının əri</u> ilə rastlaşdı. (Qadın) dedi: "Sənin ailənə pislik etmək istəyənin cəzası zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!""** ***("Yusuf" surəsi, 12/25).***

Ayədə Misirdə baş verən bir hadisədən bəhs edilərkən qadının əri "seyyid" adlandırılır. Deməli, Qurandakı "seyyid" sözü ilə bizim anladığımız "seyyid" sözü eyni mənada işlədilmir. Buradan belə bir sual meydana çıxır: Qurandakı "seyyid" sözü doğru mənada işlədilir, yoxsa biz Qurandan daha doğru mənada işlədirik? Siz bu suala cavab verərkən biz digər mövzuya cavab tapmağa çalışaq. Görək, Peyğəmbərə qohum olmaq, onunla bir yastığa baş qoymaq, onun nəslindən gəlmək insana bir imtiyaz verirmi? Ümumiyyətlə, İslamda üstünlük meyarı nədir?

## Peyğəmbərlərin ailələri başqalarından üstündürmü?

Bu məsələyə də sorğu-suala çəkiləcəyimiz yeganə kitab olan Qurana müraciət edərək cavab tapmağa çalışaq. Uca Allah Onun yanında üstünlüyün təqva, yəni məsuliyyət şüuru ilə olduğunu belə buyurur: **"Allah yanında ən dəyərli olanınız Ona qarşı məsuliyyət şüuru ən güclü olanınızdır"** ***("Hucurat" surəsi, 49/13).*** Muhəmməd peyğəmbər də Vida xütbəsində: "Allahın yanında ən üstün olanınız təqvası ən çox olanınızdır. Ərəblərin ərəb olmayanlardan, ərəb olmayanların da ərəblərdən heç bir üstünlüyü yoxdur", - buyurub. Bundan sonra kiminsə hansısa nəsildən gəlməsinə görə üstün olduğunu bildirməsi, sadəcə, əsassız iddiadan başqa bir şey deyildir.

## İbrahim peyğəmbərin nəsli

Peyğəmbər soyundan gəlmək heç vaxt heç kimə heç bir üstünlük, dəyər və imtiyaz qazandırmayıb. İnsanı dəyərli edən imanı və əməlidir. İmanı və əməli qüsurlu olarsa, onu xilas etməyə atasının, qardaşının və ya oğlunun peyğəmbər olması da kifayət etməz. Bunu da Uca Allah Quranda bizə xəbər verir. İbrahim peyğəmbər Allaha dua edərək nəslindən gələnləri imam, rəhbər etməsini diləyir.

“**Rəbbi İbrahimə: “Mən səni insanlara imam (rəhbər) edəcəyəm!” dedi. O “Nəslimdən də?” deyəndə Allah belə buyurdu: “Zalımlar sözümün əhatəsinə girməz””** ***(“Bəqərə” surəsi, 2/124).***

**“Onların hər ikisinin (İbrahim və İshaqın) nəslindən yaxşı işlər görən də var, açıq-aşkar özünə zülm edən də!”** ***(“Saffat” surəsi, 37/113).***

Ayələrdən də aydın olur ki, peyğəmbərin nəslindən də gəlsələr, hətta bu peyğəmbər İbrahim də olsa, zalımlar üçün Allah heç bir zəmanət vermir və onların heç bir dəyəri və ya imtiyazı da olmur. Bu məsələ təkcə İbrahim peyğəmbərin nəslinə deyil, bütün peyğəmbərlərə və onların qohum-əqrəbalarına da şamildir.

## İbrahim peyğəmbərin atası

Bütləri tanrılar olaraq qəbul edən Azər İbrahim peyğəmbərin atası idi. **“Bir zaman İbrahim atası Azərə demişdi: “Sən bütləri tanrı hesab edirsən? Mən səni və xalqını açıq-aydın azğınlıq içində görürəm””** ***(“Ənam” surəsi, 6/74).***

Beləliklə, övladın peyğəmbər olmasının ataya faydası olmur.

## Adəm peyğəmbərin cinayətkar oğlu

“Maidə” surəsinin 27-30-cu ayələrində iki Adəm oğlundan birinin törətdiyi cinayətdən bəhs olunur: **“Mənəmlik**

**onu qardaşını öldürməyə sövq etdi və nəticədə onu öldürdü. Bununla da itirənlərdən oldu”** ***(“Maidə” surəsi, 5/30).*** Ayədən də aydın olur ki, itirən öldürülən deyil, öldürən oldu. Belə nəticəyə gəlirik ki, Peyğəmbər övladı olmaq nə üstünlükdür, nə də günahsız olmaq.

## Nuh peyğəmbərin oğlu

Nuh peyğəmbərin oğlu da atasının dinini qəbul etməyərək həlak olanlardan oldu. Peyğəmbər oğlu üçün Allaha dua etməsinə baxmayaraq, duası qəbul olunmadı, hətta özü də buna görə tənbeh edildi:

**“Nuh Rəbbinə yalvararaq belə dedi: “Ey Rəbbim! O mənim oğlumdu. Ailəmdən idi. Mən bir daha başa düşdüm ki, sənin əmrin mütləq doğrudur. Ən düzgün qərarı verən də Sənsən!” Allah dedi: “Ey Nuh! O sənin ailəndən sayılmaz. Düzü bu, yaxşı olmayan bir işdir. Buna görə də bilmədiyin bir şeyi Məndən istəmə. Mən sənə cahillərdən olmamağını tövsiyə edirəm”. Nuh: “Ey Rəbbim! Bilmədiyim şeyi istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana düşənlərdən olaram” – dedi”** ***(“Hud” surəsi, 11/45-47).*** Nuh peyğəmbər dərhal tövbə etdi.

Buradan da aydın olur ki, peyğəmbərin nəslindən gəlmək və ya peyğəmbər oğlu olmaq çıxış yolu deyildir. Peyğəmbər oğlu olsa da, yəni bugünkilərin dediyi kimi, seyyid də olsa bu, Nuh peyğəmbərin oğluna heç bir fayda vermədi.

## Lut peyğəmbərin xanımı

Lut peyğəmbərlə eyni yastığa baş qoyan xanımı da ərinə qarşı gələnlərdən olub. Quranın “Hicr” surəsinin 15/57-60-cı ayələrində bu haqda məlumat verilir. Uca Allah İbrahim peyğəmbərə göndərilən elçilərin belə dediyini Quranda xəbər verir:

**“Dedilər: “Biz günaha batan bir topluma göndəril-**

**mişik.Yalnız Lutun ailəsi istisnadır. Biz onların hamısını xilas edəcəyik, amma arvadını yox. Biz onun (seçiminə baxaraq) geridə qalanlardan olmasına qərar verdik””** ***(“Hicr” surəsi, 15/57-60).***

Bir daha görürük ki, Peyğəmbərin arvadı olmaq da, peyğəmbərlə eyni yastığa baş qoymaq da onu xilas etmir.

## Zəkəriyyə peyğəmbərin qohumları

Zəkəriyyə peyğəmbər Allahın vəhyini insanlara çatdırmasına baxmayaraq, qohumları ona çox pisliklər etmiş və onun peyğəmbərliyini də qəbul etməmişdilər. O da Allaha belə dua etmişdi:

**“Mən özümdən sonra gələn qohumlarımın (yerimi doldura biləcəklərindən) nigaranam”** ***(“Məryəm” surəsi, 19/2-5).***

Bu ayələrdən də başa düşürük ki, peyğəmbərin qohum-əqrəbası olmağın da qurtuluş üçün bir faydası yoxdur.

## Yusuf peyğəmbərin qardaşları

Oğlanları Yəqub peyğəmbərə çox pisliklər edərək qardaşları Yusufu ölümə tərk etmişdilər. Quranın 12-ci surəsi olan “Yusuf” surəsində bu haqda geniş məlumat verilir ***(“Yusuf” surəsi, 12/7-18).***

Həmin surədə verilən məlumatlardan da aydın olur ki, nə peyğəmbər oğlu, nə peyğəmbər nəvəsi, nə də peyğəmbər qardaşı olmaq da heç bir şeyi dəyişdirmir və heç bir imtiyaz vermir.

## Muhəmməd peyğəmbərin yaxınları

Allah Quranın “Şuəra” surəsinin 214-cü ayəsində Elçisindən qohum-əqrəbalarını xəbərdar etməsini tələb edir. Muhəmməd peyğəmbər də həmin ayədən sonra yaxınlarını bir yerə yığıb dəfələrlə onlara haqqı çatdırmışdı. Onlara:

“Ey Qureyşlilər! Özünüzü Allahdan satın alın. Allahın

əzabından sizi xilas etmək üçün mənim heç bir xeyrim dəyməz. Ey Abdulmuttalib oğulları! Allahın əzabından qurtulmaq üçün mən sizə heç bir fayda verə bilmərəm. Ey Abbas bin Abdulmuttalib! Mən səni də Allahın əzabından xilas edə bilmərəm. Ey Allahın elçisinin bibisi Safiyyə! Mən səni də Allahın əzabından qurtarmaq üçün heç nə edə bilmərəm. Ey Muhəmmədin qızı Fatimə! Atanın peyğəmbər olduğuna arxayın olma. Rəbbinə qarşı qulluq vəzifəni yerinə yetir. Əgər Allahdan özünü qoruya bilməsən, vallahi, mən sənin üçün də heç bir şey edə bilmərəm".[63]

Allahın sonuncu Elçisi Muhəmməd peyğəmbər özünün bir hissəsi olduğunu bildirdiyi qızı Fatiməyə, əmisinə, bibisinə və digər qohumlarının adlarını çəkərək onlara qiyamət günü kömək edə bilməyəcəyini bildirdiyi halda özlərini "seyyid" adlandıranlar və ya onların nəslindən gəldiyini iddia edənlər, əcəba, özlərinə kömək edə biləcəklərmi? Guya insanlara kömək edən və ya edəcək həmin seyyidlər axirət gününün dəhşətindən zəmanət alıblarmı? Orda seyyid olaraq xüsusi ayrı-seçkiliklə möhtərəm bir yerə qoyulacaqlarmı?

Bütün bunlardan aydın olur ki, peyğəmbər qohumu, peyğəmbər atası, peyğəmbər oğlu, peyğəmbər qızı, peyğəmbər bibisi, peyğəmbər əmisi, peyğəmbər arvadı olmaq insana heç bir imtiyaz vermir. Allah yanında yeganə üstünlük "məsuliyyət şüuru" mənasına gələn təqvadır. Çünki insan başqasının deyil, ancaq və ancaq öz etdiklərinin əvəzini alacaqdır. Uca Allah belə buyurur: **"İnsan başqasının deyil, ancaq öz zəhmətinin əvəzini görəcəkdir!"** ***("Nəcm" surəsi, 53/39).***

**"Nəhayət, qulaqları kar edən o qışqırıq qopanda; O gün insan öz qardaşından qaçacaq; Anasından, atasından; Yoldaşından və uşaqlarından! O gün onlardan hər birinin bir-birindən qaçmaq üçün kifayət qədər işi olacaqdır!"** ***("Abəsə" surəsi, 33-37).***

---

63 Buxari, IV/7, VI/140; Müslim, Kitabul-iman, 351, Müslim, İman, 89, hədis 351.

## Seyyidlərə nəzir vermək olarmı?

Seyyidlik və üstün nəsil məsələsinə Qurandan ayələrlə cavab tapandan sonra bu barədə ortaya atılan bəzi məqamlara da aydınlıq gətirməyə çalışaq. Bunlardan biri seyyidlərə zəkat verməyin haram olmasıdır. Təsəvvür edin, qeyd edirik ki, ümumiyyətlə, İslamda seyyidlik anlayışı yoxdur, bu, sadəcə, müraciət formasıdır. Lakin buna baxmayaraq, Peyğəmbərin ailəsinə, nəslinə, seyyidlərə zəkat verməyin haram olduğunu iddia ediblər. Bununla belə, bu gün özlərini "seyyid" adlandırıb dilənənlər, nəzir yığanlar, cəddlərinin çox ağır olduğunu bildirənlər bütün bunlardan kifayət qədər "bəhrələnirlər". Bunu bir kənara qoyub qısa da olsa, seyyid və zəkat məsələsinə aydınlıq gətirməyə çalışaq.

Peyğəmbərə istinad edilən rəvayətlərdə: **"Zəkat Muhəmmədə, Muhəmmədin qohumlarına verilməz. Çünki zəkat malın kiridir",**[64] - buyurduğu bildirilir. Yenə Muhəmməd peyğəmbərin: **"Biz əhli-beytik, bizə zəkat halal deyil"**[65] dediyi rəvayətlərdə öz əksini tapıb. Bundan başqa, peyğəmbərin bu qaydaya çox həssas yanaşdığı, hətta uşaq olmasına baxmayaraq nəvəsi Həsənin də zəkat malı olan xurma yeməsinə icazə vermədiyi bildirilir.[66]

Həqiqətənmi zəkat malın kiridir? Təəssüflər olsun ki, bəzən zəkatın mahiyyəti insanlara yanlış çatdırılır. İmkanlı adamın malını təmizlədiyi üçün zəkat verilən miqdarın həmin malın kiri olduğu və təmiz olmadığı iddiaları Qurana ziddir. Çünki zəkat kasıbın haqqıdır və Quranda bəhs edilən qruplara verilir. Uca Allah Quranda belə buyurur: **"Onların mal-dövlətində istəyənlərin və istəyə bilməyən möhtacların payı (haqqı) vardır"** ***("Zariyat" surəsi, 51/19).***

---

64 Müslim, "Zəkat", 167; Əhməd b. Hənbəl, V, 166.
65 Əbu Davud, "Zəkat", 29; Müslim, "Zəkat", 161.
66 Buxari, "Zəkat", 57, 60; "Cihad", 188; Müslim, "Zəkat", 161; Əhməd b. Hənbəl, I, 200.

Haqq olan şey İslamda təmizdir. Haqqı kir adlandırmaq haqqı olanlara qarşı haqsızlıqdır. Zəkatı alan imkansızlar kirli olanı deyil, təmiz olanı, haqları olanı qəbul edirlər. Zəkat verməli olduğu halda verməyənlər kasıbın, imkansızın haqqını yedikləri üçün haram yeyirlər. Bununla da mallarına haram qarışdırırlar. İmkanlı şəxs zəkat verdiyi zaman başqasının haqqını malından ayırıb sahibinə verdiyi üçün malını da haramdan qoruyur. Bu isə əsla zəkat üçün ayrılan malın kirli olduğu demək deyildir.

## Ağır seyyidlər, yoxsa?

Seyyidlər haqqında işlədilən "ağır seyyiddir", "cəddi ağırdır" və s. kimi sözlərin heç bir əhəmiyyəti yoxdur. Çünki İslamda seyyidlik anlayışı və ya rütbəsi olmadığı kimi seyyidliyin də ağırı, yüngülü, üstünü, aşağısı olmur.

## Seyyidlərin şəcərəsi

Peyğəmbərin nəslindən gəldiyini iddia edən hər kəsin "şəcərə"sinin olduğu iddiası var. Şəcərə həmin insanın, onun ata-babasının Peyğəmbərimizdən olan hər hansı bir tanınmış adamın nəslindən gəldiyini göstərən sənəd kimi təqdim olunur. Guya belə bir şəcərə, yəni soy ağacı olsa, nə isə dəyişəcək? Belə şəcərənin olmasının şəxsiyyət vəsiqəsinin və ya doğum haqqında sənədin olmasından heç bir fərqi yoxdur. Lakin seyyidlik məsələsi cəmiyyət arasında elə bir səviyyəyə yüksəlmişdi ki, onlar Osmanlıda vergidən azad idilər, hərbi xidmətə çağrılmırdılar, hətta protokolda yerləri var idi. Buna görə şəcərə mənsubu olmağın verdiyi üstünlük elə bir dərəcəyə çatmışdı ki, Osmanlı dövlətinin son dövrlərində dövlətdə baş verən özbaşınalıqlardan, sistemin laxlamasından sonra seyyidlərin malik olduqları imtiyazlardan istifadə etmək istəyən bir çox adam uydurma şəcərələr və yalançı şahidlərlə adlarını "seyyid" və ya "şərif" kimi "Naqibul-əşraf" dəftər-

lərinə qeyd etdirmişdilər. Hətta İstanbul Topqapıda seyyidlik sənədlərinin satışı həyata keçirilirdi.

Tragikomik vəziyyət idi. Təsəvvür edin, Osmanlı dövründə Muhəmməd peyğəmbərin yaşadığı ərazilərdə, yəni Ərəbistan Yarımadasında Peyğəmbər nəslindən gəldiyi bildirilən 30 min nəfərin qeydiyyatı olduğu halda təkcə Osmanlı Anadolusunda bunun sayı 10 dəfə çox, 300 mindən artıq idi. Çünki seyyidlik bəzi qruplar, camaatlar və təriqətlər tərəfindən güc və imtiyaz halına gətirilmişdi. Bu, qruplar daxilində yüksəklik pillələrinin tramplini olaraq qəbul olunurdu. Bir məqamı da qeyd edək ki, bəzi ölkələrdə insanların bu məsələlərdə dini həssaslığını nəzərə alan işğalçı qüvvələr xüsusi xidmət orqanlarının əməkdaşlarını da "seyyidlər" adı altında təqdim edərək öz missiyalarını bu şəkildə davam etdirib, onların vasitəsilə etirazların qarşısını alıblar.

## Soy qızdan, yoxsa oğlandan davam edir?

Əslində, seyyidliyi bu qədər önəmli və əhəmiyyətli hesab edənlərin unutduqları vacib bir məsələ var. Bu da nəsil-nəcabət, soy məsələsidir. Çünki demək olar ki, bütün xalqlarda nəslin atadan davam etdiyi qəbul edilir. "Əhzab" surəsinin 5-ci ayəsində oğulluqların atalarına nisbət edilərək çağırılması tələb olunur. "Bəqərə" surəsinin 233-cü ayəsində də bu məsələyə aydınlıq gətirilir. Bu ayələrdən də aydın olur ki, nəsəb əlaqəsi olaraq ata göstərilir.

Bu məsələ ilə bağlı Quranda maraqlı bir nüans da mövcuddur. Belə ki, Musa peyğəmbərlə İsa peyğəmbər eyni cəmiyyətə gələn iki peyğəmbərdir. Lakin onların xalqlarına müraciət forması fərqlidir. Musa peyğəmbər həmişə "Ey qövmüm" deyərək müraciət etdiyi halda, İsa peyğəmbərin isə heç vaxt bu cür müraciət etdiyinə şahid ola bilməzsiniz. O "Ey İsrail oğulları" deyərək müraciət etmişdir. Çünki İsa peyğəmbərin atası yox idi.

## Bəs eyni vəziyyət Muhəmməd peyğəmbər üçün necədir?

“Əhzab” surəsinin 40-cı ayəsində Muhəmməd peyğəmbərin ətrafındakı kişilərin heç birinin atası olmadığı konkret olaraq bildirilir. Bu ayə həm də gələcəkdə “ali irq”, “müqəddəs nəsil” iddialarına qarşı da gözəl dəlildir. Çünki Muhəmməd peyğəmbərin nəslinin davam etməsi üçün oğlu qalmamışdı və onun soyu qızı Fatimənin övladları ilə davam etmişdi. Bu gün seyyidliyin atadan oğula keçdiyini əsas qəbul edənlər, soylarının davam etməsi üçün oğlan uşağı istəyənlər Peyğəmbərin nəslinin qızı ilə davam etdiyini bəs niyə düşünmürlər? Bir yandan seyyidliyi müdafiə etmək, digər tərəfdən İslam hüququnda nəslin atadan davam etdiyini iddia etmək dürüstlükdürmü?

Burada mövzu seyyidlikdən düşmüşkən bir məsələni də aydınlaşdırmağa çalışaq. Deməli, bu gün “seyyid” adlandırılanlar İmam Əli ilə Fatimənin oğlu olan Hüseynin nəslindən gələnlərdir. Fatimə də Muhəmməd peyğəmbərin qızıdır. Deməli, seyyidlərin nəsli Əliyə gedib çıxır. Və davam edən nəsil Muhəmməd peyğəmbərin deyil, Əlinin nəslidir.

Burada dərhal bir etiraz gələ bilər ki, Əli də Muhəmməd peyğəmbərin əmisinin oğludur. Bu etiraza da belə cavab verək. “Təbbət” surəsində haqqında bəhs edilən və kafir kimi dünyasını dəyişdiyi bütün mənbələr tərəfindən təsdiq olunan Əbu Ləhəb də Muhəmməd peyğəmbərin əmisi idi. Onun nəslindən gələnlər üçün o zaman nə deyəcəyik? Onlar da seyyidlər idi? Bir az ondan, bir az da bundan qataraq genetika mühəndisi kimi çıxış edənlər İmam Əliyə münasib bildiklərini Əbu Ləhəb üçün niyə yetərli görmürlər?

Bütün burada qeyd olunanlardan sonra yenə də seyyidliyi müdafiə edənlər Muhəmməd peyğəmbərin Həsənlə Hüseyni “oğlum” adlandırması ilə bağlı rəvayətləri əsas gətirərək işin içindən sıyrılmağa çalışıblar. Halbuki unudulan və ya nəzər-

dən qaçırılan bir nyüans daha var. Belə ki, bəzən yaşlı kişilər də "oğul", "qızım" deyərək gənclərə müraciət edirlər. Belə olduqda, müraciət edilənlər müraciət edənlərin oğlanları və ya qızlarımı olurlar?

## Azərbaycanda işlədilən "mir" sözünün mənası

Türkiyənin Anadolusunda, İranda olduğu kimi, bugünün Azərbaycanında da özünü "seyyid" adlandıran və Muhəmməd peyğəmbərin nəslindən gəldiyini iddia edənlər mövcuddur. Lakin Azərbaycandakıların digərlərindən fərqli bir cəhəti var. Osmanlıda başlarına yaşıl sarıq, İranda qara əmmamə bağlayanlardan fərqli olaraq Azərbaycandakılar ad və ya soyadlarına "Mir" sözünü əlavə ediblər. Məsələn, Yəhya adının qarşısında "Mir" əlavə edərək Miryəhya kimi... Soyadının qarşısına "Mir" əlavə edərək Mirhəsənov olduğu kimi...

Bəs bu "mir" sözü haradan qaynaqlanır? Ərəb dilində və ya İslam mənbələrində bu cür yanaşma varmı? Konkret cavab verək ki, həmin dildə, ümumiyyətlə, "mir" sozü mövcud deyil. İslam mənbələrində də "mir" sozünə rast gələ bilməzsiniz. Hətta həmin dildə "mir" sözü ilə başlayan ad və ya soyad da heç vaxt olmayıb. Nə Muhəmməd peyğəmbərin, nə də onun nəslindən gələnlərin adlarının qarşısında da heç vaxt "mir" sözü olmayıb. Bəziləri iddia edirlər ki, "mir" sözönü ərəb dilindəki "əmir" sözünün qısaldılmış versiyasıdır və "seyyid" sözünün sinonimi kimi istifadə olunub.

Əslində isə "mir" sözü yəhudi mənşəli bir sözdür. İbrani (ivrit) dilində "mar, "mer" və "mir" sözləri var ki, bu sözlər də "cənab" mənasına gələn müraciət forması kimi istifadə olunur. Hazırda da həm ivrit, həm də rus dilində bu cür ifadələr istifadə olunur: "mer qoroda", "mir-oslav" və ya "vladi-mir" kimi... Hazırda ivrit dilində istifadə olunan "Miriya", "Mariya", "Marina" isə "xanım" mənasına gəlir.

## Hakimiyyətlərin seyyidlərə münasibəti

Müsəlmanların Peyğəmbərə olan sevgisi onun vəfatından sonra nəvələrinə və onlardan dünyaya gələnlərə qarşı həmişə davam edib. Peyğəmbərin nəslindən gələnlər Əməvilər hakimiyyəti dövründə (661-750) müxtəlif təzyiqlərlə üzləşiblər. Buna səbəb həmin nəslin nüfuzundan istifadə etmək üçün hakimiyyətlərinə onların da beyət etmələrinin vacibliyi olub. Beyət etməyənləri isə qanlarına qəltan etməkdən çəkinməyiblər *(Hüseynin Kərbəlada şəhid edilməsini misal göstərmək kifayətdir)*. Hakimiyyətlər peyğəmbər nəslindən gələnləri ya yanlarına çəkərək neytrallaşdırıb, yanlarına çəkə bilmədiklərini də məhv ediblər.

Orta Asiya və indiki İranın şərqində qurulmuş Samanilər dövlətində (875 - 999) seyyidlərə məxsus olan torpaqlar vergiyə tabe edilməmişdi. Fatimilərin (909 - 1171) dövründə isə Misirdə "Niqabətut-Talibiyyin" adlı bir təşkilat təsis edilmişdi. Bu təşkilatın vəzifəsi seyyidlərin və şəriflərin şəcərəsini araşdırmaq, aralarındakı məsələləri həll etmək və onları nəsillərinə yaraşmayan hərəkətlərdən çəkindirmək idi.

Elxanlılarda (1256 -1353) da Qazan xanın müsəlman olmasından sonra "Naqibi-Nuqabayı Sadat" adında bir təşkilat təsis edilmişdi. Bu təşkilatın vəzifəsi isə Peyğəmbərin nəslindən gələnlərin şəcərələrini müəyyənləşdirmək, onlara aid işləri yerinə yetirmək, maarifləndirmək və haqlarını qorumaq idi.

Osmanlılar dövründə də Peyğəmbər nəslindən gələnlər üçün Naqibul-əşraflıq adı altında bir qurum yaradılmışdı. Naqibul-əşraflıq müftilikdən və şeyxülislamlıqdan ən yüksək məqam sayılıb. Seyyid və şəriflər xalq arasında "əmir" adlandırılırdı və onları başqalarından fərqləndirən yaşıl əmmamələrə "əmir əmmaməsi" deyilirdi. Bu nəsildən olanlardan hər hansı biri cinayət törətdikləri zaman Naqibul-əşraflıq tərəfindən cəzalandırılardı. Naqibul-əşrafın dövlət protokolunda da çox mühüm yeri vardı.

## Nəticə olaraq

Beləliklə, aydın olur ki, Allah yanında dəyərli olmaq, üstün olmaq kiminsə nəslindən gəlməklə deyil, səmimi niyyətlə edilən gözəl davranışladır. Üstünlük ancaq məsuliyyət şüurunu dərk edərək görülən yaxşı işlərlədir. Çünki kiminsə nəslindən gəlmək bizim seçimimizlə olan bir məsələ deyil. Gəldiyimiz nəslə, soya, yaradılışımıza görə heç bir üstünlük iddia edə bilmərik. Əks təqdirdə, bu iddia İblisin təkəbbürlüyündən heç nə ilə fərqlənməz. Çünki İblisi də yoldan çıxaran özünü üstün görməsi idi: **"Allah dedi: "Mən əmr etdikdə sənə səcdə etməyə nə mane oldu?" İblis dedi: "Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan""** ***("Əraf" surəsi, 7/12).***

Yaşadığımız dünyada da, gedəcəyimiz axirətdə də etibar, şərəf, ləyaqət və izzət hansısa nəsildən gəlməyimizlə deyil, Allahın əmr və buyruqlarına əməl etməyimizlə əlaqəlidir. Uca Allah da Quranda izzət və şərəfin mənbəyinin Allah olduğunu bildirir: **"Hər kim etibar və şərəf axtarırsa, yaxşı bilsin ki, bütün etibar və şərəfin mənbəyi Allahdır"** ***("Fatir" surəsi, 35/10).***

# BEŞİNCİ HİSSƏ

# TƏSƏVVÜR ETDİYİMİZ HURİLƏR İSLAMDA YOXDUR

Axirətdə baş verəcəklər ancaq Allahın bildiyi qeyb hadisələridir. Bu yazıda bəhs etdiyimiz huri, qılman, vildan mövzusu qeybə daxil olan məlumatlardandır. Rəsulullah da Qurana zidd heç bir söz söyləyə bilməz və bu haqda Allahın buyurduqlarından kənara çıxa bilməz. Allah ona belə deməyini əmr edib: "De: "Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, (özüm üçün) daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı ancaq xəbərdar edən və müjdələyənəm!""" ***("Əraf" surəsi, 7/188).*** Bəli, bu məsələdə son söz qeybi Özündən başqa heç kimin bilmədiyi və bilməyəcəyi Uca Allahındır.

## "Huri" sözünün mənası

Əslində, ərəb dilində "huri" sözü yoxdur,*"hur"* sözü var. Bu söz *"h-v-r"* kökündən törəyib. Ərəb dilində rəng, geri qayıtmaq mənalarında işlədilib. Ərəb filoloqları bu sözün "gözünün ağı təmiz, bəbəyi qara və yumru, göz qapağı incə" mənalarına gəldiyini bildiriblər. Ümumiyyətlə, ərəb dilində bu sözdən törəyən kəlmələr əsasən gözəllik ünsürü olaraq gözə aid edilib. Quranda isə hər iki mənada da öz əksini tapıb. Biz əvvəlcə bu iki ayəyə Quranın dilimizdəki tərcümələrində baxaq: "**Onlar üçün orada iri (ahu) gözlü, qəşəng hurilər də vardır**" ***("Vaqiə" surəsi, 56/22).***

Başqa bir ayədə isə “qayıtmaq” mənasında işlədilir: “və elə güman edirdi ki, (Rəbbinin hüzuruna) qayıtmayacaqdır (yəhur)” ***(“İnşiqaq” surəsi, 84/14).***

## Avropa dillərində “huri” sözü

Bu söz “şux, gözəl və cəlbedici qadın” mənalarında müxtəlif Avropa dillərinə də daxil olub *(Online Etymology Dictioanary: houri).* Bəziləri həmin dillərdəki “fahişə” mənasına gələn sözün bu kəlmə ilə əlaqəli olduğunu iddia ediblər. Halbuki ingilis dilində *“whore”,* alman dilində *“hure”,* isveç dilində *“hora”,* holland dilində *“hoer”* sözünün “huri” sözü ilə əlaqəsi, sadəcə, oxşarlıqdır.[67] Əslində isə həmin söz hind-avropa dilindəki “sevmək” mənası verən “*kā-” kökündən gəlir.[68] Məlumdur ki, ərəb dili etimologiya baxımından bu dil ailəsinin üzvü deyil.

Azərbaycan dilində işlədilən “pəri” sözü isə “huri” sözünün fars dilindəki versiyasıdır.

## Müxtəlif dinlərdə huri

Tövratda axirət həyatından bəhs edilən yerlərdə hurilərdən heç bir halda söz açılmır: “Sənin ölənlərin həyata qovuşacaq, meyitimlə birgə diriləcəklər. Ey torpaq altında yatanlar, oyanın. Sevinc nəğməsini oxuyun, çünki şeh torpağı necə təravətləndirirsə, Rəbb də torpaqdakı ölüləri belə dirçəldəcək” ***(Tövrat, “Yeşaya”, 26/19).*** “Yezekel”də də axirətdən bəhs olunur ***(Tövrat, “Yezekel”, 37/1-14).***

Danielin kitabında da axirət həyatından bəhs edilsə də, mövzumuzla əlaqəli məsələyə heç bir halda toxunulmur: “O vaxt xalqına mənsub olanların dayağı baş mələk Mikael qalxacaq və sənin millətin yaranandan bəri olmamış əzablı vaxt gələcək. O vaxt sənin xalqından kitabda adı yazılmış olan hər kəs xi-

67 Oxford University Press Blog, Monthly Gleanings: April 2007.
68 Online Etymology Dictionary: Whore.

las olacaq. Torpağın altında yatanların çoxu əbədi həyat, bəzisi isə əbədi xəcalət və rüsvayçılıq üçün oyanacaq. Ağıllı adamlar göy qübbəsinin parıltısı kimi, çoxunu salehliyə döndərənlər ulduzlar kimi əbədi və daim parlayacaq" ***(Tövrat, "Daniel", 12/1-3).*** Axirət həyatı haqda daha geniş məlumatlara *Rabbinik* və *Talmudik* ədəbiyyatda rast gəlmək mümkün olsa da, burada da "huri" kimi məsələlərdən bəhs edilmir.

Zərdüştilikdə huri ifadəsi var. Lakin real bir məxluq deyil, yaxşı işlər görən insanın şüurunun canlandırdığı xəyali təsəvvürdür. İslamla əlaqəli rəvayətlərdə olduğu kimi zərdüştilikdə göz gözəlliyi kimi təsəvvürlər öz əksini tapmır. Ümumiyyətlə, zərdüştilikdə huri təsəvvürü tamamilə fərqlidir.[69]

## İslama istinad edilən huri təsəvvürü

Mənbələrdə hurilərin cənnətə daxil olan kişilərə veriləcək qadınlar olduğu ifadə edilir. Hətta kişilərə nə qədər huri bəxş ediləcəyi haqda rəqəmlər də öz əksini tapıb. Məsələn, məşhur hədis müəlliflərindən biri olan İbn Macənin "Sünən"ində Ənəs b. Malik vasitəsilə Muhəmməd peyğəmbərə istinad edilən hədisi qısa olaraq qeyd edək: "Qəzvin şəhərinin fəthində iştirak edib, 40 gün səbr edənə cənnətdə veriləcək köşkün 70000 (yetmiş min) qapısı olacaq və hər bir qapının yanında köşkün sahibini gözləyən bir huri olacaqdır".[70]

Əbu Nuaym əl-İsfahaninin də rəvayət etdiyi hədisdə cənnətə daxil olan hər kişiyə 4000 bakirə, 8000 dul və əlavə olaraq 100 huri (bəziləri 500) veriləcəyi iddia edilir.

Bu rəqəmlər müxtəlif müəlliflərin təxəyyül gücünə uyğun olaraq dəyişib. Hətta bir kişinin 343000 (üç yüz qırx üç min) hurisi olacağını iddia edənlər də olub. Buna sübut kimi də Allahın hər şeyə qadir olduğunu ifadə etdiyi ayələri qeyd ediblər. Cənnətdən bəhs edən ayələri də buna əsas kimi

---

69 Bax: Yesna, 50/4; Yast, XXII/I, 9; Vistasp Yast, XXIV/VIII, 56
70 İbn Macə, "Cihad", 11 (hədis № 2780).

göstəriblər: "Onlar ürəklərinin istədiyi şeylər arasında əbədi qalacaqlar" ***("Ənbiya" surəsi, 21/102);*** "...Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır" ***("Fussilət" surəsi, 41/31);*** **"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı vardır"** ***("Qaf" surəsi, 50/35).***

Hurilərlə bağlı rəvayətlərlə çox qəribə məsələlərdən bəhs edilib:

❖ Huri sərçə barmağını göstərsə, bütün dünyanı işıqlandırardı və dünyapərəstlər ona sitayiş edərdilər.

❖ Ağız suyundan (tüpürcəyindən) bircə damcı dənizə düşsə, bütün dənizlər şirin olardı.

❖ Hər hurinin 70 paltarı olur və bunların hər biri hər an yetmiş rəng bərq vurur.

❖ Hurilərin sümük ilikləri də görünəcək *(sümükləri görünən qadın görəsən necə gözəl ola bilər?).*

❖ Şəhidlər 72 huri ilə ailə həyatı quracaqlar.

❖ Cənnət əhli mahnılara qulaq asaraq əylənəcək. Hurilər xor halında mahnı ifa edəcəklər.

Sonuncu iddia ilə bağlı böyük müsəlman alimlərindən biri olan Təbəri "İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar Cənnət bağçalarında şadlıq içində olacaqlar" ***("Rum" surəsi, 30/15)*** mənasındakı ayənin təfsirində yazıb. O, cənnət əhlinin mahnılara qulaq asaraq əylənəcəyini bildirib.[71]

Tirmizi[72] və Beyhaqi[73] də cənnət hurilərinin xor halında musiqi oxuyacaqları ilə bağlı hədislər rəvayət ediblər.

## "Huri"lərlə əlaqələndirilən ayələr

Quranın "Nəbə" surəsinin 33-cü ayəsindəki ifadələrin də hurilərlə əlaqəli olduğu bildirilib və ayədəki "kəvaib-ətrab"

---

71 "Camiul-Bəyan", XXI, 19-20.
72 "Sıfatul-cənnə", 24; № 2564.
73 "əl-Bais vən-nuşur", s. 210.

sözü bu cür tərcümə edilib: “Sinələri yenicə qabarmış (dolmuş, tumurcuqlanmış) həmyaşıd qızlar” ***(“Nəbə” surəsi, 78/33).***

“Vaqiə” surəsindəki “Ərlərini sevən həmyaşıdlar edəcəyik” ***(“Vaqiə” surəsi, 56/37)*** mənasındakı “urub-ətrab” ifadələrinin də hurilər olduğu iddia edilib.

Həmçinin, Quranın 3 ayəsində[74] qeyd edilən “pak zövcələr, tər-təmiz yoldaşlar” mənasındakı “əzvacun mutahhara” ifadəsində də cənnətdəki hurilərin nəzərdə tutulduğu bildirilib.

Bundan başqa, Quranın digər 3 surəsindəki ayələrin də cənnət huriləri üçün olduğu deyilib. Həmin ayələrin birində hurilərin qiymətli olduğu üçün qorunub saxlandığı buyurulur. Biz burada dilimizdəki Quran tərcümələrindən həmin ayələrin mənasını qeyd edib, əslində necə olmalı olduğunu yazacağıq:

“(O hurilər) sanki sədəf içində gizlənmiş *(qorunub-saxlanmış)* **incidirlər”** ***(“Vaqiə” surəsi, 56/23);*** başqa ayədə əl dəyməmiş, örtülü yumurtaya oxşadılır: **“Onlar, sanki örtülü** *(heç bir əl dəyməmiş)* **yumurtadırlar”** ***(“Saffat” surəsi, 37/49);*** digər ayədə isə yaqut və mərcan təşbehi edilir: **“Onlar, sanki yaqut və mərcandırlar”** ***(“Rəhman” surəsi, 55/58).***

Quranın başqa ayələrində hurilərin bakirə olduqları “Onları bakirə qızlar edəcəyik” ***(“Vaqiə” surəsi, 56/36)*** və cənnətdəki yoldaşlarından əvvəl onlara nə bir insanın, nə də bir cinin toxunmadığı ***(“Rəhman” surəsi, 55/56, 74)*** ifadə edilir: “Orada ***(o cənnətlərdə)*** gözlərini ***(yalnız ərlərinə)*** **dikmiş, bundan əvvəl özlərinə heç bir ins-cins** ***(insan və cin)*** **toxunmamış qadınlar vardır”** ***(“Rəhman” surəsi, 55/56);*** **“Onlara** ***(ərlərindən)*** **əvvəl heç bir ins-cins toxunmamışdır”** ***(“Rəhman” surəsi, 55/74).***

74 “Bəqərə” surəsi, 2/25; “Ali-İmran” surəsi, 3/15; “Nisə” surəsi, 4/57.

## Muhəmməd peyğəmbərin cənnətdəki xanımları?

Quranın bəzi təfsirlərində "Təhrim" surəsinin 5-ci ayəsində qeyd edilən məsələ ilə bağlı maraqlı izahlar verilib. Belə ki, Muhəmməd peyğəmbərin həyat yoldaşları ilə arasında narazılıq yaranır. Hətta ayədə həmin qadınlardan boşanma riskindən də bəhs edilir. Ayədə Uca Alah belə buyurur: "Əgər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı **zövcələr – müsəlman, mömin, itaətkar, tövbəkar, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin!"** ***("Təhrim" surəsi, 66/5).*** Bəzi təfsirçilər ayədə bəhs edilən dulun Fironun xanımı Asiyə, bakirənin də Məryəm olacağını, hətta Muhəmməd peyğəmbərin cənnətdə bunlarla evlənə biləcəyini iddia ediblər.[75]

## Əslində İslamda "huri" kimlərdir?

Bura kimi qeyd edilən məsələlərdə "huri" sözünün mənasını, Avropa dillərində, başqa dinlərdə, ayələrin tərcümələrində huri təsəvvürlərini, rəvayətlərdə kişilərə veriləcək hurilərin sayını göstərəndən sonra növbə gəldi çatdı İslamda "huri"nin kim olduğuna. Gəlin bu mövzuya aydınlıq gətirək.

İlk olaraq, cənnət qadını üçün işlədilən "huri" sözündən başlayaq. Bir daha qeyd etməliyik ki, ərəb dilində *"huri"* sözü yoxdur. Bu söz həmin dildə *"hur"*dur.*"Hur"* sözü qadın cinsində istifadə edildiyi halda, bu kəlmə qadın cinsində deyil, hər iki cins üçün də birgə işlədilən ümumi cinsli sözlərdəndir.

Bu yerdə istərdik qısa olaraq ərəb dilindəki sözlərin təsnifatı ilə bağlı məlumat verək ki, məsələ daha da aydın olsun. Ərəb dilində iki qrammatik cins var: *müzəkkər (kişi)* və müənnəs (qadın). Sözlər bu iki cinsdən birinə aid olur. Bir də "ümumi cinsli

---

75 Əbu Leys əs-Səmərqəndi, III, 381; Qurtubi, "əl-Cami", XVIII, 127; Suyuti, VIII, 225.

isimlər" var. Məsələn, ərəb dilində "validə" sözü hər iki cinsə aiddir, həm oğlan, həm də qız uşağı üçün işlədilir. Həmçinin "rahhalə" (səyyah kişi və ya qadın), "əqrəb" həm erkək, həm də dişi üçün istifadə edilən ümumi cinsli isimlərdəndir. Ana dilimizdə də "insan, övlad" kimi sözlər də hər iki cins üçün istifadə edilən sözlərdir. "Ana dilimiz" deyəndə də biz dilimizin qadın olduğunu nəzərdə tutmadığımız kimi, "atalar sözü" deyəndə də ancaq ağsaqqallara aid sözləri əsas olaraq qəbul etmirik.

## İsa peyğəmbərin "huriləri"

"Hur" sözündən əmələ gələn başqa bir söz də Quranda öz əksini tapıb: *"həvari"*. Quranda İsa peyğəmbərin köməkçiləri üçün işlədilən "həvari" sözünün kökü *"hur"* sözü ilə eynidir *(h-v-r)*. Quranda 5 yerdə qeyd edilən həvari sözü, əslində,*"-huri"* sözünün əsl mənasını verir. Əvvəl həmin ayələrə nəzər yetirək: "…Həvarilər dedilər: "Bizik Allahın (dininin) **yardımçıları..."** ***(Ali-İmran surəsi, 3/52);*** **"Ey iman gətirənlər! Allahın köməkçiləri olun! Necə ki, Məryəm oğlu İsa həvarilərə: ""Allah yolunda mənim köməkçilərim kimdir?" – demiş, həvarilər də: "Allahın köməkçiləri bizik!" – deyə cavab vermişdilər..."** ***(Saff surəsi, 61/14).***

Biz həm İncildən, həm də Qurandan öyrənirik ki, İsa peyğəmbərin həvarilərinin hamısı kişi olub. Aralarında bircə nəfər də qadın olmayıb. Ayələrdən də məlum olur ki, "həvari" sözü *"köməkçi", "yardımçı"* mənalarında işlədilir. Köməkçi isə həm qadın, həm də kişi ola bilər.

"Huri" sözü *"pak", "təmiz"* mənasına gəldiyi kimi, mənəvi olaraq *"təmiz baxış", "gözəl göz"* mənalarına da gəlir. Biz isə *"gözəl, göz"* sözlərini eşidən kimi dərhal qadınlara aid mənada başa düşür və ya fiziki gözəllik təsəvvür edirik. Halbuki bu sözü mənəvi olaraq da qəbul edərək *"təmiz baxış",* yəni yaxşı fikirləşmək, səhv düşüncələrlə deyil, yaxşı mənada baxmaq kimi də qəbul etməliyik.

## Yenidən yaradılan "qadınlar"?

Cənnət bizim təsəvvür etdiyimiz kimi deyil. Çünki xəyal gücümüz məhduddur. Sonu olan bir insanın sonsuzu düşünə bilməsi mümkün deyil. Çünki bədənimiz ruhumuzun qəlibidir. Qəliblərin dəyişməsi mümkündür...

Uca Allah Quranda dəyişiklikdən, daha doğrusu, "yeni yaradılış"dan bəhs edir. Ancaq təəssüfverici hal odur ki, bu yeni yaradılışı qadınlara şamil edənlər daha çox olub. Gəlin, yenidən yaradılışla bağlı Quranda qeyd edilən ayənin ana dilimizdəki mənasına mövcud tərcümələrdə baxaq: "Şübhəsiz ki, Biz onları *(huriləri)* **başqa cür** *(yeni bir yaradılışla, doğulmadan)* **yaradacağıq! Onları bakirə qızlar, ərlərini sevən, həmyaşıdlar edəcəyik"** ("Vaqiə" surəsi, 56/35-37). Ayədə başqa cür yaradılışdan bəhs edilir. Buna etiraz edilə bilməz. Daha doğrusu, edilməzdi, "amma"sı olmasaydı... Əfsuslar olsun ki, Azərbaycan dilindəki bütün Quran tərcümələrində bəhs etdiyimiz ayələr qadınlara yönəlik tərcümə edilib. Yəni, cənnətdə kişilərə veriləcək qadınların yenidən yaradılacağı iddia edilib. Bəziləri ayələrdə nəzərdə tutulanın hurilər, bəziləri isə dünyadakı qadınlar olduğunu bildiriblər. Məşhur filoloji Quran təfsirçilərindən biri olan Yəhya b. Ziyad əl-Fərranın əsərində ayədə nəzərdə tutulanın hurilər deyil, qız uşaqlarının və yaşlı qadınların yeni yaradılışla 33 yaşına salınmış qadınlar olacağı öz əksini tapıb.[76]

Təbəri də mövzu ilə əlaqəli hədislərə əsaslanaraq "yeni yaradılış"ın dünyadakı qadınlara məxsus olacağını qeyd edib.[77]

Ayədəki "**yeni bir yaradılışla"** yaradılanların qadınlar olduğu iddia edildiyi halda, görəsən, kişilərin hansı formada yaradılacağından niyə bəhs edilmir? Uşaq yaşdakı qızlar və yaşlı qadınlara aid olan bir məsələ uşaq yaşdakı oğlanlara, yaxud yaşlı kişilərə niyə şamil olunmur?

76 "Məanil-Quran", III, 125.
77 "Camiul-Bəyan", XXVII, 106-107.

Qeyd etdiyimiz ayənin daha yaxşı anlaşılması üçün burada bəzi texniki məsələləri qeyd etmək zərurəti yaranır.

Ayənin ərəb dilindəki əslində "innə ənşənəhunnə inşəən"-də *"hunnə",* yəni "onlar" əvəzliyi var. Bu əvəzliyin ancaq qadınlar üçün istifadə edildiyi əsas alınaraq ayəyə yalnız qadınların yeni yaradılışla yaradılacağı mənasını veriblər. Halbuki həmin surənin 24-cü ayəsində Uca Allah bütün bunların o kəslərin etdikləri əməllərin mükafatı olacağını buyurur: "Onlar (bu nemətlərə dünyada) etdikləri (yaxşı) əməllər müqabilində nail olacaqlar" ***("Vaqiə" surəsi, 56/24***).

Deyək ki, bu qadınların kişilərə nemət, mükafat olaraq veriləcəyini qəbul etdik. Onda belə bir sual ortaya çıxmırmı ki, bəs qadınlara nemət olaraq nə veriləcək? Bu məsələyə də yazımızda aydınlıq gətirəcəyik.

Bütün dillərdə belə bir qayda var. Əvəzlik istifadə edilməmişdən əvvəl həmin əvəzliyin kimə və ya nəyə aid olduğu qeyd olunmalıdır ki, sonra onu əvəzliklə əvəzləmək mümkün olsun. Ərəb dilində buna "izmar qabləz zikr" deyirlər, yəni sözün özü deyilmədən ona aid əvəzlik işlədilməz. Bu sözün də iki istisnası var. Biri Allah *("qul huvallau əhad" kimi...),* digəri isə Qurandır *("innə ənzəlnəhu fi leyletil qadr").*

Burada haqlı sual ortaya çıxır: elə isə ayədəki "hunnə" əvəzliyi kimə və ya nəyə aiddir, yaxud, nəyi əvəzləyir? İlk olaraq qeyd edək ki, "hunnə" əvəzliyi qadın cinsindədir. Və Allah ayədə "**biz onları yeni bir yaradılışla yaradacağıq**" buyurur. Amma burada yenidən yaradılanın qadın olduğunu iddia etmək üçün mütləq həmin ayədən əvvəlki cümlələrdə "qadın" sözü keçməlidir ki, *"hunnə"* əvəzliyi həmin "qadın" və ya "qadınlar" sözünün əvəzinə işlədilsin. Halbuki əvvəlki ayələrdə ***"tikansız albalılar, meyvələri salxım-salxım asılmış banan ağacları, uzun kölgəliklər, axan sular, çoxlu meyvələr və hündür döşəklər"****dən* bəhs edilir ***("Vaqiə" surəsi, 56/28-34).*** Burada qadın sözünün işlədilmədiyinin şahidi

oluruq. Deməli ki, burada söhbət təkrar, yenidən *"yaradılacaq", "inşa ediləcək"* qadınlardan getmir. Bəs elə isə nədir? Yuxarıda sadalanan "...çoxlu meyvələr, hündür döşəklər" üçün "hunnə" əvəzliyini işlətmək olarmı? Əlbəttə, olar. Çünki ərəb dilində cansız isimlər, əşyalar üçün "hunnə" əvəzliyi işlədilir. Cəm halında olan isimlər üçün də əvəzlik qadın cinsində istifadə olunur. Bu, ərəb dilinin qrammatikasıdır, qaydasıdır. "Vaqiə" surəsinin **28-34-cü ayələrində** sadalananlar üçün də qeyd etdiyimiz əvəzlik işlədilir və ən doğru cavab da budur. Çünki cənnətdəki həm kişi, həm də qadınlar üçün ayədə sadalananlar yenidən yaradılacaq. Bu yaradılış isə sıfırdan yaradılma deyil, yeni formanın verilməsi, daha yaxşı hala salınmasıdır.

İndi gələk başqa suala... Haqqında danışdığımız surənin 36-cı ayəsinin Azərbaycan dilindəki tərcüməsi belədir: "Onları bakirə qızlar, ərlərini sevən həmyaşıdlar edəcəyik" ***("Vaqiə" surəsi, 56/36-37).***

Əslində, ayədə bakirə qızlardan söhbət getmir. Çünki *"bakir"* sözü də hər iki cins - həm qadın, həm də kişi cinsi üçün istifadə edilən ümumi sözlərdəndir. Əgər əvvəlki ayələrdə qadınlardan bəhs edilsəydi, bəlkə də bu mənanı vermək olardı. Halbuki yuxarıda "qadınlar" sözü qeyd edilmədiyini bildirdik və əvəzliyin ayənin 28-34-cü ayələrində cənnətdəki həm kişilər, həm də qadınlara veriləcək mükafatlarla əlaqəli olduğunu ifadə etdik. **"Vaqiə" surəsinin 36-37-ci ayələr**indəki *(bakirə qızlar) "bakir"* sözü isə həmin mükafatların, nemətlərin ilk dəfə cənnətdəkilər tərəfindən istifadə ediləcəyi mənasına gəlir. Ayədə nə qızlardan, nə də onların kişilərindən bəhs edilir. Ayənin ərəbcəsi "urubən ətrabə"dir. Yəni bu ayədən "**bakirə qızlar, ərlərini sevən**" mənasını çıxarmaq mümkün deyil. Ayənin mənası belədir: "Onları ilk istifadəyə uyğun hala gətirəcəyik" ("Vaqiə" surəsi, 56/36-37).

Burada qeyd etdiyimiz "ətrabə" sözü bir az əvvəl qısa

olaraq bəhs etdiyimiz "Nəbə" surəsində də keçir. Bəs həmin surədəki ayəyə necə məna verilib?

## Din hər iki cinsə gəlib, təkcə kişilərə deyil...

Qeyd edim ki, "Nəbə" surəsinin 33-cü ayəsi ikicə kəlmədən ibarətdir: "və kəvaibə ətrabə". Gəlin, birlikdə Quranın Azərbaycan dilindəki tərcümələrində həmin ayəyə necə məna verildiyinə nəzər yetirək:

➢ "Sinələri yenicə qabarmış *(dolmuş, tumurcuqlanmış, gözəllikdə və məlahətdə bir-birinə bənzər)* həmyaşıd qızlar" - *Vasim Məmmədəliyevlə Ziya Bünyadovun birgə tərcüməsi.*

➢ "Dolğun döşlü həmyaşıd qızlar" - Əlixan Musayevin tərcüməsi.

➢ "Sinələri düyünlənmiş yaşıd qızlar arasında" - *Nəriman Qasımoğlunun tərcüməsi.*

➢ "Döşləri təzə qabarmış yaşıd qızlar" - *Rəsul İsmayılzadənin tərcüməsi.*

➢ "Həmyaşıd şux döşlü (qızlar)" - *Tariyel Bilal oğlu və Məmmədhəsən Qəni oğlunun birgə tərcüməsi.*

Bu tərcümələrə fikir verək. Sanki din ancaq kişilər üçün gəlib. Elə bil cənnət də təkcə, kişilər üçündür və oradakı mükafatlar kişilərə veriləcək qadınlardır. Kişilər bu dünyada öz ehtiraslarını, şəhvətlərini qoruyarlarsa, orada bunun əvəzini hurilərlə çıxacaqlar. Kişi hakimiyyətli din formalaşdırılıb. Unudulan bir məqam var ki, cins seçimi heç kimin ixtiyarında deyil. Heç bir insan öz istəyi ilə qadın və ya kişi olmur. Bəs nəyə görə qadın həmin cinsdə yaradıldığı üçün pis olmalı, ya da çarəsizlikdən halına şükür edərək yaşamalıdır? Belə din ola bilərmi?

İndi gələk "Nəbə" surəsinin 33-cü ayəsinin əsl mənasına... Qeyd etdiyimiz kimi, bu ayə cəmi 2 sözdən ibarətdir *"və kəvaibə ətrabə"*. "Kəvaib" sözü "hündür, uca, keyfiyyətli, dəyərli, gözqamaşdırıcı" mənasına gələn "k-a-b" kökündən

əmələ gəlib. Sonralar Kəbə kimi kubşəkilli, "kabeyn" (topuq) kimi dairəvi cisimlər üçün də istifadə edilməyə başlanıb. Maraqlı cəhət budur ki, qeyd edilən "kəvaib" sözü nə kişi, nə də qadın cinsinə aiddir. Və ayədəki ikinci söz olan "ətrab" da özündən əvvəlki söz kimi, "hur" kimi ümumi cinsli isimlərdəndir. Quranda 3 ayədə təkrar edilir: "Sad" surəsi, 38/52; "Vaqiə" surəsi, 56/37 və "Nəbə" surəsi, 78/33. "Ətrab" sözü "həmyaşıd, uyğun, tay, tam bərabər" mənalarına gəlir.

Burada bəhs edilən məqamı dünya ehtirası, şəhvəti üçün istifadə etmək heç bir halda doğru deyil. Bu, ifadəyə "gənc, cavan qızlar" mənasını verib ayənin mesajını fərqli məcralara çəkməkdir. Qeyd etdiyimiz cinsəllik mövzusu etmək doğru deyil. Bu, bütün inananları əhatə edən və hər iki cinsə aid olan bir məsələdir.

Bütün bunlardan aydın olur ki, Azərbaycan dilinə tərcümə edilən sözlərin heç biri düzgün mənanı vermir. Bəs ayənin tərcüməsi nədir? Ayəyə bu cür məna vermək daha doğrudur: "Orada bir-biriylə uzlaşan (uyğun gələn, münasib) **yoldaşlar var..." *("Nəbə" surəsi 78/33).***

## Cənnətdəki hurilər kimlərdir?

"Hur" sözü Quranda 4 yerdə qeyd edilir: "Duxan" surəsi, 44/54, "Tur" surəsi, 52/20, "Vaqiə" surəsi, 56/22, "Rəhman" surəsi, 55/72. Həmin ayələri Azərbaycan dilindəki tərcümələrdən qeyd edək:

"(Onları) iri qaragözlü hurilər gözləyir" ***("Vaqiə" surəsi 56/22).***

"Çadırlarda gözlərini (yalnız öz ərlərinə) dikmiş hurilər vardır" ***("Rəhman" surəsi, 55/72).***

"Səf-səf düzülmüş taxtlara söykəndiyiniz halda!" Biz onları iri (ahu) gözlü hurilərlə evləndirəcəyik" ***("Tur" surəsi, 52/20).***

"Bax belə! Üstəlik onları iri qaragözlü hurilərlə də evləndirəcəyik" ***("Duxan" surəsi, 44/54).***

Qeyd edək ki, həmin 4 ayənin olduğu surələrin hamısı Məkkidir, yəni Məkkədə nazil olan surələrdir. Mədinədə gələn surələrin heç birində "hur" sözü istifadə edilmir. Həmin sözü "pak, tərtəmiz yoldaşlar"[78] mənasına gələn "əzvəcun mutahhərə" ifadəsi əvəzləyir.

İndi gələk *"hur"* sözünün keçdiyi 4 ayənin tərcüməsinə...

Burada maraqlı 2 məqam və 2 sual ortaya çıxır:

1. *"Huri*" sözünün ancaq qadınlar üçün işlədildiyinin şahidi oluruq.

2. *Dünyadan gedən kişiləri gözlədiklərini oxuyuruq.*

Tərcümələrdə ortaya çıxan 2 sual isə belədir:

1. *Hurilərlə evlilik olacaqmı?*

2. *Qadınlar kimlərlə ailə həyatı quracaq?*

Bu sadaladığımız məsələlərə aydınlıq gətirməyə çalışaq:

"Huri" sözünün qadınlar üçün deyil, həm qadın, həm də kişi üçün işlədildiyini artıq bilirik. Buna görə deyə bilərik ki, hurilər qadınlar deyil, cənnətə daxil olacaq qadın və kişilər üçün yoldaşlar, daha doğrusu, köməkçilərdir. Bəs,**"Duxan" surəsinin 54-cü ayəsi**ndəki evlilik nədir? Və ya sualı belə qoyaq:

## Cənnətdə evlilik varmı?

Cənnətdə evlilik varsa, bu, hansı formada olacaq? Həmin toyda iştirak edənləri "Nəbə" surəsinin 34-cü ayəsində bildirilən "(cənnət şərabı ilə) dolu qədəhlərmi gözləyir?" Toyda kəbini kim kəsəcək və s. kimi ardı-arası kəsilməyən suallar ortaya çıxır... Azərbaycan dilindəki tərcümələrdə "Duxan" surəsinin 54-cü və **"Tur" surəsinin 20-ci ayəsinə** bu cür məna verildiyinin şahidi oluruq: "Bax belə! Üstəlik onları iri qaragözlü hurilərlə də evləndirəcəyik" ***("Duxan" surəsi, 44/54),*** **"Biz onları iri (ahu) gözlü hurilərlə evləndirəcəyik"** ***("Tur" surəsi, 52/20).***

78 "Ali-İmran" surəsi, 3/15; 36/54-56.

Deyək ki, kişilərin qara gözlü hurilərlə evləndiriləcəyini başa düşdük, bəs başqa rəngə sahib olan gözlərin sahiblərinin günahı nədir? Bəziləri qaragözlü deyil, göygözlü xoşlayırsa, necə olacaq, onlar hurilərdən məhrum olacaqlar? Cənnətə daxil olacaq qadınlar kimə ərə gedəcək? Ərlərinə ərə gedəcəklərsə, əri cənnətə daxil olmayan qadınların vəziyyəti necə olacaq? Əri öldüyü halda ikinci dəfə ərə gedən qadının hər iki əri cənnətə daxil olacaqsa, qadın bunlardan hansına ərə gedəcək? Kişilər ordakı huriləri görüb dünyadakı həyat yoldaşlarına baxacaqlarmı? Əgər dünyadakı qadınlar da orada huri kimi gözəl olacaqlarsa, o zaman digər hurilərə nə ehtiyac var və sair suallar ortaya çıxır.

Qeyd edək ki, ərəb dilində "va zəvvəcnəhum bihur" cümləsindəki *"zəvvacnə"* sözü *"bi"* hərfi cəri ilə birlikdə gələndə,*"evləndirmək"* deyil, *"uyğunlaşdırmaq"* mənasına gəlir. Bu cür ifadə Quranda ancaq iki ayədə var və hər ikisi də "huri" sözü ilə birlikdədir.

Bundan başqa, "Vaqiə" surəsinin 7-ci ayəsində Uca Allah "əzvac" "zövcələr" sözünü işlədir: "Va kuntum əzvacən sələsətən"... Dilimizdəki tərcümələrdə bu cür məna verilib: "Siz üç **<u>qrup</u>a ayrılacaqsınız"** ***("Vaqiə" surəsi, 56/7).*** Buradan da aydın olur ki, "əzvac" sözü işlədilən hər yerdə ər-arvad mənasına gəlmir, "dəstə, qrup, zümrə" mənalarına gəlir.

Beləliklə, aydın olur ki, cənnət şəhvani məclislər, cinsi ehtiraslar yeri deyil. Hurilərlə, qılmanlarla eyş-işrət məkanı deyil. Çünki şəhvət hissi bu dünyada nəsli artırmaq üçündür. Cənnətdəki *"evlilik, birlikdə olmaq"* kimi tərcümə olunan sözlər isə dostluqlar, yoldaşlıqlar mənasına gəlir.

Uca Allah cənnət mükafatları ilə əlaqədar olaraq belə buyurur: "Etdikləri əməllərin mükafatı olaraq (Allah dərgahında) onlar (möminlər) üçün göz oxşayan (onları sevindirəcək) nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!" ***("Səcdə" surəsi, 32/17).*** Rəsulullah da bu ayəyə uyğun olaraq hə-

min nemətlərin dünyada görülmədiyini, eşidilmədiyini və təsəvvür edilə bilməyəcək formada olduğunu bildirib.[79]

## Cənnətdə hazırlanan mükafat

Uca Allah cənnətə daxil olan həm kişilər, həm də qadınlar üçün mükafatlar hazırladığını xəbər verir. Və bu zaman kişilər və qadınlar üçün fərqli mükafatlardan bəhs etmir. Bəzilərinin iddia etdiyi kimi kişilərə hurilər, qadınlara qılmanlar deyil, əksinə, hər ikisinə uyğun olan dostlar, yoldaşlar hazırladığını bildirib ki, huri sözü bu mənaya gəlir. Allah "Əhzab" surəsində belə buyurur:

**"Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbrli kişilər və səbrli qadınlar, (Allaha) baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və (ismətlərini) qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və çox zikr edən qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır"** ***("Əhzab" surəsi, 33/35).*** Bunlar cənnətdəkilərə veriləcək mükafatlardır. Ayədə Uca Allah 10 xüsusiyyət qeyd edir. Ayənin sonunda onlar üçün, yəni hər ikisi üçün böyük mükafat hazırladığını bildirir. Mükafatda fərq yoxdur.

Allah Quranın başqa ayələrində də dəfələrlə hər kəsə əməllərinin əvəzinin tam veriləcəyini bildirir.[80] Buradan da aydın olur ki, mükafatlarla bağlı heç kimə qadın və ya kişi olduğuna görə fərq qoyulmur.

Allah cənnət və cəhənnəm təsəvvürlərini insanların başa düşəcəyi formada izah edir. Çünki insan həmin təsəvvürləri

---

79 Buxari, "Tövhid", 35, "Bədiul-xalq", 8; Muslim, "Cənnət", 2-5.
80 "Ali-İmran" surəsi, 3/25, 161; "Nisə" surəsi, 4/110-112; "Yunus" surəsi, 10/30; "İbrahim" surəsi, 14/51; "Nəhl" surəsi, 16/111.

dünyadakı ilə müqayisə edir. Quranda ailə səadətinin orada olacağını, ailə fərdlərinin cənnətdə birgə yaşayacağını xəbər verən ayələr var:

“Əməlisaleh atalara zövcə**ləri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olacaqlar...”** ***(“Rəd” surəsi, 13/23);***

“Ey Rəbbimiz! Onları da, atalarından, zövcələrindən və nəsillərindən əməlisaleh olanları da özlərinə vəd buyurduğun Ədn cənnətlərinə daxil et. Şübhəsiz ki, Sən yenilməz qüvvət, hikmət sahibisən!” ***(“Ğafir” surəsi, 40/8),***

“Siz də, zövcələriniz də sevinc içində Cənnətə daxil olun!” ***(“Zuxruf” surəsi, 43/70).*** Qeyd etdiyimiz ayələrin tərcüməsində “*zövcə”* sözünün qadın mənasında deyil, hər iki məna-da - qadın və kişi mənasında olduğunu bir daha qeyd edək.

## Cənnət yalnız kişilər üçün deyil!

“Huri” sözü cənnətdəkilərə uyğunlaşdırılaraq veriləcək *dost, yoldaş* mənasına gəlir. Bu sözü ancaq kişilərə veriləcək qadınlar kimi başa düşmək və qəbul etmək dinin kişilər üçün gəldiyini iddia etmək olardı. Bir çox hədis kitablarında *(daha çox Tirmizinin “Sünən”ində)* axirətdəki vəziyyətlərdən, xüsusilə, cənnət nemətlərindən bəhs edilərkən əksəriyyəti Rəsulullaha gedib çıxmayan rəvayətlər öz əksini tapır. Yazımızın əvvəlində İbn Macənin əsərindən gətirdiyimiz sitatlarla bağlı tənqidi fikirlər mövcuddur. İbn Macə Peyğəmbərə istinadən belə bir hədisi rəvayət edib: “Qəzvin şəhərinin fəthində iştirak edib, 40 gün səbr edənə cənnətdə veriləcək köşkün 70000 qapısı olacaq və hər bir qapının yanında köşkün sahibini gözləyən bir huri olacaqdır”.[81] Məşhur müsəlman alimlərindən biri olan İbnul Cəvzi bu hədisin uydurma olduğunu bildirib. Hətta İbn Macə kimi bir hədis aliminin belə bir hədisi tənqid etmə-

81 İbn Macə, “Cihad”, 11 (hədis № 2780).

dən əsərində qeyd etməsindən təəccübləndiyini ifadə edib.[82]

Həmçinin, hədisdə cənnətə daxil olan hər kişiyə 4000 bakirə, 8000 dul və əlavə olaraq 100 huri (bəziləri 500) veriləcəyinin iddia edildiyi hədis də zəifdir və həmin rəvayətin sənədində yalançı ravilərin olduğu ifadə edilib.[83]

Bəziləri huri məsələsinə qadın mənasını vermələrinə bir bəhanə də tapıblar. Guya hurilərin qadın olması və cənnətə daxil olacaq kişilərə veriləcəyi həmin cinsin dünyadakı şəhvani hisslərini cilovlamalarına mükafat kimi göstərilir. Bunun da pedaqoji və psixoloji müsbət təsiri olduğu iddia olunur.

## Qadınlara veriləcək "ğılman" kimdir?

Kişilərə minlərlə huri verildiyi iddia edildiyi halda, qadınlara heç nə verməmək doğru olmazdı. Buna görə bəzi rəvayətlərdə Quranda cəmi bircə ayədə qeyd edilən "ğılman"ın qadınlara veriləcəyi iddia edilir. Bu söz lüğətdə "uşaq, gənc, xidmətçi" mənasına gələn "ğulam" sözünün cəmidir. Quranın dilimizdəki tərcümələrində ayəyə belə məna verilib: "Onların ətrafında (xidmət üçün) özlərinə məxsus olan, sədəf içində gizlənmiş inci kimi gözəl oğlanlar dolanacaqlar" ***("Tur" surəsi, 52/24).*** Əslində isə ayənin mənası "cənnət əhlinin xidmətinə verilən gənclər" olmalıdır. Ərəb dilində "ğılman" sözü də "hur" sözü kimi kişi və qadın cinsinə aid olan ümumi cinsli isimlərdəndir. Ayədə möminlərin "sədəf içində gizlənmiş inci kimi" təsvir olunan xidmətçilərindən bəhs edilir. Ayəyə bu cür məna vermək daha doğru olacaqdır: "Və **onların ətrafında sədəfin içində gizlənmiş inci kimi olan gənclər xidmət edəcəklər"** ***("Tur" surəsi, 52/24).***

Müxtəlif hədislərdə "ğılman" sözü lüğətdəki mənalarında işlədilib. Suyuti tərəfindən Peyğəmbərə istinad edilən və cən-

82 Nasıruddin əl-Əlbani, I, 371.
83 əl-İsfahani, Sıfatul cənnə, Dəməşq 1988, III, 219-220; İbn Qayyim əl-Cəvziyyə, Hadil ərvah, Beyrut 1991 s. 360-361.

nətin ən aşağı mərtəbəsindəki cənnət əhlinə 10 min xidmətçinin veriləcəyini bildirən rəvayət doğru deyil. Buna bənzər ifadələrin Muhəmməd peyğəmbərə istinad edilməyən bəzi rəvayətlərdə də qeyd edildiyini görmək mümkündür.[84]

Qılman kimi dilimizdə istifadə edilən bu söz haqqında Quran təfsirçilərinin fikirlərini 3 qrupda cəm etmək olar:

**1.** Qılman möminlərin özlərindən əvvəl ölən uşaqlarıdır. Yetkinlik dövrünə gəlib çatmadıqları, cavabdehlik dövrünü yaşamadıqları və saleh əməl etmədikləri üçün cənnət nemətlərinə layiq olmayan bu uşaqlar mömin olan valideynlərinin yanında onlara xidmət etmək üçün vəzifələndiriləcəklər.

**2.** Kafirlərin ölən uşaqlarıdır. Yetkinlikdən əvvəl vəfat etdikləri üçün cəhənnəmə atılmayacaq, cənnətə daxil olanların xidmətçiləri statusunda olacaqlar.

**3.** Möminlər üçün cənnətdə yaradılan xidmətçilərdir və uşaq ikən ölənlərlə heç bir əlaqəsi yoxdur. Çünki xidmətçilik fərqli statusdur və uşaqlar bura daxil deyil. Digər tərəfdən, Quranın digər iki ayəsində - "Vaqiə" surəsi, 56/17; "İnsan" surəsi, 76/19 - cu ayələrində cənnətdəkilərin xidmətçilərindən "vildan" deyə bəhs edilib.

"Qılman" mövzusunda 3-cü fikir daha ağlabatan və məntiqli görünür. Çünki Quranda bu gənclər sədəfin içində gizlənmiş inci kimi təsvir edilir və cənnət əhlinə xidmət edəcəklərindən bəhs edilir. Qılmanların da hurilər kimi xüsusi yaradılışa malik olduqlarına işarə edilib.[85]

## Vildan kimdir?

Ümumi cinsli isimlərdən olan "vildan" sözü Quranda iki ayədə işlədilir. Bunlardan biri ***"Vaqiə" surəsinin 17-ci,*** digəri isə ***"İnsan" surəsinin 19-cu ayəsidir. Bu iki ayədə bəhs***

---

84 Təbəri, "Camiul-bəyan", XXV, 57; Suyuti, "əl-Budurus safirə", Beyrut, 1411/1991, səh. 568.

85 Yusuf Şevki Yavuz, DİA, cild XIV, səh. 50, 1996, "gılman" maddəsi.

***edilən*** vildan sözünün "ğılman" sözü ilə eyni mənada istifadə edildiyinin şahidi oluruq: "Onların dövrəsində həmişəcavanlar (ölümsüz gənclər) xidmət edəcəklər" ("Vaqiə" surəsi, 56/17). Ayə Allah Rəsulunun cənnətdəkilərin həmişəcavan qalacaqları ilə bağlı hədisi nəzərə alınaraq dəyərləndirilməlidir. Digər ayədə isə belə buyurulur: "Onların ətrafında həmişə gənclər xidmət edəcəklər. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan" ***("İnsan" surəsi, 76/19).*** Ərəb dilindəki "tafə aleyh" sözü birlikdə işlənəndə "xidmət etdi" mənasına gəlir.

Qeyd etməliyik ki, "vəlid" (uşaq) sözünün cəmi olan "vildan" hər iki ayədə də "əbədi" mənasındakı "muxalləd" sifətilə işlədilib. Bu sifət gənclərin fizioloji dəyişikliyə məruz qalmayıb yaşlanmaqdan qorunduğunu ifadə edir.

## Nəticə...

Allah insanla danışır. Danışan qarşısındakının onu başa düşməsi üçün danışır. Heç bir danışan başa düşülməmək üçün danışmaz. Allah da yaratdıqları ilə Quran vasitəsilə danışır. Deməli, Quran başa düşüləcək tərzdə olmalıdır ki, anlaşılsın və hökmləri həyata keçirilsin. Həyata keçirilməyəcək bir Kitabın göndərilməsinin isə heç bir mənası olmazdı. Allah isə mənasız işlərlə məşğul olmaz. Mənalı Kitabın içindəkilərinin də bir mesajı olmalıdır. Bu mesajı düzgün anlamaq üçün isə kontekstdən çıxarmaq deyil, əksinə, məsələlərə bütöv yanaşmaq lazımdır. Bilməliyik ki, bir ayə başqa bir ayə ilə açıqlanıb. Allah ayələrini məhz Özünün açıqladığını bildirib: "Əlif, Lam, Ra! Bu, ayələri hikmət sahibi, hər şeydən agah olan (Allah) tərəfindən təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir Kitabdır" ***("Hud" surəsi, 11/1).*** Rəsulu da bu izah edilmiş ayələri insanlara təbliğ edib, yəni çatdırıb. Biz də mövzumuzu təşkil edən məsələni araşdırarkən bu prinsipə riayət etməyə çalışdıq. Və bunun nəticəsində də cənnətə daxil

olacaq kişilərə huri, qadınlara qılman, vildan veriləcəyi tezisinin doğru olmadığının şahidi olduq. Və öyrəndik ki,

✓ Quranda “huri” sözü deyil, “hur” sözü var.

✓ “Hur” sözü ərəb dilində həm kişilər, həm də qadınlar üçün işlədilir.

✓ “Huri” adlandırılan məxluqlar cənnət kişilərinə deyil, cənnət sakinlərinə dost, yoldaşdır.

✓ İsa peyğəmbərin səhabələrinə də “huri” sözünün kökündən əmələ gələn “həvari” deyilib. İsa peyğəmbərin həvariləri isə qadın deyil, kişilər olub.

✓ “Hur” sözünün qeyd edildiyi ayələr ancaq Məkkədə nazil olan surələrdə gəlib.

✓ “Yenidən yaradılış” qadınlara aid deyil, cənnətdəki nemətlərlə əlaqəlidir.

# ALTINCI HİSSƏ

# İSLAMDA SEHR YOXDUR

İnsanlar həmişə bilmədiklərini bilmək istəyiblər. Özlərinin və yaxın ətrafının məchul olan gələcəyini məlum hala gətirməyə çalışıblar. Bunun üçün gözəgörünməz məxluqlarla əlaqədə olduğuna inandıqları şəxslərə müraciət ediblər. Həmin şəxslər də bu maraqlardan istifadə edərək öz maraqlarını təmin ediblər. Nəticədə kahinlik, sehrbazlıq, cadugərlik, cindarlıq, ərrafl ıq, ekstrasenslik kimi müxtəlif adlarla özlərini təqdim edənlər ortaya çıxıb. Bunların hamısı da etdiklərini sehrlə əlaqələndiriblər.

Müsəlmanların yaşadıqları cəmiyyətlərdə də bu tip insanlar Quranda sehrin olduğunu, hətta mələklərin sehr öyrətdiyini, Peyğəmbərin özünə sehr edildiyini, Quranın bir surəsində düyünlərə üfürən qadınlardan bəsh edildiyini iddia edərək özlərinə haqq qazandırmağa çalışıb, yanlarına gələnlərdən haqq tələb ediblər.

Bəs Haqq olan Allah nə buyurur? Bu yazımızda qeyd edilən məsələlərə aydınlıq gətirməyə çalışacağıq. Bunun üçün bəzi suallara cavab axtaracağıq: Ümumiyyətlə sehr varmı? Dinin özü serhrdirmi? Dinlərdə sehr məsələsinə necə yanaşılır? Quranda bəhs olunan sehr nədir? Mələklər sehr edirmi? Peyğəmbərlərə niyə sehrbaz deyilib? Möcüzə də sehrdirmi? Sehrlə möcüzənin fərqləri nələrdir? Sonuncu peyğəmbərə sehr edilibmi? “Fələq” surəsində həqiqətənmi düyünlərə üfürən qadınlardan bəhs olunur?

Bütün bunları bilmək üçün ilk növbədə sehrin nə olduğunu, bu sözün mənasını bilmək lazımdır. Elə isə sehr nə deməkdir?

## "Sehr" sözünün mənası

Azərbaycan dilinin izahlı lüğətinə müraciət etsək, sehrin insanlara və təbiətə təsir yetirməyə qadir olan ecazkar üsullar olduğu "guya" sözü ilə qeyd olunur. Bundan başqa, sehrin pitik, gözbağlayıcılıq, fokus göstərmək, hoqqabazlıq, oyunbazlıq, illüziya olduğu da öz əksini tapır. Olmayan bir şeyi həqiqət kimi göstərən "sehr" sözü dilimizdə fars dilindən keçən "ovsun", "cadu" sözləri ilə də sinonim olaraq işlədilir.

"Sehr" lüğətlərdə "səbəbi gizli olan hərəkət", "çox incə və zərif olmaq" (dəkka-latufə), "çox susayan bir insanın ilğım görmə hadisəsində olduğu kimi bir şeyin həqiqətindən fərqli olaraq təsvir edilməsi", "bir şeyi həqiqətinə uyğun olaraq canlandırmaq" (tahyil-təmvih), "səbəbi bilinməyən, həqiqəti dərk edilməyən", "bir şeyi həqiqətinə uyğun olaraq canlandırmaq", "olduğundan başqa formaya çevirmək", "bir şeyin səbəbinin bilinməyən tərzdə baş verməsi", "aldatma" (keyd), isim olaraq isə "gizli və incə olan iş" mənalarına gəlir.[86] "Sehr" sözünün ərəb dilindəki kökü "s-h-r"dir. Varlıqların xarici görünüşlərinin aydınlaşmadığı, əslində olmadığı halda, alaqaranlıq səbəbilə gözün səhv gördüyü "səhər" də "sehr" ilə eyni kökdən gəlir.

"Sehr" sözü daha çox mənfi halları ifadə etmək üçün istifadə olunsa da bəzən məcazi mənada mədh edilən, bəyənilən, insanı heyran edən hünər, məharət kimi də qeyd olunur.

## Sehr nədir?

Sehr ümumi mənanı ifadə edir. İllüziya da sehr olaraq ad-

86 İbnul-Manzur, "Lisanul-Arab", "sihr" mad, Beyrut ts.; Qamus tərcüməsi, II, 381-383.

landırılır. Bunun üçün müəyyən texnikadan, kimyəvi maddələrdən istifadə olunur. Əl çəldliyi, göz aldatma, hoqqabazlıq, rəng hiyləsi də əlavə olunur. İllüzionizm, maqnetizm, hipnoz və telepatiya kimi texnikaları tətbiq edən sehrbazdır. Buna görə də əşyanın olduğundan fərqli göstərilməsi sehr, bunu edən isə sehrbaz (sahir) adlandırılıb. Fars dilindən dilimizə keçən ovsun və cadu, bunu həyata keçirən ovsunçu və cadugər isə yaxşı və ya pis varlıqların yardımını təmin etdiyinə inanılan, bunun qaydalarını, tilsimli sözləri, materialları, gözmuncuğu və digər bu kimi maddələri bilən və bunlardan istifadə edərək məqsədinə çatan şəxs olaraq qəbul edilir.

Bəşər tarixinə nəzər yetirdikdə qeyri-adi hadisələrin və ənənəvi olmayanların insanlar üçün daim maraq kəsb etdiyinin şahidi oluruq. Sehr də bunlardan biridir. Alətlər dəyişilsə də bu mövzudakı adətlər eyni qalıb. Tarixi baxımdan sehrin üsul və məqsədində dəyişiklik olmayıb. Əksəriyyət sehrin heç bir həqiqətinin olmadığını bildiyi halda, yalnız göz aldatma və xəyal göstərmədən ibarət olduğunu qəbul etməsinə baxmayaraq, sehrbazlar müxtəlif metodlarla insanları özlərinə inandıra biliblər. Çünki insan qarşısındakı sehrbazın etdiklərini edə bilmədiyinə görə onu özündən güclü hesab edir, buna inanır və yanlarına da məğlub olaraq gedir və onların caynağına keçir. Nəticədə güclü kimi görünən və ya buna inanılan inananın gücsüzlüyündən istifadə edərək onu istismar etməyə başlayır.

Sehr və ya başqa adı ilə ovsun, cadu insanları müxtəlif ayinlər, rəmzlər, sözlər və ya nəsnələrin müəyyən kombinasiyaları ilə başa düşmək və təsir etmək səyidir. Ovsun etməyin minlərlə yolları var: müxtəlif maddələrdən qarışıqlar hazırlanır, gizli dualar oxunur, bəzi çoxtanrılı dinlərə aid rəmzlər çəkilir, sehrli sözlər müxtəlif cisimlərlə yazılır, insanların rəmzi olan heykəllər hazırlanır, müxtəlif rəqs və ya hərəkət ayinləri tətbiq edilir.[87]

---

87 Ovsunun antropoloji və sosioloji araşdırması üçün baxın: Mauss, Marcel (1972) A General Theory of Magic. New York: Norton library.

"Hiylə və göz aldatma" yolu ilə edilən sehr illüziya göstərməkdir. Ədəbiyyatda sehrin bu növünə "şabəzə" və ya "şavəzə" deyilir. İkincisi "səmavi qüvvələrdən istifadə etmək"lə edilən sehrdir ki, bunun da biri ulduzlarla əlaqə yaratmaqla "münəccimlik", digəri cinlərdən istifadə etməklə sehr edən cadugərlikdir. Üçüncüsü isə "bəzi insanlarda mövcud olduğu qəbul edilən "quvveyi-nəfsaniyyə", yəni özündə olanla edilən sehrdir.

Mənbələrdə sehrin bu növlərindən bəhs edilir:

**1. Tilsim:** *göy cisimləriylə insanlar arasında əlaqə yaratmaqla edildiyi iddia olunan sehr növüdür. Bu tətbiqat astrologiyanın əsasını təşkil edir.*

**2. Azaim:** *Cinlərlə əlaqə yaratmaqla edilən sehrdir.*

**3. İlmul-xavas:** *Bəzi əşyalardan istifadə etmək, yaxud bəzi ad və bəzi xüsusi duaları oxuyub yazmaqla edilən sehr növüdür.*

**4. Hiylə və göz aldatma:** *"İlmut-təvəhum" kimi də adlandırılan bu hərəkət illüziyaya uyğun gəlir.*

**5. Nirancat:** *Nəfsə hakim olub daxilən qüvvətlənməklə edilən ovsun növüdür. Bu, hind ovsunu da adlandırılır.*

Sehr növlərinin hər biri mahiyyət baxımından digərlərindən fərqli olduğuna görə hamısı üçün eyni hökmü vermək və hamısını eyni şəkildə dəyərləndirmək qeyri-mümkündür. Sehr haqqında danışarkən aradakı fərqləri qeyd etməliyik. Bunların bir hissəsi insanları aldatmaq məqsədi daşıyıb yalnız əxlaqla bağlı problemlərdir. Bir hissəsi inanc və etiqadla əlaqəlidir.

Əslində isə sehrin, daha doğrusu, cadunun əsası yoxdur. Bütün bunlar sadəcə hər hansısa hərəkəti fərqli göstərərək göz boyamadan ibarətdir. Sehrbazların oyunlarına baxırıq. Sadəcə, necə etdiklərini bilmədiyimiz üçün gedib baxırıq. Sehrbazların göstərdiklərinin oyun olduğunu hamımız bilirik, amma istirahət məqsədilə gedirik. Burada əl bacarığı,

sürət kimi amillərdən istifadə olunur. Bunu edən adamın da bilirsiniz ki, işi budur. Bununla sizi özünə qul olmağa dəvət etmir. Sadəcə məharətini göstərərək sizi əyləndirdiyi üçün sizdən müəyyən vəsait ödəməyinizi tələb edir. Bu bir peşədir və sonradan öyrənilir. Çünki sehrbaz dünyaya sehrbaz kimi gəlmir. Sehrbaz öz gücünü artıra bilər. Əslində bu gün seyr etdiyimiz filmlər də sehrdir. Çəkilən filmlərin kadrarxasına baxanda həqiqətən heyrətlənirik. Xromakeylə çəkilən bir videonu istənilən kimi montaj edib təqdim etməyin özü də sehrdir. Bu üsulla çəkilən kinofilmlərin nümayişindən milyonlarla dollar vəsait qazanan şirkətlər var.

İndi isə dinin sehr olduğu iddiasına aydınlıq gətirib, Quranın gəlişindən əvvəlki dinlərdə sehrlə əlaqəli mövzuları qeyd edib, İslamın məsələyə münasibətini öyrənməyə çalışaq.

## Din sehrdirmi?

Dinin insanları zombiləşdirdiyini deyənlər dinin özünün sehr olduğunu iddia edirlər. Əslində isə dinin sehri olması ilə dinin sehr olduğunu qarışdırırlar. Buradakı “dinin sehri” sözünü “sehr” sözünün məcazi mənada işlətdiyimizi xüsusi olaraq vurğulamalıyıq.

Dini sehr adlandıranlar dinlərin ilkin versiyası kimi təqdim olunan animatizm, animizm və animalizmi əsas götürürlər. Dinlərin təkamülü anlayışının ən məşhur müdafiəçisi olan məşhur ingilis filosof və sosioloqu Herbert Spencerə (1820 - 1903) görə bəşər tarixinin ilk dövrlərində heç bir din olmayıb. Ona görə, ilk dinlər qəbilənin hörmətli insanlarının ölümündən sonra sitayiş edilməsiylə ortaya çıxıb. Bu anlayışa görə ölən mötəbər adamın ruhunun yaşadığı güman olunur və onu razı salmaq üçün müxtəlif sitayişlər edilirdi. Bu sitayişlərin sistemləşməsi nəticəsində din adlandırılan bir sistem ortaya çıxıb.

Dini sehr adlandıranlar dinlərin ilkin versiyası kimi təq-

dim olunan animatizm, animizm və animalizmi əsas götürürlər. Bunlar isə din anlayışından tamamilə uzaq yanaşmadır. Çünki animizm ruhçuluqdur. Bu isə Eduard Taylor[88] adlı antropoloqun ruhlara inamı dinin minimumu adlandırması ilə ortaya çıxıb. O, animizmi bütün dinlərin əsası qəbul edirdi, inanırdı ki, ruh insanları, heyvanları, digər cisim və hadisələri idarə edir. Onun iddialarına görə əvvəlcə animizm, sonra manizm (atalara sitayiş), politeizm (çox tanrıçılıq) və axırda da yəhudiliklə birlikdə monoteizm (tək tanrıçılıq) ortaya çıxıb.

Animatizm insanların bütün təbiəti canlı olaraq qəbul etməsidir və bunun fövqəltəbii, qeyri-adi güclərin mövcudluğuna və bu minvalla da dinlərin formalaşmasına gətirib çıxardığı iddia olunub. Animalizm isə insanların heyvanlarla qurduğu ünsiyyətə verilən addır. İnsanın ətini yeməsi üçün öldürdüyü heyvandan üzr istəməsi, sümükləri ilə fala baxması və sair kimi rituallar bununla əlaqələndirilib. Ruh, fal, qeyri-adi güclər və onlarla əlaqə yaratmaq kimi anlayışların dinlərin ilkin versiyası olması düşüncəsi ilə dinlərin sehr olduğu iddia edilib.

Digər səbəb isə Qərb dillərində istifadə edilən din anlayışını ifadə edən sözün mənşəyi ilə əlaqəlidir. Hazırda Qərb dillərində "religion" və ya "religare" normal halda din qarşılığında işlədilir. "Bağlamaq", "birləşdirmək" mənalarına gəlir, yəni istədiyimiz şeyi əldə etmək üçün bəzi şeyləri bağlayırsınız, birləşdirirsiniz. Latın dilində ipləri bir-birinə bağlamaq bu sözlə ifadə edilir. "Religion" sözünün əslinə uyğun mənası sanskrit dilinə qədər gedib çıxır. Bu ifadə Hind-Avropa qollarının Satem adlı şərq qrupunda qədim dövrlərdən Vedalarda və ya Upanişadlarda qeyd olunan sözdür. "Religion" sözünün əsas mənası sehr olub. Qərbdə sonralar sehr daha kiçik və spesifik sahə ilə məhdudlaşdı. Din isə daha böyük ənənə halını aldığına görə "religion" sözü ilə ifadə edildi, "sehr" sözünə isə başqa mənalar verildi.

88 Edward Burnett Tylor 1832-1917.

## Dinlə sehrin fərqləri

Buradan aydın olur ki, dinin sehr olması ilə bağlı iki iddianın ikisi də etibarsızdır. İlk iddia sadəcə masabaşında ssenariləşdirilən dinlərin təkamülü nağılının nəticəsi, digəri isə dillərdəki "din" sözünün mənşəyi ilə əlaqəlidir. Dinlə isə sehrin heç bir əlaqəsi yoxdur. Çünki

- Din hər şeyə gücü çatana, sehr isə təbiətdəki hər gücə boyun əyməkdir.
- Dində inanan və inanaraq yaşayan, sehrdə isə müştəri olur.
- Dində günah, halal, haram anlayışı olduğu halda, sehrdə bunların heç biri yoxdur.
- Dində hər şeyin aydınlığı, sehrdə isə hər şeyin qapalılığı, bağlılığı, sirr və gizlilik var.
- Dinin əsasındakı əxlaq, həmrəylik və birlik kimi mühüm prinsiplər sehrdə yoxdur.
- Din aldanmamağı, sehr isə əksinə olaraq aldanmağı əsas alır.
- Din insanlardan mənfəət güdməz, sehr isə məqsədinə nail olmaq, daha çox mənfəət əldə etmək üçün dinin dəyərli saydıqlarını istismar edir.
- Dində həm fərdi, həm də ictimai məqsəd mövcud olduğu halda, sehrdə ancaq fərdin məqsədi olur.
- Din bəşər tarixi boyunca həmişə mövcud olduğu halda, sehr məqsədin həyata keçirilməsi seansı, yaxud qabiliyyət və imkanlar tükəndikdə sona çatır.

## Müxtəlif dinlərdə sehr

Dövrümüzdə texnologiya nə qədər inkişaf etsə də, insanların informasiya əldə etmək imkanları çoxalsa da, yenə fərqli sosial statuslardan olub fövqəltəbii qüvvələrə, onlardan gələ biləcək zərərlərə inanan insanların sayı az deyil. İnsanlar hələ

də sehrə və caduya inanırlar. Bunun səbəblərindən biri də həmin insanların dini mənsubiyyətləridir. Çünki inandıqları dini araşdırmağa vaxtları olmadığı üçün və ya bu cür dini anlayış onlara sərf etdiyinə görə bilmədən inanmağa üstünlük verirlər. Bu sadəcə günümüzlə əlaqəli deyil, bütün dövrlərə aid olan bir məsələdir. Məlumdur ki, bu gün sayları yüzlərlə, hətta minlərlə ifadə ediləcək qədər inanc formaları mövcuddur. Bu inancların mənsublarının inandıqları anlayışlardan biri yazımızın mövzusu olan sehrdir. Elə isə qədimdə və dinlərdə sehr anlayışı necə qəbul olunur?

## Qədim Misirdə

Qədim misirlilər sehrə və sehrbaza çox önəm verirdilər. Onlar sehrbazların sehr, cadu yoluyla həyata və ölümə təsir edə biləcəklərinə inanırdılar. Hətta təbiətdə baş verən hadisələrə nəzarət edəcəklərini güman edirdilər. Misirlilər sehrbazların tanrıları aldadacaq, onları məcbur edəcək və itaət altında saxlayacaq gücə malik olduqlarını qəbul edirdilər. Həmin sehrbazların ölüləri ilə yaxşı davranmayan tanrıları müxtəlif ayin və rituallarla cəzalandıracağına da inamları var idi.

## Qədim İranda

Qədim İranda sehrlə din demək olar ki, bir-birini əvəzləyirdi. Daha doğrusu, ikisi bir-birinə qarışdırılmışdı. Pəhləvi dilində (qədim fars dilində) sehr üçün “maqu” sözü işlədilirdi. Hətta fövqəltəbii qüvvələrdən istifadə etdiyinə inanılan Med qəbiləsinə mənsub olan rahiblər sinfinə də “maqus” deyilirdi. Həmçinin İslamla əlaqəli mənbələrdə “məcus, məcusi (atəşpərəst)” şəklində qeyd edilən sözlərin təbiətdəki bəzi varlıq və hadisələri idarə etdiyi, qeyb aləmindən xəbər verdiyi, sehrbazlıqla bəzi işləri həyata keçirdiyi qəbul edilən bu sinif üçün işlədildiyi deyilir.

Avestanın Qatalarından məlum olur ki, Zərdüşt sadəcə tövhid anlayışını insanlara çatdırmaqla kifayətlənməyib, həmçinin başda sehr olmaqla batil inanclarla da mübarizə aparıb. Avestanın müxtəlif fəsillərində sehrbazlar və cadugərlər lənətləndiyi halda, xalq məcusilikdəki inanca daha çox etibar edirdi.

## Qədim Çində

Qədim Çində də sehr dinlə, xüsusilə də taoizmlə eyniləşmişdi. Konfutsiçilik ümumi olaraq sehrə qarşı çıxdığına görə qədim sehrbazların işlərini taoist və ya buddist rahiblər davam etdiriblər.

## Qədim Yaponiyada

Qədim yaponlarda sehrin müxtəlif formaları olsa da çox rast gəlinən bir sahə deyildi. Lakin zahidlik həyatı yaşayan bəzi şəxslər sehr, cinçilik və gizli elmlərlə məşğul olduqlarını iddia edərək bunu peşə halına gətirmişdilər. Buddizm Yaponiyaya daxil olduqdan sonra bu qədim adətlər inkişaf etdirildi.

Hazırda Yaponiyada Sintoizm dinində və məzhəblərində xəstəliklərin müalicəsində sehr və cinçiliyə hələ də çox əhəmiyyət verirlər.

## Qədim Hindistanda

Həm qədimdə, həm də dövrümüzdə Hindistanın milli dini olan Hinduizmdə sehrbazlıq geniş yer tutur. Vedalarda sehrlə əlaqəli olan və olmayanı ayırmaq çox çətindir.

## Qədim Yunanıstanda

Bütün qədim yunan filosofları sehrə inanırdılar, hətta aralarında Porfirius kimi özünü tamamilə sehrə həsr edənlər də var idi. Sehrbazlar Pifaqorun rəqəmlərindən istifadə edərək saylardan sehrdə işlədirdilər.

Qədim Yunanıstanda tanrıça, ilahə kimi qəbul edilən Hekata sirli şəxsiyyətə malik olması ilə yanaşı həm də sehr ilahəsi kimi qəbul edilmişdi.

## Qədim Romada

Romalılar sehri boş və mənasız, sehrbazları hiyləgər və yalançı saydıqlarına baxmayaraq, onlarda da sehrə müraciət geniş yayılmışdı. Misirlilərlə kəldanilərin sehrinin təsiri altına düşən qədim Roma sehrbazların mərkəzinə çevrilmişdi. Misir fironları kimi Roma imperatorları da tez-tez bu insanlara müraciət edirdilər.

## Müxtəlif türk qövmlərində

Müxtəlif türk qövmlərində sehr, kahinlik, falçılıq, cinçilik vardı. Şaman türklərdə “qam” sözüylə ifadə edilirdi. Qam ruhlar, tanrılar və cinlərlə əlaqə yarada bildiyinə inanılan şəxs idi.

## Yəhudilikdə

Məlumdur ki, yəhudilər dini kitablarını, yəni Tövratı müqəddəs hesab edərək onun toxunulmaz olduğuna inanırlar. Yəhudilərin müqəddəs saydıqları əsas dini kitablarında sehr üçün ən çox işlədilən söz “kshb” kökündən gəlir.

Yəhudilərin dini kitablarında üç sehrbaz tipindən bəhs olunur: **1.** Əsas işi gələcəkdən xəbər vermək olan şəxslər. Bunlar falçı (meonen), münəccim (kosem kesamim) və qeybdən xəbər verən kahinlərdir (menaheş). **2.** Birbaşa sehrlə məşğul olan sehrbaz-ovsunçu (məkhaşef), ovsun və tilsimlə bağlayan (hover, hever) şəxslər. **3.** Cinçilik və baxıcılıqla ölü ruhlarından bilik əldə edərək həm kahinlik, həm də ovsunla məşğul olanlar. Bu sehrbaz siyahısı bəzən bənzər terminlərdən istifadə edilməklə yəhudilərin əsas dini kitabında kiçik fərqlərlə dəfələrlə qeyd olunur. *Məsələn,* **“Menaşşe Rəbbin**

**məbədinin hər iki həyətində bütün səma cisimlərinə qurbangahlar düzəltdi. Oğlunu oda qurban verdi, gələcəyi dedi və baxıcılıq edib cindarlara və ruhçağıranlara müraciət etdi. Beləliklə, Rəbbin gözündə çoxlu pis işlər görərək Onu qəzəbləndirdi”** *(Tövrat, “2 Padşahlar, 21/5-6”; “2 Salnamələr”, 33/6),* "“Gün gələcək” Rəbb bəyan edir, ə**linizdəki cadugərliyi məhv edəcəyəm, Sizdə gələcəyideyənlər bir daha olmayacaq”** *(Tövrat, “Mikeya”, 5/11),* **“Siz isə öz peyğəmbərlərinizə, falçılarınıza, yuxugörənlərinizə, gələcəyideyənlərinizə və cadugərlərinizə qulaq asmayın”** *(Tövrat, “Yeremya”, 27/9).*

Tövratdakı bu cümlələrdən də aydın olur ki, sehrbazlara, cindarlara, ruhçağıranlara, baxıcılara müraciət etmək Rəbbin gözündən düşərək Onu qəzəbləndirmək deməkdir.

Yəhudilikdə sehrin, cadunun təsiri olduğuna inanmaq qadağan olmasına baxmayaraq onlar həm Misirdə, həm də sürgündə olduqları Babildə sehrlə bağlı çox şey öyrəndilər. Sehrə inanmaq Tanrının iradəsinin bəşərin məqsədlərinə xidmət etməsi mənasına gəldiyi üçün tək Tanrının dünyanı idarə etməsi inancına ziddir. Buna görə də yəhudilərin dini kitablarında “Cadugər qadını yaşatmayacaqsan” deyilmişdir (*Tövrat, “*Çıxış”, 22/18). Bundan başqa, “Cinçilərə və baxıcılara getməyin”; “Baxıcılıq etməyin və gələcəyi deməyin”, “Cindarlara və ruh çağıranlara tərəf dönməyin, onlarla danışmayın, yoxsa murdarlanarsınız”, “Cindar, yaxud ruh çağıran kişilər və ya qadınlar öldürülməlidir, onlar daşqalaq olmalıdır” (*Tövrat,* “Levililər”, 19/26, 31; 20/27) kimi sərt qadağalarla yanaşı, sehrbazlığın, ovsunçuluğun, münəccimliyin, ulduz falının və buna bənzər olanların insanları başlarına gələcək hadisələrdən xilas etməyəcəyi açıqlaması da qeyd edilir (*Tövrat, “*Yeşaya”, 47/8-14). Sehrə qarşı sərt qadağa Talmudda, xüsusən Mişnada da vardır. Mişnada ovsun bütə sitayiş etməklə eyniləşdirilir.

## Xristianlıqda

Xristianlığın əsas dini kitabı olan İncildə bir yerdə münəccimlərdən bəhs olunur. O da şərqdən gələn münəccimlərin İsanın doğumunu müjdələmələri kimi qeyd olunur ("Mattanın İncili", 2/1-12). Əslində isə yəhudilikdə olduğu kimi xristianlıqda da sehrlə, cadugərliklə əlaqəli qadağa öz əksini tapıb.

İncillərdə cinin insana daxil olması ("Markın İncili", 3/22-30), içində cin olanın öldürülməsi ("Yəhyanın İncili", 7/20; "Həvarilərin işləri", 16/16) kimi məqamlara da rast gəlirik. Bundan başqa, sehrbazlıqdan tövbə etməyənlərin qınandığına da şahid oluruq: "Onlar nə qatilliklərindən, nə sehrbazlıqlarından, nə əxlaqsızlıqlarından, nə də oğurluqlarından tövbə etdilər" (İncil, "Vəhy", 9/21).

Sehrbazların əxlaqsızlarla, qatillərlə, imansız və bütpərəstlərlə eyni sadalandığının da İncilin "Vəhy" bölümündən oxuyuruq: "Qorxaqların, imansızların, iyrənclərin, qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların aqibəti isə od və kükürdlə yanan göldə olacaq; bu, ikinci ölümdür" (İncil, "Vəhy", 21/8). Eyni məsələlərə necə yanaşıldığını görmək üçün İncilin "Vəhy" fəslindən bu cümləlləri də qeyd edək: "İt kimi murdarlar, sehrbazlar, əxlaqsızlar, qatillər, bütpərəstlər və yalanı sevib danışan hər kəs kənarda qalacaq" (İncil, "Vəhy" 21/15). "Cismani təbiətin əməlləri isə bəllidir. Bunlar cinsi əxlaqsızlıq, murdarlıq, pozğunluq, bütpərəstlik, sehrbazlıq, düşmənçilik, münaqişə, qısqanclıq, hiddət, özünü göstərmə, nifaq, təfriqələr, paxıllıq, sərxoşluq, eyş-işrət və buna bənzər şeylərdir" (İncil, "Qalatyalılara", 5/9-21).

Xristianlığın tarixinə nəzər yetirdikdə cadugərliyin qadağan olunduğunu, cadugərlərin ölümlə cəzalandırılaraq edam edildiklərini görürük. Papalıq bunu həmişə əlində əsas tutaraq ona qarşı gələnləri müxtəlif adlarla cəzalandırıb. 1320-ci ildə çıxarılan papalıq fərmanı ilə sehrbazlıq və cadugər-

lik dinsizlik hesab edilib. 1484-cü ildə cadugərlik Papa VIII İnnokent tərəfindən küfr elan edilib. Bu fərman inkvizisiya məhkəmələri tərəfindən başda İspaniya, Fransa, Almaniya və İngiltərə olmaqla, Avropanın müxtəlif yerlərində 200 il boyu aralarında bir çox günahsız insanın da olduğu on minlərlə insanın günahlandırılmasına və əzabla öldürülməsinə səbəb olub.

Belə ki, XV-XVII əsrlər arasında bir çox yəhudi inkvizisiya məhkəmələrində çıxarılaraq ovsunçuluq və cadugərliklə günahlandırılaraq öldürülüb.[89] Xristian dünyası sehrdən daha çox cadugərdən qorxub.

## Sehrlə əlaqəli ayələr

Quran bu məsələyə hansı yöndən yanaşır, varlığı və yoxluğu, faydası və zərəri, yoxsa yaxşılığı və pisliyi baxımından? Bunları öyrənmək üçün əvvəl "sehr" sözünün qeyd edildiyi ayələrə ümumi olaraq nəzər yetirək.

"Sehr" sözü törəmələrilə birgə Quranda altmış üç yerdə mövcuddur. Bunların üçü "səharu", "təsharu" və "tusharun" kimi feil, digərləri isə isim olaraq qeyd edilir. Quranda "sehr" ifadəsinin bəzən peyğəmbərlər, bəzən onların göstərdiyi möcüzələr, bəzən isə birbaşa ilahi kəlamın özü üçün istifadə edildiyi xəbər verilir.

Quranda "sehr" sözü gözü və qəlbi aldatma,[90] haqq və həqiqətdən üz döndərmək,[91] səhər vaxtı,[92] məcnun,[93] yeyib-içməyə ehtiyacı olan adi insan[94] və bacarıqlı alim[95] mənalarında işlədilib.

---

89 EJd., XI, 714-715.
90 "Bəqərə" surəsi, 2/102.
91 "Muminun" surəsi, 23/89.
92 "Ali-İmran" surəsi, 3/17; "Qəmər" surəsi, 54/34.
93 "İsra" surəsi, 17/41, 101.
94 "Şuəra" surəsi, 26/153, 185.
95 "Zuxruf" surəsi, 43/49.

Quranda sehrlə əlaqəli ifadələrə nəzər yetirdikdə sehrbazların etdiklərinin hiylə və aldatmaq olduğunu,[96] uydurma,[97] iftira,[98] haqqın və doğruluğun əksi (batil),[99] zülm,[100] insanların gözlərini boyamaq,[101] olmayan bir şeyi olmuş kimi göstərmək[102] kimi xarakterizə edildyi və haqq gəldikdən sonra sehrbazların etdiklərinin yox olduğunun,[103] pərişan olduqlarının,[104] Uca Allahın onların etdikləri sehri puç edəcəyinin,[105] sehrbazların heç zaman uğur qazanmayacaqlarının[106] bildirildiyini görürük.

Nəticə olaraq, Quranın məna bütövlüyü çərçivəsində sehrdən, əsasən, xəyal etdirmə, göz aldatma, uydurma hərəkət, hiylə kimi bəhs olunduğu, haqqın və bəsirətin əksi kimi xarakterizə edildiyi, sehrbazların etdiklərinin boşa çıxarılacağı və onların əsla xilas olmayacaqlarının deyildiyini öyrənirik.

## Peyğəmbərlərin sehrbazlıqda ittiham edilməsi

Quranda sehr sözünün və törəmələrinin qeyd olunduğu ayələrə baxdıqda Musa və Harun peyğəmbərlərlə bağlı otuz beş, Muhəmməd peyğəmbərlə əlaqəli on yeddi ayədə əksini tapdığını görürük. Bundan başqa, İsa peyğəmbərlə bağlı iki, Saleh, Şueyb və Süleyman peyğəmbərlərlə əlaqəli olaraq isə hər biri bir ayədə qeyd edilib.[107]

Uca Allah Quranda bütün peyğəmbərlərin Allahı inkar

---

96 "Taha" surəsi, 20/60,64, 69.
97 "Əraf" surəsi, 7/117; "Şuəra" surəsi, 26/45.
98 "Taha" surəsi, 20/61.
99 "Əraf" surəsi, 7/105, 106, 108; "Yunus" surəsi, 10/76,77, 81.
100 "Əraf" surəsi, 7/103.
101 "Əraf" surəsi, 7/116.
102 "Taha" surəsi, 20/66.
103 "Əraf" surəsi, 7/118.
104 "Taha" surəsi, 20/61.
105 "Yunus" surəsi, 10/81.
106 "Yunus" surəsi, 10/77; "Taha" surəsi, 20/69.
107 M. F. Abdulbaqi, "əl-Mucəmul Mufərrəs", "shr" mad.

edənlər tərəfindən eyni cür yalançılıqla, dəliliklə və sehrbazlıqla ittiham edildiklərini bildirib.[108] Ayələrə nəzər yetirdikdə də inkarçıların öz yanlarında yetişib boya-başa çatan peyğəmbərləri onların maraqlarına xidmət etmədikləri üçün müxtəlif adlarla gözdən salmağa çalışdıqlarının şahidi oluruq. Məsələn, Səmud tayfası peyğəmbərləri Salehə onun sehrlənmiş olduğunu deyirlər.[109] Əykə əhli də Şueyb peyğəmbəri eynilə Saleh peyğəmbər kimi sehrlənməkdə günahlandırırlar.[110] Eyni ifadələri Musa və Harun üçün Firon da işlədib "bir-birilərini dəstəkləyən iki sehrbaz olduqlarını iddia edib"[111] və onların sehrləndiklərini güman etdiyini, "yalançı sehrbaz"[112] və ya "dəli"[113] olduqlarını deyib.[114] İsa peyğəmbər də bu cür ittihamlardan kənarda qalmayıb, ona da etdiklərinin sehrdən başqa bir şey olmadığını demişdi.[115] Allahın sonuncu elçisi üçün də eyni ifadələri işlədiblər: "sehrlənmiş bir adama uyursunuz",[116] "sehrlənmiş bir adamın ardınca gedirsiniz".[117] Əvvəllər "etibarlı Muhəmməd" (Muhəmmədul Əmin) adlandırdıqları bir şəxs üçün Allahın vəhyini çatdıraraq onlara zidd gəldiyinə görə "Bu, yalançı bir sehrbazdır",[118] "Sözsüz ki, bu, açıq-aşkar sehrbazdır"[119] demişdilər. Onlar təkcə Peyğəmbərə deyil, hətta onun təbliğ etdiyi ilahi kəlama "sehr" deyərək, "bunun açıq ovsun" olduğunu söyləyərək,[120] "uydurulmuş

108 "Zariyat" surəsi, 51/52.
109 "Şuəra" surəsi, 26/153-154.
110 "Şuəra" surəsi, 26/185.
111 "Qəsəs" surəsi, 28/48.
112 "Ğafir" surəsi, 40/24.
113 "Zariyat" surəsi, 51/39.
114 "İsra" surəsi, 17/101.
115 "Maidə" surəsi, 5/110; "Saff" surəsi, 61/6.
116 "İsra" surəsi, 17/47.
117 "Furqan" surəsi, 25/8; "Ənbiya"surəsi, 21/3; "Zuxruf" surəsi, 43/30.
118 "Sad" surəsi, 38/4.
119 "Yunus" surəsi, 10/2.
120 "Nəml" surəsi, 27/13.

sehr" iddia edərək[121] iftira atmışdılar.[122]

**"Onlara göydən bir qapı açsaydıq və onlar dayanmadan oraya qalxsaydılar, yenə də inanmayıb: "Gözlərimiz dumanlanmış, daha doğrusu biz sehrlənmişik" - deyərdilər"** ***("Hicr" surəsi, 15/14-15).***

Beləliklə, insanlar öyrəşdikləri, adət etdikləri, vərdiş halına gətirdikləri şeylərdən fərqli bir məsələ gördükləri vaxt təəccüblənir, heyrətə düşürlər. Bu effektdən ayılandan sonra ya məsələnin mahiyyətini dərk edərək göstərilənin fövqəltəbii güc tərəfindən olduğunu anlayır, ya da çoxluğa tabe olaraq bu qeyri-adi hadisənin gözboyaması olduğunu iddia edərək göstərəni sehrbazlıqda ittiham edirlər. Demək olar ki, Allahın göndərdiyi bütün peyğəmbərlər eyni ittihamlara məruz qalıblar.[123]

## Musa peyğəmbərin sehrbazlarla mübarizəsi

Qurandan Allahın elçilərinin dəliliklə yanaşı sehrbazlıqda da ittiham edildiklərini öyrəndik. Ancaq peyğəmbərlər bütün bunlara baxmayaraq elçi olaraq göndərildikləri insanlardan heç bir mənfəət gözləmədən öz vəzifələrini yerinə yetirib bu böhtanlara əhəmiyyət verməyiblər. Ancaq iki qardaş peyğəmbərdən başqa. Bu peyğəmbərlər Allahın əmrinə tabe olaraq konkret sehrbazlarla mübarizə aparıb və onların göstərdiklərinin ancaq hiylə olduğunu nümayiş etdiriblər. Bu iki qardaş Musa və Harun peyğəmbərlərdir.

Hər iki peyğəmbərin sehrbazlarla mübarizə aparması həm yaşadıqları dövrdə sehrbazlığın daha geniş vüsət alması, həm də Fironun hər ikisinə qarşı məhz sehrbazlardan istifadə etmək cəhdi idi. Çünki Firon və əyanları peyğəmbərliklə seh-

121 "Qəsəs" surəsi, 28/36.
122 "Hud" surəsi, 11/7; "Səbə" surəsi, 34/43; "Əhqaf" surəsi, 46/7; "Muddəssir" surəsi, 74/24.
123 "Zariyat" surəsi, 51/52.

rbazlığın fərqini dərk etməmişdilər. Uca Allah bununla həm elçilərinin göstərdiklərinin sehr deyil, möcüzə olduğunu, həm də onlarla göndərilənin sehr deyil, vəhy olduğunu açıq-aşkar göstərdi. İndi isə bu göstəriləni bilmək üçün Qurana müraciət edək. Görək Quranda Musa və Harun peyğəmbərlərin sehrbazlarla mübarizəsi necə cərəyan edib?

Uca Allah Musa və Harunu peyğəmbər olduqlarını Firona və onun əyanlarına sübut edə bilmələri üçün əliboş deyil, möcüzələrlə göndərir. Fironla görüşdükdə Musa deyir ki: "Ey Firon! Mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm! Mən Allah barəsində yalnız haqqı deməyə borcluyam. Mən sizə Rəbbinizdən açıq-aşkar bir dəlil gətirmişəm". Firon da cavabında deyir: "Əgər möcüzə ilə gəlmisənsə və doğru deyirsənsə, onu gətir göstər!"

Firon bunu deyən kimi Musa əsasını yerə atır və Firon əsanın ilan olduğunu görür. Sonra Musa əlini qoynundan çıxarır və hər kəs onun gözqamaşdıran bir parlaqlıqda olduğuna şahid olurlar.

Firon tayfasının əyanları deyirlər: "Şübhəsiz ki, bu çox bilikli bir sehrbazdır. Göstərdiyi də açıq-aydın bir sehrdir!". Sonra onların hər ikisini ittiham edərək gözdən salmağa çalışırlar: "Onların bütün arzusu sizi yurdunuzdan çıxarmaq, bizi də atalarımızın tutduğu yoldan döndərməkdir. Onlar istəyirlər ki, yer üzündə böyüklük etmək ikisinə qalsın. Ona görə də biz sizə iman gətirən deyilik".

Musa onların bu sözləri qarşısında belə dedi: "Sizə haqq gəldikdə: "Bu sehrdir?" deyirsiniz? Halbuki sehrbazlar uğur qazanmazlar".

Firon Musanın sözlərindən və göstərdiklərindən sonra əyanlarına tərəf dönərək: "Siz nə təklif edirsiniz?" - deyə soruşur.

Onlar belə cavab verirlər: "Musanı qardaşı Harunla birlikdə saxla və şəhərlərə sehrbazları yığıb gətirmək üçün adam-

lar göndər ki, nə qədər bilikli sehrbaz varsa, hamısını tutub gətirsinlər!"

Firon da əyanlarının sözlərindən sonra Musaya deyir ki, sənin göstərdiyin sehrdir və biz də sənə buna bənzər bir sehr göstərə bilərik. Buna görə də konkret vaxt təyin et. Hamımız üçün də münasib yer olsun.

Musa dərhal: "Görüş vaxtınız bayram günü, camaatın bir yerə toplaşacağı səhər vaxtıdır!"

Firon dərhal bütün bilikli sehrbazların yanına gətirilməsini əmr edir. Nəhayət, sehrbazlar təyin olunan gün - bayram günü günorta çağı yığıldılar.

Sehrbazlar əvvəlcə Fironun yanına gəlib dedilər: "Əgər biz üstün gəlsək, yəqin ki, bizə bir mükafat veriləcək!" Firon: "Bəli, şübhəsiz ki, siz mənə ən yaxın adamlardan olacaqsınız!"- deyə cavab verdi.

Bundan sonra sehrbazlar Musaya dedilər: "Ey Musa! Ya sən əvvəl əsanı yerə at, ya da biz əlimizdəkiləri ataq!"

Musa: "Siz atın"- dedi. Onlar iplərini və əsalarını yerə atıb: "Fironun qüdrəti sayəsində, biz üstün gələcəyik!"- dedilər. Onlar əllərindəkiləri yerə atdıqda adamların gözlərini sehrləyib onları qorxutdular və böyük bir sehr göstərdilər. Hətta Musaya elə gəldi ki, onların kəndirləri və çomaqları sehrləri sayəsində hərəkətə gəlib sürünür. Musa bundan ürpərdi. Bu zaman Allahdan Musaya vəhy gəldi: "Qorxma, qalib gələn mütləq sən olacaqsan!" Musa təskinlik tapıb sehrbazlara dedi: "Sizin gördüyünüz iş sehrdir. Həqiqətən, Allah onu boşa çıxaracaq. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz".

Bundan sonra Musa Allahın əmriylə əsasını yerə atır. Ora yığışanlar da baxıb gördülər ki əsa sehrbazların düzəltdikləri bütün şeyləri silib süpürdü.

Artıq həqiqət ortaya çıxmışdı və sehrbazların düzəltdiklərinin yalan, sehrin həqiqət olmadığı aydın olmuşdu. Bunun-

la da sehrbazlar hamının gözü qarşısında məğlub edildilər. Bundan sonra sehrbazlar Musanın etdiyinin sehr olmadığını anlayaraq hamısı birlikdə səcdəyə qapanıb belə dedilər: "Biz iman gətirdik aləmlərin Rəbbinə - Musanın və Harunun Rəbbinə!"

Bütün bunlardan qəzəblənən həmin dövrün Fironu sehrbazlara belə dedi: "Mən sizə izin verməmiş siz ona inandınız? Bu sizin Musa ilə birlikdə qurduğunuz hiylədir, o sizə sehr öyrədən böyüyünüzdür. Əhalisini buradan çıxarmaq məqsədilə qurduğunuz bir hiylədir. Amma başınıza nə oyun açacağımı biləcəksiniz! Əl-ayağınızı çarpaz kəsdirəcək, sonra isə hamınızı çarmıxa çəkdirəcəyəm!"

Sehrbazlar isə bu dəfə Firona belə etiraz etdilər: "Lap yaxşı, biz Rəbbimizin hüzuruna dönəcəyik! Sənin bizdən intiqam almağın isə ancaq Rəbbimizin möcüzələri gələn kimi bizim onlara iman gətirməyimizə görədir. Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver. Sən ancaq bu dünyada hökm verə bilərsən!Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, O, bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın. Allahın mükafatı daha xeyirli, cəzası isə daha daimidir!" Sehrbazlar sonra belə dua etdilər: **"Ey Rəbbimiz! Bizə səbr bəxş elə və bizi müsəlman olaraq öldür!"[124]**

Peyğəmbərliyin və sehrbazlığın tamamilə ayrı şeylər olduğunu ayələr aydınlığında bəhs olunan hadisədən də öyrənirik. Allah Quranda elçisinin göstərdiyi ilə sehr arasında mahiyyət fərqini əyani olaraq göstərərək sehrbazların etdiklərinin gözaldatma və əl cəldliyi olduğunu vurğulayır. Sehri bilən sehrbazların Musa peyğəmbərin göstərdiyi möcüzələr qarşısında

124 "Əraf" surəsi, 7/103-126; "Yunus" surəsi, 10/75-81; "Taha" surəsi, 20/56-72; "Şuəra" surəsi, 26/30-51; "Nəml" surəsi, 27/12-13; "Qəsəs" surəsi, 28/36.

aciz qalmalarını və Musanın Rəbbinə iman gətirmələrini[125] bu çərçivədə təhlil etmək lazımdır.

Quranda Musa peyğəmbərin və sehrbazların mübarizəsində bir neçə maraqlı məqam ortaya çıxır. Bunları anlamaq üçün bəzi məsələlərə aydınlıq gətirmək lazımdır: niyə Allahın elçisi olduqlarını deyən peyğəmbərlər möcüzə göstərməli idilər? Möcüzə göstərən peyğəmbərlər niyə sehrbaz adlandırılıblar? Sehrbazlarla Musa peyğəmbərin qarşılaşması üçün vaxt hansı meyarlara görə təyin olunur? Musa peyğəmbər sehrbazların göstərdiklərindən niyə qorxur? Niyə tamaşaçılar deyil, məhz sehrbazlar Musanın və Harunun Rəbbinə iman gətirirlər?

## Peyğəmbərlər niyə möcüzə göstərirlər?

Burada qısa olaraq qeyd edək ki, möcüzə elçilərin Allah tərəfindən göndərildiyinin sübutu, insanların inanması,[126] xəbərdar edilməsi[127] və təskinlik üçün[128] göstərilir. Və Allahın icazəsi olmadan heç bir elçi möcüzə göstərə bilməz.[129]

## Vaxtın və məkanın təyin edilməsi

Konkret olaraq vaxtın təyin edilməsi hər iki tərəf üçün anlaşılan idi. Çünki Firon və ətrafındakılar Musa peyğəmbərin göstərdiyinin sehr olduğuna inanır, onun hər kəsin qarşısında rəzil olmasını istəyirdilər. Musa peyğəmbər isə gətirdiyinin möcüzə olduğuna heç bir şübhəsi olmadığına haqqın insanların gözləri önündə baş verməsini arzulayırdı. Amma burada maraqlı bir məqam gün olaraq bayram gününün, vaxt olaraq

125 "Əraf" surəsi, 7/116-122;"Taha" surəsi, 20/68-70.
126 "Bəqərə" surəsi, 2/118.
127 "İsra" surəsi, 17/59.
128 "Bəqərə" surəsi, 2/260, "Maidə" surəsi, 5/113.
129 "Rəd" surəsi, 13/38, "Mumin" surəsi, 40/78, "İbrahim" surəsi, 14/11, "Maidə" surəsi, 5/110.

isə ərəb dilində "duha" adlandırılan səhər vaxtının seçilməsidir.[130] Səhərin seçilməsi sehrbazların hiylələrinin baş tutması üçün ən əlverişli zaman idi. Çünki torpaq tam isinməməli idi. Soruşula bilər ki, burada torpağın isinməməsinin nə əlaqəsi var? Dərhal cavab verək. Çünki sehrbazlar torpaqla havanın temperaturundakı fərqdən istifadə edirdilər. Termometrdəki civəyə görə havanın temperaturunu öyrəndiyimizi, bədən hərarətimizi ölçdüyümüzü gözümüzün qarşısında canlandıraq. Sehrbazların da əllərində tutduqları və dəyənək kimi göstərdikləri əslində içinə civə doldurulan bağırsaqlar idi. Bağırsaqların baş tərəfindən tutanda əsa kimi, ortasından tutanda ip kimi, yerə atanda da tempraturun fərqindən ilan kimi olurdu. Toplaşan insanlar da həmin dəyənəklərin hərəkət etdiyini görəndə ilana çevrildiklərini güman edirdilər. Musa da ilk dəfə bunu görəndə qorxur.[131] Çünki o, sehrbazların etdiklərinin nə olduğunu bilmirdi. Uca Allah Musaya belə vəhy edir: "Qorxma, qalib gələn mütləq sən olacaqsan!"[132]

## Musa peyğəmbərin qorxması

İndi bu suala cavab tapmağa çalışaq. Allahın elçisi olan bir insan niyə qorxur və ya qorxmalıdır? Bunu iki cəhətdən anlamalıyıq. Birincisi, Musa peyğəmbərin sehrbazların göstərdikləri bu hiylələrin insanların həqiqətləri görmələrinə mane olacağından qorxması, digəri isə Musa peyğəmbərin də bir insan olaraq həmin sehrdən təsirlənməsi idi. Çünki Musa da bir insan idi. Onlar da digər insanlar kimi bəşər olublar.[133] Bir insan peyğəmbər olandan sonra onun hissləri "peyğəmbərlik modu" adlandıra biləcəyimiz bir moda keçmir. Musa peyğəmbər də bir anlıq da olsa, qorxu hissi keçirir. O sehrin

130 "Taha" surəsi, 20/59.
131 "Taha" surəsi, 20/67.
132 "Taha" surəsi, 20/68.
133 "Kəhf" surəsi, 18/110; "Fussilət" surəsi, 41/6.

geniş yayıldığı cəmiyyətdə yaşamasına baxmayaraq həyatı boyu heç bir sehrbazla rəqabətə girməmişdi. Bu cür iddiası da heç vaxt olmamışdı.

Uca Allah da Quranda elçisi Musanın sehrbaz olmadığını, rəqiblərinin sehrini sehrlə deyil, Allahın izniylə təsirsiz etdiyini və digərlərinin göstərdiyi hərəkətlərin yalnız aldatma olduğunu bildirir.[134]

## Sehrbazların inanması

Fironun sehrbazları hakimiyyətin gücünü də özlərinə dayaq edərək məharətləri ilə insanlar arasında etibar qazanmışdılar. İqtidar da bundan öz hakimiyyətini gücləndirmək və sistemini davam etdirmək üçün istifadə edirdi. Buna görə də sehrbazlar "Fironun qüdrəti sayəsində biz üstün gələcəyik!" deyərək bu gücü Firondan aldıqlarını da insanların şüuraltına yeridirdilər. Firon da onları maddi olaraq təmin edirdi. İki tərəf arasında qarşılıqlı mənfəətləşmə var idi.

Sehrbazlar etdiklərinin nələrdən ibarət olduğunu hamıdan yaxşı bilirdilər. Başqaları üçün sehr olan onlar üçün müəyyən kimyəvi maddələr, məharət və qabiliyyətlərin sintezindən ibarət idi. Uca Allah sehrbazların göstərdiklərini görənlər baxımından "böyük bir sehr" olaraq adlandırır,[135] onların bütün alətləri və avadanlıqları üçün "kəyd", yəni hiylə sözünü işlədir,[136] yəni onların bütün etdiklərinin hiylə olduğunu, insanları hipnoz etdiklərini, sonra da tamaşaçılar tərəfindən güclü sehr kimi göründüyünü bildirir. Bəs necə olur ki, hər kəs tərəfindən qəbul olunan, hörmət göstərilən, hətta cəsədlərin mumiyalanması kimi işlərin həvalə olunduğu sehrbazlar bir anda hər şeydən keçdilər?

---

134 "Əraf" surəsi, 7/103-105, 116-117; "Yunus" surəsi, 10/76-77, 81; "Taha" surəsi, 20/ 60-69.
135 "Əraf" surəsi, 7/116.
136 "Taha" surəsi, 20/60, 64.

Sehrbazlar Musa peyğəmbərin göstərdiyinin sehr olmadığını dərhal anlamışdılar, çünki heç bir sehrbazın belə bir şey edə bilməyəcəyini ən yaxşı özləri bilirdilər. Onlar məsələni anlayan kimi həqiqəti dərk etdilər və buna görə də iman gətirdilər. Sehrbazları o anda imana sövq edən güc əsanın ilana çevrilməsi deyil, əsl bilik idi, həqiqəti görmələri idi. Məsələnin mahiyyətindən xəbəri olmayan tamaşaçılar isə çaşqınlıq içində qalsalar da, iman gətirmirlər.

Musa peyğəmbərin göstərdiyi bu möcüzə Firona və onun tayfasına göndərilən doqquz möcüzədən sadəcə biri idi.[137]

## Sehr öyrədən mələklər: Harut və Marut?

Sehrin, cadunun mövcudluğuna əsas kimi gətirilən ayələrdən biri də "Bəqərə" surəsinin 102-ci ayəsidir. Ayənin dilimizdəki tərcümələrində mənasını verib, həmin tərcümədəki məqamları müzakirə edəndən sonra ayənin düzgün mənasını verməyə çalışacağıq:

**"Onlar Süleymanın səltənətinə dair şeytanların oxuduqlarına uydular. Süleyman kafir olmadı, lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki (o iki mələk): "Biz imtahanıq, sən gəl kafir olma!" – deməmiş heç kəsə sehr öyrətmirdilər. (Bununla belə yəhudilər) yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar (sehrbazlar) Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar belə şeyləri satın alanların axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!"** ***("Bəqərə" surəsi, 2/102).***

Bu ayənin tərcüməsindən onlarla sual çıxarmaq olar, biz ayəni düzgün başa düşmək məqsədilə bu suallara cavab

137 "Nəml" surəsi, 27/12, "İsra" surəsi, 17/101.

tapmalıyıq: Ayədə qeyd olunan şeytanlar kimlərdir? Süleyman peyğəmbərin kafir olmasını kimlər iddia edirdi? Harut və Marut kimdir? Bunlar iki mələkdirlər, yoxsa iki məlik? Mələklər sehr öyrədərlərmi? Harut və Marutun öyrətdiyi sehr nədir? Bütün bu suallara cavab tapmaq üçün ayənin əvvəlindən etibarən incələməyə çalışaq. Amma bütün bunlardan əvvəl ayənin nə üçün, necə gəldiyini, yəni nüzul səbəbini bilmək laızmdır.

## Ayənin nazil olma səbəbi

“Bəqərə” surəsi Quranın ən böyük surəsidir. Mədinədə nazil olan surələrdəndir. Surənin 102-ci ayəsinin də daxil olduğu ayələr qrupu yəhudilərlə əlaqəli olaraq nazil olub. Nazil olması ilə bağlı bir neçə versiya olsa da, hamısı eyni qapıya çıxır. Həmin versiyalardan birinə görə, yəhudilər Süleymanın peyğəmbər deyil, sehrbaz olduğunu iddia etdikləri üçün ayə nazil olub. Digər versiyaya görə, yəhudi sehrbazlar sehr elmini kral Süleymandan öyrəndiklərini dedikləri, həmçinin sehrin vəhyə əsaslanan doğru bilik olduğunu iddia etdikləri üçün, başqa varianta görə isə yəhudilərin Süleymanın hakimiyyəti sehrlə ələ keçirdiyini və sehrlə gücləndirdiyini demələrindən sonra Uca Allah Süleymanın peyğəmbər olduğunu vurğulamaq və ona böhtan atıldığını bildirmək üçün bu ayələri nazil edib.

Bir məqamı da vurğulayaq ki, yəhudilərin sehr və sehrbazlıq mövzusunda biliklər əldə etmələri və bunu özlərinə peşə seçmələri tarixi həqiqətdir. İsrail oğulları sehrlə hələ Misirdə tanış olmuşdular. Tövrat bunu qadağan etməsinə baxmayaraq, onlar müxtəlif adlarla bunu yaşadıblar (sehrin qadağan olmasına rəğmən, müsəlmanların müxtəlif adlarla fəaliyyət göstərən bu cür insanlara müraciət etmələri kimi). Sehrbazlığın, ovsunçuluğun, cadugərliyin yəhudilər arasında nə qədər geniş yayıldığını Tövratın “Daniel”, “Mərsiyələr”, “Yerem-

ya" kitablarına nəzər yetirdikdə görmək mümkündür.

İndi ayənin tərcüməsində yaranan suallara cavab tapmağa çalışaq. İlk olaraq ayədə bəhs olunan Süleyman peyğəmbərin kimliyinə qısa olaraq aydınlıq gətirməyə çalışaq.

## Süleyman peyğəmbər kimdir? Kral, yoxsa peyğəmbər?

Ayənin əsas obrazı Süleyman peyğəmbərdir. Allah Quranda Süleymanın peyğəmbərliyindən bəhs etdiyi halda,[138] yəhudilərin əsas dini kitabları olan Tövratda Süleyman peyğəmbər olaraq deyil, sadəcə kral kimi qeyd olunur.[139] Yəhudilər Süleymanı kafir olaraq qəbul edirlər. Tövratın 1-ci Padşahlar fəslinin 11-ci hissəsi *"Süleymanın Allahdan uzaqlaşması"* sərlövhəsi ilə başlayır. Hətta həmin hissədə Süleymanın atasından fərqli olaraq Rəbbə sadiq olmamasından, müxtəlif xalqlardan olan arvadlarına sevgi ilə bağlanmasından, onların da Süleymanın ürəyini yoldan çıxararaq başqa tanrılara etiqada sövq etmələrindən bəhs olunur.[140] Süleyman peyğəmbər haqqında bunlar deyilir: *"İsrailin Allahı Rəbb belə deyir: "Mən padşahlığı Süleymanın əlindən çəkib alıram və on qəbiləni sənə verirəm... çünki onlar Məni tərk etdilər və Sidonluların ilahəsi Aştoretə, Moav tanrısı Kemoşa, Ammonluların tanrısı Milkoma sitayiş etdilər. Bu böhtanların səbəbi Süleymandan sonra hakimiyyətə gələn oğlu Rexavamın əlindən hakimiyyəti almaq idi".*[141]

Allah isə bəhs etdiyimiz ayədə yəhudilərin iddialarının əksinə olaraq onun kafir olmadığını xüsusi ilə vurğulayır. Başqa bir ayədə də Süleymana "O nə gözəl bəndə idi! Çox sayğılı idi" ***("Sad" surəsi, 38/30)*** deyərək qarşı tərəfin iddialarını

138 "Nisa" surəsi, 4/163.
139 Tövrat, "1 Padşahlar" 11/31-33.
140 Tövrat, "1 Padşahlar", 11/3-7.
141 Tövrat, "1 Padşahlar", 11/43.

təkzib edir. Ayədəki "Süleyman kafir olmadı" ifadəsi həm Süleyman vasitəsilə sehrə haqq qazandırmağa çalışan anlayışı, həm sehri, həm də sehrbazları rədd edən cavabdır.

## Ayədəki şeytanlar kimlərdir?

Ayədə "şeytanlar sehri öyrədərək kafir oldular" buyurulur. Biz bugünə kimi bilirdik ki, şeytanlar kafirdilər. Bəs burada niyə şeytanların sehri öyrədərək kafir olmalarından ayrıca bəhs olunur? Bu suala cavab tapmaq üçün yenə Qurana müraciət edirik. Dərhal da aydın olur ki, bu ayədə bəhs olunan şeytanlar indiyə kimi bizə xüsusi məxluq kimi təqdim olunan "şeytan" deyil. Bu "şeytanlar" bildiyimiz, daha doğrusu, bilmədiyimiz şeytan mənasında deyil, əksinə şeytanlıq edən insanlarla əlaqəlidir. Quranın "şeytan" ifadəsini əsasən "pislik edən insan" mənasında işlətdiyini unutmamalıyıq. Bunu haradan çıxardığımızı soruşanlara Qurandan iki ayə ilə cavab verməyə çalışaq.

Uca Allah Quranda belə buyurur: **"Şeytanlar arasından onun üçün (dəniz sularına dalıb) dalğıclıq edən və bundan başqa digər işlər görənlər də var idi"** ***("Ənbiya" surəsi, 21/82).*** Həmçinin eyni məzmunlu başqa bir ayədə də belə buyurulur**: "Həmçinin şeytanlardan olan müxtəlif (nəqşlər vuran) bənnaları, dalğıcları da ona tabe etdik"** ***("Sad" surəsi, 38/37).*** Bu ayələrdən şeytanların mücərrəd məxluqlar deyil, konkret olaraq bənna işi görən, dalğıclıq edən canlılar olduğu məlum olur. Və şeytanların insanlardan da olduğunu Allah Quranda bizə xəbər verir ***("Nas" surəsi, 114/5-6).*** Əslində, ayədəki "şeytanlar" sehrin doğruluğunu iddia edən bütün insanlar, yəni sehrbaz və ovsunçulardır.

## Harut və Marut kimdir?

İndi gələk ayədə qeyd olunan Harut və Marutun kimliyinə. Həqiqətənmi adları çəkilənlər iki mələkdir? Yoxsa bun-

lar müxtəlif qiraətlərdə oxunduğu kimi iki məlik olub? Yer üzündə gəzib dolaşanlar mələk olmadığı halda Allah mələkləri niyə insanlara göndərib? Mələklər insanlara peyğəmbər kimi göndərilirmi? İnsanlara sehr öyrədənlər mələklər idimi? Ümumiyyətlə, sehrin həqiqəti, təsiri varmı?

Həm haqqında bəhs etdiyimiz 102-ci ayədən, həm öncəki, həm də sonrakı ayələrdən söhbətin məhz Mədinə yəhudiləri ilə əlaqəli olaraq nazil olduğunu bilirik. Onlar Məkkədən köçüb Mədinəyə gələn Muhəmməd peyğəmbərin peyğəmbərliyini qəbul etmirdilər. Bunun səbəblərindən biri də Quranda Süleymandan peyğəmbər kimi bəhs edilməsi idi. Tövrat Süleymanı peyğəmbər deyil, kral kimi təqdim edir. Hətta Süleymanın hakimiyyətini daha da gücləndirmək və rəqabət ehtimalını aradan qaldırmaq üçün qardaşı Adoniyanı öldürtdürdüyü də Tövratda iddia olunur.[142] Yəhudilər Süleymanın nəinki peyğəmbər olduğuna inanır, əksinə, onun kafir olduğuna[143] və hakimiyyətinin də Tövratda açıq şəkildə qadağan olunmasına baxmayaraq,[144] sehrlə daha da gücləndirdiyinə inanırlar. Quran isə "Süleyman kafir olmadı" cümləsi ilə yəhudilərin nəzərində heç sevilməyən Süleymanın nüfuzunu bərpa edir, onların nəzərindəki etibarını geri qaytarır. Süleymanın sehr öyrətmədiyini, sehrlə məşğul olmadığını bildirərək onun kafir olmadığını qeyd edir, bu cür düşünənlərin iddialarını təkzib edir.

Ayədə qeyd olunur ki, "şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular". Quranda Harut və Marut adının çəkildiyi yeganə ayə budur. Harut və Marutla əlaqəli heç bir səhih rəvayət də yoxdur. Mövcud olan rəvayətlər də əfsanə olaraq qarşımıza çıxır. İndi gəlin həmin rəvayətləri qeyd edək, daha sonra

142 Tövrat, "1 Padşahlar", 2/13-25.
143 Tövrat, "1 Padşahlar", 11/31-33.
144 Tövrat, "Çıxış", 22/18; "Levililər" 19/26-31; 20/27.

bunu anlamağa çalışaq.

Təbəri "Bəqərə" surəsinin 102-ci ayəsinin təfsirini verərkən Harut və Marut adlı iki mələk haqqında İbn Abbasa istinad edilən bu rəvayəti qeyd edir:

*"Allah insanların yer üzündə nə etdiklərini mələklərinə göstərdi. Mələklər insanların günah işlər etdiklərini görəndə "Ey Allahım, yer üzündə əllərinlə yaratdığın, mələklərə səcdə etdirdiyin və adları öyrətdiyin bəşər övladı budurmu?" deyərək şikayət etdilər. Allah mələklərin bu etirazlarına "onların yerində olsaydınız, eynisini edərdiniz" şəklində cavab verdi. Buna qarşılıq olaraq mələklər "biz əsla belə bir şey etməzdik" dedikdə, Allah yer üzünə göndərilmək* üçün aralarından iki mələk seçmələrini əmr edir. Bundan sonra mələklər öz aralarından yer üzünə göndərilmək üçün Harut və Marut adlı iki mələyi seçirlər.

*Bunlara Allaha şərik qoşmamaq, oğurluq etməmək, zina etməmək, içki içməmək, adam öldürməmək kimi qadağalardan başqa hər şey halal edilmişdi. Bir gün adı Bizaht olan gözəl bir qadınla qarşılaşdılar. Bu qadını görən mələklər onunla zina etmək istədilər. Qadın onların bu təklifini Allaha şərik qoşmaları, içki içmələri və ya bir insan öldürmələri qarşılığında qəbul edəcəyini bildirdi. Mələklər Allaha əsla şərik qoşmayacaqlarını, lakin içki içməyi qəbul etdiklərini qadına bildirdilər. Bu mələklər içki içib sərxoş olduqda sual vermək üçün yanlarına gələn bir nəfəri haqsız yerə öldürdülər. Bütün bu hadisələrdən sonra Allah səmadakı mələkləri bu iki mələyin yer üzündə etdiklərindən xəbərdar etdi və mələklər insanlar haqqında olan səhv fikirlərinə görə tövbə etdilər. Sonra isə Allah Süleyman peyğəmbər vasitəsilə bu iki mələyə etdikləri çirkinliklərin cəzasını dünyada, yoxsa axirətdə, ikisindən birini seçmələrini istəyir. Mələklər də cəzalarını dünyada çəkməyi qəbul etdilər. Bu səbəbdən, mələklər Babildə bir quyuda ayaqlarından aşağı asılıblar".*

Bundan başqa, Əhməd bin Hənbəlin “Müsnəd” adlı əsərində də buna oxşar bir rəvayət var. Abdullah bin Ömərə istinad edilən həmin rəvayətə görə Adəm Allah tərəfindən yer üzünə göndərildiyi zaman mələklər Allaha **“Biz həmdinlə səni təsbih və təqdis edərkən, yer üzündə fəsad çıxaracaq, orada qan tökəcək insanı xəlifə edirsən?” deyirlər. Allah da onlara “Sizin biləməyəcəyinizi hər halda mən bilirəm” deyir *(“Bəqərə” surəsi, 2/30)*.** Mələklər özlərinin adəm övladından daha itaətkar olduqlarını dedikdə isə Allah yer üzünə göndərmək üçün aralarından iki mələk seçmələrini bildirir. Harut və Marut seçilərək yer üzünə göndərilir. Zöhrə çox gözəl qadın surətində qarşılarına çıxdıqda mələklər ona sahib olmaq istəyirlər. Qadın da Allaha şərik qoşmaları şərtilə təkliflərini qəbul edir. Mələklər bunu rədd edirlər. Bundan sonra qadın bir uşaq gətirir və onu öldürmələrini istəyir. Mələklər bunu da qəbul etmirlər. Sonra qadın içki gətirir və bunu içdikləri təqdirdə təkliflərini qəbul edəcəyini bildirir. Mələklər içkini içib sərxoş olduqda qadınla zina edirlər, uşağı öldürürlər. Ayıldıqları zaman qadın onlara əvvəl qəbul etmədikləri hər şeyi sərxoş olduqda etdiklərini xatırladır. Mələklərdən dünya və ya axirət əzabından birini seçmələri deyildikdə, onlar dünya əzabını seçirlər.[145]

Bu cür əfsanələr Tövratın “Yaradılış” fəslindəki əfsanənin geniş versiyasıdır: “İnsanlar yer üzündə çoxalmağa başladı və onların qızları doğuldu. O zaman Allah oğulları gördülər ki, insan qızları çox gözəldir və bəyəndikləri hər qızı özlərinə arvad etdilər”.[146] Yəhudilikdə mələklər oğlan, ərəblərdə isə qız hesab edilib.[147]

İndi Harut və Marut sözünü açıqlamağa çalışaq. Əsli ərəb dilində olmayan Harut və Marut sözləri yəhudilərin ana dil-

145 Əhməd b. Hənbəl, “Musnəd”, II, 134 (6178).
146 Tövrat, “Yaradılış” 6/1-3.
147 “Zuxruf” surəsi, 43/19.

ləri olan İbrani dilində də mövcud deyil. Tövratda da bu ikisi haqqında məlumat yoxdur. Hətta apokrif yəhudi mətnlərində də bu haqda bəhs olunmur. Bəs necə olur ki, bu iki ad Quranda yəhudilərə istinad edilir? Xatırladaq ki, ayə yəhudilərlə əlaqəli olaraq nazil olub. Və ayədəki Harut və Marut onların istifadə etdikləri sözlər idi. Ayə də onlara danışdıqları sözlərlə gəlib. Və buna görə heç biri bu ayəyə heç vaxt etiraz etməyib. Bu iki sözün yəhudilərin dilinə keçməsi onların Babil sürgünü ilə əlaqələndirlir.

Bəzi tədqiqatçılar Harut və Marutu ilk dəfə Zərdüştlüyün dini mətnlərində qeyd edilən Haurvatat və Ameretat ilə eyni hesab etsələr də,[148] bu əlaqə yalnız söz bənzərliyidir, çünki bunların hekayələri tamamilə fərqlidir. Haurvatat suların, Ameretat isə bitkilərin qoruyucusu olub, sehr və ovsunla hər hansı əlaqələri yoxdur. İbn Aşur Harutun ay mənasına gələn "haruqa" sözündən olduğunu, Marutun isə Müştəri (Yupiter) ulduzunun ərəb dilinə keçmiş forması olduğunu bildirsə də, bunun da bir əsası yoxdur.

Gəldiyimiz nəticə odur ki, illərlə Babildə sürgün həyatı yaşayan yəhudilər Zərdüştlüyün bu ifadələrini özününküləşdirib sehrlə əlaqələndirərək istifadə ediblər. Ayə də onların istifadə etdikləri bu iddialara cavab olaraq nazil olub.

Bir daha qeyd edək ki, Quranda mövcud olan bütün qissələr, hekayətlər və adların hamısı ünvanlandığı şəxslərin bildikləri mövzular olub. Heç bir Quran ayəsi nazil edildiyi tarixi mühitdən ayrı təsəvvür edilə biməz. Məsələn, Quranda müxtəlif ayələrdə qeyd edilən "Firon" konkret bir şəxsin adı deyil, Misir krallarının ünvanı olub. Həmçinin ayələrdə qeyd olunan "Haman" da, misirlilərin baş tanrısı "Ha Amon, Haman, Hammon"un ünvanıdır. Qədim misirlilər tanrılarının adlarını baş rahibə və baş vəzirə də eyni şəkildə verirdilər.

Haqqında danışdığımız ayədə də əsas məqsədlərdən biri iki mələk əfsanəsi üzərində qurulan səhv fikri düzəltməkdir.

148 Jeffery, s. 283; EI² [İng.], III, 236-237.

Buna görə də vəhy ünvanlandığı şəxsin işlətdiyi dili və üslubu seçir. Məsələn, vəhy müraciət edilən insanların qavrayışındakı iki mələk əvəzinə iki din adamı sözünü işlətsəydi, bu halda qarşıdakı şəxslə eyni dili danışmaz, onunla doğru ünsiyyət yarada bilməzdi. Quran gəldiyi bölgənin insanlarının danışdığı dillə onlarla danışıb. Mesajlarını onlara düzgün çatdırmaq üçün onların anlayışlarına uyğun sözlərdən, məsəllərdən istifadə edib. Bunun ən bariz nümunələrindən biri də Zulqərneyn hekayətindəki **"Günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə batan gördü"** ***("Kəhf" surəsi, 18/86)*** ayəsidir. Hamımız bilirk ki, "günəşin batdığı yer" xəritədə yoxdur!

## İki mələk, yoxsa iki məlik?

Ayədə iki "mələk"dən bəhs olunur. Bununla bağlı qarşımıza 3 fərqli məqam çıxır: 1. Həmin söz bildiyimiz mələkdirmi? 2. Bəzi qiraətlərdə olduğu kimi iki məlikdən söhbət gedir? 3. Mələk sözü burada yəhudilikdə istifadə edildiyi fərqli mənadır?

Gəlin birlikdə bu 3 suala cavab tapmağa çalışaq. Birincisi, ayədə bizim bildiyimiz mənadakı mələkdən söhbət gedə bilməz. Əgər ayədəki "mələk" sözünü bizə məlum olan tərzdə qəbul etsək, bəzi suallara cavab tapmalıyıq. Bu suallardan biri budur ki, Allah bu iki mələyi insanlara nə üçün göndərib?

Məşhur təfsir müəlliflərindən biri olan Fəxrəddin Razi ayədəki mələkləri İslamın bildirdiyi mələk anlayışı kimi qəbul edərək məsələyə çox fərqli prizmadan yanaşıb: "Əgər sehr öyrətmək küfr olsaydı, iki mələk insanlara sehr öyrətməməliydi. Mələklər məsum olduğuna görə deməli, küfr deyil". İndi qeyd edəcəyimiz məsələlərlə buna da aydınlıq gətirək və sehrin haram olduğuna heç kimin heç cürə haqq qazandıra bilməyəcəyini əsaslandıraq.

"İsra" surəsinin 95-ci ayəsində Allah buyurur ki, **"Əgər**

**yer üzündə arxayın gəzib dolaşanlar mələklər olsaydı, əlbəttə, onlara səmadan mələk elçi göndərərdi”** ***(“İsra” surəsi, 17/95).*** Yer üzündə gəzib dolaşanlar insan olduğu üçün mələklərin insanlara elçi kimi göndərilməsi mümkün deyil, çünki Allah özü bunu bildirir. Başqa ayələrdə də, insanlara mələk göndərməməsini bu cür izah edir: “Mələkləri ancaq həqiqi bir iş üçün endiririk” ***(“Hicr” surəsi, 15/8).*** **“Əgər biz mələk endirsəydik, iş bitmiş olardı, onlara möhlət də verilməzdi”** ***(“Ənam” surəsi, 8/8).***

Bundan başqa, mələklərin insanlara peyğəmbərlərsiz nələrsə öyrətməsi mümkündürmü? Həmçinin, sehrin böyük hiylə olduğu, bunu edənlərin Allahın ayələrini görməzliyə vurduqları aydın olduğu halda mələklərin haram olan bir işi, yəni sehri insanlara öyrətməsi mümkündürmü? Bu iki mələk necə olur ki, insanlara küfr olan sənəti öyrədir? Necə olur ki, heç bir əsli olmayan *“çitraxuda, çitraxuda, işvara, ayravana, ayravana, çandrika”, “abraka-dabra”* və ya *“fokus-mokus”la,* yəni şifahi elmlə kişi ilə xanımı bir-birindən ayırırlar? İslamda bu cür mələk anlayışı varmı? Bütün bunlara böyük YOX-la cavab verdiyimizə görə, ikinci məsələni təhqiq edək.

İkinci məsələ, qiraət alimləri arasında ayədə qeyd edilən və mütəvatir qiraətlərdə “mələkeyn” (iki mələk) şəklində oxunan sözü fərqli tələffüz edənlərin olmasıdır. İbn Abbas, Həsən Bəsri, Səd b. Cubeyr, Əbul-Əsvəd əd-Duəli və Dahhaq b. Muzahim kimi müsəlman alimlər isə “məlikeyn” (iki məlik, iki kral) qiraətinə üstünlük verərək onların insan, yəni babilli iki məlik, Davud və Süleyman, yaxud başqa iki şəxs olduqlarını iddia ediblər. Ayədəki “mələk” sözünün hökmdar, padşah, kral mənasına gələn “məlik” kimi oxunması bir suala cavab verməyimizi zəruri edir. İndiyə kimi tarixdə qarşımıza Harut və Marut adlı iki məlik, yaxud kral çıxıbmı? Buna da “Bəli” cavabı verə bilmədiyimizə görə üçüncü bəndə keçirik. Ancaq burada bir məqama toxunaq ki, İbn Hazm bunların

mələk və ya məlik deyil, iki şeytan və ya cinlərdən formalaşan iki qəbilə olduğunu deyərək fərqli şərh edib.[149]

Üçüncüsü, ayədə qeyd olunan söz "mələk" sözüdür və bunu işlədənlər yəhudilərdir. Allah da "mələk" sözünü İslamdakı mələk anlayışına görə deyil, onların işlətdiklərinə uyğun olaraq qeyd edib. Buna görə də yəhudilikdə mələk sözünün hansı mənalarda istifadə edildiyini öyrənək.

Yəhudilikdə mələklərə inam mövcuddur. Onların mələk anlayışını anlamaq üçün İsrail oğullarının yetmiş il davam edən Babil əsarəti, diaspora (sürgün) illəri üzərində dayanmaq lazımdır. Çünki ayənin toxunduğu iki mələk Babillə əlaqəlidir. Babil o illərdə Kəldanilərin səltənət mərkəzi idi. Belə ki, kəldani (rus ədəbiyyatında "xaldey"lər) termin olaraq astroloq, münəccim, kahin, ovsunçu və sehrbaz deməkdir. Tövratdakı mələklərlə əlaqəli yazılar da əsasən yəhudilərin sürgün dövrünə və sonrasına aid fəsillərində tez-tez qeyd edilir. Yəhudilər Babil əsarəti müddətində Kəldanilərin və İranlıların təsiri altında qaldıqları illər ərzində Zərdüştilikdəki yaxşı və pis ruh fikri yəhudiliyə yaxşı mələk və pis mələk tərzində keçib.

Əlimizdə mövcud olan Tövratda mələklər insandan daha qüdrətli, Tanrıya bağlı, Ona xidmət edən, mesajlarını insanlara çatdıran, elçilik vəzifələri olan məxluqlar kimi qəbul edilir. Tövratda mələklər üçün "Allah oğulları",[150] Allahın ordusu,[151] müqəddəslər,[152] qüdrətlilər,[153] tanrılar[154] və qullar[155] ifadələri də işlədilir. Tövrat sonrası dini ədəbiyyatda "günahkar mələklər"dən də bəhs olunur. Apokrif kitablarda, xüsusilə

149 DİA, XI, 354.
150 Tövrat, "Yaradılış", 6/2,4; "Əyyub", 1/6; 2/1; "Zəbur", 82/6; 89/6.
151 "Yaradılış", 32/1-2; "1 Padşahlar", 22/19; "Yeşaya", 24/21.
152 "Əyyub", 5/1; "Zəbur", 89/5; "Zəkəriyyə" 14/5; "Daniel", 8/13.
153 "Zəbur", 78/25.
154 "Zəbur", 82/1, 6; 97/7.
155 "Əyyub", 4/18.

də Enochun kitabında həmin mələklərin Tanrının əmrinə tabe olmadıqlarına görə qovulduqları qeyd olunur. Bundan başqa, Tövratda bəzən mələk sözünün yerinə adam, şəxs sözü işlədilir. "Yaradılış"dakı hekayədə[156] Yəqubla güləşən şəxs Tanahın kitablarından biri olan Hoşeada (12/5) "malakh" olaraq adlandırılır.[157]

Xristianlıqda da yəhudilikdəki kimi mələk inamı mövcuddur və eynilə həmin dindəki kimi inanıldığına şahid oluruq. İncildə də yaxşı və pis mələk olduğu,[158] yaxşı mələklərin səmada olduqları, Allahı ucaltdıqları, Onun ordusunu meydana gətirdikləri, oradan dünyaya endikləri, onların da sınağa çəkildikləri[159] bildirilir.[160]

İndi gələk hər iki dində - yəhudilikdə və xristianlıqda "mələk" sözünün insanlar üçün işlədilib-işlədilməməsinə. İbrani dilində "kərub" sözü var. Cəmi "kərubim" olan "kərub" sözü mələklər üçün işlədilir. Assuriya dilindən İbrani dilinə keçib. Mənası "yaxın olanlar" deməkdir. Kərub (kərubim) yəhudilikdə və xristianlıqda Tanrıya ən yaxın mələklər üçün işlədildiyi kimi, "Əhd Sandığı" qoruyucusu və daşıyıcısı olan din adamları üçün də (Avinadavın oğulları Uzza və Axyo) məcazi mənada işlədilir.[161] Çünki Əhd Sandığını daşıyan və qoruyanlar Levi qövmünə mənsub rahiblərdir.

Tövratda Əhd Sandığını daşıyanlar və qoruyanlar üçün işlədilən "kərubim", yəni mələklər sözü xristianlar tərəfindən rəsmi İncillərin 4 müəllifləri (Luka, Matta, Yəhya və Mark) üçün də istifadə olunur və onlar qoruyucu mələklər (kərubim) kimi təsvir edilirlər. Bununla yanaşı, yepiskoplar və ömrünü kilsəyə həsr edən rahiblər üçün "kilsələrin mələkləri" ifadəsi işlədilir. Həmçinin, xristianlıqda mələklər, peyğəmbərlər

156 Tövrat, "Yaradılış", 32/24-25.
157 TDV melek maddəsi, Ali Erbaş.
158 Matta, 25/41; Vahiy, 12/7.
159 Matta 25/41, II Petrus, 2/4, Yəhuda 6.
160 Matta, 18/10; Luka, 1/19.
161 II Samuel, 6: 2-19.

və həvarilər əziz qəbul edilir.[162] Əziz (qadın isə əzizə) ünvanı xristianlıqda yaxşılıqlarıyla tanınan insanlara ölümlərindən sonra verilir. Bunu isə ancaq kilsə verir və həmin şəxslər müqəddəs elan edilir.

Maraqlıdır ki, Quranda da Sandığın daşınmasından bəhs olunur və **"onu mələklər daşıyacaqdır"** buyurulur ***("Bəqərə" surəsi, 2/248).*** Tövratda qeyd edilən məsələ eynilə Quranda da öz əksini tapır. Yəni Əhd sandığını daşıyanlar üçün Quran da Tövratdakı "mələk" sözünü işlədir. Bütün bunlardan aydın olur ki, Uca Allah Quranın gəldiyi dövrdəki insanların danışıq dillərində istifadə etdikləri ifadələri işlədib. Yəhudilər Sandığı daşıyanları mələk adlandırdıqları üçün Allah da onların dili ilə eyni sözü işlədib.

Bütün bunları nəzərə alaraq Harut və Marutun Babildəki iki din adamı olduqlarını qeyd edə bilərik. Sandığı daşıyan din adamları kimi bunların da mələk adlandırılmaları mümkündür. Bundan başqa, sehri və ovsunu Babildə yaşayan Harut və Marut icad etməyiblər. Çünki babillilər də bu ənənəni şumerlərdən alıb. Yəni Harut və Marutdan əvvəl də sehr və ovsun vardı. Lakin ovsun edilməsi Babildə də qadağan idi. Bunu edənlər ağır cəzalandırılırdı. Harut və Marut adlı yəhudi din adamları yəhudiləri ovsundan qorumağa çalışan Allahın əsl mələkləri deyil, mələk adlandırılmış məbəd işçiləri, din adamlarıdır. Nəticə olaraq qeyd edə bilərik ki, "Bəqərə" surəsinin 102-ci və 248-ci ayələrində qeyd edilən "mələk" sözləri yəhudilərin yüksək səviyyəli din adamları üçün işlətdikləri məcazi sözdür. Quranda bu ifadə eynilə onların istifadə etdikləri tərzdə işlədilib.

## Ayənin düzgün tərcüməsi

Harut və Marut mövzusuna başlayarkən yazının əvvəlində "Bəqərə" surəsinin 102-ci ayəsinin dilimizdəki mənasını

162 Luka, 9/26; Həvarilərin işləri, 3/21; Efesoslulara Məktub, 3/5 = cilt: 04; sayfa: 332.

qeyd etmişdik. Həmin tərcümədə qeyd olunan məsələləri incələyəndən sonra gəlirik ayənin bizə görə düzgün tərcüməsinə:

**"Onlar Süleymanın hakimiyyəti barədə şeytanların uydurduqlarına (onun hakimiyyəti sehirlə gücləndirdiyi iddiasına) tabe oldular. Halbuki Süleyman (sehrlə məşğul olaraq) kafir olmadı. Əksinə insanlara sehri öyrədən şeytanlar kafir oldular. Həmin yəhudilər Babildəki iki mələyin - Harut və Marutun başına gələnlər barədə də şeytanların uydurduqlarını izlədilər. Halbuki o ikisi "biz (Babil sürgünüylə) sınanırıq, küfrə düşməyin (həqiqətlərin üstünü örtməyin)" deməmiş heç kimə heç nə öyrətməzdilər. Bəs necə olur ki, (Mədinə yəhudiləri) ərlə arvadı bir-birindən ayıracaq şeyləri o ikisindən öyrəndiklərini iddia edirlər? Onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzdilər. Onlar özlərinə faydası olmayan, əksinə,** zərəri olan şeyləri öyrənirdilər. Bu cür alış-verişi (sehrlə məşğul olmağı) seçdikləri üçün bunun onlara axirətdə heç bir faydası olmayacağını da yaxşı bilirlər. Kaş özlərini necə pis satdıqlarını da biləydilər" ***("Bəqərə" surəsi, 2/102).***

Bu ayədə əsas məsələ yəhudilərin Allahın sonuncu elçisi olan Muhəmmədin peyğəmbərliyini qəbul etməmələri idi. Çünki onun gətirdiyi Quranda Süleyman peyğəmbər kimi təqdim edilir, Tövratda isə, əksinə, Allaha üsyan edən kafir kimi göstərilirdi. Bu ayə ilə Allahın elçisi Süleymana qarşı atılan böhtanlarla birgə sonuncu elçi olan Muhəmməd peyğəmbərin gətirdiklərinin "sehr" olduğu iddiaları da təkzib olunur.

Qeyd edək ki, ayənin tərcüməsini verərkən ərəb dilindəki "nüzul" sözünə "başına gələnlər" mənasını verdik. Çünki ərəb dilindəki lüğətlərdə "nüzul" bir şeyin enməsi və meydana gəlməsi olaraq qeyd olunub.[163] Bundan başqa, adamın

163 İbn Faris, "Mucəmul Məqayis fil-Luğa". Darul fikr, Beyrut 2012.

başına gələn sıxıntıya da “nazilə” deyilir.[164] “Sınanırıq” kimi qeyd etdiyimiz “fitnə” sözü də “bir şeyi oda atmaq”dır.[165] Adamlar üçün istifadə ediləndə, bir mədənin real vəziyyətini başa düşmək kimidirsə “imtahan”,[166] mədəni qızılla qaplamaq kimidirsə “aldatmaq”,[167] cəmiyyəti oda atmaq kimidirsə “müharibə”,[168] odla cəzalandırmaq üçündürsə “cəhənnəm əzabı”[169] mənalarında işlədilmişdir.

## “Fələq” surəsində düyünlərə üfürən qadınlar, yoxsa?

Günümüzdəki bütün sehrbazların, falçıların özlərini ekstrasens, caduaçan, uzaqgörən və sair adlandırmalarından asılı olmayaraq hamısı insanların dini heysiyyatlarından və dini bilgisizliklərindən sözün əsl mənasında məharətlə istifadə edirlər. Onlar Quranda sehrin olmasından, Peyğəmbərə cadu edilməsindən və düyünlərə üfürən qadınlardan bəhs edilməsindən ağızdolusu danışırlar. Bu iddialarına haqq qazandırmaq üçün yaxşı sehr və pis sehrin mövcudluğunu, ağ ovsunun yaxşılıq olaraq edilən ovsun olduğunu ifadə edirlər. Bu iddialarına əsas kimi Quranın dilimizdəki tərcümələrindən və bəzi rəvayətlərdən sitatlar gətirirlər. İnsanlar da həmin şəxslərin tərcümələrinə inanır və bu kimi tələlərə düşürlər. Bu bölümdə insanları həmin tələlərə düşməmələri üçün “düyünlərə üfürülmək” kimi tərcümə edilən ayədən qısa olaraq bəhs etməyə çalışacağıq. Belə ki, haqqında danışdığımız ayə Quranın 113-cü surəsi olan “Fələq” surəsinin 4-cü ayəsidir.

Bu ayəni dilimizdəki Quran tərcümələrində “Düyünlərə üfürən cadugər qadınların şərindən” və ya “cadu edib iplərə

---

164 İbn Mənzur, Əbul Fazl Cəmaluddin, Lisanul Ərəb, Beyrut 1990.
165 İbn Mənzur, Lisanul Ərəb, Beyrut 1990.
166 “Əraf” surəsi, 7/155.
167 “Əraf” surəsi, 7/27.
168 “Bəqərə” surəsi, 2/191.
169 “Zariyat” surəsi, 51/10-14.

düyün vuran qadınların şərindən" kimi tərcümə ediblər. Düyünlərə üfürənlər kişilər olsa necə olacaq? Cadu sözü hardan çıxdı? Hətta bəziləri ayənin məcazi mənada olduğunu deyərək *"müxtəlif naz və işvələrlə kişilərin fikirlərini cəlb edən qadınlar"* mənasına gəldiyini iddia ediblər.[170] Bəzi təfsirçilər də iki fərqli rəvayətə əsaslanaraq[171] ayəni Muhəmməd peyğəmbərə edilən sehrlə əlaqələndiriblər.

Əfsuslar olsun ki, ayəni bu cür tərcümə etməklə nə qədər insanın yanlışa düşməsinə səbəb olurlar. Sadəcə bir tərcümədə deyil, dilimizdəki bütün Quran tərcümələrində bunu görürük. Əslində isə ayənin düzgün mənası necə olmalıdır?

Ayə cəmi-cümlətanı 3 sözdən ibarətdir: "şər", "nəffəsət" və uqəd". "Şər" sözü dilimizdə də pislik, yamanlıq, fənalıq, pis iş mənalarında işlədilir. Əslində ikinci söz - "uqəd" sözü də tək halda "əqd" olaraq dilimizdə istifadə olunur. "Uqəd" sözü "əqd" sözünün cəm formasıdır. İki cildlik "Ərəbcə - Azərbaycanca lüğət"də "ə-q-d" sözü bağlamaq, düyünləmək mənalarına gəlir.[172] Sülh bağlamaq, saziş başlamaq, kəbin əqdi bağlamaq, əlaqə qurmaq, hətta diplomatik əlaqələr qurmaq da bu sözlə işlədilir. Bundan başqa, "Azərbaycan dilinin izahlı lüğəti" adlı kitabda da "əqd" sözü əqd etmək, müqavilə bağlamaq, əlaqə qurmaq mənasına gəldiyi qeyd olunur. "Nikah (kəbin) əqd etmək" də kəbin kəsmək mənasına gəlir. Quranın "Bəqərə" surəsində "nikah əqdi", yəni nikah bağlanması mənasında işlədilir.[173] Digər ayələrdə "əhd bağlamaq",[174] "bağlanan əhdlər"[175] mənalarında işlədilir.

Qaldı üçüncü "nəffəsət" sözü. Təəssüflər olsun ki, bu söz

170 Faxrəddin ər-Razi, XXXII, 179.

171 Musnəd, IV, 367; VI, 57, 63, 96; Buxari, "Tıbb", 47; Muslim, "Səlam", 43; İbn Macə, "Tıbb", 45; Nəsai, "Tahrim", 20.

172 2-cild, səh. 248.

173 "Bəqərə" surəsi, 2/235, 237.

174 "Nisa" surəsi, 4/33.

175 "Maidə" surəsi, 5/1.

ərəb dilində pəltək "s" hərfi ilə yazılmasına baxmayaraq buna "sin" hərfi ilə məna verilib. Bu sözün əsli olan "nə-fə-sə" sözü bir şeyin ağızdan çıxmasına deyilir. Bu söz ilan haqqında işlədiləndə ilanın ağzından zəhərin çıxması, vulkanla birlikdə işlədiləndə vulkanın püskürməsi mənasında işlədilir.[176] İnsanla əlaqəli olduqda da bir şeyin ağızdan çıxması anlamına gəlir.[177]

Bu 3 sözün də mənasını öyrəndiyimizə görə gələk ayənin düzgün tərcüməsinə. Ayədəki "uqəd" sözü əlaqələr, "nəffəsət" sözü ağızdan çıxan şeylərin şərindən Allaha sığınmaq mənasına gəldiyi üçün ayənin tərcüməsi belə olmalıdır:

**"Əlaqələrə fəsad qarışdıranların şərindən..."**

## Muhəmməd peyğəmbərə sehr edilibmi?

Hazırda bu peşə ilə məşğul olanlar Muhəmməd peyğəmbərə cadunun edilməsini əsas gətirərək həm cadunun mövcudluğunu, həm də peyğəmbərə təsir edibsə, başqalarına daha asanlıqla təsir edəcəyi iddiasını ortaya atırlar. Təəssüflər olsun ki, bu cür iddiaların səslənməsində günahkarlar müsəlmanlardır. Çünki Quranda bunun tam əksi olmasına baxmayaraq əfsuslar olsun ki, hədis kitabları bu cür rəvayətlərlə boldur. Bunların arasında Muhəmməd peyğəmbərə bir yəhudi tərəfindən cadu edildiyi barədə rəvayəti, gəlin, oxuyaq və birlikdə müzakirə edək.

Hadisənin hicrətin 7-ci ilində, yəni peyğəmbərliyin gəlişindən 20 il sonra, 629-cu ildə baş verdiyi bildirilir. Muhərrəm ayında Mədinədəki münafiqlərdən bir heyət Xeybərdə yaşayan yəhudilərin yanına gedirlər. Heyətdəkilər Xeybərin ən məşhur cadugəri olan Lübeyd b. Asımla görüşürlər.

Mədinədən gedən heyət özləri ilə Muhəmməd peyğəmbə-

---

176 Rafiq Əliyev, "Ərəbcə - Azərbaycanca lüğət", "n-f-s" maddəsi, 2-cild, səh. 650.

177 İbn Faris, "Mucəmu Məqayisil Luğa", 1039.

rin darağını və saçının tüklərini də aparmışdılar. Bunları isə Peyğəmbərə xidmət edən yəhudi uşağın vasitəsilə ələ keçirmişdilər. Lübeyd də heyətin gətirdikləri saç tükü və daraqla Peyğəmbərə cadu edir.

Peyğəmbərin özündə olmadığını, etmədiyi bir işi etmiş kimi güman etdiyini və cadudan necə xilas olduğunu Aişə anamıza istinad edilən bir rəvayətdən xəbər tuturuq. Aişə anamız Peyğəmbərə sehr edildiyini bildirir. Hətta iş o yerə gəlib çatdı ki, peyğəmbər etmədiyi bir işi etdiyini zənn edirdi. Nəhayət, bir gün o, uzun-uzadı dua etdikdən sonra mənə dedi: “Bilirsənmi, Allah mənə bu xəstəlikdən sağalmaq üçün yol göstərdi. Yuxuda mənim yanıma iki nəfər gəldi. Onlardan biri mənim baş tərəfimdə, digəri isə ayaq tərəfimdə oturdu və öz aralarında danışmağa başladılar:

– Bunun dərdi nədir?

– Ona sehr edilmişdir.

– Sehri edən kimdir?

– Ləbid ibn əl-Əsam.

– O, sehri nə ilə etmişdir?

– Daraq, darananda saç-saqqaldan tökülən tük və erkək xurmanın tozcuğu ilə.

– Yaxşı bəs o cadu-pitik indi haradadır?

– Zərvan quyusunda.

Bundan sonra Peyğəmbər quyunun yanına getdi. Sonra geri qayıdıb mənə dedi: *“O quyunun suyu ilə suvarılmış xurma ağaclarının başı şeytan başlarına bənzəyir”*. Mən soruşdum: *“Cadunu çıxarda bildinmi?”* Dedi: *“Xeyr, çıxartmadım! Çünki Allah artıq mənə şəfa verib. Lakin mən onun insanlara təsir göstərə biləcəyindən ehtiyat etdim”*. Elə buna görə də həmin quyu (torpaqla) dolduruldu”.[178]

Ən səhih hədis kitabı kimi təqdim olunan Buxarinin “Səhih”ində yenə Aişə anamıza istinad edilən belə bir rəvayət

178 Buxari, “Səhih”, 3175, 3268.

var: *"Peyğəmbər hər gecə yatağına uzandıqda əllərini cütləşdirib onların içinə üfürər, sonra ora "İxlas", "Fələq" və "Nas" surələrini oxuyar, daha sonra isə əllərini baş və üz nahiyəsindən başlayaraq, bacardığı qədər bədəninin hər yerinə sürtərdi. Beləcə, o, bunu üç dəfə təkrar edərdi".*[179]

Mövzunu uzatmamaq üçün Qurandan sonra ən mötəbər hədis kitabı kimi təqdim olunan Buxarinin (810 - 870) "Səhih" adlı əsərindən bu rəvayəti qeyd etdik. Əlavə olaraq bildirək ki, Buxari "Səhih" adlı əsərinin "Kitəbut-Tibb" fəslinin 47-52-ci bölümlərini sehr mövzusundakı rəvayətlərə ayırıb. Həmin bölümlərində Quranın "Bəqərə" surəsinin 102, "Taha" surəsinin, 66-69, "Ənbiya" surəsinin 3, "Fələq" surəsinin 4-cü ayələrini qeyd edərək sehrin mövcudluğunu bildirdikdən sonra Peyğəmbərə edildiyi iddia edilən cadu ilə əlaqəli rəvayətləri qeyd edib.

Əlimizdəki mövcud olan ilk yazılı hədis mənbəyi İmam Buxaridən 100 il əvvəl yaşayan Əbu Urvə Mamər b. Rəşidin (vəfatı 770) 1614 hədisdən ibarət olan "əl-Camii" adlı əsəridir. Həmin əsərdə Peyğəmbərə cadu edilməsi Urvə bin Zubeyrdən cəmi-cümlətanı 4 sətrlik rəvayətdir: *"Peyğəmbərə sehr etdilər və onu quyuya qoydular. Təsirindən hətta Nəbinin az qala gözləri bağlanacaqdı. Sonra isə Allah ona sehrin harada olduğunu göstərdi, həmin sehr oradan çıxarıldı".* Bu əsərdəki başqa bir rəvayətdə Peyğəmbərin sehrləndiyinə görə Aişədən bir il uzaq qaldığı da bildirilir.

Təsəvvür edin, bu dörd sətirlik məlumat sonradan yazılan bütün hədis mənbələrində əlavələrlə həcmi genişlənərək yazılıb. Buxari bu rəvayəti "Bədul-xalq"da, digərini isə "Tibb" bölümündə qeyd edir.[180] Muslimin "Səhih"ində "Kitəbus-Səlam" bölümündə,[181] *İbn Macənin "Sunən"inin tibb bölümün-*

179 Buxari.
180 Buxari, "Bədul-xalq", 11; "Tibb", 46, 48, 49, 57.
181 Muslim, "Salam" 43,44.

*də*[182] və Nəsainin "Sunən"ində "Tahrimud-Dəm" bölümündə[183] qeyd edilib.

Bu qısa arayışdan sonra rəvayətlərdəki ziddiyyətləri qeyd edərək mövzunu Quranın məsələyə münasibəti ilə yekunlaşdırmağa çalışaq.

Bütün bu məsələnin kökündə sehrin mövcudluğunu qəbul etmək dayanır. Əgər sehrin və ya cadunun mahiyyəti anlaşılsa, nə olduğu bilinsə, bu qədər rəvayətin müzakirə edilməsi də aradan qalxardı. Amma biz bütün bunları hələlik bir kənara qoyaraq rəvayətlərdəki məsələləri araşdırmağa davam edək.

Belə ki, rəvayətlərdə guya Peyğəmbərə cadu ediləndən sonra özündə olmadığı və etmədiyi bir işi etmiş kimi bildiyi öz əksini tapır. Hətta bu vəziyyətin nə qədər davam etməsi ilə bağlı da konkret deyil, müxtəlif versiyalar qeyd olunur. Həmin versiyalara görə Peyğəmbərin bu vəziyyəti günlərdən başlayır, altı aya və bir ilə qədər davam etdirilir. Hətta mənbələrdə həyat yoldaşlarına yaxınlaşmadığı halda onlara yaxınlaşdığını güman etdiyi bildirilir.

Bəzi alimlər bu cür təzadlardan çıxış yolu kimi belə bir fikir orataya atıblar ki, bu sehr Peyğəmbərin ağlına və qəlbinə deyil, yalnız bədəninə təsir edibmiş.[184] Halbuki unudulan bir məqam var ki, elə həmin rəvayətlərdə Peyğəmbərin etmədiyi şeyləri etmiş kimi zənn etməsi, xəyal görməsi birbaşa onun ağlı və zehnilə əlaqəli cəhətlərdir. Buradan da aydın olur ki, iki yalan heç vaxt bir doğru etmir. Həmin iddialardan bu cür suallar da ortaya çıxır: Peyğəmbərə sehr edildiyi ərəfələrdə heç vəhy gəlmədimi? Bəlkə həmin vaxtlar dediyi sözləri bu gün hədis kimi qəbul edib yazıblar? Peyğəmbər cadunun təsiri gedəndən sonra əvvəlki dediklərinə düzəliş veribmi? Bununla bağlı hansısa məlumat varmı?

182 İbn Macə, "Tıbb", 45.
183 Nəsai, "Tahrimud-Dəm", 20.
184 İbn Həcər, "Fəthul-Bari", X, 185.

Rəvayətlərdəki ziddiyyətlərdən biri də Peyğəmbərin sehrin olduğu iddia edilən quyuya kiminlə və ya kimlərlə getməsidir. Bəzi rəvayətlərdə Peyğəmbər quyuya səhabələri ilə gedir, bəzilərində bir səhabəni göndərir, bir neçəsində Əli b. Əbu Talibi və ya Ammar bin Yasiri, yaxud Zübeyri, Cubeyr b. Iyazı, Qeys b. Muhsin əl-Zurqini, başqa versiyalarında da Əlini Salman Farisi ilə göndərdiyi iddia olunur.

Maraqlıdır ki, həmin ərəfələr bu quyudan heç kim istifadə etməyibmi? Bəs həmin quyudan istifadə edənlərə və ya quyunun suyundan içənlərə heç bir təsiri olmayıbmı? Təsiri olmaq üçün mütləq daraq və ya saç tükümü lazım idi? Daraqdan imtina etsək, bərbərə gedib saç tükümüzün də onların əlinə keçməsinin qarşısını alsaq caduya məruz qalmağın qarşısını ala bilərikmi?

Bəzi rəvayətlərdə cadunu edənin yəhudi bir qadın olduğu bildirildiyi halda, bəzilərində Lubeyd b. Asım, bəziləri Ləbid ibn əl-Əsam, bəziləri də bu adamın bacısının olduğu deyilir. Hətta Aişədən gələn rəvayətlərdə Ləbid b. Asamın yəhudi olmasından da danışılmır. Bundan başqa, Peyğəmbərin darağını və saçını əldə edən və evində ona xidmət etdiyi iddia edilən yəhudi uşaqla əlaqəli də nə bir ad var, nə də məlumat. Maraqlıdır ki, öz işlərini də özü gördüyü bildirilən bir peyğəmbərə xidmətçilər "təyin edirik", həm də bu xidmətçiləri də nə hikmətdirsə, həm uşaqlardan, həm də yəhudilərdən "seçirik". Belə bir şey olsaydı, bu azyaşlı uşaqların istismarı deyildimi? Həmçinin yuxusuna girən mələklər niyə Peyğəmbərə evindəki həmin "xain" uşağı xəbər verməyiblər? Hətta bəzi mənbələrdə yuxusuna girənin və ya yanına gələnlərin iki mələk olduqları bildirildiyi halda, bəzilərində həmin iki mələyin Mikayıl və Cəbrayıl olduğu deyilir.

Mövzu ilə əlaqəli bəzi rəvayətlərdə cadu edilən Peyğəmbərə Cəbrailin Muavvizəteyn surələrini, yəni "Fələq" və "Nəs" surələrini gətirdiyi xəbər verilir. Muhəmməd peyğəm-

bər də həmin iki surənin hər ayəsini oxuduqca quyudan çıxarılan balaca bütün üzərindəki iynələr bir-bir çıxır və düyümlər bir-bir açılırdı. Axırıncı ayədən sonra Peyğəmbər cadunun təsirindən xilas olduğu üçün özünü rahat hiss etdi. Sonra Lubeydi yanına çağırtdırdı. O da cadu etdiyini etiraf etdi. Buna baxmayaraq Peyğəmbər ona heç bir cəza vermədi. Çünki Peyğəmbər şəxsi məsələ üçün heç kimdən intiqam almazdı. Həm də hadisəni eşidənlərin Lubeydə heç nə etməməsi üçün də yanındakılara xəbərin yayılmamasını tapşırdı.[185] Bu tapşırığa necə riayət olunubsa, hadisənin xəbəri günümüzə qədər gəlib çatıb.

Maraqlıdır, Peyğəmbər nə üçün Lubeyddən cadunu nəyə görə etdiyini soruşmur? Niyə kimlərin etdirdiyini öyrənmir? Əgər onun cadusu Peyğəmbərə bu qədər təsir edibsə, başqalarına daha pis təsir edə biləcəyi halda onu niyə zərərsizləşdirmir? Əgər sehrlə, ovsunla, cadu ilə işləri həll etmək olursa, Peyğəmbər niyə Lubeydin bu gücündən müşriklərə qarşı istifadə etmir? Və ya müşriklərin özləri niyə müsəlmanlarla döyüşmək, vuruşmaq əvəzinə bu cadu işindən istifadə edib müsəlmanlara qalib gəlmək ağıllarına gəlmir? Cəbrayıl, görəsən, həmin surələri gətirmək üçün nə qədər vaxt gözləyir? Qeyd edilən iki surə cadu açması üçünmü göndərilib? Bu cür anlayış Quranın göndəriliş məqsədinə zidd deyilmi?

İndi bu rəvayətdə qeyd olunan "Fələq" və "Nəs" surələri haqqında danışaq. İddia edilən hadisənin, yəni Peyğəmbərə cadu edilməsinin Mədinədə, hicrətin 7-ci ilində baş verdiyi bildirildiyi halda, bu iki surənin illərlə əvvəl Məkkədə nazil olduğu unudulur. Bununla bağlı bir nüansı da qeyd edək ki, ilk rəvayətlərdə Muavvizəteyn surəsinin sehrlə əlaqələndirilməsi ilə bağlı mənbələrdə məlumat olmamasına baxmayaraq,

185 Mövzu ilə əlaqəli bax: Buxari, "Tibb" 47 (5766); Muslim, "Salam", 44/2189 s.1721; İmam Əbul-Həsən Əli bin Əhməd əl-Vahidi, "Əsbabı Nüzul", İhtar Yayıncılık, 399-400; Əbul Həsən Nisaburi, "Əsbabun-Nuzul", 310.

hicrətin III əsrindən etibarən bu cür yanlış bilgilər hədis mənbələrini "bəzəyib".

Qeyd olunan rəvayətlərdəki bir neçə yanlışları da deyərək Qurana müraciət edək. Rəvayətlərin bəzilərində quyunun qapadıldığı, bəzilərində isə içindən balaca büt və düyünlər vurulmuş ip çıxarıldığı deyilir. Quyunun adı ilə bağlı Bəni Zurek, Zərvan və s. kimi bir neçə versiya mövcuddur.

Peyğəmbərə cadu edilməsi rəvayətləri ancaq üç səhabəyə - əksər rəvayətlər Aişə anamıza, sonra Zeyd b. Ərkama, üçüncü olaraq da İbn Abbasa istinad edilir. Demək olar ki, bütün mənbələrdə bu hədisin əsas mənbəyi Aişə anamızdır. Ondan da Hişam bin Urvə və Hişam kanalı ilə davam edir. Qeyd edək ki, Aişə anamızdan rəvayət etdiyi qeyd olunan Hişamın haqqındakı rəylər də birmənalı deyil. Belə ki, Hişam haqqında rəvayətlərində diqqətsizlik etmək, atasından eşitmədiyi şeyləri eşitmiş kimi rəvayət etmək və ömrünün sonuna yaxın yaddaşının zəifləməsi kimi tənqidlər vardır. Malik b. Ənəs onu tədlis etməkdə günahlandırıb. Hədisçilər arasında "tədlis etmək" bir hədisi rəvayət edən şəxsin, yəni ravinin eyni dövrdə yaşamadığı və görüşmədiyi, yaxud görüşsə də hədis almadığı bir şəxsdən hədis eşidibmiş kimi nəql etməsinə deyilir.

Bütün bunlardan sonra həmişə soruşulan "Peyğəmbərə sehr edilə bilər, yoxsa mümkün deyil?" sualına konkret cavab verək. Cadu olmadığı üçün peyğəmbərə və ya başqa insanlara da olmayan bir şeyin edilməsi də mümkün deyil. Əgər sehr olsaydı, Peyğəmbərə də cadu olsaydı, görəsən, özü niyə ona istinad edilən bu sözə əməl etməyib: *"Hər gün səhər vaxtı yeddi ədəd acvə xurması yeyənə o gün zəhər və sehr zərər verməz".*[186]

Buradan aydın olur ki, Peyğəmbərə cadu edilməsi anlayışı heç bir halda doğru deyil və Quranda bildirilən ayələrə də ziddir. Çünki Uca Allah Quranda Muhəmməd peyğəmbərə

186 Buxari, "Səhih", Tibb, 52/82.

cadu edildiyi iftirasını atanların zalımlar olduğunu xəbər verir: **"Zalımlar: "Siz ancaq sehrlənmiş bir adamın ardınca gedirsiniz" – dedilər"** ***("Furqan" surəsi, 25/8).*** *Yenə Rəbbimiz başqa bir ayədə də eyni sözü dediklərini bildirir:* **"... Öz aralarında xəlvətcə söhbət edərkən o zalımların: "Siz ancaq sehrlənmiş bir adama uyursunuz" – dediklərini də Biz çox yaxşı bilirik"** ***("İsra" surəsi, 17/47),*** **"Sən yalnız və yalnız sehrlənmişlərdənsən" ("Şuəra" surəsi, 26/153, 185), "Zalımlar öz aralarında xəlvətcə pıçıldaşıb deyirlər: "Məgər bu sizin kimi adi bir insan deyilmi? Gözünüz görə-görə sehrəmi inanacaqsınız?""** ***("Ənbiya" surəsi, 21/3),*** **"Onlara haqq gəldikdə: "Bu, sehrdir, biz ona inanmırıq" - dedilər" ("Zuxruf" surəsi, 43/30), "Sehrbaz hara gedirsə-getsin, uğur qazanmaz" ("Taha" surəsi, 20/69).**

Zalımlar peyğəmbəri sehrbazlıqda, sehrlənməkdə və gətirdiyinin sehr olmasında ittiham etdikləri halda, biz müsəlmanlar da eynilə peyğəmbərin sehrləndiyini necə iddia edə bilərik? Gəlin, hər birimiz özümüzə bu sualı verək: Biz kimə inanmalıyıq? Qurana, yoxsa Peyğəmbərə cadu olunduğunu iddia edənlərə? Qərar sizindir.

## Cadugərlərin cəzalandırılması

Maraqlıdır ki, Peyğəmbərə cadu edildiyini iddia edənlər cadugərin cəzasını da müəyyənləşdiriblərmi? Buna "yox" cavabı vermək onlara haqsızlıq olar. Çünki Tövratda **"Cadugər qadını yaşatmayacaqsan"** ***(Tövrat, "Çıxış", 22/18),*** **"Cindar, yaxud ruh çağıran kişilər və ya qadınlar öldürülməlidir, onlar daşqalaq olmalıdır"** ***("Levililər", 19/26, 31; 20/27)*** deyildiyi, xristianlıqda cadugərliyin cəzası ölüm olduğu halda, müsəlmanların cəza vermədiyini düşünmək haqsızlıq olar.

Hədislərdə sehr həlakedici yeddi böyük günahdan biri kimi qəbul edildiyinə görə[187] münəccimlərin göy cisimlərilə əlaqə

187 Buxari, "Vəsaya", 23; "Tıbb", 48; Muslim, "İman", 145.

yaradıldıqda onların yer üzündəki gedişata və hadisələrə təsir etmələrinin mümkün olduğunu iddia etmələri şirk olduğu üçün Tirmizinin "Sunən"ində və Əhməd b. Hənbəlin "Musnəd"ində sehr etməyin cəzasının ölüm olduğu bildirilir.[188] Hətta səhabə Cundub bu qətlin qılıncla yerinə yetirilməli olduğunu da xüsusilə qeyd edib. Bu cəzanı da sehrbazların etdiklərinin Allaha şərik qoşmaları, ortaq qoşduqları üçün dindən çıxmaları, dindən çıxanın cəzasının da ölüm olması ilə əlaqələndiriblər.

Hətta cadugərlərin sehrlə məşğul olduqlarına görə küfr etdiklərinə qərar verilir və dindən çıxmaq cəzası ilə, yəni ölümlə cəzalandırılır. Hətta İmam Şafii istisna olmaqla (o sehri iki yerə ayırıb) digər məzhəb imamlarının bu fikirdə olduqları qəbul olunur. Hətta İslamın ikinci əmirəlmömini Ömərin rəhbər şəxslərə "Kişi və qadın bütün sehrbazları öldürün!" deyə məktub yazdığı rəvayət edilir. Bunu deyən Bucalə bin Abduh həmin fərmandan sonra 3 sehrbaz öldürdüyünü qeyd edib.[189] İmam Malikin rəvayət etdiyinə görə, Ömərin Peyğəmbərin xanımlarından biri olan qızı Hafsa da cadu ilə məşğul olan kənizinin öldürülməsini tələb edib və həyata keçirilib. Peyğəmbərin digər xanımı, Əbubəkrin qızı Aişə isə ona cadu edən cariyəsini öldürtdürməyərək kölə və cariyələrinə qarşı kobud davranan bir şəxsə satılmasını istəyib.[190]

Bütün bu yazılanları oxuyanda insanda belə fikir formalaşır ki, Peyğəmbərin evi sanki cadugərlər yuvasına çevrilibmiş.

Maraqlıdır ki, Peyğəmbərə cadu edildiyini iddia edənlər ona cadu edən Lubeyd adlı şəxsə heç bir cəza vermədiyini, hadisəni eşidənlərin Lubeydə heç nə etməməsi üçün xəbərin yayılmamasını yanındakılara tapşırdığını yazdıqları halda nə

188 Tirmizi, "Hudud" 27; Əhməd b. Hənbəl, I, 190.
189 Əhməd b. Hənbəl, 1/190-191.
190 Əbdurrəzzaq, "əl-Musannəf", X, 183.

üçünsə xanımı cadugəri öldürtdürür, səhabəsi cadugərlərin öldürülməsi üçün əmr verir? Bəs Allah bu barədə nə hökm verir?

Bir məqamı da qeyd edək ki, "sehrin əsası vardır, sehrbaz kainatda hökm sahibidir" demək Allahın ucalığına şərik qoşmaqdır.

Uca Allah Quranda sehrbazları qınadığı, sehrin hiylə, göz aldatma olduğunu bildirdiyi, sehrlə məşğul olana cəza veriləcəyini bildirmədiyi halda, dindən dönənin öldürülməsi ilə bağlı bircə dənə də olsa ayə olmamasına baxmayaraq sülh dini olan İslamı necə bu qədər insan öldürməyə həvəsli göstəməyə çalışıblar və çalışırlar? Sadəcə təəssüflər!

## Sehrin, cadunun elmi izahı varmı?

Sehrin və ya cadunun əslində yalandan, göz boyamadan, insanları aldatmadan başqa bir izahının olmadığını öyrəndik. Bəs bunun bir elmi izahı varmı? Bu barədə hansısa tədqiqat aparılıbmı? Nəticə əldə olunubmu? Bunun üçün əvvəl elmin təcrübi üsullarla xarici həqiqət haqqında obyektiv biliklər əldə etmək məqsədi daşıyan nizam olduğunu bilməliyik. Sehr isə bu nizamın prinsiplərinə cavab vermədiyi üçün araşdırma predmeti olmamasına baxmayaraq mövzu ilə bağlı müxtəlif tədqiqatlar aparılıb. Amma nəticələr sehrin, cadunun olmadığını təsdiq edib. İnsan haqqında, daha doğrusu insanın yaranması, insanın fiziki quruluşunun dəyişmələri haqqında elm olan antropologiya sahəsinin mütəxəssisləri də mövzumuzla əlaqəli olaraq tədqiqatlar aparıblar.

Qeyd edək ki, antropologiyada "Vudu ölümü" adlandırılan bir fenomen mövcuddur. Antropoloqlar Avstraliyada, Afrikada, daha doğrusu, müasir inkişaf səviyyəsindən geridə qalan ibtidai qəbilə və tayfalarda cadu edildiyi iddia olunan və ya lənət olunan şəxslərin çox qısa vaxt kəsiyində öldüklərini bildiriblər. Bu cür yüzlərlə hadisə olmasına baxmayaraq mövzu

tibb dünyası tərəfindən araşdırılası bir predment olaraq qəbul olunmayıb. Lakin Harvard Universitetindən fizioloq Valter Kanonun mövzu ilə bağlı 1942-ci ildə nəşr etdirdiyi məqaləsindən sonra fenomen tibb ədəbiyyatına “Psikogenik ölüm” adıyla daxil olub.[191] Bu cür ölümlərin İslam dünyasında da nümunələri mövcuddur. Məsələn, ingilis psixiatr Simon Dein mövzu ilə əlaqəli məqaləsində bir misal verir. Londonda yaşayan və əslən Misirdən olan Saleh adlı 20 yaşlı gənc dalaşdığı əmisi oğlu Muhəmməd tərəfindən cadu edildiyinə inanır. Bundan sonra iştahı kəsilir, qidalanmadan imtina edir və otağına qapanır. Həkimlər çarə tapa bilmədikdə psixiatra müraciət edilir. Əvvəllər heç bir psixoloji zədə almayan Salehin cadu edildiyinə və buna görə öləcəyinə inandığı üçün belə vəziyyətə düşdüyü məlum olur. Xəstəxanada damar vasitəsilə qidalanan Salehə heç bir psixiatr kömək edə bilmir. Nəticədə ailəsi tərəfindən xəstəxanaya guya başqa caduaçan dəvət edilir. Ruqyə edilir, dualar oxunur və cadunun aradan qaldırıldığı bildiriləndən sonra Saleh özünə gəlir və iki gün sonra xəstəxanadan evinə yola salınır.[192]

Bununla bağlı ABŞ-da cadugərlərin sahib olduğu və ya bacardıqları iddia olunan bəzi fövqəltəbii hadisələrlə bağlı 1940-1980-ci illər arasında parapsixologiya adı ilə çoxlu sayda tədqiqatlar həyata keçirildi. Ciddi vəsait ayrılmasına baxmayaraq bu sahədə çalışan elm adamları heç bir fövqəltəbii fenomeni təsdiq edə bilmədilər. Aparılan bütün sınaqlar nəticəsiz qaldı.

Bu araşdırmaların ən məşhuru 1970-ci ildə başlayıb 1975-ci ildə başa çatan, ABŞ Müdafiə Nazirliyinin - Pentaqonun başlatdığı “Stargate” layihəsi idi. Həmin layihə çərçivəsində, xüsusən təhlükəsizlik sahəsində istifadə ediləcək “Gələcəyi

---

191 Cannon, Walter (1942), “Voodoo death” American antropologist, 44: 169-181.

192 Dein, Simon (2003). Psychogenic death: individual effects of sorcery and taboo violation.

görmə" kimi fövqəltəbii qabiliyyətlərin mövcudluğu araşdırıldı. Layihə uğurlu nəticənin alınmaması səbəbilə dayandırıldı. Buna bənzər digər layihə Prinston Universitetindəki "Mühəndislik Anomaliyalılarını Araşdırma Laboratoriyası"nda da 1979-2007-ci illər arasında həyata keçirildi.[193] Orada da, başda təsadüfi say qüvvəsinin nəticəsini zehin gücü ilə dəyişdirmə hərəkətləri olmaqla, parapsixologiyanın müxtəlif sahələrində təcrübələr aparıldı. Bu təcrübələr nəticəsində təkrarlanan uğurlu nəticə əldə olunmadı.

Qeyd edək ki, keçmiş sehrbaz Ceyms Randi (James Randi) Fondunun verdiyi bir milyon dollarlıq mükafat olmaqla,[194] müxtəlif fondlar hər hansı fövqəltəbii fenomenin mövcudluğunu göstərənə ümumi dəyəri 1,69 milyon dollar pul mükafatı vəd edir.[195] Bu günə qədər bu mükafatları almağı bacaran bir nəfər də olmayıb.

Bu kimi çoxsaylı nümunələri əsas alan elm adamları sehrin və ya cadunun elmi izahının olmadığını, bunun sadəcə psixoloji təsirinin olduğunu qeyd edirlər.

## Nəticə olaraq...

İslamda sehrin olmadığını bilmək üçün sehr sözünün mənasını, dinin sehr olub-olmadığını, dinlə sehrin fərqlərini, müxtəlif dinlərin sehrə yanaşmalarını, Quranda sehrlə əlaqəli ayələri, peyğəmbərlərin niyə sehrbazlıqda ittiham edildiklərini, Musa peyğəmbərin sehrbazlarla olan mübarizəsini, sehr öyrətdiyi iddia edilən Harut və Marutun kimliyini, ayədə "düyünlərə üfürən qadınların" yanlış tərcümə olunduğunu, Muhəmməd peyğəmbərə sehr edilmədiyini, sehrin elmi izahının olub-olmadığını öyrəndik.

---

193 Lab-ın səhifəsi üçün baxın: http://www.princeton.edu/~pear/

194 Mükafatın rəsmi səhifəsi üçün www.randi.org/site/indes.php/jref-news/1239-mdc~changes.html

195 Larsen, Klaus (september 2013). "Get rich quick or save the world". Skeptic report.

Bildik ki, sehr, yaxud cadu insanlara müxtəlif ayinlər, rəmzlər, sözlər və ya əşyaların müəyyən kombinasiyaları ilə təsir etmək səyidir. Cadu etməyin minlərlə yolları vardır: müxtəlif maddələrdən qarışıqlar hazırlanır, guya gizli dualar oxunur, bəzi çoxtanrılı dinlərə aid rəmzlər çəkilir, sehrli olduğu iddia edilən sözlər müxtəlif cisimlərlə yazılır, ərəb hərflərinə oxşadılan bəzi işarələr, bəzi dualar yazılır, insanların rəmzi olan heykəllər hazırlanır və ya kuklalar tikilir, müxtəlif rəqs və ya hərəkət ayinləri tətbiq edilir. Bəzi əşyalardan istifadə edilir, müsəlman olan müştərilərini aldatmaq üçün Allahın müxtəlif adları, Qurandan bəzi surələri bəzəyərək kağızlara yazır, sonra həmin kağızları üçbucaq halında boyunlarında gəzdirmələri, yastıqlarının altına qoymaları, paltarlarına tikmələri "xüsusi" olaraq tapşırılır.[196] Bəzi cadugərlər guya cin adlandırılan xüsusi məxluqlarla birbaşa əlaqə yaradıb onları inandırdıqlarını, onlarla əlaqəyə girib biliklər əldə etdiklərini iddia edirlər. Bununla da onların yanına gələn insanlara psixoloji təsir edirlər. Cadugərin yanına gedənlər həmişə məğlub olan tərəfdir. Mənfəət əldə edən tərəf isə həmişə yanına gedilən olur. Çünki cadugərin yanına gediləndə onun verdiyi "ev tapşırıqlarını" deyildiyi kimi edilsə də nəticə hasil olmadıqda hər zaman həmin ekstrasens və ya adı nə olursa-olsun bəzi şeylərin əskik olduğu, tapşırıqların lazımi şəkildə edilmədiyini iddia edərək özünü haqlı çıxarır. Ortada kəşf olunacaq müəyyən mexanizm olmadığına görə təcrübi proseduranın uğurlu olub-olmadığı heç bir şəkildə göstərilə bilmir. Buna görə də həmin cadugəri tamamilə küncə sıxışdırmaq mümkün deyildir.

İnsanlar bu yollarla istismar edildiklərini, hisslərindən sui-istifadə olunduğunu, hətta bir çox ailənin və insanların

196 Ovsunun antropoloji və sosioloji araşdırması üçün baxın: Mauss, Marcel (1972) A General Theory of Magic. New York: Norton library.

arasında düşmənçilik toxumlarının səpildiyini bilərək bu cür məsələlərdən uzaq durmalıdırlar. Evində qəribə əşyalar tapanların həmin əşyaların hər hansı bir təsirindən deyil, sadəcə, caduya inandıqları üçün psixoloji vəziyyətləri dəyişir.

Unudulmamalıdır ki, insanların təsirləndiklərini dedikləri məqam cadu və ya sehr deyil, həmin cadunun təsir edəcəyinə inanmalarıdır.

# YEDDİNCİ HİSSƏ

# İSLAMDA SİĞƏ YOXDUR!

İnsanların ailə qurması üçün yeganə yol nikahdır. Bu yolun alternativi yoxdur. Buna baxmayaraq bəziləri sonluğu "nikah" sözü ilə bitən müxtəlif adlarla "qədim peşə"ni yaşatmağa çalışır, hətta buna dini don geyindirərək "leqallaşdırmağa" cəhd göstərirlər. Bu yazımızda fikir ayrılıqlarına səbəb olan siğə haqqında söhbət açacağıq. Onun nikah olub-olmadığını, dində bu cür münasibətin halallığını-haramlığını müzakirə edəcək, haqq qazandıranların və etiraz edənlərin düşüncələrini öyrənəcək, qadağan edilib-edilməməsi barədə fikrimizi Quranın nöqteyi-nəzərindən ifadə etməyə çalışacağıq. Elə isə "müvəqqəti nikah" kimi təqdim olunan siğə və bu sözün mənası nədir?

## "Siğə" sözünün mənası

Bəzi dini ifadələr kimi "siğə" sözü də Azərbaycan dilinə fars dilindən keçib. Fars dilindəki "siğiyyə" sözü "müvəqqəti evlənmək" mənasında işlədilir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "siğə" çoxarvadlılığın bir növü kimi təqdim olunur və müvəqqəti nikah olduğu bildirilir. Dilimizdə "siğə" olaraq istifadə olunan söz ərəb dilində "muta"dır. "Muta" kəlməsi lüğətdə "zövq almaq" mənasına gələn "təməttu" sözündən əmələ gəlib. "Təməttu" "faydalanmaq", "xeyir əldə etmək" deməkdir. "Muta"da əsas məqsəd cinsi zövq olduğuna görə bu cür münasibət qeyd etdiyimiz kökdən gələn sözlə adlandı-

rılıb. Bundan başqa, siğə "nikah munqatı", "ən-nikəhul-muaccəl", "nikəh bilə miras", "fərc ğayr məvrus" (mirassız münasibət) kimi də adlandırılıb.

## Siğə nədir?

Siğə terminologiyada "müəyyən məbləğ qarşılığında və müəyyən müddətə həyata keçirilən nikah" kimi qeyd olunur. Siğə bir şəxs aralarında nikah maneəsi olmayan qadına: "Bu qədər məbləğ qarşılığında, bu qədər müddət səndən cinsi baxımdan faydalanım" və ya "Bu qədər məbləğ qarşılığında məni cinsi cəhətlərindən faydalandır" deyərək təklif etsə və qadın da qəbul etsə, həyata keçdiyinə inanılır.

Bu cür münasibət forması ilk eşidiləndə yanlış təsəvvür formalaşdırmaması üçün əksər hallarda əsasən "siğə", "sığiyyə" və "mütə" sözlərindən deyil, "müvəqqəti evlilik" ifadəsindən istifadə etməyə çalışırlar.

## İslamdan əvvəl ərəblərdə nikah

İslamın gəlişindən əvvəl ərəblər arasında nikah adı altında müxtəlif qadın-kişi münasibətləri mövcud idi. Siğə də bunlardan biri olub.

Cahiliyyə dövründə 4 çeşid kişi-qadın münasibətlərini tənzimləyən nikah var idi. Bunlardan biri həmişə qəbul edilən və həyata keçirilən bildiyimiz nikahdır. Bir kişi başqa bir kişinin ya qızını və ya himayəsindəki qadını istəyir, mehr müəyyən edilir və həmin qadınla kişi nikahlanırdı.

İkincisi, bəzi kişilər arvadlarını soylu uşaq dünyaya gətirməsi üçün əsil-nəcabətli kişiylə birlikdə olması üçün göndərirdilər. Həmin şəxsdən hamilə qaldığı bilinənə kimi kişi arvadına yaxınlaşmazdı. Buna "nikahul istibda" deyirdilər.

Üçüncüsü, ən çox on nəfər kişi bir yerə yığışıb bir qadınla intim münasibətdə olurlar. Nəticədə qadın hamilə qalıb uşaq

dünyaya gətirəndən sonra həmin kişilərə xəbər göndərərək onların yığışmasını istəyir. Onlar da bu adəti bildiklərinə görə heç vaxt dəvətdən imtina etmirdilər. Hamısı yığışandan sonra həmin qadın istədiyi kişilərdən birinə deyir ki, bu sənin uşağındır. O da uşağın atası olduğunu qəbul edir və uşaq həmin kişinin nəslindən sayılırdı.

Dördüncüsü, əxlaqsızlığı həyat tərzi halına gətirən qadınlar kişi qəbul edə biləcəyini bildirmək üçün çadırın üstünə parça asır, istəyən kişilər də həmin çadıra yığışardılar. Bunlardan biri uşaq dünyaya gətirəndə kişilər həmin çadıra yığışır və kaaiflər, yəni iz tapmaqda məharətli olan şəxslər də burada iştirak edirlər. Sonra kaaiflər həmin qadının uşağını istədikləri kişinin nəslinə əlavə edərdilər. Beləliklə, uşaq həmin şəxsin nəslindən olur və onun uşağı olaraq çağrılırdı.[197]

Bəzi mənbələrdə siğənin İslamın gəlişindən əvvəl ərəblərin qəbul etdikləri 9 fərqli nikahın, daha doğrusu qadınla kişi birlikdəliyinin növlərindən olduğu öz əksini tapır: 1. İstibda, 2. Bədəl, 3. Xıdın, 4. Biğa, 5. Şiğar, 6. Maqt, 7. Ortaqlıq, 8.Müştərək və 9.Muta (siğə) nikahı.[198]

Bunlar ərəblərdə qəbul olunan və nikah adlandırılan müvəqqəti birgəyaşayışlar idi. Bunların hər birinin ayrı-ayrılıqda nikah adlandırılmasına baxmayaraq, əslində heç biri İslamın qəbul etdiyi nikah forması deyil. Bu cür münasibətlər nikah kimi təqdim edilsə də, bunların heç biri insanın təmiz vicdanı tərəfindən arzulanan ailə həyatı forması ola bilməz.

Bu cür müvəqqəti nikah formaları əvvəlcədən müəyyən edilən vaxta qədər qadınla kişinin sadəcə bir yerdə yaşamalarına imkan verirdi, çünki bu birgəyaşayışlarda ailə qurmaq, övlad sahibi olmaq kimi məqsədlər yox idi. Belə müvəqqəti qurulan münasibətlər daha çox uzaq səfərlərə gedən kişilər tərəfindən həm ehtiraslarını təmin etmək, həm də əşyalarını

197 Buxari, “Nikah” 37/60.
198 Buxari, “Nikah” 37/1, hədis 5127.

saxlayacaq və qalacaq yer əldə etmək üçün istifadə olunurdu.

Göründüyü kimi, İslamın gəlişindən əvvəlki birgəyaşayış formalarından olan "muta nikahı", yəni siğə normal ailə qurmaq deyil, hər dövrdə rast gəlinən və müəyyən məbləğ qarşılığında həyata keçirilən müvəqqəti birlikdə yaşamaq forması idi.

Bütün bu sadalananlardan da aydın olur ki, "muta nikahı" adlandırılan siğə qarətin hakim olduğu, hər cür əlaqələrin qurulduğu və qadının alçaldılıb mal kimi dəyişdirildiyi, rəzillik səbəbi sayıldığına görə qız uşaqlarının diri-diri torpağa basdırıldığı, cariyəliyin qəbul edildiyi cəmiyyətlərin adəti olub.

## Siğənin halal olduğunu iddia edənlər

Siğənin hansı cəmiyyətlər tərəfindən həyata keçirildiyi aydın olsa da, buna haqq qazandırmaq üçün müxtəlif variantlara əl atılıb. Ən gözəl yol kimi də din seçilib. Belə tətbiqatların asanlaşdırılmasında cinsi cazibənin təsiri qədər dinin həvəsləndirici qüvvəsinin də təsirini unutmamaq lazımdır. İndi bu yolu seçərək siğənin halal olduğunu iddia edənlərin düşüncələrini qeyd edib müzakirəmizi davam etdirək.

Siğənin halal olduğunu iddia edənlər tərəflərin bir-biriylə görüşdüyünü, xüsusən qadının üzünü rahat şəkildə görməsi üçün kişiyə imkan verdiyini, beləliklə, əsl nikah bağlamaq qərarına gəlməyi asanlaşdırmaq üçün cinsi məqsəd güdmədən bir neçə saatlığa bağlandığını iddia etsələr də, bunun əslinin olmadığı aydın və məlumdur. Çünki siğə evlənmək üçün deyil, cinsi ehtirası təmin etmək üçün qurulan əlaqədir. Siğənin halal olduğunu qeyd edənlər bu cür nikah bağlamayan möminin kamil olmayacağını bildirirlər.[199] Görün kamillik nə ilə ölçülür?!

Bundan başqa, Muhəmməd əl-Bağıra istinad edilən "siğə-

---

199 İbn Babeveyh əl-Qummi, "Mən la yahduruhul faqih", III, 293.

də savab varmı?" sualına cavab olaraq bir kişinin bunu Allahın razılığı üçün və birisinə, yəni Ömərə müxalifət məqsədilə etdiyi təqdirdə dediyi hər sözə savab veriləcəyini, etdiyi hər işdə bir günahının bağışlanacağını, yuyunduqda isə saçından damcılayan sular qədər günahının töküləcəyini bildirdiyi deyilir.[200]

Bu cür münasibətə haqq qazandıranlar Peyğəmbərin merac hadisəsində (İslamda meracın olmadığını inşaAllah növbəti kitabımızda geniş açıqlayacağıq) səmaya yüksəldikdə mələk Cəbrail ilə qarşılaşaraq ondan Allahın qadınlarla siğə nikahı bağlayanları bağışladığı müjdəsini aldığını iddia edirlər.[201] Maraqlıdır, görəsən siğə edənlər niyə bağışlanmalıdırlar? Onlar günah edirlər ki, bağışlasınlar?

Həmçinin, Cəfər əs-Sadiqin də belə dediyi iddia edilib: "Siğə nikahı bağlayıb cinsi əlaqədən sonra yuyunan şəxsin bədənindən tökülən hər damcı üçün Allah yetmiş mələk yaradır və qiyamətə qədər ona istiğfar edir, uzaq olana isə qiyamətə qədər lənət edirlər".[202] Görəsən peyğəmbərlərin, imamların siğə etdikləri xanımlar olubmu? Və ya yaxınları olan qadınların hansısa kişinin siğəsi olmasına razılıq veriblərmi?

Siğənin halallığını iddia edənlərin mənbələrində maraqlı bir rəvayət də var. Abdullah b. Umeyr əl-Leysi İmam Əbu Cəfərdən (Muhəmməd əl-Bağır) "Xanımların, qızların, bacıların və əminin qızları muta nikahı bağlasalar sənin xoşuna gələr?" soruşmasından sonra imamın qəzəbləndiyi və üzünü çevirib mübahisəni kəsdiyi" rəvayət edilir.[203] Sizcə, İmamı bu sualda əsəbləşdirən nə idi? Halal olan bir məsələyə görə

200 İbn Babeveyh əl-Qummi, III, 290-291; Şeyx Müfid, "Risalətul-muta", səh. 8.
201 İbn Babeveyh əl-Qummi, III, 291; Şeyx Müfid, Risalətul-muta, səh. 9.
202 Şeyx Müfid, "Risalətul-muta", səh. 9.
203 **əl-Kuleyni,"əl-Kafi", V, 449; Əbu Cəfər ət-Tusi,** "**ət-Təhzib**", VII, 250-251.

əsəbləşməyin yeri var idimi?

Burada qeyd etdiyimiz rəvayətlərin hamısı hazırda siğənin halal olduğuna inananların mənbə olaraq qəbul etdikləri əsərlərdən idi. İndi isə siğənin müəyyən vaxtlarda halal, sonra isə haram edildiyinə inananların mənbələrinə müraciət edək. "Ən etibarlı səhih kitablar"da səhabələrdən nəql olunan rəvayətlərdə Allahın Elçisinin və Əbu Bəkrin dövründə bir ovuc xurma və ya un qarşılığında siğə edildiyi iddia olunur.[204]

Rəvayət edilir ki, Cabir ibn Abdullah və Sələmə ibn Əkva demişdir: "Bir dəfə biz döyüşdə ikən Peyğəmbərin göndərdiyi adam bizim yanımıza gəlib dedi: *"Sizə siğə etməyə (müvəqqəti nikah bağlamağa) izn verildi, odur ki, bunu edə bilərsiniz".*[205]

Rəsulullahın belə buyurduğu rəvayət edilir: "Bir qadınla bir kişi aralarında razılaşma təmin ediblərsə, birlikləri üç gecədir. Uzatmaq istəsələr, uzada bilərlər və ya ayrılmaq istəsələr də ayrılarlar". Hətta bunun həmin ərəfədə təkcə səhabələrə məxsus olduğu da bu rəvayətə əlavə edilib. Maraqlı bir sual ortaya çıxır, niyə məhz üç gecə?

Bundan başqa, Əbu Zərr adlı məşhur səhabəyə istinad edilən belə bir rəvayət var: *"İki mütə (yəni təməttu həcci və siğə nikahı) ancaq biz səhabələrə halal idi, sizə halal deyildir".*[206]

Burada Muslimin "Səhih"inin "Nikah" bölümündə bəhs edilən bir rəvayəti də əlavə edək. Həmin rəvayətdə Muhəmməd peyğəmbərin Əvtas ilində *(Əvtas Huneyn müharibəsində müşriklərin yığışdıqları yerin adıdır)* siğəyə üç günlük icazə verdiyi, sonra qadağan etdiyi qeyd olunur. Abdullah bin Məsudun belə dediyi rəvayət edilir: *"Biz peyğəmbərimiz-*

---

204 Muslim, "Nikah", 16; Əbu Davud, "Nikah", 29.
205 Buxari, "Nikah", 53.
206 Muslim, "Həcc", 189 (1224); Əbu Davud, "Mənasiq" 25 (1808); Nəsai, "Həcc" 77 (5,179-180); İbn Macə, "Həcc" 42 (2984).

*lə birlikdə döyüşürdük. Qadınları özümüzlə aparmamışdıq. "Özümüzü xədim etdirsək olmaz?" deyə Peyğəmbərdən soruşduq. Peyğəmbər bunu qadağan etdi. Sonra bir parça əvəzində müvəqqəti evlənməyimizə icazə verdi".*[207]

Abdulməlik bin Rabiyə istinad edilən bir rəvayətdə onun belə dediyi bildirilir: *"Məkkənin fəthi günü Rəsulullah bizə siğə etməyimizi (muta nikahı bağlamağımızı) əmr etdi, sonra isə biz oradan çıxmadan bunu bizə qadağan etdi".*[208]

## Muhəmməd peyğəmbərin siğəsi olubmu?

Bəs Peyğəmbər səfərlərdə icazə verdiyi siğədən özü də istifadə edibmi? Çünki bəzi mənbələrdə Peyğəmbərə otuz kişinin gücünün verildiyi və on bir xanımıyla gecə və gündüz intim münasibətdə olduğu iddia olunur.[209] Hətta Allahın Elçisinin bir dəfə qüsl almaqla bütün xanımlarıyla münasibətdə olması barədə rəvayətlər də bu mənbələri "bəzəyir".[210] Sadə insanlar olan səhabələr səfərlərdə özlərini saxlaya bilməyib siğə ediblərsə, otuz kişi gücü olan Peyğəmbər necə özünü saxlayıb? Yoxsa Peyğəmbərin də siğəsi olubmu? Olubsa, onlar da ayəyə uyğun olaraq[211] müsəlmanların anaları adlandırılıblarmı?

Qeyd edək ki, Muhəmməd peyğəmbər getdiyi bütün səfərlərində həyat yoldaşlarından bəzilərini özü ilə birgə aparıb. Aişə anamız Peyğəmbərimizin səfərə çıxacağı zaman özü ilə birlikdə aparacağı xanımlarını seçmək üçün aralarında püşk atdığını, bir dəfə həmin püşkün ona və Hafsaya düşdüyünü deyib".[212] Bundan başqa, Kəbə ziyarəti üçün getdikləri, lakin

207 Muslim, "Nikah", 11.
208 Muslim, "Nikah", 22-23.
209 Buxari, "Qüsl", 12; Nəsai, "Nikah", 1 (6, 53, 54).
210 Buxari, "Qüsl", 12, 24; "Nikah", 4, 102; Əbu Davud, "Təharət", 75 (218); Tirmizi, "Təharət", 106 (140).
211 "Əhzab" surəsi, 33/6.
212 Buxari, "Nikah", 67/98; Əbu Davud, II/603; İbni Macə, I/634.

Hudeybiyyə sazişini bağlayaraq geri qayıtdıqları səfəri əsnasında xanımlarından Ummu Sələmə anamızın onunla birgə olduğunu, yenə Aişə anamızın birgə getdiyi Bəni Mustaliq səfərindən qayıtdıqda iftiraya məruz qaldığını bilirik.

Siğənin halal olduğunu deyənlər səhvlərini doğru və haqlı göstərmək üçün Muhəmməd peyğəmbərin də siğə etdiyini, hətta bunu iki dəfə etdiyini iddia ediblər. Qərb şərqşünaslarından olan Leon Kaytani[213] və ondan götürən He ening[214] kimi şərqşünaslar Tərixut-Tabərini[215] və ondan nəql edən İbnul-Əsiri mənbə göstərərək Peyğəmbərə bu cür böhtan ata biliblər. Onlar bu böhtanlara siğənin hələ də halal olduğunu iddia edənlərin mənbələrindən əsaslar da tapıblar. Həmin rəvayətlərdən birinə görə, xanımlarından biri Peyğəmbərin siğə etdiyini öyrənir və bu hərəkətini pisləyirək onu dindən kənar əlaqə qurmaqda ittiham edir. Bundan sonra Peyğəmbər həmin xanımına *“Bu müəyyən müddətlik nikahdır və mənə halaldır, bu sirri qoru”* deyir. Ancaq bir müddət vaxt ötəndən sonra Peyğəmbərin digər xanımları da bu hadisədən xəbər tuturlar. Və bu barədə Quranın “Təhrim” surəsində xəbər verilir: **“Bir zaman Peyğəmbər öz xanımlarından birinə gizli bir söz demişdi...”** mənasındakı ayə bu hadisəyə işarə edir.[216] Ayədə qeyd olunan “gizli söz”ün, “sirr”in Peyğəmbərin siğə etməsi olduğu iddia olunur. Maraqlıdır, Allahın gizli olduğunu bildirdiyi bir məsələnin siğə olduğunu iddia edənlər bunu haradan çıxarıblar? Allah bu gizli şeyin nə olduğunu açıqlamayıbsa, o zaman kim bunun siğə olduğunu iddia edə bilər? Həmin sirri bunlara kim deyib? Əgər siğə halaldırsa, niyə sirr olmalıdır?

---

213 Bax. İslam tarixi, VII/392- 393, tərcümə, Hüseyn Cahid, İstanbul 1924.
214 İA. muta maddəsi, VIII/848, İstanbul 1993.
215 Tərixut-Tabəri, II/214-215, nəşr, M. Əbul-Fadl İbrahim, Beyrut 1967.
216 Hur əl-Amili, “Vəsailuş-Şiə”, 14/440, 442-dən Mustafa Öztürke istinadən, Tefsirde Ehl-i Sünnet & Şia Polemikleri, 275

Bundan başqa, Peyğəmbərin siğə etdiyi deyilən qadınların adları da həmin mənbələrdə öz əksini tapır: Kilab qəbiləsindən Aliyə binti Zubyan və Əsma binti Numan. Bəs bu iki xanım kimdir? Kilab qəbiləsindən olan Aliyə binti Zubyan barədə ilkin olaraq Əbdurrəzzaq əs-Sənanin (743 - 826) əsərlərində bəhs edilir və Peyğəmbərin evlənib boşadığı xanımlarından biri olduğu qeyd olunur.[217] Yenə Əbdurrəzzaq başqa əsərində Muhəmməd peyğəmbərin xanımlarının adlarını qeyd edərkən Aliyə binti Zubyanın da adını qeyd edir, lakin boşadığını da bildirir.[218] Digər mənbələrdə də Peyğəmbərin Aliyə binti Zubyan ilə siğəsindən deyil, Allahın Elçisinin bir müddət onunla evli olduqdan sonra boşamasından bəhs olunur.[219]

Bəlazuri də "Ənsabul Əşraf" əsərində Rəsulullahın onunla adi qaydada evlənməsindən, daha sonra isə boşamasından bəhs edir. Peyğəmbərin boşadığı təqdirdə həmin qadınlarla evlənmək qadağası[220] gəlməmişdən əvvəl Aliyə binti Zubyanı boşadığını və həmin qadının başqasına ərə getdiyini xəbər verir.[221] Bu haqda mövcud olan mənbələrin heç birində Peyğəmbərin siğə etməsindən söhbət getmir, adi nikahlanmaqdan və adi boşanmaqdan bəhs olunur.[222]

217 Əbdurrəzzaq bin Həmmam bin Nafi (ö.211/827) əs-Sənani, "ət-Təfisr", thq., I-III, Beyrut,hicri 1419, III, 39.

218 Əbdurrəzzaq əs-Sənani, "əl-Musannəf", thq., Habibur Rəhman əl-Əzami, I-XI, Beyrut hicri 1403, VII, 488-489.

219 İbn Səd (ö.230/845), "ət-Tabaqatul-Kubra", thq. Əli Muhəmməd Ömər, I-X, Qahirə, hicri 1421/2001, X, 136; VIII, 113.

220 "Əhzab" surəsi, 33/53.

221 Əbul Həsən Əhməd, b. Yəhya b. Cabir b. Davud əl-Bəlazuri (vəfatı 893), "Ənsabul-Əşraf", thq. Suheyl Zəkkar, Riyad əz-Zərkəli, I-XIII, Beyrut 1417/1996, I, 455.

222 Əbul Abbas Əhməd b. Əbi Yəqub İshqa b. Cəfər b. Vehb b. Vadıh əl-Yəqubi (v. 905) "ət-Tarix"(I-II), I, 139; Tabəri, Əbu Cəfər Muhəmməd b. Cərir b. Yəzid əl-Amuli ət-Tabəri əl-Bağdadi (v. 923), "əl-Muntehab min Zeylil-Müzeyyel", Beyrut, I, 104; Tabərani, Əbul Qasım Suleyman b. Əhməd b. Əyyub ət-Tabərani (ö. 971), "əl-Mucəmul-Kəbir ət-Tabərani, thq.Həmdi b. Abdulməcid əs-Sələfi, I-XXV, Qahirə, VI, 85, XXII, 445-447.

İndi də Peyğəmbərin siğə etdiyi iddia edilən Əsma binti Numan haqqında məlumat verək. Belə ki, Əsma haqqında bəhs olunan ilk mənbə Yəhya b. Sallamın (ö. 200/815) "ət-Təfsir"idir.[223] Bu qadın Kində tayfasındandır. İbn Hişam Peyğəmbərin onunla ailə həyatı qurduğunu, ancaq onda vitiligo xəstəliyini görəndən sonra ailəsinin yanına geri qaytardığını deyir.[224] Bu haqda digər mənbələrə də müraciət edə bilərsiniz.[225]

Nəticə etibari ilə deyə bilərik ki, Peyğəmbərin siğə etdiyi iddia edilən hər iki xanım Peyğəmbərin halalca nikahlı xanımları olublar. Peyğəmbərimiz ömründə heç vaxt nə siğəyə icazə verib, nə də özü siğə edib. Peyğəmbərin siğə etməsi ilə əlaqəli olaraq bəhs edilən rəvayətlərin hamısı uydurmadır.

## Siğə qadağan edilibmi?

Yuxarıda siğənin halal olduğunu iddia edənləri fərqləndirmişdik. Bütün bu məqamları doğru dəyərləndirdikdə iki cəhətdən dilemma qarşısında qalırıq: siğənin qiyamətə qədər Peyğəmbər tərəfindən qadağan edildiyinə inanaraq forma və funksionallıq baxımından siğə ilə zinanı eyni hesab edənlər və bunun qiyamətə kimi halal olduğuna inanaraq siğəni savab qazandıran, mərhəmətə səbəb olan vasitə kimi qəbul edənlər. Birincilər siğəyə bir dəfə deyil, bir neçə dəfə icazə verildiyini və yasaqlandığını, daha sonra isə Allahın Elçisi tərəfindən qiyamətə kimi haram buyurulduğunu iddia edirlər. Bunun

223 Əbu Zəkəriyyə Yəhya bin Səllam bin Əbu Saləbəat-Teymi, "ət-Tefsir", I-II, Beyrut 1425/2004, II, 730.

224 İbn Hişam, Əbu Muhəmməd Cəmaluddin Abdulməlik b. Hişam b. Əyyub əl-Himyeri əl-Məafiri əl-Basri əl-Mısri (v.829), "əs-Siretun-Nəbəviyyə, thq. Mustafa əs-Saqqa, I-II, Misir 1375/1955, II, 647.

225 İbn Səd, Əbu Abdillah Muhəmməd b. Səd b. Meni (v. 845), "ət-Tabaqatul-Kubra, thq. Əli Muhəmməd Ömər, I-X, Qahirə 1421/2001, X, 138; İbn Həbib, Əbu Cəfər Muhəmməd b. Həbib b. Uməyyəəl-Bağdadi (v. 760), "əl-Muhabbar", thq. Ilse Lichtenstadter, Beyrut, 94.

da tədriciliklə, yəni yavaş-yavaş yasaqlandığını bildirirlər. Maraqlıdır, siğənin zina olduğuna inananlar bunun necə yavaş-yavaş qadağan edildiyini də izah edə bilərlərmi? İçki ilə əlaqələndirməyin isə heç yeri yoxdur. Çünki içkinin tədriciliklə qadağan edildiyi doğru deyil və içki ilə əlaqəli olaraq gələn elə ilk ayə ilə də o haram edilib. "Bəqərə" surəsində sərxoşedici içkinin və qumarın böyük günah *(ismun kəbir)* olduğu bildirilir.[226] Başqa bir ayədə də "ism"in haram olduğu buyurulur.[227]

Siğənin halal olduğunu iddia edənlərlə müəyyən dövrlərdə halal olduğunu deyən hər iki qrup bunu məcburiyyət halı ayəsi ilə əlaqələndirirlər. Bəs bu hansı ayədir? Uca Allah həmin ayədə belə buyurur: **"O sizə ölü heyvanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir. Hər kəs harama meyl etmədən və həddi aşmadan bunlardan yeməyə məcbur olarsa, bu ona günah hesab edilməz"** ***("Bəqərə" surəsi, 2/173).*** Bu ayəni əsas gətirərək siğənin də müəyyən vaxtlarda halal olduğunun bildirilməsinin heç bir əsası yoxdur. Çünki siğənin qidaya bərabər tutulması doğru deyil. Belə ki, qidalana bilməyənin həyatı təhlükədədir, ölməmək üçün haram yeməsinə icazə verilir. Halbuki siğə məsələsi ehtirasla əlaqəlidir.

## Siğəni kim qadağan edib?

Siğə, başqa sözlə, bəzilərinin iddia etdiyi kimi müvəqqəti evlilik müxtəlif cəmiyyətlərdə müxəlif formalarda mövcud olan birlikdə yaşayış növü kimi İslamın gəlişi əsnasında ərəb cəmiyyətində mövcud olan zina çeşidlərindən idi. Siğənin Peyğəmbər tərəfindən qadağan edildiyini iddia edənlər bu məşhur və qeyri-qanuni nikah növünü birdən qadağan etmədiyini, tədricən qadağan etdiyini bildirirlər. Bu cür iddia sahib-

226 "Bəqərə" surəsi, 2/219.
227 "Əraf" surəsi, 7/33.

lərinin, yəni siğəyə Peyğəmbər tərəfindən müəyyən vaxtlarda icazə verildiyini iddia edənlərin özləri də bu gün siğəni zina olaraq qəbul edir və haramlığına inanırlar. Lakin bir məqamı unudurlar ki, siğəni zina olaraq qəbul etmək, Peyğəmbərin də siğəyə müəyyən müddət icazə verdiyinə inanmaq uca əxlaqı tamamlamaq üçün göndərilən Peyğəmbərə[228] şər-böhtandır, çünki bununla heç düşünmədən Peyğəmbərin zinaya icazə verdiyini qəbul etmiş olurlar. Belə bir şeyi Peyğəmbərə istinad etmək Allahın Elçisinə böhtan atmaqdır.

Siğənin halal olduğunu iddia edənlər bunun ikinci xəlifə (daha doğrusu əmirəlmöminin) Ömər tərəfindən qadağan edildiyini iddia edirlər. Siğəyə bir neçə dəfə icazə verildiyinə və onun bir neçə dəfə yasaqlandığına inananlar isə bunun axırda Peyğəmbər tərəfindən qiyamət gününə kimi qadağan edildiyini deyirlər.[229]

Ömərin siğəni qadağan etməsinin isə sadəcə təkrar xatırlatmadan ibarət olduğunu bildirirlər. O zaman bu cür iddia sahibləri buna da cavab verməlidirlər: Bəs Qurandakı ayələr, hökmlər necə insanlara çatdırılırdı? İnsanlar siğə hökmünü eşitmədikləri halda Quran hökmlərini necə eşidirdilər?

Bunları bir kənara qoyub gələk siğəyə bir neçə dəfə icazə verilməsi məsələsinə. Buna görə hədis kitablarına müraciət edək. Siğənin nə vaxt qadağan edilməsi ilə bağlı əlimizdə konkret məlumat yoxdur. Peyğəmbərin dövründə nə vaxt, harada və neçə dəfə icazə verildiyini və neçə dəfə qadağan edildiyini, bunların hansının axırıncı qərar olduğunu bilmək mümkün deyil. Bununla bağlı bir-birindən fərqli və ziddiyyətli altı zaman kəsiyi ortaya atılıb: Xeybərin fəth edildiyi gün, Qəza umrəsi, Məkkənin fəthi, Əvtas döyüşü, Təbuk səfəri və Vida

---

228 İmam Malik, "Muvatta", Husnul-Xulq, 8; Əhməd bin Hənbəl, "Musnəd", 2/381; Bu ayələrə də baxın "Qələm" surəsi, 68/4; "Əhzab" surəsi, 33/21.

229 Muslim, "Nikah", 19, 22, 24; İbn Macə, "Nikâh", 44; Darimi, "Nikah", 16; Əhməd b. Hənbəl, "Musnəd, III, 406; Əbdurrəzzaq əs-Sənani, VII, 504.

həcci.[230] Bu ərəfələrdə, xüsusilə də səfərlərdə Peyğəmbərin qısamüddətli də olsa, siğəyə icazə verdiyi iddia olunur.

Bir neçə dəfə səfərlərdə icazə verdikdən sonra Peyğəmbərin siğəni birdəfəlik qadağan etdiyi bildirilir. Hətta bununla bağlı Buxarinin "Səhih"ində *"Peyğəmbərin axır-axırda siğəni qadağan etməsi"* şəklində fəsil (bab) sərlövhəsi də mövcuddur. Bununla əlaqəli olan bir rəvayətdə Peyğəmbərin belə dediyi rəvayət edilir: "Ey insanlar! Mən sizə qadınlarla siğə etməyiniz üçün icazə vermişdim. Şübhəsiz ki, Allah onu qiyamət gününə kimi haram etmişdir. Kimin yanında (siğə ilə saxladığı) qadın varsa, onu azad etsin. Onlara verdiklərinizdən də heç bir şeyi almayın".[231]

Bu sonuncu rəvayətdən məlum olur ki, Peyğəmbər siğəni Allahın haram etdiyini bildirir. Lakin siğənin halal olduğunu iddia edənlər bunu ikinci xəlifənin yasaqladığını iddia edirlər. Bəs ikinci əmirəlmöminin Ömər bin Xəttabın siğəni qadağan etməsi mümkün idimi? İndi bu məsələyə aydınlıq gətirməyə çalışaq.

Bununla bağlı Cabirin belə dediyi nəql olunur: "Biz Peyğəmbərin vaxtında siğə edərdik. Sonra Ömər bizə bunu qadağan elədi və biz də əl çəkdik".[232] Hətta Peyğəmbərin əmisioğlu İbni Abbasın "Allah Ömərə rəhmət eləsin, əgər Allahın bəndələrinə mərhəmətinin bir əsəri olan siğəni qadağan etməsəydi, heç kim zina etməyə ehtiyac hiss etməzdi"[233] dediyi rəvayət olunur. Bundan başqa, 4-cü xəlifə Əlinin də buna oxşar söz dediyi mənbələrdə qeyd olunub: "Əgər Ömər siğəni qadağan etməsəydi, üsyankar (şaqi) xaricində heç kim zina etməzdi".[234] Əslində bu ifadələrin özü çox maraqlıdır. Siğə qadağan olmasaydı, zina aradan qalxardı deyilir. Niyə?

---

230 İbni Həcər Əskalani, "Fəthul-Bari", 10/212-213.
231 Muslim, "Nikah", 19, 22, 24; İbn Macə, "Nikah", 44; Darimi, "Nikah", 16; Əhməd bin Hənbəl, "Musnəd", III, 406.
232 Əhməd bin Hənbəl, "Musnəd", 3/325.
233 Şəvkani, "Neylul Əvtar", 6/547.
234 Kuleyni, III, 455; Şeyx Müfid, "Xulasatul-İcaz", s. 25, 28; Tusi, "əl-İstibsar", III, 149; Tusi, "Təhzibul-əhkam", VII, 224-225.

Çünki siğənin zinanın dini don geyindirilmiş versiyası olduğu aydın olur.

Siğənin halal olduğuna inananlar və bunun Ömər tərəfindən qadağan edildiyini iddia edənlər Peyğəmbərin siğəyə verdiyi icazənin Ömərin xəlifəliyinin ikinci yarısına qədər davam etdiyini deyirlər. Siğəyə Peyğəmbər tərəfindən bir neçə dəfə icazə verilib yasaqlandığına inananlar isə Ömərin yasaqlamasında məqsədinin bunu öz təşəbbüsü ilə etməyib, siğə qadağasını unudanlara xatırlatması, ya da qoyulan qadağanı qətiyyətlə icra etməsi olduğunu düşünürlər. Və bunu belə izah edirlər: Rəsulullahın vəfatından sonra xəlifələr dövründə daha uzun səfərlərə çıxılır və insanlar evlərindən daha çox ayrı qalırdılar. Bu iddianın özü tutarsızdır. Ömərin xəlifəliyinin ilk dövründə siğəyə toxunmadığı halda, ikinci dövründə qadağan etdiyini deməyin özündə müəyyən ziddiyyət vardır. Çünki kişilərin evlərindən daha uzun müddət ayrı qalmasına səbəb olan fəthlər daha çox onun rəhbərliyinin ikinci dövründə olmuşdur.

Siğəni qadağan etdiyi iddia edilən xəlifə Ömərin ərlə arvadın normal halda bir-birlərindən neçə müddət ayrı qalacaqlarını qızı Hafsadan soruşduğu və Hafsanın "dörd və ya altı aya qədər" deməsindən sonra əsgərləri bu müddətdən çox orduda saxlamayacağını, başqalarıyla dəyişdirəcəyini dediyi qeyd edilir.[235]

Bu cür iddia edənlər, maraqlıdır, qadınları niyə düşünmürlər? Kişinin xanımından uzun müddət ayrı qaldıqda siğə edərək başqa qadınlarla cinsi münasibət qurması mübahdırsa, icazəlidirsə, halaldırsa, o zaman evdə qalan xanım nə etməlidir? Çünki kişi bu halda nə qədər ehtiyacını ödəmək istəyirsə, bu, qadına da aiddir. Görəsən, kişi üçün mübah olanın qadın üçün qadağan olması ədalətdir, yoxsa cəmiyyətdə bəzilərinin

235 İbni Kəsir, "Təfsir", 1/235-236, Beyrut; Yusuf Kardavi, İslam Hukuku Teori- Pratik, 58, tərcümə edən, M. Nuri Doğan, Bir Yayıncılık, İstanbul, 1983.

dediyi kimi, kişinin zina etməsi kişiliyin şənindəndir, lakin qadının zina etməsi yalnız yerli adətlərlə təmizlənəcək namussuzluq və əxlaqsızlıqdır?

Müsəlmanların Peyğəmbərin sağlığında baş tutan böyüklü-kiçikli döyüşlərində ən uzun müddətin iki aydan çox olmadığını bilirik. Bədr və Uhudda uzun müddət qalmadıqları kimi, Xəndək döyüşü üçün heç Mədinədən ayrılmamışdılar. Müsəlmanların siğə etdikləri deyilən yerlərdən, məsələn, Məkkənin fəthi üçün insanların Mədinədən uzaq qaldıqları müddət 15 gündür, Əvtas döyüşü isə ondan sonra həyata keçirilən qısamüddətli, iki həftəlik döyüşdür. Taif mühasirəsi bir ay, digər ayrılıq müddətləri isə ən çoxu bir-iki aydır. Həmin müddətlərdə müsəlmanların harama düşməmək üçün zərurət olaraq siğə etməyə məcbur olduqlarını demək məntiqli və əxlaqlı deyildir. Çünki bu qədər qısa müddətlərdə kişilərin həddini aşıb nəyin bahasına olursa-olsun, cinsi münasibətdə olmaq istəmələri ağlasığan görünmür.

Rəvayətlərdə siğəni xəlifə Ömərin qadağan etdiyi iddia edilir. Hər şeydən əvvəl bilməliyik ki, Ömər bin Xəttab da digər insanlar kimi Allahın hökmlərini yerinə yetirmək məsuliyyəti daşıyan şəxs olub. Əmirəlmöminin də olsa, dinlə əlaqəli hansısa hökm qoymaq və ya ləğv etmək səlahiyyətinə sahib olmayıb. Sadəcə, dövlət başçısı kimi inzibati qərarlar qoymaq haqqı olub. Əgər iddia olunduğu kimi, siğə Allah tərəfindən halal edilmiş bir hökm olsaydı, bunu nəinki hansısa bir şəxsin, heç Peyğəmbərin də dəyişdirməyə gücü çatmazdı. Çünki Uca Allah belə buyurur: **“Əgər bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik. İçərinizdən heç kəs buna mane ola bilməzdi”** ***(“Haqqa” surəsi, 69/44-47).***

Peyğəmbərin etmədiyi və ya edə bilmədiyi bir məsələdə xəlifə Ömərin qərar verməsi və hamının da buna susması nə anlaşılandır, nə də qəbul edilən. Çünki “Yaradana qarşı üsyan

olan işlərdə yaradılana itaət edilməz" prinsipi vardır (bax: "Loğman" surəsi, 31/15). Səhabələr bunu bildikləri halda susdular, yoxsa bu ayədən xəbərsiz idilər? Niyə bu qadağaya etiraz edib səslərini çıxarmadılar? Bəs qəhrəmanlığı ilə məşhur olan, xəlifənin yanında söz sahibi olan, idarəetmə şurasının nümayəndələrindən biri olan, Ömərin həmişə məsləhətləşdiyi səhabələrdən olan Əli niyə etiraz edərək bu "yanlışı" onun üzünə demədi? Ömərin etdiyi bu "səhvi" bəs nə üçün Əli xəlifə olduğu zaman düzəltmədi? Halbuki mənbələrə müraciət etdiyimiz zaman Əlinin birbaşa Ömərə qarşı çıxdığı və xəlifəni öz fikrinə razı saldığı çox sayda nümunə vardır.[236]

Siğənin bu gün bəzi bölgələrdə xüsusilə yaşadılması və o bölgələrdə yaşayan millətlərin İslamdan əvvəlki ənənələri ilə də uyğunluq təşkil etməsi çox maraqlıdır. Belə ki, Məzdəkilərin qadına baxışıyla siğə arasında sanki müəyyən paralellik mövcuddur. Çünki Məzdəkilərdə qadın ictimai və ortaq mal idi.[237]

Səhih olaraq qəbul olunan mənbələrdən birində "Siğə ayəsi nazil olduqdan sonra bunu nəsx edən heç bir ayə nazil olmadı, Rəsulullah da vəfatına qədər bunu qadağan etmədi" mənasında olan hədisi[238] əsas alanlar bunu siğənin dinə uyğun olduğuna sübut kimi gətirirlər. Halbuki "siğə ayəsi" dedikləri "Nisa" surəsinin 24-cü ayəsinin siğəylə yaxından-uzaqdan əlaqəsinin olmadığını bir az sonra öyrənəcəyik. Ancaq burada xatırladaq ki, "Nisa" surəsi Mədinədə nazil olub, siğə də daxil olmaqla nikahsız bütün birgəlikləri qadağan edən "Muminun" surəsinin 5-7-ci ayələri isə illər öncəsində Məkkədə endirilib.

## Peyğəmbərin haram qoymaq səlahiyyəti olubmu?

236 Bu mövzuda bax. Saffet Köse, "İslam hüququnun inkişafında Həzrət Əlinin rolu: Bəzi ictihad və tətbiqatların təhlili", Həzrət Əlinin həyatı və şəxsiyyətinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı 2001, s. 225-233 (Azərbaycan dilində).
237 Kenan Has, "Mezdekiyye", DİA, XXIX, Ankara 2004, s. 523
238 Muslim, "Həcc", 172.

Yeri gəlmişkən, bir məqamı da qeyd edək ki, Peyğəmbərin siğəyə gah icazə verib, gah da haram etdiyini deməyin özü də Allahın Elçisinə böhtan atmaqdır. Bunun üçün bilməliyik ki, Peyğəmbərin nə nəbi kimi, nə də rəsul olaraq haram qoymaq səlahiyyəti və ixtiyarı olmayıb. Allahın Elçisinin vəzifəsi ancaq və ancaq təbliğ idi.[239]

Dərhal etiraz edilə bilər ki, "Əraf" surəsinin 157-ci ayəsində Nəbi-Rəsulun "təmiz şeyləri halal, pis şeyləri haram edər" ifadəsi keçir. Buna nə deyəcəksiniz? Cavab olaraq qısaca qeyd edək ki, ayədə hansısa halal və ya haram qoymaq səlahiyyətindən bəhs olunmur, hərfi mənada ifadə edilir. Eyni ilə "Maidə" surəsinin 87-ci ayəsində olduğu kimi. Bu ayədə iman gətirənlərə "Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin" buyurulur və ayədə "haram etmək" Nəbiyə və Rəsula deyil, insanlara aid edilir. Buna görə, konkret olaraq deyə bilərik ki, Allahdan başqa heç kimin haram qoymaq və ya halal etmək səlahiyyəti yoxdur.

Bəs siğənin halal olduğunu iddia edənlərin Qurandan gətirdikləri və "siğə ayəsi" dedikləri ayəni necə anlamalıyıq? Həqiqətənmi yeganə səlahiyyət sahibi olan Allah siğəyə icazə verib? Bu məqsədlə Quranda 4-cü olan "Nisa" surəsinin 24-cü ayəsinə nəzər yetirək.

## "Nisa" surəsinin 24-cü ayəsinin tərcüməsi

İlk olaraq ayənin Azərbaycan dilindəki mövcud tərcüməsini qeyd edək, sonra həmin tərcümə ilə bəzi məsələlərə aydınlıq gətirək və sonda ayənin düzgün tərcüməsini yazaq. Elə isə "Nisa" surəsinin 24-cü ayəsinə Quranın *akademik Vasim Məmmədəliyevlə tarixçi professor Ziya Bünyadovun* birgə hazırladıqları tərcüməsində baxaq. Lakin ayəni düzgün anla-

239 "Ali-İmran" surəsi, 3/20; "Nisa" surəsi, 4/80; "Maidə" surəsi,5/67; "Nəhl" surəsi, 16/35; "Ənbiya" surəsi, 21/23; "Nur" surəsi, 24/54; "Ənkəbut" surəsi, 29/68; "Cinn" surəsi, 72/23.

maq üçün bəhs etdiyimiz ayədən əvvəlki və sonrakı, yəni 23 və 25-ci ayələrin tərcüməsi ilə birlikdə yazaq:

**23. Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Cinsi əlaqədə olmadığınız qadınlarınızın qızları ilə evlənmək isə sizin üçün günah deyildir. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər istisnadır. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!**

**24. "(Cihad vaxtı əsir olaraq) sahib olduğunuz cariyələr istisna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək (mehrlərini verərək) evlənmək üçün sizə halal edildi. Mütə etdiyiniz (müvəqqəti evləndiyiniz, faydalandığınız, ləzzət aldığınız) qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!"** ***("Nisa" surəsi, 4/24).***

**25. İçinizdən azad mömin qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib olduğunuz (əllərinizin altında olan) mömin (cavan, iffətli) cariyələrdən (kənizlərdən) alsınlar. Allah sizin imanınızı (əqidənizi) daha yaxşı bilir. Hamınız bir-birinizdənsiniz.** ***(Azad kişi və qul, azad qadın və cariyə -hamısı Adəm nəslindəndir. Onlar hamısı Allah bəndələri olduqları üçün yaradılış etiqad baxımından aralarında vəhdət, birlik mövcuddur. Buna görə də cariyələrə həqarətlə baxmayın).*** **İffətini qoruyub saxlayan, zinakarlıq etməyən və aşnası olmayan cariyələrlə sahiblərindən icazə**

**alıb evlənin və onların mehrlərini qəbul olunmuş qayda-da verin! Əgər onlar (ərə getdikdən sonra) zina edərlərsə, cəzaları azad qadınlara verilən əzabın yarısı qədərdir. Bu, *(kənizlərlə evlənmək izni ehtiras, şəhvət üzündən)* zina etməkdən qorxanlarınız üçündür. Əgər səbr edərsinizsə, sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!**

Yuxarıda tərcümələrini yazdığımız ayələrin mənaları 2015-ci ildə yenidən işlənmiş 17-ci nəşrdən götürülüb. İlk nəşrlərdə isə üzərində dayanacağamız "Nisa" surəsinin 24-cü ayəsinin bir cümləsinə bu cür məna verilib: **"İstifadə (yaxınlıq) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin!"**

Siğə mövzusundakı mübahisələr də əsasən "Nisa" surəsinin 24-cü ayəsinə verilən bu cür tərcümələrdir. Bu ayəni düzgün anlamaq üçün adı çəkilən surənin 23-cü ayəsinə müraciət edirik və öyrənirik ki, həmin ayədə kimlərlə ailə həyatı qurmağın qadağan edildiyi öz əksini tapıb. 24-cü ayədəki əsas mübahisə predmeti isə 2 sözdür. Bunlardan biri *"istimtaa"* feili, digəri isə *"ucur"* ismidir. Ayədə qeyd olunan "istimtaa" feili əvvəlki tərcümələrdə *"istifadə (yaxınlıq) etmək"* kimi tərcümə olunduğu halda, sonrakı tərcümələrdə *"mütə etmək", "müvəqqəti evlənmək", "faydalanmaq", "ləzzət almaq"* mənalarında verilib. Ayədə "faydalanmaq" mənasında olan "istimtaa" feilinin işlədilməsinə baxmaqla bunun yalnız müvəqqəti faydalanma olduğunu demək də doğru deyildir. Çünki ayənin mənası daimi nikahla əlaqəli olduğu kimi, davranış ya daimi olmalı, ya da müvəqqəti faydalanmağın bütün formalarını bildirməlidir. "İstimtaa" sözünün eyni vaxtda, eyni cümlədə həm siğə, həm də nikah üçün işlədilməsi mümkün deyil. Ayədə "istimtaa" feilinin siğə mənasında işlədilməsi ilə əlaqəli heç bir dəlil yoxdur.

İndi də ayənin əslindəki *"ucur"* sözünə hansı mənanın

verildiyinə nəzər yetirək. Ayənin əslində ailə həyatı qurarkən qadına verilən "mehr" sözünün deyil, "ucur" sözünün işlədilməsini əsas götürənlər bu ayədə daimi nikahdan bəhs edilmədiyini deyərək ayənin siğənin halallığı ilə əlaqəli olduğunu iddia edirlər. Halbuki unudulan bir məsələ var ki, Quranın heç bir ayəsində "mehr" sözü yoxdur və "ucur" sözü mehr əvəzində və mənasında istifadə olunur. Bəs "ucur" sözünün mənası nədir? "Əcr" sözünün cəmi olan "ucur" sözü lüğətə görə "haqq, əmək haqqı, muzd, qonarar, qiymət, dəyər"[240] mənalarına gəlir. Lüğətdəki bu mənaları əsas götürərək ayədə qadınlara verilən "ucur"un onlardan faydalanmağın əvəzində verilən "haqq" olduğunu əsas gətirirlər. Halbuki mehr qadından faydalanmağın əvəzi olaraq verilmir. Quranda "ucur" sözü siğənin əvəzində verilən məbləğ deyil, daimi nikah səbəbilə verilən mehrdir. Bunu da əsassız demirik, çünki Quran ayələrində "ucur" sözü qadınlara verilən mehr mənasında işlədilir. Məsələn, "Nisa" surəsinin 25, "Maidə" surəsinin 5, "Əhzab" surəsinin 50, "Mumtəhinə" surəsinin 10-cu ayələrində "ucur" sözü qadınlara verilən mehrlər mənasında işlədilir. Allah mehrlərin qadınlara qarşılıq gözləyərək deyil, könül xoşluğu ilə verilməsini tələb edir: **"Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin!"** ***("Nisa" surəsi 4/4).*** Burada deyilə bilər ki, könül xoşluğu olmadığı halda da hədiyyə verilə bilər. Doğrudur və bu cür ümumi hədiyyələrə ərəb dilində "hibə" deyilir. Qeyd etdiyimiz ayədə isə "hibə" sözündən yox, "nihlə" sözündən istifadə olunur. Çünki "nihlə" ürəkdən, könül xoşluğu ilə, əvəz gözləmədən verilənə deyilir. "Nisa" surəsinin 4-cü ayəsində də mehrin əvəz gözləmədən, könül xoşluğu ilə verilməsi tələb olunur. Buradan da aydın olur ki, qadına verilən mehr qadından faydalanmağın əvəzi olaraq deyil, ürəkdən gələrək verilən hədiyyədir. Uca Allah mehri ərlərin xanımlarına müəyyən hədiyyəsi kimi vacib

240 Rafiq Əliyev, "Ərəbcə - Azərbaycanca lüğət", "ə-c-r" maddəsi, 1-ci cild, səh. 6.

edib. Bu isə nikahı zinadan ayıran mühüm cəhətlərdən biridir.

Bundan başqa, iddia olunur ki, ayədə "faydalandığınız qadınların mehrlərini lazımi qaydada verin" əmrində mehrin faydalanmadan sonra verilməsi daimi nikaha deyil, müvəqqəti nikah olan siğəyə dəlildir. Halbuki bu ərəb dilindəki "təqdim-təxir" üslubunun nəticəsidir. Bu qaydaya əsasən deyə bilərik ki, "faydalandığınız zaman mehrlərini verin" ifadəsiylə "onlardan faydalanmaq istədikdə" fikri nəzərdə tutulur. Başqa ayələrdə də buna oxşar misallar var. Məsələn, **"Qadınları boşadığınız zaman"** ***("Talaq" surəsi, 65/1; "Bəqərə" surəsi, 2/231)*** ayəsilə "qadınları boşamaq istədiyiniz zaman" mənası nəzərdə tutulub. Başqa bir misal da qeyd edək. Belə ki, **"Namaza durduğunuz zaman..."** ***("Maidə" surəsi, 5/6)*** ayəsində də "namaza durmaq istədiyiniz vaxt" mənasının nəzərdə tutulduğu aydın olur.

Ayədə "qadınların mehrlərini lazımi qaydada verin" əmriylə mehrin xüsusilə ailə həyatı quran qadının haqqı olduğunun vurğulanmasında maraqlı bir məqam da var. İslamın gəldiyi dövrün ərəblərində (hazırda bəzi yerlərdə olduğu kimi) mehri (bəziləri "başlıq pulu" adlandırır) qızın valideynlərinin, daha doğrusu atasının alması adəti var idi və ailə həyatı quran qadına isə heç nə verilmirdi. Hətta qızı doğulan atalara uşağı öldürməməsi üçün bu cür təskinlik verirdilər: "Gözün aydın olsun! Dəvələrini artıracaqsan!" Bununla isə "Qızını ərə verəndə mehr olaraq bir dəvə alarsan. Onu malına qatar, beləliklə malını artırar, çoxaldarsan" mənası nəzərdə tutulurdu.[241]

Siğənin halal olduğuna inananlar buna haqq qazandırmaq üçün insanın tüklərini biz-biz edən iddialar ortaya atmaqdan çəkinməyiblər. Bunlardan biri də "Nisa" surəsinin 24-cü ayəsinin fərqli formada nazil olduğu barədə yalandır. Ayətullah

---

241 Cəvhəri, əs-Sıhah, "n.f.c." md.; Meydani, Məcmaul-əmsal, II, 479; Faxrəddin ər-Razi, Mefatihul-ğayb, IX, 187, 190.

Əbülqasim əl-Xoyi "əl-Bəyan fi Təfsiril Quran" adlı əsərində Abdullah bin Abbasın haqqında danışdığımız ayəni bu cür oxuduğunu iddia edir: "fəməs təmtətum bihi minhunnə ilə əcəlin musəmmə fəətuhunnə ucurəhunnə".[242] Guya sonralar altından xətt çəkilən hissə ləğv edilib və Qurandan çıxarılıb.[243]

Bu iddianın qarşısında bəzi suallara cavab verilməlidir. Allahın qoruduğunu bildirdiyi[244] və Peyğəmbərinin unutmayacağını vəd etdiyi[245] bir Kitab haqqında belə iddiaların ortaya atılması bu qədər asandırmı? Bu ayənin necə nazil olduğunu və necə oxunduğunu digər səhabələrin bilməməsi mümkündürmü? Bütün müsəlmanların əlindəki Quranda bu cür ixtisarın edilmədiyi halda, belə rəvayət və qiraət necə "səhih" və ya doğru ola bilər? Qurana hansısa əlavənin və ya ixtisarın edilməsini necə qəbul etmək olar?

Bütün burada sadalanan məsələlərdən sonra deyə bilərik ki, "Nisa" surəsinin 24-cü ayəsində "istimtaa", yəni "faydalanmaq" sözündən istifadə edilməsində məqsəd nikahdır. Çünki bu ayədən əvvəlki 22-23-cü və sonrakı 25-ci ayələrdə bəhs edilən mövzu da nikahdır. Ayə "Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin" cümləsiylə başlayır və "İçinizdən azad mömin qadınlarla evlənməyə maddi imkanı olmayan" cümləsiylə sona çatır. Burada faydalanmaqdan məqsəq din baxımından haram olan siğə (mütə) deyil, əksinə, nikah yoluyla olan faydalanmaqdır. Ayənin əvvəli ilə əvvəlki və sonrakı ayələr birgə dəyərləndirildiyi zaman bu nəticə ortaya çıxır. Aydın olur ki, ailə həyatı qurmaq və qurulan ailədən faydalanmağın yeganə yolu daimi nikahdır. Elə isə ayənin əslindəki bəzi məqamlara nəzər yetirərək ayənin düzgün tərcüməsini qeyd etməyə çalışaq.

242 Bəğavi, Məalimut-Tənzil, 1/414; Tabərsi, Məcmaul-Bəyan, 3/46.
243 Əbülqasim əl-Xoyi, "əl-Bəyan fi Təfsiril Quran", səh. 320.
244 "Hicr" surəsi, 15/9.
245 "Əla" surəsi, 87/6.

Belə ki, ayənin əslində qeyd olunan "muhsənə" sözünün kökü olan "hasana" (h-s-n) sözü "qorumaq" deməkdir.[246] "Muhsin" sözü namusunu evlilikdən kənar münasibətlərdən qoruyan kişilər üçün,[247] "muhsanat" isə namuslarını qoruyan qadınlar üçün işlədilir. Bu sözün 3 mənası var: "evli qadın", "namuslu qadın" və "azad qadın". Hər kəs tərəfindən "əl-muhsanat" sözü "evli qadınlar" mənasında qəbul edilib və bu cür məna verilib. Hər ailəli qadın "muhsina"dır, lakin hər "muhsina" evli qadın deyil. Bu söz üç qrup üçün istifadə olunur: subay olduğu halda özünü intim münasibətlərdən qoruyan və ya ailələri tərəfindən qorunan qadınlar,[248] ailəli olan və özünü başqalarından qoruyan qadınlar[249] və ya hər iki qrup[250] üçün işlədilir.

Yenə ayənin əslindəki "mə mələkət əymanukum" ifadəsinə nəzər yetirək. Ənənəvi tərcümələr tərəfindən "əllərinizin altındakılar" kimi məna verilən bu ifadə "azadlıqlarını itirmiş cariyələr" və "qullar" olaraq anlaşılıb. Halbuki bu cür məna vermək Quranın digər ayələri ilə ziddiyət təşkil edir. Çünki Quran quldarlığın, cariyəliyin (kəniz götürməyin) müşriklərin bir adəti olduğunu bildirir.[251] "Muhəmməd" surəsinin 4-cü ayəsinə görə də əsirləri qul və ya cariyə halına gətirməyi yasaqlayır. Ya mərhəmət göstərib qarşılıqsız, ya da müəyyən məbləğ əvəzində onların azad edilmələrini əmr edir. Burada həmin ərəfədə insanların malik olduqları cariyələrin və ya döyüşdə əsir düşənlərin evləndirilməsindən söhbət gedir. Evləndiriləcək qadına veriləcək mehr də qadının azadlığı olur.

Burada maraqlı başqa bir məsələ də var. Belə ki, "and içmək, "and" mənasına gələn "yəmin" sözünün cəmi olan "əy-

246 "Yusuf" surəsi, 12/48; "Ənbiya" surəsi, 21/80; "Həşr" surəsi, 59/14.
247 "Maidə" surəsi, 5/5.
248 "Nisa" surəsi, 4/25; "Ənbiya" surəsi, 21/91; "Təhrim" surəsi, 66/12.
249 "Maidə" surəsi, 5/5; "Nisa" surəsi, 4/24.
250 "Maidə" surəsi, 5/5; "Nur" surəsi, 24/4; "Nur" surəsi, 24/23.
251 "Yusuf" surəsi, 12/39-42; "Bələd" surəsi, 90/13; "Nisa" surəsi, 4/25.

man" sözü Quranda "andlaşmalar", "andlar" mənasında işlədilir.[252] Elə isə burada haqqında danışdığımız ifadənin mənası "sözləşmələr"dir. Evlilik də bir qayda olaraq hər iki tərəfin təsdiqi və iştirakı ilə meydana gələn bir sözləşmədir. Burada sadalanan digər nüansları da nəzərə alsaq, "Nisa" surəsinin 24-cü ayəsinin bizə görə düzgün tərcüməsi belə olacaq:

**"Nikah yoluyla sahib olduqlarınızdan başqaları sizə haramdır. Bu, Allahın təlimatıdır. Namuslu yaşamağınız və zinakarlığa yol verməməyiniz şərtiylə bunlardan başqaları ilə mallarınızdan sərf edərək evlənməyiniz sizə halaldır. Evlənmək istədiyiniz qadınlara haqları olan mehrlərini verin. Mehri müəyyənləşdirdikdən sonra aranızda razılaşdıqlarınıza görə sizə heç bir günah yoxdur. Həqiqətən, Allah hər şeyi biləndir, düzgün hökm verəndir!"** ***("Nisa" surəsi, 4/24).***

## Siğənin şərtləri və müddəti

Siğənin halal olduğuna inananlar bunun etibarlı olması üçün 4 şərt qoşurlar:

1. Hər iki tərəfin razılığı;
2. Şifahi olaraq bəyan etmək;
3. Müəyyən məbləğin ödənilməsi;
4. Müəyyən vaxtın təyin edilməsi.

Siğənin bu şərtlərindən biri həyata keçməsə, siğə etibarlı hesab edilmir. Siğədə müəyyən edilən məbləğ mütləq ödənilməlidir. Nəzərdə tutulan məbləğ razılaşma əsnasında bəyan edilməlidir. Əks təqdirdə siğə başdan batil olur. Qeyd edək ki, məbləğin azlığı və ya çoxluğu ilə əlaqəli olaraq heç bir məhdudiyyət yoxdur, əsas məsələ hər iki tərəfin həmin məbləğə

252 "Bəqərə" surəsi, 2/224, 225; "Nisa" surəsi, 4/33; "Maidə" surəsi, 5/89; "Nəhl" surəsi, 16/38, 92, 94; "Təhrim" surəsi, 66/2; "Ali-İmran" surəsi, 3/77; "Maidə" surəsi, 5/53, 108; "Ənam" surəsi, 6/109; "Tövbə" surəsi, 9/12-13; "Nur" surəsi, 24/53; "Fatır" surəsi, 35/42; "Mucadələ" surəsi, 58/16; "Munafiqun" surəsi, 63/2.

razı olmaları və qəbul etmələridir.

Burada maraqlı məqamlardan biri də vaxt məsələsidir. Belə ki, siğənin halallığını iddia edənlər onun minimum vaxtını da müəyyənləşdiriblər. Bu cür düşüncə sahiblərinə görə siğənin ən az vaxtı bir dəfə cinsi münasibətdə olacaq qədərdir. Müəyyən edilən vaxt bitəndən sonra siğə edən kişi dərhal başqa qadınla siğə edə bilər. Burada heç bir məhdudiyyət yoxdur. Siğə olunan qadının başqa bir kişiylə siğə edə bilməsi üçün isə iki heyz (reql) müddəti iddət gözləməli olduğu iddia edilir. Heyz olmayanın iddəti isə qırx beş gündür. Amma buna da çarə tapılıb. Belə ki, siğə edən qadının siğədəki vaxtı yekunlaşan kimi iddət gözləmədən başqa bir kişiylə siğə edə bilməsi üçün belə bir metoddan istifadə edilir. Siğə üçün müəyyən edilən vaxt qurtarmamış kişi qalan vaxtı qadına bağışlayaraq eyni qadınla təkrar siğə edir, amma bu dəfə onunla münasibət qurmadan ayrılır. Burada yaxınlaşma olmadığına görə qadının iddət gözləmə məsuliyyəti olmur və həmin vaxt qadın başqa kişi ilə siğə edə bilir.

## Siğənin evlilikdən fərqi

Fikrimizcə, "müvəqqəti nikah" adlandırılan siğə ilə daimi nikahın fərqlərini bildikdən sonra siz özünüz də siğə haqqında qərarınızı asanlıqla verəcəksiniz. Elə isə siğə ilə nikahın arasındakı fərqlər nələrdir? Bu hissədə hər iki münasibətlə əlaqəli olaraq "müvəqqəti nikah" sözünü siğə, digər bildiyimiz daimi nikahı isə sadəcə nikah olaraq qeyd edəcəyik.

1. Nikah daimi olduğu halda, adından və verilən təriflərdən də aydın olduğu kimi, siğə müvəqqətidir. Siğədə müddətlə bağlı aşağı və ya yuxarı hədd yoxdur. Bu, bir dəqiqəlik olduğu kimi, əlli illik də ola bilər.[253]

2. Kəbində vaxtdan söhbət getmədiyi halda, siğədə vaxt və

---

253 Kuleyni, III, 461, 465-466; Şeyx Müfid, "Risalətul-muta", s.10; Tusi, "əl-İstibsar", III, 158-159.

məbləğ müəyyənləşdirilməlidir.

3. Nikahda şahid şərti olduğu halda, siğədə şahidə ehtiyac yoxdur.

4. Nikahda müəyyən sayda qadınla evlənməyə icazə verildiyi halda, siğədə say məhdudiyyəti yoxdur. Bir kişinin dörd arvadı olsa da, əgər istəyərsə, min qadınla da siğə edə bilər.

5. Kəbində eyni qadınla boşandıqdan sonra ancaq 2 dəfə ailə həyatı qurula bildiyi halda, siğədə eyni qadınla dəfələrlə siğə bağlayıb münasibət qurula bilir.[254]

6. Nikahda rüşd, yəni yetkinlik tələb olunduğu halda, siğədə həddi-büluğ yaşına çatmayan qızlar valideynləri tərəfindən siğə etdirilə bilir. Bakirə qızlarla siğə etmək məkruhdur, yəni xoş qarşılanmır.[255]

7. Nikahda mənəvi rahatlıq, nəsil artırmaq kimi düşüncələr olduğu halda, siğədə yalnız müəyyən müddət ərzində şəhvət hissinin tətmin edilməsi əsas qəbul edilir.

8. Nikahın hüququ proseduru, yazılı forması olduğu halda, siğədə bunların heç biri olmur.

9. Nikahda şərt qoşulub-qoşulmamasından asılı olmayaraq miras hüququ öz əksini tapdığı halda, siğədə miras öhdəliyi yaranmır.

10. Nikahda ailəli qadınla evlənmək qəti qadağan olduğu halda, siğədə qadının evli olub-olmadığının soruşulması zəruri deyil. Kişinin də bunu araşdırması lazım deyil. Əgər bu bilinsə, siğə qüvvədən düşür. Aralarında intim münasibət olubsa və qadın bu vəziyyəti bilərək gizlədibsə, o razılaşdırılan məbləğdən məhrum olur. Yəni gizlətməyi qadının "xeyrinə" olur.

11. Bir müsəlman kişi yəhudi və ya xristian qadınla da siğə edə bilər, lakin siğə edən kişilər onların içki içmələrinə

254 Kuleyni, III, 457-458, 466-467; İbn Babeveyh əl-Qummi, III, 289-290; Tusi, "əl-İstibsar", III, 154-155; Şeyx Müfid, "Risalətul-muta", s. 12.

255 İbn Babeveyh əl-Qummi, III, 289; Tusi, "əl-İstibsar", III, 152-153.

və donuz əti yemələrinə mane olmalıdırlar. Bütpərəstlə siğə etmək doğru deyil. Atəşpərəst qadınlarla siğə etmək isə məkruhdur, yəni xoş qarşılanmır.

12. Nikahda ərlə arvad arasında qohumluq münasibətləri, müəyyən məhrəmliklər yarandığı və bunlar da bilindiyi halda, bir neçə dəqiqəlik siğədə yaranan münasibətlərdə şahidlər və elan olmadığı üçün qohumluq münasibətlərindən heç bir halda söhbət gedə bilməz.

13. Nikahda hər iki tərəf hakimə müraciət edərək boşanma tələb edə bildiyi halda, siğədə müəyyən edilən vaxtın yekunlaşması ilə avtomatik boşanma həyata keçir. Amma siğədə kişi istəsə, qalan vaxtı qadına bağışlayır və tərəflər nəzərdə tutulan vaxtdan da tez ayrıla bilirlər.

14. Nikahda əri ölən qadınlar təkrar ailə həyatı qura bilmək üçün dörd ay on gün (iddət müddəti),[256] boşanan qadınlar üç heyzdən təmizlik (reql) müddəti gözləməlidirlər.[257] Siğədə isə qadın başqa bir kişiylə siğə edə bilmək üçün iki heyz (reql) müddəti iddət gözləməlidir. Siğə üçün müəyyən edilən vaxt qurtarmamış kişi qalan vaxtı qadına bağışlayaraq eyni qadınla təkrar siğə edə bilir, amma bu dəfə onunla münasibət qurmadan, yaxınlaşma olmadan ayrılırsa, qadının iddət gözləməyinə ehtiyac qalmır.

15. Nikahda boşanma olduğu təqdirdə nəfəqə (aliment) almamaq şərt kimi irəli sürülsə də nəfəqə haqqı yaranır, siğədə isə qadının aliment/nəfəqə haqqı yoxdur.

16. Quranda nikahdan "misaqan ğalizan", yəni "ağır məsuliyyətli sözləşmə"[258] olaraq bəhs edildiyi halda, siğənin heç bir "ağırlığını" görə bilmirik.

17. Nikahın əsas şərtlərindən biri elandır, aşkar olmasıdır, siğədə isə gizlilik hər zaman əsas xüsusiyyət olub.

---

256 "Bəqərə" surəsi, 2/234.
257 "Bəqərə" surəsi, 2/228.
258 "Nisa" surəsi, 4/21.

18. Nikahda kişinin həyat yoldaşı, xanımı, zövcəsi olduğu halda, siğədə müəyyən vaxtlıq kirayə götürülən qadını olur. Siğə olunan qadın üçün də siğə edən kişi ər qismində olmur.[259]

Burada siğənin nikahdan fərqli olan bəzi cəhətlərini sadaladıqdan sonra bir cümlə ilə deyə bilərik ki, siğə yalnız müəyyən vaxt ərzində, müəyyən məbləğ qarşılığında ehtiras hissinin qane edilməsi üçün birlikdə olmaqdır. Vəssalam.

## Siğə rəvayətlərindəki ziddiyyətlər

Hər şeydən əvvəl hər hansı mövzuda dinin nə buyurduğunu bilmək üçün əvvəl Quranın özünə baxmaq lazımdır. Çünki Quran dinin özü olduğu kimi, halalı və haramı müəyyən edən də Quranı nazil edən Uca Allahdır. Peyğəmbər Quranın təbliğçisi və tətbiqedicisidir, onun vəzifəsinə halal və haram qoymaq daxil deyil. Siğənin İslama uyğun olub-olmadığı qiymətləndirilərkən Qurandan daha çox rəvayətlərə və şərhlərə önəm verilməsi və çıxarılan nəticələrin Qurana təsdiq etdirilməsi qəbuledilməzdir.

Siğə mövzusunda hansı fikirdə olmağınızdan asılı olmayaraq, çətinlik çəkmədən rəvayətlərdən özünüzə əsas tapa bilərsiniz. Bu, siğənin hazırda halal olduğuna inananların da, müəyyən vaxtlarda icazə verilib sonra qadağan edildiyini müdafiə edənlərin də mənbələrinə aiddir. Həmin mənbələri oxuduqda insanda elə təsəvvür yaranır ki, sanki səhabələr özlərini saxlaya bilməyiblər, özlərini xədim etmək istəyiblər, Allahın Elçisi də buna görə onlara icazə verib.

Siğəyə icazə verildiyi iddia edilən rəvayətlərə nəzər saldığımız zaman bəzi suallar yaranır. Bəs siğə olunan qadınlar kimlər olub? Bir ovuc xurmaya özlərini təslim etdiyi iddia olunan bu qadınlardan niyə bəhs olunmur? Döyüşlərdə ərləri, qardaşları, yaxınları öldürülən bu qadınlar kimlər idi ki, həmin düşmənlərinə siğə olunmağa razı olublar? Niyə siğə

259 Saffet Köse, "İslam Hukukunda Kanuna Karşı Hiyle", səh. 361.

haqqındakı rəvayətlər əsasən kişilər tərəfindən nəql edilib? Niyə ancaq kişilər nə qədər xurmanın, unun qarşılığında siğə etdiklərini deyirlər, amma bir qadın qalxıb demir ki, mən bu qədər xurma əvəzində və ya geyim qarşılığında filan səhabə ilə siğə olunmağa razılıq verdim? Bu siğə olunan qadınlar hansı ailələrə mənsub idilər? İcazə verildiyi iddia olunan ərəfələrdə siğə edən səhabələrin uşaqları oldumu? Sonrakı dövrlərdə siğədən dünyaya gələn uşaqlarla əlaqəli bircə dənə də olsa məlumat varmı?

Peyğəmbərin dövründə bir ovuc xurma və un qarşılığında siğə etdiklərini iddia edənlər bununla nə demək istəyirlər - siğə olunanların una və xurmaya möhtac olmalarından istifadə etdiklərini, imkansızlıqdan bəzi qadınların buna məcbur olduqlarını, yoxsa siğə üçün mütləq nələrinsə verilməli olduğunu? Geyim əvəzində siğə etdiyini iddia edənlər səfərə çıxdıqları vaxt siğə edəcəklərini nəzərə alaraq özləri ilə geyim gəzdirdiklərini, yoxsa siğə olunan qadınların geyimlərinin olmamalarını? Maraqlıdır, siğə etdiyini iddia edənlər siğə olunacaq qadınları necə müəyyənləşdirirdilər? Həmin qadınları necə tapır və ya tanıyırdılar? Bunun üçün hansısa bir qayda, üsul var idimi? Siğə olunan qadınlar daha sonra başqaları ilə də siğə edirdilərmi? Sizi bu suallarla baş-başa buraxıb evliliklə əlaqəli ayələrə nəzər yetirək.

## Evliliklə əlaqəli ayələr

Quranda nikahın daimiliyi əsas alınır. Çünki yalnız daimi nikahda ailə olmaq mümkündür. Ailə fərdlərin birgəliyindən meydana gələn, tərəflərin bir-biriləriylə rahatlıq tapdıqları isti yuvadır. Sevgiylə, məhəbbətlə, təskinlik tapmaq və rahat olmaq üçün qurulan[260] ailələr cəmiyyətin kiçik modelidir. İnsanlar Allahdan gözlərinin aydınlığı olacaq həyat yoldaşı

260 "Əraf" surəsi, 7/189; Rum surəsi, 30/21.

və övladlar bəxş etməsini istəməyə sövq edilirlər.[261] Nikahın məqsədlərindən biri nəslin davam etdirilməsi, övlada sahib olmaqdır.[262] Övlad isə ailələri, nəsilləri bir-birinə bağlayan əsas ünsürlərdən biridir. Ailə valideyn həmişə övladı üçün,[263] uşaqların isə valideyni üçün[264] dua etdiyi, hətta bunu hər namazda təkrarladığı daimi münasibətin, mələklərin kişi və qadını sevinc içində qarşıladığı mərasimlə cənnətə girdikləri[265] prosesin ifadəsidir. Halbuki siğədə nə siğə edən kişi, nə də siğə edilən qadın övlad istəyir, bunun üçün dua edir. Siğədə birgəyaşayış da yoxdur.[266] Siğə müəyyən otel otağı və ya avtomobil kirayə götürmək kimi qəbul edilir.[267]

Klassik fəqihlər siğədəki qadın üçün "mustəcərə" (kirayə götürülən qadın) sözünü işlətdikləri halda,[268] siğənin halallığını iddia edən müasir müsəlman hüquqşünaslar tərəfindən siğə "əzzəvacul-muvaqqat" adı altında nikah növü kimi ifadə edilir. Bunun əsas səbəbi beyinlərdə yaranan mənfi assosiasiyaların qarşısını almaqdır. Halbuki "zövc" sözü lüğətdə ayaqqabı, tərlik və məst kimi geyimlərin bir tayı mənasına gəlir.[269] Kişi və qadın üçün işlədilən "zəvcan" ("zəvceyn") ifadəsi də bir cüt mənasına gəlir.

---

261 "Furqan" surəsi, 25/74.
262 "Əraf" surəsi, 7/189; "Rəd" surəsi, 13/38; "Nəhl" surəsi, 16/72.
263 "Bəqərə" surəsi,2/128-129; "Ali İmran" surəsi, 3/38; "Əraf" surəsi, 7/189; "İbrahim" surəsi, 14/40; "Furqan" surəsi, 25/74; "Əhqaf" surəsi, 46/15.
264 "İsra" surəsi, 17/24.
265 "Rəd" surəsi, 13/23-24; "Yasin" surəsi,36/56; "Mumin" surəsi, 40/8; "Zuxruf" surəsi,43/70.
266 Ayətullahuluzma Məhəmməd Fazil Lənkərani,"Tovzihul-məsail Risaləsi: Şəriət Hökmlərinin İzahı", (azərb. tərcümə, M. Əlizadə), Qum 1385/2006, s. 257.
267 Şəhla Haira, "Muta: ez-Zevacul-muaqqat indeş-Şia, haletuİran 1978-1982 (trc. Fâdî Hammûd, orijinal ismi: The Law of Desire: Temporary Marriage in Shi-i Iran), Beyrut 1995, səh. 93, 107, 224.
268 Məsələn, bax. Kuleyni, V. 451, 452; Hürr əl-Amili, XIV, 446-449.
269 "əl-Müfrədat", "z.v.c" md.

Evliliyə ontoloji prizmadan yanaşanda qadın və kişi deyil, yoldaş qavramının əsas götürüldüyünün şahidi oluruq. Buna görə də Quran ailə həyatına müvəqqəti olaraq deyil, əksinə ünsiyyət qurulan[270] davamedici ittifaq olaraq yanaşır.

Qurandakı nikaha baxdığımız zaman tənzimləmələrdəki ortaq məqsədin və prinsiplərdən birinin nəslin qorunması olduğu, evlilik əqdi ilə qan əlaqəsilə yanaşı, qohumluq əlaqəsi də yaratmağın qarşıya məqsəd qoyulduğunun[271] şahidi oluruq. Nikahda ülvi məqsəd üçün nəzarət altına alınan şəhvət hissi qurulacaq ailədə yalnız müəyyən vasitələrdən biri olduğu halda, siğədə vəhşi şəhvətin hegemonluğu və onun qane edilməsi mühüm məqsəddir. Siğədə qadın kirayə obyekti kimidir. Sizcə, bunun Quranın tövsiyə etdiyi ailə modelilə hansısa uyğunluğu varmı?

İslamda ailə həyatı qurmağın əsas məqsədi təkcə ehtirasın söndürülməsi deyil, əsl məqsəd intim münasibətin də olduğu hüzurlu ailə şəraitinə qovuşmaqdır. Evliliyi ancaq intim münasibətlə əlaqələndirmək şəhvani düşüncələrin nəticəsidir. Quran ayələrinə nəzər yetirəndə də şahidi oluruq ki, qurulacaq ailənin məqsədlərindən biri də nəslin qorunması və qohumluq əlaqələrinin yaranmasıdır.[272] Uca Allah belə buyurur: “Bir-birinizlə sakitlik tapasınız deyə, öz cinsinizdən həyat yoldaşları yaratması, aranızda sevgi və mərhəməti meydana gətirməsi də Allahın əlamətlərindəndir. Bunda da düşünən dəstə üçün alınacaq dərs vardır”.[273]

İslam dini təkcə zina etməməyi deyil, qeyri-rəsmi intim münasibət olan zinaya hətta yaxınlaşmamağı əmr edir.[274] Quran həm qadına, həm də kişiyə “gizli dost” tutmamağı əmr

---

270 “Əraf” surəsi,7/189; “Rum” surəsi, 30/21.
271 “Furqan” surəsi, 25/54.
272 “Furqan” surəsi, 25/54.
273 “Rum” surəsi, 30/21.
274 “İsra” surəsi, 17/32.

etdiyi halda,[275] şahidlərin olmadığı bir evliliyi necə qəbul edə bilər? Evlilik nəticəsində qohumluq əlaqələri formalaşdığı, mehr, nəfəqə (aliment), iddət və miras kimi haqlar yarandığı halda siğədə bunlardan söhbət belə getmir.

Siğəyə Muhəmməd peyğəmbərin dövründə bir müddət icazə verildiyini, sonra qadağan edildiyini bildirənlərlə siğənin etibarlılıq müddətinin qiyamətə kimi davam etdiyinə inananların iddiaları əsassızdır. Siğəni iddiaların əksinə olaraq nə Peyğəmbər qadağan edib, nə buna icazə verib, nə də ikinci xəlifə Ömər yasaqlayıb. Bunu birdəfəlik haram edən Uca Allahdır.

İslamdan əvvəlki dövrün müəyyən adəti olan bu davranışın cəmiyyətdə bir müddət də davam etdiyini, lakin əxlaqsız qadınla birgə olmağı və zinanı qadağan edən, evlilik və ailə hüququnu nizamlayan ayələrin gəlməsiylə buna son qoyulduğunu bilməliyik. Çünki Uca Allah hələ Məkkədə nazil olan ayələrində belə buyurur (ayəni dilimizdəki tərcümələrdən qeyd edirik): **"O kəslər ki, ayıb yerlərini (zinadan) qoruyub saxlayarlar; ancaq zövcələri və hakimiyyəti altındakı əsirlər (cariyələr) istisna olmaqla. Onlar qınanmazlar. Bundan artığını istəyənlər həddi aşanlardır"** ***("Muminun" surəsi, 23/5-7; "Məaric" surəsi, 70/29-31).*** Bu ayələrdə müəyyən edilən iki yol xaricində olan axtarışların cizgi xaricinə çıxmaq mənasına gələcəyi, həddi aşmaq olacağı və bunun da qınanmağa səbəb olacağı bildirilir. Qeyd olunan ayələr qadınlardan faydalanmağın ancaq iki yolu olduğunu bildirir: ya mövcud olan həyat yoldaşın, ya da nikahlayıb ala biləcəyin cariyən. Bunların xaricində olanların həddi aşmaq olduğu bildirilir. Əgər siğə doğru və halal olsaydı, nə günaha düşmək qorxusu olardı, nə də cariyələri nikahlamağa ehtiyac yaranardı.

Bundan başqa, Uca Allah "siğə ayəsi" kimi təqdim edilən

275 "Nisa" surəsi, 4/24-25; "Maidə" surəsi, 5/5.

“Nisa” surəsinin 24-cü ayəsindən sonrakı 25-ci ayədə belə buyurur: **“Aranızdan namuslu və azad qadınlarla evlənməyə maddi imkanı olmayanlar hakimiyyətiniz altında olan mömin əsir qızlardan alsınlar”** ***(“Nisa” surəsi, 4/25).*** Ayələrdə namuslu qadınlarla evlənməkdən bəhs edildiyi halda, həmişə siğə bağlamağa vərdiş edən və yaşayışını bu yolla təmin edən qadının namuslu qalması mümkündürmü? Və ya siğə olunan qadınlara “namuslu” olaraq yanaşılırmı? Araşdırmalar daha çox maddi vəziyyəti pis və təhsil səviyyəsi aşağı olan qadınların bu yola üz tutduqlarını göstərir.

Siğə deyildiyi kimi halal olsaydı, qeyd etdiyimiz ayədə evlənməyə gücü çatmayanlara sadə və asan olan siğəyə müraciət etmələri tövsiyə edilər, əlləri altındakı cariyələrlə evlənmək məsləhət bilinməzdi. Cariyələrlə evlənməyin maddi olaraq asanlığı onlarla ailə həyatı qurduqda mehr verməyə ehtiyacın olmamasıdır. Çünki cariyə ilə evlilik onların dərhal azad olmasına səbəb olur. Həmin cariyələr də azad olmaq üçün ya müəyyən vəsait ödəməli, ya da ərə getdiyi kişiyə müəyyən mehr verməli idilər. Onlarla ailə həyatı qurmaq üçün əlavə mehrə ehtiyac olmadığı üçün azad qadınlarla evlənməkdən daha asan yol olaraq bu tövsiyə edilir.

İslamda siğəni zinadan və nikahsız yaşamaqdan fərqləndirən, ailə anlayışına xələl gətirməkdən qoruyan xüsusiyyət varmı? Nikahın ən mühüm funksiyası insanın ən zəif nöqtəsi olan şəhvət hissinə nəzarət etməsi, namusunu qorumasıdır. Nikah ayələrdə namuslu qadınlarla həyata keçirilməsi tövsiyə edilən proses olduğu halda, dəfələrlə siğə edən kişi və dəfələrlə siğə edilən qadın necə namuslu ola bilər? Siğə əxlaqsızlıq sektoru yaratmazmı?

## Nəticə

Evlənmək və boşanmaqla bağlı intizamlı olan bir din mahiyyət etibarı ilə hədsiz sərbəstlik ifadə edən və müvəqqəti birgəyaşayış olan siğəyə necə icazə verə bilər? Bir qadının müəyyən müddətlərdə onu istəyən hər kişiyə özünü müəyyən məbləğ qarşılığında və müəyyən vaxt ərzində təslim etməsi hansı təmiz yaradılışa uyğun gəlir? Bu gün müəyyən məbləğ qarşılığında qadınla qısa müddət birlikdə olmaqla siğə adı altında müəyyən məbləğ qarşılığında müəyyən müddətə birlikdə olmaq arasında nə fərq var?

Belə qadınların cəmiyyətin ortaq malı olmasından başqa hansı xüsusiyyəti ola bilər? Hələ də siğəyə icazə verilən bəzi yerlərdə bir tərəfdən qadının yad kişilərin yanında baş örtüyü olmadan gəzməsi dövlət əliylə qadağan edildiyi halda, digər tərəfdən ildə bəlkə də bir çox kişiylə birlikdə olan qadından namus, əxlaq, sadiqlik, analıq, sağlam ailə və uşaq tərbiyəsi gözləmək ziddiyət deyilmi?

Siğənin halal olduğunu iddia edənlərin iddiasının etibarsız olduğunu Qurandan öyrəndik. “Siğə ayəsi” kimi təqdim olunan ayənin deyilən mövzu ilə heç bir əlaqəsinin olmadığı, əksinə, birbaşa nikahı ehtiva etdiyinə şahid olduq. Quranda siğəyə icazə verən heç bir ayə yoxdur, əksinə, siğənin Quran ayələri tərəfindən ləğv edildiyini dəlilləri ilə öyrəndik. Çünki İslama görə nikah daimidir, əsasdır, boşanma isə istisnadır. Nikahın əsaslarından biri aşkar olması və elandırsa, siğədə həmişə gizlilik əsas olub. Gizli şəkildə həyata keçirilməsinin əsas səbəbi siğənin kişini və xüsusən qadını alçaldıcı xüsusiyyətə malik olması, ailəsini cəmiyyət qarşısında utanılacaq vəziyyətə salmasıdır. Mövcud ailə üçün gözlənilən təhlükə və ya qurulacaq ailə həyatının qarşısındakı maneədir.

Siğənin halal olduğunu iddia edənlər onu kişilərin əxlaqsızlıq etməməsi üçün müsbət yol olaraq Allahın qoyduğu qanun kimi təsəvvür edirlər. Bununla onlar İslamın yalnız ki-

şilər üçün gətirilən bir din olmadığını, İslamın hamının dini olduğu həqiqətini unudurlar və ya qulaqardına vururlar.

"Müvəqqəti nikah" olaraq adlandırılan siğə kişilərə xoş olsa da onların bunu öz qızları üçün istəməmələri siğənin insanların vicdanlarını yaralayan icraat olduğunu göstərir. Görəsən, belə "nikaha" icazə verənlər bunu öz qızları, bacıları və ya qohumları üçün də rəva görürlərmi? Nəinki icazə vermək, bu cür təklifi və ya sualı eşitmək onları özlərindən çıxarmırmı? Öz qızları və digər yaxınları üçün siğəyə razı olmayanlar, bunu öz ailə və nəsillərinin şərəfinə zidd hesab etdiklərinə görə həyata keçirə bilməyənlər məsələyə başqaları üçün də niyə eyni prizmadan baxmırlar? Elə isə heç kim özü üçün istəmədiyi bir şeyi digər qardaşlarına rəva görməməlidir.[276] Bu vəziyyət heç cür İslam ailəsi və İslamın yetişdirmək istədiyi kişi və qadın anlayışıyla uyğunlaşdırıla bilməz. Bu təfəkkürə görə qadın müəyyən cinsi obyekt, kişi isə şəhvət düşkünü olmaqdan başqa hər hansı bir məna ifadə etmir.

Bütün bunlardan sonra deyə bilərik ki, siğə işğalçılıq və qarətçiliyin hakim olduğu, ədalətin güclünün iki dodağının arasında olduğu, qadının alçaldılaraq əşya kimi əldən-ələ keçdiyi, bəzi qəbilələrdə qız uşaqlarının canlı olaraq torpağa basdırıldığı, qul, kəniz, cariyə mədəniyyətsizliyinin hakim olduğu cəmiyyətlərin adət-ənənəsinin məhsulu idi. Siğə İslamdakı ailə modelinə ləkədir və Allah tərəfindən qəti olaraq haram buyurulan, adı dəyişdirilmiş zinadır.

---

276 Bax., Musa əl-Musəvi, "əş-Şia vat-tashih: əs-Sıra beynəş-Şia vat-təşəyyu", U.S.A., 1408/1988, s. 108-113; bu bölümün tam tərcüməsi üçün bax. "Müvəqqəti Nikah/Muta…" (tərc. Doğan Kaplan), S.Ü. İlahiyat Fakültesi Dergisi, sy. 15, Konya 2003, s. 273-279.

# İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. Qurani-Kərim. Tərcümə Məmmədəliyev, Vasim. Bünyadov, Ziya. Bakı, Olimp konserni, 2000.

2. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Tərcümə Məmmədəliyev, Vasim. Bünyadov, Ziya. 17-ci nəşri, Bakı, Nurlar, 2015.

3. Qurani-Kərim. Qasımoğlu, Nəriman. Bakı, “Azərbaycan” nəşriyyatı, 1993.

4. Qurani-Kərim və Azərbaycan dilinə mənaca tərcüməsi. Musayev, Əlixan. 2-ci nəşri, Bakı, “Şərq-Qərb” mətbəəsi, 2008.

5. Qurani-Kərim və Azərbaycan türkcəsilə tərcüməsi. Tərcümə, İsmayılzadə, Rəsul, Duzal. İran İslam Cümhuriyyəti, Qum, “Qurani-Kərimin bütün dillərə tərcümə mərkəzi” 2000.

6. Qurani-Kərimin Azərbaycan dilinə tərcümə və şərhi /ərəb. tərcümə və şərh. müəllif, Ayətullah Mirzə Əli Meşkini Ərdəbili; Azərbərbaycan dilində, tərc. A. Mehdiyev, D. Cəfərli; Bakı: Nurlar, 2009.

7. Qurani-Kərim Azərbaycan dilinə tərcüməsi ilə. Tərcümə, Qənioğlu, Məmmədhəsən və Bilal oğlu, Tariyel. Bakı: Göytürk, 2000.

8. Hayat Kitabı Kur’an, Gerekçeli meal-tefsir, İslamoğlu, Mustafa. Türkiyə, İstanbul: Düşün yayıncılık, 2017.

9. Müqəddəs Kitab, Əhdi-Ətiq, Tövrat, Zəbur və Peyğəmbərlərin kitabları, Kitab şirkəti, 2004.

10. İzahlı Müqəddəs Kitab, İstanbul: Müqəddəs Kitab şirkəti, 2014.

11. İncil, Əhdi-Cədid. Tərcümə, Xəzər (Mixaeli), Mirzə Belarusiya, Minsk: Bibliya tərcümə institutu, 1995.

12. Abdulbaqi, Muhəmməd Fuad. əl-Mucəmul Mufəhrəs li-əlfazil-Quranul-Kərim, İran, Tehran: İntişarat İslami, 1374.

13. Abdulbaqi, Muhəmməd Fuad. əl-Lulu vəl Mərcan. Livan, Beyrut: Daru ihyait turasil arabi, 1986.

14. Acluni, Əbul Fida İsmail b. Muhəmməd b. Abdilhadi əl-Cərrahi əl-Acluni (v. 1749), Kəşful Xafa, Qahirə, 1352, I-II, 1964.

15. Ali Erbaş, TDV İslam Ansiklopedisi, melek maddəsi, XXIX, 2004.

16. Azərbaycan dilinin izahlı lüğəti, 4 cild, Bakı, 2006. Şərq-Qərb mətbəəsi, heyət.

17. A. Jeffery, The Foreign Vocabulary of the Qur'ān, Baroda 1938.

18. əl-Bəlazuri, Əbul Həsən Əhməd, b. Yəhya b. Cabir b. Davud əl-Bəlazuri (vəfatı 893), "Ənsabul-Əşraf", thq. Suheyl Zəkkar, Riyad əz-Zərkəli, I-XIII, Beyrut 1417/1996, I, 455.

19. Buxari, Əbu Abdillah Muhəmməd b. İsmail. Sahihul-Buxari. İstanbul, Çağrı nəşriyyatı, 1992.

20. Buxari, Əbu Abdillah Muhəmməd b. İsmail. əl-Camius Səhih. İstanbul - 1315.

21. Beyhaqi, Əbu Bəkr Əhməd b. Huseyn b. Əli əl-Beyhaqi (v. 1066), "əl-Bas vən-nuşur", Beyrut 1408/1988.

22. Bəğavi, Əbu Muhəmməd Muhyissunnə Huseyn b. Məsud (v. 1122). Məalimut-Tənzil, Darul Kutubil İlmiyyə, Beyrut, 2016.

23. Caetani, Leone. İslam Tarihi, 2 cild, İstanbul, Tanin Matbaası, 1924. Tərcümə, Cahid, Hüseyn.

24. Cannon, Walter (1942), "Voodoo death" American antropologist, 44.

25. Daraqutni, Əbul Həsən Əli b. Ömər b. Əhməd əd-Daraqutni (v. 995), əs-Sünen, Beyrut 1966.

26. Dein, Simon (2003). Psychogenic death: individual effects of sorcery and taboo violation.

27. J. Dan, “Magic”, EJd., XI.

28. Ethem Ruhi Fığlalı, “Ali” maddəsi, TDV İslam Ansiklopedisi, II, səh. 371.

29. Əbu Davud, Suleyman b. Əşas əs-Sicistani, əs-Sunən, İstanbul, 1992.

30. Əhməd b. Hənbəl. Musnəd. İstanbul: Çağrı Yayınları, 1992.

31. Əbdurrəhman Cəlaluddin Suyuti, “əl-Xasaisul-Kubra” (Kifayətut Talibul Ləbib fi Xasaisil-Habib), Darul-Qələm, Beyrut, 1320, 1/61.

32. Əbu Zəkəriyyə Yəhya bin Səllam bin Əbu Saləbəət-Teymi, “ət-Təfsir”, I-II, Beyrut 1425/2004, II, 730.

33. Əbdurrəzzaq əs-Sənani, “əl-Musannəf”, thq., Habibur Rəhman əl-Əzami, I-XI, Beyrut hicri 1403, VII, 488-489.

34. Əbdurrəzzaq bin Həmmam bin Nafi (ö.211/827) əs-Sənani, “ət-Təfisr”, thq., I-III, Beyrut,hicri 1419, III, 39.

35. Əbu Nuaym əl-İsfahani, Sıfatul cənnə (nşr. Əli Rza Abdullah), Dəməşq 1988, III.

36. əl-Fərra, Yəhya b. Ziyad əl-Fərra, Məanil Quran, Darul Kutubil İlmiyyə, Beyrut 2002.

37. Xoyi, Əbülqasim əl-Musəvi, “əl-Bəyan fi Təfsiril Quran”, Beyrut, 1974.

38. İbn Mənzur, Əbul Fazl Cəmaluddin, Lisanul Ərəb, Beyrut 1990.

39. İbn Səd, Əbu Abdillah Muhəmməd b. Səd (v. 845), “ət-Tabaqatul-Kubra, thq. Əli Muhəmməd Ömər, Qahirə 1421/2001

40. İbn Hişam, Əbu Muhəmməd Cəmaluddin Abdulməlik b. Hişam b. Əyyub əl-Himyeri əl-Məafiri əl-Basri əl-Mısri (v.829), “əs-Siretun-Nəbəviyyə, thq. Mustafa əs-Saqqa, I-II, Darul kitabil arabi, Beyrut 1990.

41. İbn Faris, Əbul Huseyn Əhməd b. Faris b. Zəkəriyya İbn Faris əl-Luğavi. Mucəmul Məqayis fil-Luğa. Darul fikr, Beyrut 2012.

42. İbn Qayyim əl-Cəvziyyə, Hadil ərvah, (nşr. Yusuf Əli Budeyvi - Muhyiddin Mustu), Beyrut 1411/1991.

43. İbn Həcər əl-Əsqalani, Əbul-Fazl Şihabuddin Əhməd b. Əli (v. 1449), Fəthul-Bari, Beyrut, tarixsiz, Darul-Fikr.

44. İbn İshaq, Əbu Abdullah Muhəmməd. İshaq b. Yəsar b. Xıyar əl-Muttalibi əl-Qureşi əl-Mədəni, Sirətun Nəbəviyyə, Siyəri İbn İshaq, İstanbul-2009

45. İmam Əbul-Həsən Əli bin Əhməd əl-Vahidi, "Əsbabı Nüzul", İhtar Yayıncılık, 399-400; Əbul Həsən Nisaburi, "Əsbabun-Nuzul", 310.

46. İbn Babeveyh əl-Qummi, Əbu Cəfər Muhəmməd b. Əli b. əl-Huseyn b. Musa, Şeyx Saduq (v. 991), Mən lə yahduruhul faqih, (nşr. M. Cəfər Şəmsuddin), Beyrut 1411.

47. İslam Ansiklopedisi, muta maddəsi, VIII/848, İstanbul 1993.

48. İbn Həbib, Əbu Cəfər Muhəmməd b. Həbib b. Uməyyəəl-Bağdadi (v. 760), "əl-Muhabbar", thq. Ilse Lichtenstadter, Beyrut, 94.

49. İbni Kəsir, "Təfsir", 1/235-236, Beyrut; Yusuf Kardavi, İslam Hukuku Teori- Pratik, 58, tərcümə edən, M. Nuri Doğan, Bir Yayıncılık, İstanbul, 1983.

50. İmam Malik, Əbu Abdillah Malik b. Ənəs b. Malik b. Əbi Amir əl-Əsbahi əl-Yəməni (v. 795). əl-Muvatta. Darul Hədis, 2001.

51. Kenan Has, "Mezdekiyye", DİA, XXIX, Ankara 2004, s. 523

52. Lənkərani, Məhəmməd Fazil,"Tovzihul-məsail Risaləsi: Şəriət Hökmlərinin İzahı", (azərb. tərcümə, M. Əlizadə), Qum 1385/2006, s. 257.

53. Larsen, Klaus (september 2013). "Get rich quick or save the world". Skeptic report.

54. Məclisi, Muhəmməd Baqir b. Muhamməd Taqi b. Maqsud Ali əl-Məclisi (v. 1699), Miratul Uqul fi şərhi axbari alir-Rəsul, İran, Tehran, 1989.

55. Muslim, Əbul Huseyin Muslim b. Həccac, əl-Câmi-us-Səhih, İstanbul, 1992.

56. Mustafa Fayda, TDV İslam Ansiklopedisi, "Aişe" maddəsi, II, səh. 201-202.

57. M. Yaşar kandemir, TDV İslam Ansiklopedisi, "Fatıma" Maddəsi, XII, səh. 219-233.

58. Mauss, Marcel (1972) A General Theory of Magic. New York: Norton library.

59. Musa əl-Musəvi, "əş-Şia vat-tashih: əs-Sıra bey-nəş-Şia vat-təşəyyu", U.S.A., 1408/1988, s.108-113.

60. Mauss, Marcel (1972) A General Theory of Magic. New York: Norton library.

61. Nəsai, Əbu Əbdurrəhman Əhməd b. Şueyb, əs-Sunən, İstanbul, 1992.

62. Nəvəvi, Əbu Zəkəriyya Yəhya b. Şərəf b. Muri ən-Nəvəvi (v. 1277), "Riyazus salihin", tərcümə,

63. Nisaburi, Ebu Abdillah Muhammed b. Abdillah Hakim en-Nisaburi, əl-Mustədrək aləs Səhiheyn, Dar Kutubul Alemiyye, Beyrut trs., III/321.

64. Nasıruddin əl-Əlbani, Silsilətul əhadisiz zaifə vəl məvzua, Beyrut 1398/1977, I.

65. Kandemir, Yaşar. Çakan, İsmail. Küçük, Raşit. Peygamberimizden Hayat Ölçüleri, I-VIII cild, İstanbul, 1998.

66. Katolik Kilisesi Din Ve Ahlak İlkeleri, Tərc., Dominik Pamir, İstanbul, 2000

67. Kuleyni, Əbu Cəfər Muhəmməd b. Yəqub b. İshaq ər-Razi (v. 941), əl-Kafi (nşr. M. Cəfər Şemsuddin), Beyrut 143/1992.

68. Səhih əl-Buxari, müxtəsər. Tərtib, əz-Zəbidi, Zeynuddin Əhməd ibn Əhməd ibn Abdul-Lətif. 1-ci nəşr, tərcümə, Musayev, Əlixan. Bakı: 2009.

69. Sahihi Buhari, Muhtasarı Tecridi Sarih. əz-Zebidi. Tərcümə, Feyzi Kocaer, Abdullah. Hüner yayınları, 2-ci nəşri, İstanbul: 2003.

70. Səraxsi, Əbubəkr Şəmsül-əimmə Muhəmməd b. Əbi Sehl Əhməd əl-Səraxsi (v. 1090), "əl-Məbsut", Qahirə, 1324-1331.

71. Süleyman Nedvi, "İslam tarihi: Asrı saadet" (terc. Ömer Rıza Doğrul), İstanbul, V, 12-25; Akkad "əs-Sıddıqa bintus Sıddıq", Qahirə, 1963, səh. 39, 59-60.

72. Suyuti, *Budurus Safira an umuril axira, Beyrut, 1411/1991.*

73. Saffet Köse, "İslam hüququnun inkişafında Həzrət Əlinin rolu: Bəzi ictihad və tətbiqatların təhlili", Həzrət Əlinin həyatı və şəxsiyyətinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı 2001, s. 225-233.

74. Saffet Köse, "İslam Hukukunda Kanuna Karşı Hiyle", İstanbul 1996.

75. əs-Səmərqəndi, Əbul Leys, İmamul huda Nəsr b. Muhəmməd b. Əhməd b. İbrahim əs-Səmərqəndi (v. 983), Təfsiru Əbil Leys, Özgü yayınları, 2008.

76. Şeybani, Əbu Abdillah Muhamməd bin əl-Həsən bin Fərkad əş-Şeybani (v. 805), "əl-Asl" və ya "əl-Məbsut" I-V, Beyrut 1410/1990).

77. Şamil İslam Ansiklopedisi (6 Cilt), Şamil yayınevi, 1998. İstanbul. Yunus Emre Özulu, Şamil İslam Ansiklopedisi, "Aişə" maddəsi.

78. Şəhla Haira, "Muta: əz-Zəvacul-muaqqat indəş-Şiə, haletu İran 1978-1982 (trc. Fadi Hammud, əsl adı: The Law of Desire: Temporary Marriage in Shi-i Iran), Beyrut 1995.

79. Şeyh Müfîd (ö. 413/1022), Xulasatul-İcâz, Thq. Əli Əkbər Zəmani Nəcad, 2-ci nəşri, 1414.

80. Şeyx Müfid, Risalətul Muta (Məclisi, Biharul Ənvarın 100-cü cildi, Şeyx Müfidə nisbət edib).

81. Şəvkani, Əbu Abdullah Muhəmməd b. Əli b. Muhəmməd əl-Həvlani Şəvkani. Nəylul Əvtar. Daru İbn Affan, Qahirə, 2008.

82. Tabəri, Əbu Cəfər Muhəmməd b. Cərir b. Yəzid əl-Amuli ət-Tabəri əl-Bağdadi (v. 923), Tarixut -Taberi, Beyrut 1967.

83. Tabəri, Əbu Cəfər Muhəmməd b. Cərir b. Yəzid əl-Amuli ət-Tabəri əl-Bağdadi (v. 923), "əl-Muntehab min Zeylil-Müzeyyel", Beyrut, I, 104;

84. ət-Təbəri, Əbu Cəfər Muhəmməd b. Cərir, "Camiul-Bəyan an Təvili ayil Quran", nşr.: Darul Fikr, Beyrut, 1983.

85. Tabərani, Əbul Qasım Suleyman b. Əhməd b. Əyyub ət-Tabərani (ö. 971), "əl-Mucəmul-Kəbir ət-Tabərani, thq.Həmdi b. Abdulməcid əs-Sələfi, I-XXV, Qahirə, VI, 85, XXII, 445-447.

86. Tirmizi, Əbu İsa Muhəmməd b. İsa, Sunən, Darul-fikir, Beyrut, 2005.

87. Tusi, Əbu Cəfər Muhəmməd b. əl-Həsən (v. 1068). Təhzibul əhkam (nşr. M. Cavad əl-Faqih-Yusuf əl-Biqai), Beyrut 1413/1992.

88. Tusi, Əbu Cəfər Muhəmməd b. əl-Həsən (v. 1068). əl-İstibsar (nşr. M. Cəfər Şəmsuddin), Beyrut 1414/1994.

89. Qadı İyad, Əbul Fadl əl-Yahsubi Qadı Iyad, "əş-Şifa bi Tarifi Huquql Mustafa", Darul Fikr, Beyrut, 1409/1988, 1/69.

90. Qurtubi, Əbu Abdillah Muhəmməd b. Əhməd, əl-Cami li-əhkamil Quran, Qahirə, 1967.

91. Oxford University Press Blog, Monthly Gleanings: April 2007.

92. Online Etymology Dictionary: Whore.

93. Öztürk, Mustafa, Tefsirde Ehli Sünnet & Şia Polemikleri, Ankara Okulu, 2009

94. Rafiq Əliyev, "Ərəbcə - Azərbaycanca lüğət", "ə-c-r" maddəsi, 2 cild. Bakı, Şərq-Qərb mətbəəsi, 2007.

95. ər-Razi, Fəxruddin b. Ömər, Məfatihul Ğayb (ət-Təfsirul Kəbir), Darul Qutubil ilmiyyə, Beyrut, 1990.

96. Yəqubi, Əbul Abbas Əhməd b. Əbi Yəqub İshqa b. Cəfər b. Vehb b. Vadıh əl-Yəqubi (v. 905) "ət-Tarix" (I-II).

*97. Yusuf Şevki Yavuz, DİA, cild XIV, səh. 50, 1996, "gılman" maddəsi.*

98. www.princeton.edu/~pear/

99. www.randi.org/site/indes.php/jref-news/1239-mdc~-changes.html